www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 sentyabr 2014-cü il Bazar ertəsi № 230 (5939) Qiymәti 40 qəpik

**Xəbər**

## Dünyanın "iPhone 6" çılğınlığı Azərbaycanı da vurdu

yazısı səh.4-də

**Gündəm**

### Azərbaycan-Türkiyə genişmiqyaslı təlimlərinin şok səbəbi



İki ölkənin ortaq "əzələ nümayişi" təkcə işğalçı Ermənistana və Qarabağ nizamlanmasını süni şəkildə uzadan qlobal güclərə xəbərdarlıq deyil, həm də...

yazısı səh.9-da

### Bakının erməni-rus quldurlarından təmizlənməsindən 96 il ötür

yazısı səh.3-də

### Bu gün yeni dərs ili başlayır

yazısı səh.14-də

### Başqanlığa namizədlərin İsa Qəmbərdən gözləntiləri

yazısı səh.6-da

### Bu kəndin bulağından su içən oxuyan olur - möcüzə...

"Yeni Müsavat" Şirvan elinin konservatoriyası adlanan ucqar dağ kəndindən yazır...

yazısı səh.13-də

### NATO sammitində erməni fitnəsi ilə bağlı ilginc məlumat

yazısı səh.10-da

### Əfsanəvi "Serafino"... İtaliyanın Milli Qəhrəmanı Tahir İsayev haqda nə bilirik?

yazısı səh.12-də

### Qələm əhli Müsavat başqanı qismində kimi görür?

yazısı səh.6-da

*Ekspert:*

### "Türkiyə-ABŞ münasibətləri ciddi şəkildə zədələnib"

yazısı səh.11-də

### İŞİD daha bir əcnəbi girovu edam elədi

yazısı səh.10-da

*Ağrı Qaradağlı:*

### "Türkiyə və Azərbaycandan dəstək gözləyirik"

yazısı səh.12-də

### Ermənilər öz hökumətlərinə Allahdan ağıl diləyir

yazısı səh.8-də

## Rusiyadan müstəqilliyimizə simmetrik hədə ciddiləşir

# AZƏRBAYCANA "5-Cİ KOLON" TƏHLÜKƏSİ - TƏHLİL

Kremlin virtual işğal taktikası ölkəmiz üçün Qarabağ qədər qorxulu problemə çevrilməkdədir; Qərb "təsir agentləri"nə qarşı güclənən repressiya fonunda geniş şəbəkəyə malik rusiyayönlü "5-ci kolon"çulara toxunulmaması özündə daha ciddi neqativlər daşıyır; Moskvanın bu yöndə əsas ideoloji silahını əlindən necə almalı?..

yazısı səh.5-də



Aydın Abbasov

## Abbas Abbasovun oğlu haqda daha bir sensasion məlumat

Bakı küçələrində gecələr motosiklet sürən deputatın adı bəlli oldu; Milli Məclis üzvü Aydın Abbasov 60 min manatlıq "Harley Devidson" markalı baykla əylənir...

yazısı səh.4-də



*Mirvari Qəhrəmanlı:*

### "Heç kimin əvəzinə and içə bilmərəm..."

yazısı səh.7-də



*Orxan Qafarlı:*

### "Rusiyaya qarşı sanksiyalar Azərbaycana da təsir edəcək"

yazısı səh.10-da



*Pənah Hüseyn:*

### "Müxalifətdə yeni mərhələ başlayır"

yazısı səh.8-də

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014




# Fransa prezidentinin pasportu twitter-də

### İraq parlamenti araşdırmalara çağırdı

**Twitter-də Fransa Prezidenti Fransua Ollandın pasportunun surəti yayımlanıb. Nəticədə prezident sosial şəbəkədə gülüş hədəfinə çevrilib. Ümumiyyətlə, Fransua Olland Fransa tarixində ən qeyri-populyar lider hesab olunur. Güman edilir ki, onun pasportunun surəti İraq səfəri zamanı kənara ötürülüb.**

İraq parlamenti bu "sızma" ilə bağlı araşdırmalar aparılmasını tələb edir. Qeyd olunur ki, cümə günü Fransa prezidenti İraqda olub və yeni hökumətin formalaşmasına dəstək nümayiş etdirib. Twitter-də isə Fransua Ollandın pasportunun iki vərəqinin surəti verilib. Həmin vərəqlərdəki məlumatdan bəlli olub ki, Ollandın boyu 170 sm-dır. Onun boyu ilə bağlı ironik qeydlər twitter-də xüsusələ çox olub.

"Al-Arabiya" telekanalının məlumatına görə, İraq parlamentinin üzvü Hanan əl-Fatlavi də bu faktla bağlı araşdırma aparılmasının zəruri olduğunu bildirib. O qeyd edib ki, bu informasiyanı kənara ötürənlər həbs olunmalıdır.

❑ Elbəyi HƏSƏNLİ, Sürix

# Hava sərinləşəcək

**Bakı və Abşeron yarımadasında sentyabrın 15-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, temperaturun gecə 18-23, gündüz 26-31 dərəcə isti olacağı proqnozlaşdırılır. Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu, nisbi rütubət gecə 70-80 faiz, gündüz 50-60 faiz təşkil edəcək.**

Dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh çimərliklərində 23-24, Zağulba, Mərdəkan, Şüvəlan, Buzovna çimərliklərində 24-25, Türkan, Hövsan, Şıx, Sahil çimərliklərində 25-26 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında sentyabrın 15-də hava şəraitinin gündüz əsasən yağmursuz olacağı, gecə və axşam bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dağlıq və dağətəyi rayonlarda leysan xarakterli olacağı ehtimalı var. Qərb küləyi əsəcək, arabir güclənəcək.

Havanın temperaturunun gecə 18-23, gündüz 29-34, dağlarda gecə 10-15, gündüz 18-23 dərəcə isti olacağı gözlənilir.

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# "Qarabağ problemi çözülməyə yaxın idi"

**"ABŞ hətta atəşkəsin bərpa olunduğu anlarda belə sanksiyalar tətbiq etməklə Rusiyada qarışıqlıq yaratmaq istəyir". Bu sözləri axar.az-a açıqlamasında Şimal-Cənub Siyasi Araşdırmalar Mərkəzinin icraçı direktoru Yuliya Yakuşeva deyib.**



O, dünyadakı qeyri-stabilliyin ABŞ-ın maraqlarında olduğunu bildirib: "11 sentyabr ABŞ-ın bütün dünyada antiterror əməliyyatlarını başlaması üçün bəhanə oldu. Bu isə faktiki olaraq Vaşinqtonun Yaxın Şərq və Mərkəzi Asiyada hərbi siyasi mövcudluğunu gücləndirməsi deməkdir. Qoşunların Əfqanıstan və İraqa yeridilməsi, İrana qarşı nüvə silahı təhlükəsi yaratması bəhanəsi ilə mübarizə, Mərkəzi Asiyada hərbi bazaların yaradılması ilk baxışda regionun təhlükəsizliyi mahiyyətini daşısa da, əslində, bu bölgələrin praktiki olaraq parçalanması üçün ilkin addımlar oldu. Stabil ölkələr olmuş İraq və Liviya hazırda xaosla üz-üzədir. Regiona "ərəb baharı" dalğası ötürüldü. Eyni motivlər üzərində Ukrayna hadisələri də yaradıldı. İndi də ABŞ hətta atəşkəsin bərpa olunduğu anlarda sanksiyalar tətbiq etməklə Rusiyada qarışıqlığa nail olmağa çalışır. Düşünürəm ki, bu hadisələr yalnız bir fikrə gətirib çıxarır. Qlobal qeyri-stabilliyin baş mənfəət götürəni Amerikadır. O, məhz Rusiya və Çinin sərhədləri yaxınlığında gərginlik yaratmaqla bu ölkələrin geosiyasi və iqtisadi planda inkişafına mane olmağa çalışır. Bu müəyyən mənada cari ilin yayında həll edilməyə yaxın olan Qarabağ konfliktinə də aiddir. Məncə, Mərkəzi Asiyanın təhlükəsizliyi ilə bağlı təhlükə də artmış olacaq. 11 sentyabr hadisələrini kimin təşkil etməsindən asılı olmayaraq, bu terror aktı siyasətdə hərbi mövcudluğun tutumunun əsas faktor olmasına şərait yaratdı. Estoniyada NATO hərbi bazalarının yaradılması haqqında anons da buna sübutdur".

## Sabunçunun Kamilov küçəsindən şikayət var

**Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Kamil Kamilov küçəsindən redaksiyamıza şikayət daxil olub.**

K.Kamilov küçəsi 5, 7, 9, 11 ünvanların sakinləri deyirlər ki, bir qədər əvvəl Sabunçu Rayon İcra Hakimiyyəti onların yaşadıqları binaların həyətində yenidənqurma işlərinə başlayıb: "Həyətdəki qanunsuz tikililəri, qarajları, bağları söküb, yerlərini boşaltdılar. Sakinlərə də söz verdilər ki, həyətdə yaşıllıq sahəsi salınacaq. Artıq səkiləri düzəldiblər. Sakinləri narahat edən isə həyətdəki mağazalardan birinin sökülməməsidir. Üstəlik, həmin mağazanın yanında biri də tikilir. Xahiş edirik ki, həmin mağazanın həyətdən kənar yerdə tikilməsinə icazə versinlər. Sakinlərə verdikləri vədi tutub, həyətdə yaşıllıq sahəsi salsınlar".

Məsələ ilə bağlı sabunçu Rayon İcra Hakimiyyətinin mövqeyini öyrənə bilmədik.

❑ E.HÜSEYNOV

## NATO Ukraynaya silah göndərir

**NATO ölkələri artıq Ukraynaya silah-sursat göndərir. APA-nın RSN-ə istinadən verdiyi xəbərə görə, bu barədə Ukrayna müdafiə naziri Valeriy Geletey yerli "Pyatıy kanal" telekanalına müsahibəsində bildirib.**

Qurumun rəhbəri bildirib ki, o, bu günlərdə NATO-nun Uelsdə keçirilmiş sammitində prezident Pyotr Poroşenkonu müşayiət edib. Valeriy Geletey qapalı formatda dünyanın aparıcı ölkələrinin müdafiə nazirləri ilə Ukraynaya silah tədarükü məsələsini müzakirə etdiyini qeyd edib: "Tədarük prosesi artıq başlayıb", - deyə nazir əlavə edib.

Bundan əvvəl Poroşenko da Kiyevin NATO ölkələri ilə birbaşa silah tədarükünə dair razılığa gəldiyini bəyan edib.



# Arif Hacılı 13 rayonda müsavatçılarla görüş keçirdi

### Başqanlığa namizəd: "Görüşlərə hansısa maneçiliklər törədilmədi"

**Müsavat Partiyasının başqanlığına namizəd Arif Hacılı Müsavatın rayon təşkilatlarının üzvləri ilə görüşləri davam edir. Arif Hacılının "Yeni Müsavat"a verdiyi məlumata görə, namizədliyini ötən həftə rəsmən irəli sürdükdən sonra bir sıra rayonlarda olaraq müsavatçılarla görüşlər keçirib:**

"Qobustan, Şamaxı, Qəbələ, Oğuz, Şəki, Zaqatala, Qax, Balakən rayonlarında görüşlər keçirdim. Yalnız Zaqatala və Qax rayonlarında yerli hakimiyyət strukturları bizim görüşlərimizə xüsusi maraq göstərirdilər. Amma görüşlərin keçirilməsinə hansısa maneçiliklər törədilmədi. Bu görüşlər zamanı mən öz platformamla yerli müsavatçıları tanış etdim, müsavatçıların suallarına cavab verdim. Həftənin sonunda-sentyabrın 14-də isə Cəlilabad, Biləsuvar, Masallı, Salyan və Neftçala rayonlarında müsavatçılarla görüşlər keçirdim. Bu görüşlərdə də müsavatçıları maraqlandıran suallara cavab verməklə yanaşı, Müsavat Partiyasının fəaliyyət istiqamətləri barədə öz fikirlərimi onların diqqətinə çatdırdım".

A.Hacılı vurğuladı ki, çox maraqlı bir seçki kampaniyası gedir: "Azərbaycan tarixində ilk dəfədir ki, hansısa bir partiyanın daxilində həmin partiyanın başqanlığı uğrunda partiyadaxili seçki kampaniyası keçirilir. Seçki kampaniyası vüsət almaqdadır. Düşünürəm ki, seçki kampaniyası həm Müsavat Partiyası strukturlarının fəallaşmasına, eyni zamanda Müsavat Partiyası üzvlərinin qurultayda düzgün seçim etməsinə yardım eləməklə yanaşı, həmçinin Azərbaycan cəmiyyətinə bir töhfə olacaq. Bu da bir yeniliкdir, bu da ölkədə demokratik ideyaların, azad seçki ideyasının yayılması istiqamətində atılan bir addımdır. Hesab edirəm ki, partiya üçün də, Azərbaycan cəmiyyəti üçün də bu, xeyirli və uğurlu olacaq".

❑ E.SEYİDAĞA

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



# İspaniya çadraya qadağa qoyacaq

### Yerli müsəlman icması qanun layihəsinə etiraz edir

**İspaniya pərənçəni (çadra kimi bütün üzü örtür. Qərbdə "burqa" kimi təqdim olunur-Elbəyi Həsənli) qadağan etmək fikrindədir. Bu barədə adıçəkilən ölkənin daxili işlər naziri Corc Fernandes Diasın "The Local" qəzetində bəyanatı yayılıb.**

Nazir bildirib ki, bu məsələ ilə bağlı qanun layihəsi parlamentdə müzakirəyə çıxarılacaq. Xüsən mütinqlər zamanı insanların sifətlərinin bağlamasının qanunla yasaq ediləcəyi gözlənilir: "Düşünürəm ki, pərəncə məsələsində parlamentin konsensusa gəlməsi üçün əla fürsət yaranıb".

İspaniya İslam icmasının rəhbərliyi isə bəyan edib ki, ölkədə pərənçəni qadağa etmək üçün heç bir səbəb yoxdur. Həm də pərəncəyə bürünmək İspaniyada yaşayan müsəlman xanımlar arasında o qədər də geniş yayılmayıb.

❑ Elbəyi HƏSƏNLİ, Sürix

# Moskva-Qəbələ təyyarəsi xuliqana görə Həştərxanda enməli oldu

**Moskvadan Qəbələyə uçan "A-320" sərnişin təyyarəsi Həştərxan aeroportuna enməli olub. Interfax agentliyinin məlumatına görə, buna səbəb sərnişinlərdən birinin "qeyri-adekvat davranışı" olub.**

Hadisə sentyabrın 13-də axşam baş verib. Məlumata görə, içkili vəziyyətdə olan kişi sərnişin stüardessaların işinə maneçilik törədib, onlarla qarşı kobudluq edib, uçuş zamanı gözlənilməli olan davranış qaydalarına riayət etmək tələblərini rədd edib.

Həştərxan aeroportundakı məcburi enişdən sonra polis əməkdaşları onu təyyarədən düşürüb. O, polis tərəfindən saxlanıb. Məlum olub ki, bu, əslən Azərbaycandan olan Rusiya vətəndaşıdır. İnsidentə görə təyyarə 7 saat ləngiyib.

Avqustun 26-da daha bir azərbaycanlının Dubay-Moskva reysində eyni davranışına görə təyyarə İrəvan aeroportuna məcburi eniş etmiş, ona sakitləşdirici iynə vurulduqdan sonra uçuş davam etmiş, xuliqan Moskva polisinə təhvil verilmişdi (virtualaz.org).

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Mirdemokratiya

(Bu yazımı şərlənərək həbs olunmuş hüquq müdafiəçisi, siyasi məhbus Rəsul Cəfərova ithaf edirəm)

**Dindirsən Mübariz Qurbanlı və yaxud Siyavuş Novruzov Şimali Koreyanın demokratik ölkə olmadığını təsdiqləyərlər. Amma gəlin görək orada iqtidarda olan Kim İr Sen sülaləsi heç bunu boynuna alarmı? Əgər bir britaniyalı deputat hansısa beynəlxalq tədbirdə üzünü Şimali Koreya rəhbərinə tutaraq onun ölkəsində siyasi məhbusların olduğunu, demokratiyadan əsər-əlamət görmədiyini, seçkilərin saxtalaşdırıldığını desə, o, qəzəblə bütün belə pis şeylərin ingilislərin öz ölkəsində baş verdiyini deyər. Ertəsi günü də YŞKP-nin (Yeni Şimali Koreya Partiyası) quzğunlarından olan Mü Ba Riz, Səy Av Uş və s. bunun kimi tiplər Şkaz.Tv-yə çıxıb ölkə başçısının məlun ingilisə necə layiqli cavab verməsindən danışar, ölkədə mütləq demokratiyanın olduğunu sübut etmək üçün, neçə siyasi partiyanın, qəzetin, QHT-nin və s. qeydiyyatdan keçdiyini, üstəlik də bariz praktiki nümunə kimi müxalifətçilərin də heç bir arayış-zad təqdim etmədən rahatca metrodan istifadə etdiklərini göstərərlər.**

Təxminən bizdəki kimi. YAP deyir ki, ölkənin nə qədər demokratik olmasının əsas göstəricisi kağız-kuğuzdur. Yəni qərblilər bizim demokratiyamıza şübhə edəndə gözdən pərdə asmaq üçün qanunlarımıza dürtüşdürdüyümüz bir-iki maddəni dərhal onların gözünə soxursan, olurlar kor. Bəli, demokratiya həm qətiyyətli, həm cəsarətli olmağı sevər. Əgər hansısa alman götürüb öz qəzetində Azərbaycanda sülalə rejimi olduğunu, parlamentin təyinatla formalaşdığını yazarsa girəvələyib onu Bakıya gələndə tutursan. Sonra da İŞİD qaydası ilə əl-qolu bağlı videokameranın qabağında konstitusiyamızdakı "Hakimiyyətin mənbəyi xalqdır" və yaxud da "Hamı qanun qarşısında bərabərdir" müddəalarını ucadan oxutdurursan, sonra da bıçağı boğazına çəkirsən. Vəssalam! Bununla da olursan dünyanın ən demokratik ölkəsi. Hətta İŞİD-dən də! Yeri gəlmişkən, bıçağı mənim müstəntiqim Nadir Mirzəyevə, ya da hakimim Rəşid Hüseynova vermək olar. Onların peşəkarlığına əminəm. Ancaq onların İŞİD-çi başkəsən kimi tanımamaq üçün üzlərini bağlamasına ehtiyac yoxdur. Çünki biz İŞİD-dən ötə bir demokratiya qurmaq istəyirik, nə qədər çox aşkarlıq olsa, o qədər yaxşıdır. Bircə qalır Konqo Demokratik Respublikasına çatmaq. Düzdür, bu bir qədər çətin işdir, çünki bu dövlətin birbaşa adında demokratiya sözü var, amma qəm etməyə dəyməz. Lazım gəlsə iki saata lap Monqonu (Konqonun paytaxtının adını unutmuşam, Şəki qazamatının şanlı işçiləri də evdən gələn xəritəni müsadirə ediblər, ona görə də "Monqo" yazdım) alarıq. Bununla da dünyanın ən demokratik respublikası özümüz olarıq. Qoy, Konqo ilə Şimali Koreya ikinci yer uğrunda bir-birini qırsınlar. Lazım gəlsə, onların yerini də özümüz təyin edərik.

Yeri gəlmişkən, kamera yoldaşım Şükran Fətulla oğlu Mühbəliyevin danışdığı lətifədə də adda lazımı komponentin olmasının vacibliyi vurğulanır. Mirrasim adında bir ağır çəkili seyid var imiş. Şəcərəsi və seyidliyi ilə fəxr edirmiş. Onun oğlu Mirvaqif məktəbi qurtarandan sonra bir az ortalıqda avaralanıb pul qazanmaq üçün Rusiyaya gedir. Bir-iki ilə özünə babat güzəran qura bilir. Amma bir nöqsanı da olur ki, şeytan onu yoldan çıxardıb Nadya adlı bir rus qızı ailə qurmağa məcbur edir. Atası Mirrasim bundan çox üzülür, nə qədər çalışırsa oğlunu Nadyadan ayırıb geri gətirə bilmir. Mirrasim bir gün eşidir ki, gəlini hamilədir, 2-3 günə dünyaya uşaq gətirəcək. Odur ki, Mirvaqifə zəng edib, ona dönə-dönə tapşırır ki, heç olmasa uşağa elə ad qoy ki, onun seyid nəslinə aid olduğu bilinsin, yəni uşağın adında mütləq "mir" tərkibi olmalıdır. Uşaq anadan olandan sonra Mirvaqif atasına zəng edərək, əvvəlcə onu baba olması münasibəti ilə təbrik edir, sonra da deyir ki, ateyi-mehriban, uşağına adını da sənin istəyinə uyğun qoydum: "VladiMİR"

Bax, hörmətli oxucular, "Vladimir" adının sonundakı "mir" hecası, bu adın nə qədər seyid adı olduğuna dəlalət edirsə, bizim qanunlara, kağız-kuğuzlara dürtülmüş formal demokratik müddəalar da, ölkəmizin demokratik olduğunu o qədər sübut edir.

# Bakının rus-erməni quldurlarından təmizlənməsindən 96 il ötür

## Paytaxtımızın qurtuluş günü türk şəhidliyində anılıb





**Sentyabrın 14-də "125-lər" Siyasi Klubunun təşəbbüsü ilə Bakının bolşevik-daşnak qüvvələrindən azad edilməsinin 96-cı ili anılıb. Mərasim Azərbaycan Xalq Cümhuriyyətinin çağırışı ilə Osmanlı İmperiyasının Azərbaycana göndərdiyi Qafqaz İslam Ordusu şəhidlərinin xatirəsinə Bakıda ucaldılan Türk Şəhidliyində keçirilib. Öncə mərasim iştirakçıları 20 Yanvar və Qarabağ şəhidlərinin məzarını ziyarət edib.**

Mərasimdə çıxış edən "125-lər" Siyasi Klubunun rəhbəri İlhamiyyə Rza Osmanlı Ordusunun qardaş Azərbaycana bu böyük dəstəyini türk tarixinin ən şanlı səhifələrindən biri adlandırıb: "Məmməd Əmin Rəsulzadə Bakı işğaldan azad ediləndən sonra demişdi ki, nəhayət, baş bədənə qovuşdu. 15 sentyabrın təqvimdə qırmızı rənglə qeyd edilib-edilməməsindən asılı olmayaraq bu gün hər bir Azərbaycan vətəndaşı üçün böyük bayramdır. Allah bu bayramı bizə yaşadan, Bakını bolşevik-daşnak qüvvələrindən azad edən bütün şəhidlərə rəhmət eləsin".

Anım mərasiminə qatılan Qarabağ savaşı qaziləri adından danışan Qarabağ Qazilər Birliyinin sədri Etimad Əsədov Bakının qurtuluşu üçün canından keçən türk şəhidlərinin xatirəsinin Azərbaycan türklərinin qəlbində hər zaman ayrıca yeri olacağını bildirib.





Sentyabrın 14-də Milli Şura da 15 sentyabrla bağlı Türk şəhidliyində mərasim keçirib. Milli Şuranın sədri Cəmil Həsənli və AXCP sədri Əli Kərimli Bakının işğaldan azad edilməsinin tarixindən və bu günün Azərbaycanla Türkiyə qardaşlığının simvoluna çevrilməsindən danışıb.

❑ **AYGÜN**

# "Mübarizə taktikamızı dəyişməliyik"

## Başqanlığa namizəd Səxavət Əlisoy mətbuat konfransı keçirib






**Sentyabın 14-də Müsavat Partiyası başqanlığına namizədlərdən olan Səxavət Əlisoy partiya qərargahında mətbuat konfransı keçirib. Başqan seçiləcəyi təqdirdə görəcəyi işlərdən danışan Əlisoy nizamnamədə dəyişiklik edəcəyini bildirdi:**

"Biz bu gün yenilənməliyik. Əgər dəyişməsək, yenilənməsək, ən yaxşı halda bir neçə mandat yeri uğrunda mübarizə aparan partiya olacağıq. Ancaq yenilənməklə daha güclü partiya ola bilərik. Bütün məsələlərə intellektual aspektdən baxsaq və ciddi şəkildə partiyanın yenidən güclənməsi üçün enerji sərf etsək, ciddi iddialar ortaya qoymaq iqtidarında olacaq. Bu gün başlamalıyıq ki, 2018-ci ildə 2003-cü ildəki statusumuzu bərpa edə biləк. Öncə mübarizə taktikasını dəyişməliyik. Buna görə də qurultaydan sonra partiyada ciddi islahatlar getməlidir. İlk növbədə partiyada beyin mərkəzi yaradılmalıdır. Beyin mərkəzi olmayan partiya heç vaxt hakimiyyətə gəlməyib, gələ də bilməz. Partiyada nizamnamə və proqram dəyişikliyi barədə ciddi düşünmək lazımdır. Proqram söhbətində partiyanın təməl prinsiplərindən biri türkçülük, digəri millətçilikdir. İndiki rejimin idarəçiliyində çılpaq şəkildə insanların partiya mənsubiyyətini ortaya qoyması onların həyat fəaliyyətini hətta bəzən təhlükə qarşısında qoyur. Bunun qarşısını almaq üçün Müsavatın elektoratının artması naminə tərəfdaşlıq institutunun yaradılması önəmlidir. Məclis üzlərinin sayı da ən azı 50 faiz aşağı salınmalıdır".

Çıxışçı Türkiyə təcrübəsindən də misal gətirdi: "Orada Cümhuriyyət Xalq Partiyasının üzvlərinin sayı 950 mini keçib. Deməк olar ki, 1 milyondur. Bir milyon üzvü olan partiyanın Məclis üzvlərinin sayı 60 nəfərdir. Müsavat Partiyasında 2000-ci ildə üzvlərin sayı 50 mindən yuxarı idi. İndi dəqiq rəqəmi bilmirəm. Partiyanın Məclis üzvlərinin sayı 160 civarındadır. Məclis üzvləri ilə bərabər qurultaya nümayəndəlik institutu da aşağı endirilməlidir. Müsavat Partiyasının 4 ildir qurultay keçirməməsi çox ciddi nizamnamə pozuntusudur. Buna görə də qurultay nümayəndələrinin sayının azaldılması həm partiyanın çevik işləməsinə, həm keyfiyyət baxımından müsbət təsir göstərməsinə gətirib çıxarır. Məclis üzvlərinin də azaldılması partiyanın keyfiyyət dinamikasına müsbət təsir edər. Eyni zamanda Divan üzvlərinin sayının aşağı salınması nəzərdə tutulmalıdır. Müsavat Partiyası heç kimin şəxsi mülkiyyəti deyil. Bu partiya xalqın partiyasıdır. Bu partiyada zəhməti keçənlər onun bugünki durumuna biganə qala bilməzlər. Ayrı-ayrı namizədlərin rayonların görüş keçirmələri də bunu sübut edir. Ən əsası isə odur ki, bu mübarizə Müsavatın təməl prinsiplərindən olan ləyaqətlilik prinsiplərinə söykənərək gedir. Hesab edirəm ki, sonadək də belə olacaq".

Başqanlığa namizəd Müsavatda islahatın kadrlardan başlamalı olduğunu düşünür: "20 ildir bir vəzifəni tutmuş insanlar nə qədər gənci kölgədə qoyur. Mən icazəsiz aksiyaların hakimiyyətə qeyri-adekvat, gərəksiz bir cavab olduğunu düşünürəm. Müsavat Partiyasının adından radikal sözü götürülməlidir. İntellektual Müsavat niyə radikal Müsavata çevrilməlidir? Partiyada gəncliyə söykənən yenilənmə lazımdır. İsa Qənbər bu partiya nə bacardısa, etdi. Mən əminəm ki, İsa Qənbər tərəfsizliyini sonadək qoruyub saxlayacaq. Mənim bu seçkilərdə amalım dürüstlük və obyektivlikdir".

Sonda S. Əlisoy jurnalistlərin suallarını cavablandırdı.

❑ **Günel MANAFLI**



# Sədaqət simvolu, səbat etalonu

Samir SARI

**Neçə gündür mediada YAP rəhbərlərindən deputat Siyavuş Novruzovun, içərisində qızıl xırdaladığı müsahibəsindən fraqmentlər dərc və müzakirə olunur.**

Həmin iqtibaslardan biri bu cürdür: "Amma bir misal var: Çörçill sonuncu dəfə baş nazir seçiləndə kefsiz olur. Səbəbini soruşurlar, deyir, Ruzvelt yox, Stalin yox. Kiminlə işləyim?! İndi Tural Abbaslı ilə nə işləyəsən?!"

Birincisi, ilk baxışdan elə çıxır ki, cənab Çörçill Ruzvelt və Stalinin yoxluğunda Tural Abbaslı ilə işləməyin mümkün olmadığından gileylənib. Amma abzasa ikinci dəfə nəzər yetirəndə bilirsən ki, Çörçilin adından verilmiş "Kiminlə işləyim" ritorik sualından sonrakı ritorik sual ("İndi Tural Abbaslı ilə nə işləyəsən?!") Novruzovun özünə aiddir. Yəni Novruzov vurğulamaq istəyir ki, o, indiyədək Müsavatın köhnə rəhbərləri ilə çox əla işləyirdi, amma Tural Abbaslı ilə işləyə bilməyəcək - əgər o, partiya başqanı seçilsə.

Bu sözləri oxuyandan sonra keçən il bu vaxtlar prezidentliyə namizəd Cəmil Həsənlinin S.Novruzova bir neçə xahişdən sonra "tramvay altında qalan üç" yazdığını dilə gətirməsinin səbəbi məlum olur. Heç demə, Novruzov qədim və orta əsrlər tarixi o yana dursun, ən yeni tarixi belə, yumşaq desək, zəif bilir, tarixi şəxsiyyətlərin barəsində isə çox şeyi bilmir.

Baxın, Böyük Britaniyanın 61-ci və 63-cü baş naziri Uinston Spenser Çörçill "sonuncu dəfə baş nazir seçiləndə" 1951-ci il idi və onda Franklin Delano Ruzvelt ölüb-getmişdisə də, İosif Stalin sağ idi və vəzifədəydi. Ona görə də S.Novruzov Çörçillin kefsiz olması barədə mühüm tarixi faktdan danışarkən, gərək cümləsini belə quraydı: "Baş nazir postunda olduğu axırıncı ildə Çörçill kefsiz olur". Belə desə, düz gələrdi. Çünki o zaman 1955-ci il idi və artıq Stalin də ölmüşdü, Çörçill tək qalmışdı. ABŞ-da Duayt Eyzenhauer, Fransada Rene Koti, SSRİ-də Nikita Xruşşov onun tay-tuşu deyildilər.

Hərçənd bu o qədər də böyük səhv sayılmaz. Cənab Novruzovun açıqlamalarında belə səhvlər dəryada balıq qədərdir, sadəcə dalınca düşüb tutan yoxdur.

Bununla yanaşı, Novruzovda diplomatik riyakarlıq da varmış. Bu təzə xanədəndir. Məsələn, cənab deputat deyir ki, Müsavatın halına yanır, başqan seçkilərində mühafizəkarlar qalib gəlsələr, partiyanın kitabı birdəfəlik bağlana bilər, amma islahatçılar qalib gəlsələr, bəlkə Müsavatı xilas etmək mümkün oldu...

Sanki son 20 ildə YAP-ın əsas arzularından biri də Müsavatın, o biri müxalifət partiyalarının dağılıb getməsi deyilmiş. Bir ara az qala ocaqlara, pirlərə nəzir-niyaz deyirdilər ki, Müsavat da o biri partiyalar kimi 5 yerə parçalansın. İndi Müsavatın halına yanana bax. Riyakarlığa nə gərək var. Hazırda müxalifətçilər YAP-ın dağılmasını səmimi qəlbdən arzulayırlar. Elə bir iş olsa, qurban kəsərlər.

Təbii ki, YAP-çılar da müxalifətə qarşı o cür ülvi arzular bəsləyirlər və heç də arzulamaqla qalmırlar, məqsədyönlü fəaliyyət də göstərirlər. İstəyirlər ki, ölkədə müxalifət olmasın, bunlar da qorxusuz-ürküsüz 300 il hakimiyyətdə olsunlar.

Adam Google-dən axtarış versə, Siyavuş Novruzovun, Mübariz Qurbanlının, Əli Əhmədovun, Bahar Muradovanın, Aydın Mirzəzadənin müxalifətə dair söylədiyi yüzlərlə cümlə tapa bilər. Hamısı da təxminən belə bir rezüme ilə bitir: "Ölkədə müxalifət yoxdur, fəaliyyətləri sıfıra bərabərdir".

Bu cənab ilk dəfə kamera və mikrofon gördüyü gündən bu günədək nə qədər söz danışıbsa, içində ədalətin yalnız "əda"sı olub, "lət"i olmayıb, həmişə tərsinə, daima öcəşkən danışıb.

Di gəl, müxalifət düşərgəsindəki partiyaların funksionerləri bir-birini vurmaq üçün mütləq Siyavuş Novruzov etalonundan istifadə edirlər: "Mənim Siyavuş Novruzova hörmətim var, nəinki müsavatçı filankəsə. Çünki Novruzovun mövqeyi aydındır, amma bunun..."; "Məncə, cəbhəçi filankəsdənsə Siyavuş Novruzov yaxşıdır, o, heç olmasa öz liderini satmayıb" və sair və ilaxır.

Bəli, YAP hakimiyyətdə o qədər qaldı ki, axırda həm "Talıbov modeli" əmələ gəldi, həm də Siyavuş Novruzov sədaqət simvoluna, səbat etalonuna çevrildi.

İngiltərəyə gedənlər ser Çörçillin məzarına diqqət yetirsinlər, bir tərəfi çatlamış olmalıdır...

## Bakı küçələrində gecələr motosiklet sürən deputatın adı bəlli oldu

**Bakı küçələrində gecələr peyda olan baykerlərdən biri də deputat Aydın Abbasovdur. Baykerləri adi motosiklet həvəskarlarından fərqləndirən onların "dəmir at"ı bir qayda olaraq yüksək sürətlə hərəkət etdirmələridir. Aydın Abbasovun "dəmir at"a həvəsinin nə vaxtdan olması bilinməsə də, onun facebook səhifəsində paylaşdığı fotolardan aydın olur ki, deputat gecələr bahalı "Harley-Devidson" motosikletinin sükanı arxasına keçir.**



# Abbas Abbasovun oğlu haqda daha bir sensasion məlumat

### Baş nazirin sabiq 1-ci müavininin Milli Məclisin üzvü olan övladı Aydın Abbasov 60 min manatlıq "Harley Devidson" markalı baykla əylənir...

Deputat Azərbaycan baykerlərinin təşkilatı "Baku HOG Azerbaijan"ın da (Harley Owners Group) üzvüdür. Təkilatın internet səhifəsində də Aydın Abbasovun quruma üzvlüyü haqda qeyd var. Həmin qeyddə deputatın avtobioqrafiyası yer alır: "Abbasov Aydın Abbas oğlu 1976-cı il avqustun 26-da Gəncə şəhərində anadan olub.

Londondakı Amerika kollecinin biznesi idarəetmə fakültəsini və Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Rus və ingilis dillərini bilir.

1998-2005-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici Sərmayələr İdarəsində Qazın satışı və marketinqi şöbəsinin rəisi vəzifəsində çalışıb. 2005-ci ildə 37 saylı Nizami birinci (Gəncə) seçki dairəsindən deputat seçilib. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür.

Motosiklet həvəskarıdır. 2013-cü il tarixindən Baku HOG Azerbaycanın üzvüdür".

Bu təşkilat bir qədər əvvəl Bakıdan Şəkiyə baykerlərin yürüşünü təşkil edib. Həmin yürüşə bayker deputatın qatılması haqda məlumat yoxdur. Bilinən odur ki, Abbas Abbasovun oğlu ölkədən kənarda, Çeçenstanda, Özbəkistanda motosiklet sürür. Dünyada baykerlərin - "dəmir at" üzərində həyat keçirməyi sevənlərin müxləfif təşkilatları var. Bu təşkilatların da əksərinin qaydaları, həyat tərzləri, geyimləri oxşardır. Dəridən gödəkçə və şalvar, başda qoruyucu kaska əvəzinə bandana və ya Vermaxt əsgərlərinin buynuz əlavə edilmiş kaskası, uzun bığ və saçlar baykeri adi motosikletçidən ayıran nişanələrdir. Bayk - motosiklet sevərlər əsasən 7 qaydaya riayət edirlər - rok musiqisinə qulaq asır, tərkibində spirtin faizi çox olan içkilər qəbul edir, özündən əvvələ heç bir "dəmir at"lını buraxmır, heç bir halda polisə təslim olmur, "dəmir at"ın daim ideal vəziyyətdə olmasına nəzarət edir, siyasətə qarışmır və həmişə bayker olaraq qalır. Baykerlər ötən əsrin 50-ci illərində ABŞ-da ilk təşkilatlarını yaradıblar. 20 il sonra Avropada da "dəmir at"lıların təşkilatları yaranıb və 80-ci illərdə keçmiş Sovetlər Birliyində baykerlər rokkerlər adı ilə yayılmağa başlayıblar.



Aydın Abbasovun baykerlərin qaydalarına nə dərəcədə riayət etməsi bizə məlum deyil. Bir qədər əvvəl Bakı Beynəlxalq "Motor Şou"sərgisində ən bahalı və ən ucuz motosikllər nümayiş etdirilmişdi. Sərgidə Çində istehsal olunan "Zontes" motosikletlərinin qiyməti 1600 manat, Amerika istehsalı olan "Harley-Devidson"ların qiyməti isə 60 min manat idi.

Sabiq baş nazirin 1-ci müavini Abbas Abbasovun oğlunun facebook divarında izləyicilərinin mühakiməsinə çıxardığı "dəmir at"ı - "Harley Devidson" markalı baykı Bakıdakı motomağazalarda yeni istehsal edilmiş bahalı maşın markaları ilə təxminən eyni qiymətədir.

❑ E.MƏMMƏDƏLİYEV

# Dünyanın "iPhone 6" çılğınlığı Azərbaycanı da vurdu

**Psixoloq:** "Kreditlə bahalı telefon alanların psixi problemləri var..."

**Apple-in son istehsalı olan "iPhone 6" mobil telefon modelinin dünyanın müxtəlif ölkələrində satışının başlaması xəbəri ölkəmizdə də yeni izdihama səbəb olub.**




Sosial şəbəkələrdə xeyli müzakirələrə səbəb olan yeni model hələ Azərbaycanda satışda deyil. Lakin potensial müştərilər indidən mağaza sahiblərinə sifarişlərini verib.

Rauf adlı telefon ustası satışla da məşğul olduğunu bildirdi. "Dostdan, tanışdan çox adam "iPhone 6"-nı gözləyir"-deyən, müsahibimiz belə müştərilərinin çox olduğunu bildirdi:

"Hamsı özünü göstərmək üçün edir. Adam var gəlib deyir: "Sən canın, gör nə edirsən, qonşum "iPhone 5" işlədir. Mənə "kitayski"sini gətir, alım". O qədər olub ki... 100 manata iPhone5 gətirmişəm, alıblar. Amma təbii ki, orjinalının funksiyalarını yerinə yetirməyə gücü çatmır. Elə oyun var yükləyir, eləsi var edə bilmir. Yaxud sosial şəbəkələrə girişi rahat deyil. Tez-tez donur. Amma üzdən birə-birdir. Seçə bilməzsiniz. Bunlar hamsı psixoloji məsələlərdir. Sırf özünü göstərmək üçün borca, xərcə girib bizdən "iPhone 5" alan adam da var. Amma sizə səmimi deyirəm, dəyməz. Mən telefon ustasıyam, mənə "iPhone 5", ya adi "Nokia", fərqi yoxdur, ikisinə də eyni baxıram. "iPohene"lərin içində ən yaxşısı "iPhone 4"-dür. Yan hissələri nikeldəndir".

Mağazda "iPhone 5"-in qiymətinin nağd 659 manat olduğunu deyən Rauf bəy, kreditə götürülüdüyü halda bu rəqəmin 750-800 manatadək yüksəldiyini bildirdi. "iPhone 6"-nın isə minimum 1000 dollardan satışa çıxarılacağını söyləyən, müsahibimiz bu qiymətə telefon almağın mənasız olduğunu dedi.

"Elə olub uşaq ayağını dirəyib ki, mənə "iPhone 5" alacaqsınız"-deyən, Mehman bəy də telefon satıcısıdır. Bu sahədə çalışdığı son 3 ildə xeyli bu cür hadisə ilə üzləşdiyini söyləyən müsahibimiz, göstəriş naminə insanların neçə aylar qazandıqları pulu telefona verdiyini dedi. Daha çox imkanlı adamların son model telefonlar aldığını deyən müsahibimiz bu kateqoriyaya daxil olmayan sadə vətəndaşların da bahalı telefon cihazları aldığını bildirdi. Hazırda ən çox satılan telefonların ən bahalı olanlar olduğunu deyən Mehman bəy "iPhone 5"-in 689 manat, "Samsung Galaxy 5"-in isə 559 manata satıldığını bildirdi.

**Psixoloq rəyi: "Bəzi insanlar özünü brend mallarla təsdiq etməyə çalışır"**

Bəs nədən insanlar 2-3 aylıq maaşlarını bir telefon cihazına verirlər. Amma xəstələnəndə əksər vaxt həkimə getməyə ya ərinirlər, ya da simiclik edirlər. Bunun ruhsal gizlinlərini açmaq üçün psixoloq Elnur Rüstəmova müraciət etdik:

"Ümumiyyətlə bir qism insanlarda qeyd etdiyiniz hal özünütəsdiqdən dolayı baş verir. İnsan özünü brend markalarla, bahalı telefonlarla təsdiq etməyə çalışır. Zaman keçdikcə bu, onlarda xroniki hal alır. Problem daha çox psixolojidi. Diqqət etsəniz görərsiniz ki, kifayət qədər imkanlı olan insanlar bu cür israfçılığa yol vermirlər. Dolayısı ilə özlərini bu yollarla təsdiq etməyə cəhd göstərmirlər. Daha çox psixoloji narahatlıq yaşayan insanlarda qeyd etdiyiniz hallar baş verir. Sadəcə insanlarımız hələ ki, bunu bir problem kimi görmürlər. Bu səbəbdəndi ki, kredit zamanı gələndə gərgin, əsəbi, ətrafla münasibətdə aqressiv davranırlar".

Yekudna qeyd edək ki, sentyabr ayında 12 milyon "iPhone 6" satılması gözlənilir. "Apple" yeni modeli ilin sonuna qədər 100 ölkədə satışa çıxarmağı planlaşdırır.

❑ Fəridə ABDIYEVA

YENİ MÜSAVAT
N 322 (5680) 4 dekabr 2013

## Rusiyadan müstəqilliyimizə simmetrik hədə ciddiləşir



# Azərbaycana "5-ci kolon" təhlükəsi - təhlil

### Kremlin virtual işğal taktikası ölkəmiz üçün Qarabağ qədər qorxulu problemə çevrilməkdədir; Qərb "təsir agentləri"nə qarşı güclənən repressiya fonunda geniş şəbəkəyə malik rusiyayönlü "5-ci kolon"çulara toxunulmaması özündə daha ciddi neqativlər daşıyır; Moskvanın bu yöndə əsas ideoloji silahını əlindən necə almalı?..

**Ukraynada Kremlin məlum hərəkətlərindən doğan hadisələr və real təhdidlər səbəbindən Azərbaycana ən böyük təhlükə son vaxtlar xeyli aktivləşən "5-ci kolon"dan gəlir. Bununla belə, bu, heç də o demək deyil ki, ölkədə başqa dövlətlərin maraqlarına xidmət edən "5-ci kolon"lar yoxdur.**

Təəssüf ki, bizim Putinin ekspansionist siyasətinin tənqidinə yönəlik məqalələrimizi və neo-imperiya təhdidlərindən dolayı qayğılarımızı bəzi oxucular qərbyönlü mövqeyin təzahürü və Qərb maraqlarının lobbiçiliyi kimi qəbul edirlər. Hər dəfə Rusiyanın beynəlxalq hüquqa və humanizm prinsiplərinə zidd olan və ya Bakı üçün real hədə kəsb edən konkret hərəkətlərini mühakimə etməyə başlayan kimi, o dəqiqə bu kateqoriyadan olan oxuculardan belə dalayıcı şərhlər gəlir ki, bəs Amerikanın nəyi yaxşıdır, niyə onu da ittiham etmirsiniz? Mərkəzi Kəşfiyyat İdarəsinin sifarişi iləmi yazırsınız, bəlkə Qərbə satılmısınız və s.

Bolşevizm qoxusu verən qəribə və ziyanlı bir məntiqdir. Belə çıxır ki, sən əgər Rusiyanın siyasətinə qarşısansa, demək, mütləq ABŞ-ın tərəfdarısan? Halbuki vətənpərvər mövqe də var. Həmçinin, Azərbaycanın milli-dövlət maraqları deyilən anlayış mövcuddur. Məhz sonuncular istənilən xarici olay və təhlükələr üçün meyar olmalıdır.

Bizə gəlincə, nə Rusiyanın, nə Amerika və Avropanın, nə də İranın tərəfindəyik, biz - Azərbaycanın tərəfindəyik. Eyni dərəcədə də haradan gəlməsindən asılı olmayaraq ölkəmizə olan bütün təhlükələri pisləyirik. Bizim üçün rusiyayönlü, iranyönlü, amerikayönlü "5-ci kolon"lar eyni dərəcədə qeyri-məqbuldur. Bu, bizim prinsipial vətəndaş mövqeyimizdir.

Bununla belə, biz realistik və başa düşürük ki, Azərbaycan gənc və kiçik ölkə olaraq, üstəlik iri dövlətlərin toqquşan geosiyasi maraqlarının kəsişməsində yerləşməklə hələ ki, hansısa təhlükəsiz neytral statusla gizlənə bilməz. Hələ ki, o, minalanmış xarici təhdidlər meydanında konyuktur manevrliliyə və daim "pislərdən ən yaxşısını" seçməyə məhkumdur.

Bu səbəbdən biz xarici çağırışları və hədələri aktuallılıq, təhlükəlilik, konyunktur əhəmiyyəti, perspektivliliyi və ölkənin milli maraqları ilə uzlaşması üzrə təsnifləndirməli oluruq. Bu gün əsas təhlükə bizə Moskvadan gəldiyindən diqqətimizi də ən çox həmin istiqamətə yönəldirik. Sabah eyni təhlükə İrandan, ABŞ və Avropadan gəlsə, vurğunu o səmtlərə dəyişəcəyik. Axı, necə deyərlər, əbədi dostlar olmur, əbədi maraqlar olur. Bir daha təkrarlayaq ki, bizdən ötrü əsas meyar birdir - ölkənin milli maraqları. Bu yerdə sual yarana bilər ki, Azərbaycanın milli maraqlarını kim və necə müəyyən edir? Bəlkə bu maraqlar Putin siyasətinə ziddiyyətdə yox, uyğunluqdadır?

Düşünürük ki, bu məsələdə təxribatçı möhtəkirliyə yer olmamalıdır. Bütövlükdə Azərbaycanın milli maraqlarını ölkənin ərazi bütövlüyü və suverenliyi diktə edir, hansı ki artıq ölkənin konstitusiyasında, Hərbi Doktrinasında, təhlükəsizlik strategiyasında, ölkənin götürdüyü beynəlxalq öhdəliklərdə və bir sıra başqa təməl sənədlərdə əksini tapıb. Məhz milli-dövlət maraqlarının tələbləri ilə Azərbaycanın BMT, Avropa Birliyi (AB), NATO ilə, başqa dövlətlərlə əməkdaşlığının formatı, tempi və iştirak xüsusiyyətləri, həmçinin, strateji oriyentirlər və ölkənin xarici siyasətinin prioritetləri şərtlənib.

Bu mənada aydın məsələdir ki, əgər biz Putinin sovet və ya Çar imperiyasını bərpa eləməyə yönəlik velikoderjav planları ilə bağlı həyəcan təbili çalırıqsa, bu, əsla ABŞ, AB, İran və ya Türkiyə maraqlarının lobbiçiliyindən qaynaqlanmır, məhz Azərbaycanın milli-dövlət maraqlarının, ərazi bütövlüyü və suverenliyinin müdafiəsi zərurətindən doğur. Madam ki, Azərbaycana çox böyük geosiyasi diqqət var və burada çoxsaylı rəqib dövlətlərin mövqeləri toqquşur, o zaman ölkəmizdə müxtəlif "5-ci kolon"ların mövcudluğuna təəccüblənməyə də dəymir.

Onların sırasında ən "köhnəsi" və çoxsaylı olanı, dərinə kök salmışı və daha böyük təhlükə kəsb edəni Rusiya və ya iranyönlü qüvvələrdir. Bu da təəccüblü deyil. Çünki Azərbaycan həmişə bu iki imperiya arasında "nifaq alması" olub, yekun etibarilə onlar arasında bölünüb və uzun müddət onların birbaşa təsirləri altında qalıb. Çar, sonra isə sovet imperiyasının Azərbaycana uzun müddətli təsiri özünü mentalitetdə, mədəniyyətdə, ənənələrdə, həyat tərzində və həmvətənlərimizin davranışında göstərib, məqsədli və ya kortəbii şəkildə rusiyayönlü ovqata malik xüsusi bir təbəqənin - daim Moskvanın maraqlarının lobbiçiliyinə meyilli bir zümrənin formalaşmasına yardımçı olub.

Bu xüsusda qərbyönlü və ya amerikayönlü "5-ci kolon" anlayışı təzədir, çoxsaylı deyil, cəmiyyətin həyat tərzində və şüurunda dərin kök atmayıb, o üzdən ölkə üçün indiki anda elə bir problem də yaratmır. Bundan əlavə, hakimiyyət strukturları son vaxtlar məhz Qərbin "təsir agenti" adlandırılanlara qarşı ifşa və repressiv kampaniyanı gücləndirərək məhz amerikayönlü "5-ci kolon"u minimuma endirib tamamilə öz nəzarətinə almağa çalışır. Analoji mübarizə son illər iranyönlü "5-ci kolon"a qarşı aparılır.

Yeri gəlmişkən, qat-qat böyük təhlükə kəsb edən Rusiyanın "təsir agentləri" və "5-ci kolon"çulara qarşı rəsmi səviyyədə nədənsə heç bir ifşa xarakterli mübarizə aparılmır, onların fəaliyyətinin lokallaşdırılması üçün effektli tədbirlər görülmür. Ola bilsin, hakimiyyət orqanları hazırkı həssas mərhələdə xüsusi ehtiyatlılıq göstərir və rəsmi Moskvanın narazılığına əlavə əsaslar vermək istəmir, fəqət, belə mövqe aşkar neqativlər də daşıyır və rusiyayönlü qüvvələrin daha da fəallaşmasına stimul verir.

Biz hakimiyyəti istənilən qəlibdən olan "5-ci kolon"çilara (amerikayönlü, iranyönlü, rusiyayönlü) qarşı hər hansı repressiv kampaniyaya çağırmırıq - günahlandırıcı addımlar yalnız konkret halda Azərbaycan qanunları pozulduqda və yalnız konkret pozuculara qarşı atıla bilər və atılmalıdır.

Ancaq nə üçün də Moskvanın Azərbaycan cəmiyyətinin əhəmiyyətli kəsiminin şüurunu zibilləyən və ya zombiləşdirən quduz neo-imperiya təbliğatından ölkənin informasiya məkanının müdafiəsi üçün müəyyən tədbirlər görülməsin? Söhbət Rusiya telekanallarından gedir - o telekanallar ki, nədənsə bizim bütün kabel televiziyası paketlərində böyük bir paya malikdir. Axı bu, bizim dövlətin hökmü və gücü daxilindədir və birbaşa ölkənin milli təhlükəsizlik strategiyasından, o sırada informasiya təhlükəsizliyi zərurətindən qaynaqlanır.

Hamıya məlumdur ki, bizim yerli telekanallar süjetlərin kasadlığı və peşəkarlığın zəifliyi səbəbindən hələlik xarici kanallarla rəqabət qabiliyyətli deyil və o səbəbdən vətəndaşlar Rusiya və ya Türkiyə telekanallarına baxmağı üstün tutur. Problemin həlli əlbəttə ki, bütün əcnəbi telekanalların yayımını dayandırmaq və hamını yerli kanallara baxmağa məcbur eləməkdən keçmir - sırf qadağalar lazımi effektli ola bilməz, 21-ci əsrdə isə bu, texniki cəhətdən də mümkünsüzdür, çünki internet və peyk var.

Məsələnin həlli bir tərəfdən, ölkə telekanallarının keyfiyyətini, rəngarəngliyini və peşəkarlığını permanent şəkildə qaldırmaqdan, ikinci yandan isə əcnəbi kanalları, ələlxüsus informasiya-analitik xarakterli xarici kanalları maksimum şəkildə diversifikasiya eləməkdən ("müxtəlifləşdirmək") ibarətdir. Bizim teletamaşaçı Rusiyanın aldadıcı təbliğatının mütəmadi və güclü təzyiqi altında olmamalıdır.

Azərbaycan seyrçisi eyni dərəcədə Türkiyə, İran, ABŞ və başqa təbliğatların da təsiri altına düşməməlidir. Bizim tamaşaçının bu və ya başqa hadisələrlə bağlı müxtəlif nöqtə-nəzərlərə (Avropa, Çin, Belarus, Qazaxıstan, Moldova və s.) balanslaşmış çıxışı olmalıdır. Ayrı sözlə desək, Rusiya informasiya-təbliğat telekanallarının maksimal şəkildə məhdudlaşdırılması hesabına alternativ informasiya mənbələri imkanlarını artırmaq, bununla da Kremlin və rusiyayönlü "5-ci kolon"un əlindən azərbaycanlıların şüurları uğrunda mübarizdə əsas silahı almaq lazımdır.

Bu gün bu - bizim təhlükəsizlik məsələmizdir.

❑ **Analitik xidmət**

## Qışda çiçəkləyən ağaclar kimi...



Hüseynbala SƏLİMOV

**Zamanın da qəribə xisləti var. Adama hər şeyi unutdurur. Bəlkə də səhv edirik, zaman unutdurmur, adamlar özləri, bəli, özləri zaman keçdikcə hər şeyə alışırlar. İndi fikir verib görürsən ki, Ukrayna münaqişəsinə maraq daha əvvəlki kimi deyil. Elə bil hər şey adiləşdi.**

Elə bu günlərdə baş nazir A.Yatsenyuk bildirdi ki, Ukraynanın problemini yalnız NATO həll edə bilər. Amma məsələ bundadır ki, bəlkə də hamı elə buna görə NATO-nun Uelss sammitini gözləyirdi. Bu sammitdən bir şey hasil olmadığını görəndən sonra ehtiraslar səngidi, maraq söndü...

Dünyanın böyük siyasətçiləri bu və ya başqa hadisəyə önəm verərkən hansı mülahizələri əsas götürürlər, doğrusu, bunu bilmirik. ABŞ İŞİD-i və Suriyanı cəzalandırmağa hazırlaşır. Sanki bu bölgə əbədi müharibələr zolağı adlandırılıb. Səbəb? Səbəbi yəqin ki, çox sadədir. Buralar böyük "neft hövzəsi"nə yaxındır, bəlkə də həmin hövzənin içindədir.

ABŞ-ın bu biçarə regiona yürüşü hələ ötən əsrin düz 90-cı illərindən başlanmışdı. Bu illər ərzində nələr baş verdi? Hansı sular axdı, hansı küləklər əsdi? Böyük hesabla heç nə, müharibələr və dağıntılar... Təxminən 24 illik müharibə bu torpağa sülh gətirmədi.

Əslində indi diqqət Ukraynaya yönəlməli idi. Avropanın içində böyük müharibə alovlanır. Demirik ki, Qərb ölkələri buna tamam biganədir. Yox, elə də deyil. Amma Qərb Rusiyaya qarşı iqtisadi sanksiyalar yolunu tutdu.

Soyuq müharibəyə faktiki olaraq start verilib. Soyuq müharibə də bəzi ölkələrin onsuz da soyuq daxili siyasətini bir azacıq da soyutdu. Ona görə ki, soyuq müharibədə "bizimkilər" və "onlar" olur. Nə qədər qəribə olsa da, bu an demokratiyanın spesifik problemləri bir müddət arxa plana keçir.

Əslində bunun özü də təzaddır. Böyük demokratiya naminə başlayan müharibə kiçik bölgələrdə demokratiyanın qayğılarını arxa plana ötürür.

Daha böyük ölkələr əvvəlki kimi kiçik dövlətlərdə demokratiya problemlərinə və insan haqları məsələsinə həssas olmurlar...

Elə bəzi kiçik dövlətlər də fürsəti dərhal "dəyərləndirirlər". Onların intuisiyasına söz ola bilməz. Birinci soyuq müharibə dönəmində amerikalılar "Somosa kimdir və nəçidir, bilmirik, bildiyimiz odur ki, o, bizim adamdır" -deyirdilər. İndi bu statusu qazanmaq istəyən və Somosa roluna iddia edənlər çoxdur.

Soyuq müharibə bəzi məsələləri asanlaşdırır, həm də çətinləşdirir. İlk baxışda hansı düşərgədə olsan onun musiqisini ifa edirsən. Bu mənada hər şey olduqca asandır. Qəliz olanı budur ki, düşərgələrdə özünə yer tapmayanlar da olur. Bəli, təsadüfən qışda çiçəkləyən ağacların barı olmur...

Bunu ifrat pessimizm kimi qəbul etməyin. Necə deyərlər, aşıq gördüyünü çağırır. Biz də gördüyümüzü deyirik.

Nə edəsən ki, indi ifrat optimizm üçün elə bir əsas yoxdur. Ölkəyə baxırsan, adamın ürəyi sıxılır. Ürəkaçan şey olduqca azdır.

Amma bezmək, usanmaq də olmaz. Düzdür, dünya siyasətində çox müəmmalı və qəliz məqamlar var. Adam inana bilmir ki, NATO-nun, Mərkəzi Kəşfiyyat İdarəsinin analitikləri irəlicədən Rusiyanın reaksiyasını proqnozlaşdıra bilməyiblər.

Əgər proqnozlaşdırıblarsa və indi belə hərəkət edirlərsə, daha buna, necə deyərlər, sözümüz yoxdur. Deməli, onlara Ukrayna yox, onun bazrları lazım imiş.

Məsələ bundadır ki, hətta dağıntılar arasında da insanın müəyyən tələbatları olur. Bu ehtiyaclar da bazar formalaşdırır. Avropaya bu lazım idimi?..

Bu gedişlə Ukraynada bu inqilabın da bir nəticəsi olmayacaq. Belə alınır ki, insanları yenidən Maydana səsləyənlər haqlı imiş? Bəlkə də... Amma bir vaxt hamı əfqanlara döyüşkən xalq deyirdi. Axırda da hamı onlardan bezdi...

İndi inqilab da məqsəd deyil, vasitələrdən yalnız biridir. Qəribəsi budur ki, bu Ukraynada inqilabçılar çox tez tərəddüdə qapılırlar. Elə onların da Rusiyanın reaksiyasını proqnozlaşdıra bilməməsi inandırıcı görünmür.

Yəqin ki, bunu edə bilirlər. Bəs onda niyə axıra qədər getmirlər? Bayaq dediyim, daha doğrusu, yazdığım bir cümlə yadıma düşür: qışda təsadüfən çiçəkləyən ağacların barı olmur...

Deməli, yazın gəlişini gözləmək qalır. Yazda çiçəkləyən ağacların barı olur...

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014

# Qələm əhli kimi başqan görür?

## Yazarların əksəri ad çəkməkdən imtina edirlər



**Sentyabrın 27-də Müsavat Partiyasının VIII qurultayı keçiriləcək. Hazırda Tural Abbaslı, Arif Hacılı və Qubad İbadoğlu və Səxavət Əlisoy rəsmi şəkildə başqanlığa namizədliklərini irəli sürüblər.**

Maraqlıdır, Müsavat üzvü, təəssübkeşi və tərəfdarı olan yazarlar bu məsələyə necə yanaşır? Onlar İsa Qəmbərdən sonra kimi başqan görürlər?

"Yeni Müsavat" qəzetinin köşə yazarı Zamin Hacı sualımıza belə cavab verdi: "Qurultay olacaq, nə olacaq açığı, mənə maraqlı deyil. İnanmıram Müsavat Partiyası bundan sonra nəyəsə nail olsun. Əgər İsa Qəmbərlə nail olmadısa, bundan sonra nəyə nail olacaq ki? Sadəcə Müsavatda çalışan və məhbəsdə olan müsavatçılara heyifim gəlir".

Tanınmış yazıçı Seyran Səxavət bu seçimlərdə Qubad İbadoğlunu dəstəklədiyini bildirdi: "Qubad İbadoğlu alimdir. Bütün ölkələrdə tanınır. İşləyən adamdır. Mən Qubad bəyi tanıyandan hər zaman onu çalışqan biri kimi görmüşəm. Və ortada da xeyli real nəticələri var".

"Mediaform" saytının baş redaktoru Azər Qaraçənli isə rəhbərlik etdiyi orqanda neytral mövqe sərgilədiklərinə görə şəxsi mülahizəsini bildirmək istəmədiyini dedi. Ümumən partiya üzvü olmadığına görə də fikir bildirməsinin düzgün olmadığını söylədi.

"Yeni Müsavat" qəzetinin köşə yazarı Xalid Kazımlının cavabı belə oldu: "Səsvermə gizli olacaq".

"Azadlıq" qəzetinin əməkdaşı Natiq Ədilov isə sualımıza belə cavab verdi: "Mən müsavatçı qardaşların seçiminə nə olsa, hörmət etməyə borcluyam. Daxili seçkiyə qarışa bilmərəm".

"Yeni Müsavat"ın əməkdaşı, Müsavat Partiyasının Məclis üzvü Elşad Paşasoy isə başqan seçimlərilə bağlı bunları söylədi: "İsa Qəmbərdən sonra başqan olmağın elə də asan olmayacağını unutmamaq lazımdır. İddialıların hər birinə uğurlar arzulayıram. Görünən budur ki, əsas mübarizə Arif Hacılı ilə Qubad İbadoğlunun arasında gedəcək. Hər ikisinin başqan olmağa haqqı çatır və son qərarı qurultay verəcək. Mənim fikrimcə, Arif bəyin Müsavat Partiyasında heç bir fəaliyyəti olmasaydı belə, 23 il öncə Azərbaycanın istiqlalına səs verdiyinə görə Müsavata başqan olmağa mənəvi haqqı çatırdı. Ancaq insafən deməliyik ki, Arif Hacılı yüksək təşkilatçılıq qabiliyyətinə, oratorluğuna, siyasi savadına və sair müsbət keyfiyyətlərinə görə başqan olmağı tamamilə haqq edib. Qubad bəyin isə ölkənin hüdudlarından kənarda da kifayət qədər tanınması, yüksək səviyyəli iqtisadçı alim, gözəl ziyalı, barışdırıcılıq keyfiyyətlərinə malik olması onun şansını artırır. Bu mənada qurultay iştirakçılarının necə çətin seçim qarşısında qaldığını təsəvvür edirəm. Məncə, partiya daxilində hansısa problemlərin yaşanmaması üçün ən şanslı namizədlərin arasında centlmen razılaşma əldə olunmalıdır. Bəlkə də partiyaya yeni nəfəs gəlməsi, təşkilatın xarici aləmlə əlaqələrinin gücləndirilməsi baxımından Qubad İbadoğlunun başqan seçilməsi daha məntiqli olardı. Artıq reallıqlar ənənəvi baxışlar sistemində müəyyən korrektlər etmək tələbini qoyur. Son illər hətta ölkələrin rəhbərliyinə iqtisadçıların, biznesmenlərin gəlməsi şəraitində Müsavatın rəhbərliyinə də bu sferanı təmsil edən şəxsin gətirilməsi, fikrimcə, daha faydalı olardı".

Virtualaz.org saytının baş redaktoru Famil Cəfərli isə hər üç namizədi yüksək dəyərləndirsə də heç birinin adını çəkmədi: "Nə Müsavat Partiyasının, nə də digər partiyaların üzvü olmadığım üçün bu suala cavab vermək, kimisə dəstəkləmək siyasi mədəniyyət baxımından bir qədər etik görünməz. Namizədlərin hər birini tanıyıram. Hərəsi bir üstünlüyə malikdir. Hamısına da uğurlar arzu edirəm".

Gənc yazar Dilqəm Əhməd isə T.Abbaslını başqan gördüyünü söylədi: "Mən İsa Qəmbərdən sonra Tural Abbaslını başqan görmək istəyirəm. Ona görə yox ki, onun çıxışlarını, siyasi görüşlərini bəyənirəm. Sadəcə gənc olduğuna görə. Çünki Müsavat ana müxalifət partiyası olduğundan gəncləşməsinə ehtiyac var. Digər namizədlərdən hansı olsa, Müsavat yenə əvvəlki cizgisində qalacaq. Amma Tural Abbaslı seçilsə, yəqin ki, ətrafına da gəncləri yığacaq".

Azərbaycanın xalq şairi Fikrət Qoca ilə də əlaqə saxladıq. Fərqli mövqe sərgiləyən şair bunları dedi: "Mən heç bir partiya üzvü deyiləm. Əgər mən bu gün kiməsə dəstək olsam deyərlər ki, "sən bitərəf idin, nə oldu?!" Ona görə mənim nəsə deməyim düz deyil. Buna haqqım yoxdur".

Tanınmış jurnalist İlhamiyyə Rza da başqanlığa Qubad İbadoğlunu layiq gördüyünü dedi.

Gənc yazar Qan Turalı isə "Mənim üçün heç bir fərqi yoxdur" söylədi.

Yazar Günel Mövlud isə real namizəd və iddialılar arasında heç birini başqanlığa uyğun görmədiyini bildirdi:

"Düşünürəm ki, Yadigar Sadıqov bu posta ən layiqli şəxsdir. Müstəsna bilikləri, mədəniyyəti və gözəl dialoq qabiliyyəti olan adamdır. İsa Qəmbərdən sonra başqanlığa layiq insandır".

❑ **Fəridə ABDIYEVA**

# Başqanlığa namizədlərin İsa Qəmbərdən gözləntiləri

**Müsavat Partiyasının qurultayına iki həftədən az vaxt qalır. Başqanlığa namizədlərin kimliyi artıq bəllidir. Müsavat başqanı postu uğrunda Arif Hacılı, Qubad İbadoğlu, Tural Abbaslı və Səxavət Əlisoy arasında mübarizə gedəcək. Mübarizənin hansı şəkildə getməsindən asılı olmayaraq, dəqiq olan odur ki, əgər hazırkı başqan İsa Qəmbər bu namizədlərdən hansını dəstəklədiyini açıqlasa, müsavatçılar həmin şəxsə səs verəcəklər. İ.Qəmbər isə kimi başqan görmək istədiyi barədə bu günədək nəinki açıq mövqe ortaya qoymayıb, hətta cüzi bir işarə sezdirməyib. Əldə etdiyimiz məlumata görə, partiyanın rəhbərliyinə daxil olan bəzi şəxslər İsa Qəmbərin ortaya mövqe qoymasının qəti əleyhinə olduqlarını açıq şəkildə dilə gətiriblər. Hətta bəyan ediblər ki, İsa bəy tərəf tutarsa, partiyadan gedəcəklər.**

Bəs, başqanlığa namizədlər bu barədə nə düşünürlər; İsa Qəmbər hazırkı davranışını sonadək saxlamalıdırmı, yoxsa mövqeyini açıqlamalıdır?

Arif Hacılı bildirdi ki, İ.Qəmbər Müsavatın bərpası prosesinə rəhbərlik edən şəxsdir, Müsavatda partiyanın taleyi üçün məsuliyyət daşıyan adamların sırasında birinci yerdə durur: "Təbii ki, Müsavat başqanının kim olacağı İsa Qəmbəri də digərlərindən heç də az düşündürmür. O, Müsavat Partiyasının qurultayının nümayəndəsidir. Partiyanın taleyi üçün məsuliyyət daşıyan siyasi xadim olaraq İsa Qəmbərə Müsavatın gələcək başqanının kim olması barədə öz fikrini açıqlamağı heç kim qadağan edə bilməz, heç bir strukturun belə bir səlahiyyəti yoxdur. İsa Qəmbər bu barədə özü qərar qəbul edəcək və onun qəbul etdiyi istənilən qərara hörmətlə yanaşacağıq".

Qubad İbadoğlu bildirdi ki, İ.Qəmbərin mövqeyinin müsavatçıların mövqeyinə təsir göstərdiyi şübhəsizdir və təsir göstərmək imkanlarına malikdir: "Partiyada İsa bəyin böyük nüfuzu var. Bu baxımdan başqanın kimi müdafiə etmək barədə açıq şəkildə mövqe ortalığa qoyması seçkinin nəticələrində əhəmiyyətli rol oynaya bilər. Odur ki, mövqe bildirməsi arzuolunan deyil. Məsələn, İsa bəy əgər məni müdafiə edərsə, bu, seçkidə bərabərlik və ədalət prinsipinin pozulmasına gətirib çıxara bilər".

Tural Abbaslı bildirdi ki, İ.Qəmbər sıradan təkcə bir partiya sədri imicinə malik lider deyil, onun başqanlıqdan əlavə böyüklük imici də var: "İsa bəyi fərqləndirən üstünlüklərdən biri də budur. Ona görə də hər halda İsa Qəmbər bu böyüklüyünü qoruyacaq. İsa bəy sıradan bir partiya sədri imicində şəxs olsaydı, mən onun növbəti başqanın kim olması ilə bağlı mövqe açıqlamasında heç bir problem görməzdim. Bəllidir ki, İsa Qəmbərin indi açıq mövqe ortaya qoyub kimisə dəstəkləməsi müsavatçıların da seçiminə ciddi təsir edəcək. İnanmıram ki, İsa Qəmbər bunu edəcək. Məlumdur ki, qurultay öz işinə başlayan andan partiyanın bütün səlahiyyətli orqanları buraxılmış olacaq və artıq İsa Qəmbər də başqan olmayacaq. Yəni İsa bəy qurultayda bir qurultay nümayəndəsi kimi səsvermə, kimi dəstəklədiyini ifadə etmə hüququna malik olacaq. Biz demokratiya istəyiriksə, hər kəsin, həmçinin İsa Qəmbərin də seçim hüququna hörmətlə yanaşmalıyıq. Heç kim ona qadağa edə bilməz ki, kimi dəstəklədiyini qurultay günü ortaya qoymasın. İsa Qəmbərin də hüququ var, eyni zamanda o, partiyanın gələcəyi üçün də bir məsuliyyət daşıyır. Ona görə də İsa bəy düşünsə ki, kiminsə adını çəkməsi vacibdir, bunu hər kəs normal qarşılamalıdır. O mövqe mənim əleyhimə olsa belə, şəxsən mən bunu normal qarşılayaram".

Səxavət Əlisoy bildirdi ki, İ.Qəmbərin hansı namizədi dəstəklədiyini bəyan etməsini gözləmir: "Ümumiyyətlə, partiya liderinin birinci önəmli keyfiyyəti ondan ibarətdir ki, o, bu cür vəziyyətlərdə tərəfsizlik nümayiş etdirir. Nəzərə alsaq ki, İsa Qəmbərin müsavatçılar arasında nüfuzu böyükdür, deməli onun mövqe ortaya qoyması müsavatçıların seçiminə ciddi təsir edəcək. İsa Qəmbərin dəstək ifadə etdiyi namizədin seçiləcəyi şəksizdir. Belə olan halda isə tərəflər arasında münasibətin gərginləşməsi baş verəcək. Eyni zamanda İsa bəyin tərəf tutması onun özünün də şəxsi nüfuzuna mənfi təsir edə bilər ki, mən bunu istəmirəm. Başqanın seçkidə tərəf saxlaması dolayısı ilə yeni başqan təyinatı kimi qarşılana bilər. Mən İsa Qəmbərin hansı namizədi dəstəkləmək məsələsində susqunluq nümayiş etdirməsini təqdir eləyirəm. Düşünürəm ki, başqan sonadək tərəfsizliyini qorumalıdır".



**Arif Hacılı:** "Ona Müsavatın gələcək başqanının kim olması barədə fikrini açıqlamağı heç kim qadağan edə bilməz"



**Qubad İbadoğlu:** "İsa bəy əgər məni müdafiə edərsə, bu, seçkidə bərabərlik və ədalət prinsipinin pozulmasına gətirib çıxara bilər"



**Tural Abbaslı:** "Heç kim ona qadağa edə bilməz ki, kimi dəstəklədiyini qurultay günü ortaya qoymasın"



**Səxavət Əlisoy:** "Başqan sonadək tərəfsizliyini qorumalıdır"

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014

# "Mən heç kimin əvəzinə and içə bilmərəm ki..."

## Mirvari Qəhrəmanlı: "İstərdim ki, müvafiq qurumlar bu prosesə "dur" desinlər"

**"Baxış bucağı"**

**Adətən, hüquq-mühafizə orqanlarının nəzarətində olan şəxslərin ölkədən çıxışına maneçiliklərin yaradıldığını müşahidə etdiyimiz halda, Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı ilə bağlı baş verən olay istisna oldu. Belə ki, Berlinə konfransa gedərkən heç bir problemlə üzləşməyən təşkilat rəhbərini geri dönərkən, Bakı aeroportunda saxlayıb xeyli sorğu-suala tutublar.**

Qeyd edək ki, M.Qəhrəmanlının qızı, "Qadın Krizis Mərkəzi" İctimai Birliyinin sədri Mətanət Əzizova da hazırda həbsdə olan hüquq müdafiəçisi Leyla Yunusun cinayət işində şahid kimi dindirilib və hazırda təzyiqlər səbəbindən ölkə xaricində yaşayır. "Yeni Müsavat"a açıqlamasında Mirvari xanım dedi ki, Avropaya getmişkən qızını da yoluxub və onun ağır xəstəliyə mübtəla olduğunu eşidəndə şok keçirib. Digər tərəfdən kürəkəni də ağır xəstə olan Mirvari xanımın aeroportda üzləşdikləri onun özünün də səhhətində dərin iz buraxıb. Onun baş verənlərlə bağlı dediklərindən:

- Mən Berlinə tədbirə dəvət alanda hüquq-mühafizə orqanlarına bu barədə xəbərdarlıq elədim. Dedim, tədbirə getmək üçün ölmürəm, buraxmırsınızsa, getməyəcəyəm. Amma sərhəddən qaytaracaqsınızsa, camaatın səfər üçün ayırdığı pul batacaq. Ona görə də mənə qabaqcadan sözünüzü deyin. Bildirdilər ki, heç bir problem yoxdur. Ancaq qayıdanda hava limanında ölkəyə daxil olma möhürünü vurmurdular. Bir dəstə adam bir-birinə baxıb pıçıldaşırdılar. Özüm də narahat olmağa başladım ki, bəlkə bir hadisə olub. Tez mətbuata zəng etməyə başladım. Qorxdum ki, bəlkə kürəkənimin başına bir iş gəlib. Məni 45 dəqiqə də saxladılar, axırda soruşdum ki, deyin görüm nə olub? Sonra yuxarıdan kimsə razılıq verdi, mənim pasportuma giriş icazəsi verildi. Bundan sonra dedilər ki, deklarasiya doldurmalısan. Soruşdum ki, haçandan ölkəyə girəndə deklarasiya doldurulur? Dedi sizdə nə qədər pul var? Manatı göstərdim, dedim 300 dollarım, 2500 avrom var. Dedilər siz niyə manatı ölkədən çıxarmısınız? Cavab verdim manat ölkə xaricində kimə lazımdır, mən elə pul kisəmi daim özümdə gəzdirirəm, bunlar da onun içində qalıb. Soruşdular ki, bəs bu kartlar nədən ötrüdür. Dedim biri pensiya, digəri depozit kartıdır, onları da sizə bağışlayıram. Baqajı götürəndə yenə saxladılar ki, çantalarınızı yoxlamalıyıq. Dedim yoxla, amma qadın yoxlasın, biabır olaram. Bir qadın gəlib baxdı, Mətanət oğluna krassovka almışdı, o idi, bir də burdan apardığım paltarlar. Beləcə saat yarım məni ölkəyə buraxmadılar. Ən ağırı o idi ki, bəziləri "siz neft sektorunda işləyirsiniz" deyə, soruşurdular. Dedim təəccüblənməyin, indi QHT-lər bunların gözünə terrorçu kimi görünür.

***- Mirvari xanım, təhlükə sovuşub artıq?***

- Mən çox narahatam. Bir tərəfdən kürəkənim ağır xəstədir. Şübhəli bir məqam yaranıb, iyun ayında kürəkənim tam müayinə olunmuşdu, tam sağlam idi. Ancaq qısa müddətdə vəziyyətinin ağır olması aydınlaşıb. Neftçilər Xəstəxanasına analiz üçün 300 manat verdik. Sonda həkim qapını göstərdi ki, "bizdə hipatoloq yoxdur". Getdik məşhur Tofiq Alxasovun yanına. Dedi mən başqa xəstəxananın analizlərinə inanmıram. Yenidən 200 manat verib qan analizi etdirdik. O da dedi ki, mən məsuliyyəti boynuma götürüb səni müalicə edə bilmərəm. İndi Semaşko adına xəstəxanada müalicəyə başlamışıq. Digər tərəfdən qızımın - Mətanətin vəziyyəti yaxşı deyil, ağır vəziyyətdədir. Əvvəl çalışırdım ki, kürəkənim və nəvəm ölkədən çıxsın, amma indi heç özüm də razı deyiləm. Çünki həm kürəkənimin, həm də qızımın vəziyyəti ağırdır. Mətanətin özünə bu gün baxan lazımdır. Amma yenə də məhkəməmi girovluqla əlaqədar aparacağam, Avropa Məhkəməsinə qədər gedəcəyəm.

**"Qızımın səhhətində ciddi problem var, bir həftəyə 12 kilo arıqlayıb"**

***- Mətanət xanımın səhhətindəki problem nə ilə bağlıdır?***

- Açıq yazma, oğlu hələ bilmir. Ciddi problemləri var, baxırsan, çəkisi 45 kiloya düşüb.

***- Orda qayğılarını çəkən varmı?***

- Bizim camaatdan çox razıdır. Orada onun qayğısına mənim qədər qalan insanlar var. Müalicəsi qurtarmamış məni onu ölkəyə qayıtmağa qoymaram. Mənə onun sağlamlığı lazımdır. Çünki bu durumda ölkəyə qayıtsa, mən onu müalicə etməyə pul tapmayacağam. Onun müalicəsinə böyük pullar lazımdır. Həkimi ilə görüşdüm, bu durumdan özüm şokda idim. Mənim uşağım stressdən nə günə düşüb. 4 aydır orda müalicə götürür. Mənim ailəmə olunan zülmə özüm də təəccüb qalmışam. Yoldaşı bu vəziyyətdə, özü orda bir həftəyə 12 kilo arıqlayıb.

***- Mətanət xanıma qarşı təzyiqlərin əsas səbəbi nədir?***

- Mən də başa düşmürəm ki, Mətanət hansı statusda bunlara lazımdır, şahiddirmi, təqsirləndirilən şəxsdirmi? Onun evindən avadanlıqlarını, sənədlərini niyə aparıblar? Başa düşmürəm ki, niyə mənim ailəmə bu qədər təzyiq edilir.

***- Mətanət xanımın Leyla Yunusla hansısa əlaqəsi var idimi?***

- Yox. Mətanət "Qadın Krizis Mərkəzi"ndə ailə zorakılığı, insan alveri kimi problemləri araşdırırdı. Azad İsazadə ilə birlikdə qadınlara psixoloji yardım göstərirdi. Mən özüm də anlaya bilmirəm. Mənim bütün hesablarımı bağlayıblar. Təsəvvür edin, hesablarımı bağlayıblar, burda da mənimlə pul haqq-hesabı aparırlar.

***- Sizin təşkilat da iflic durumdadır?***

- Təşkilatın iflic durumda olduğunu deyə bilmərəm. Çünki mən hüquqşünasımızla birgə işləyirik. Bu il 70 məhkəməmiz olub. Mən o məhkəmələri necə yarımçıq qoyum? Bizim qrantımız həmişə olmayıb ki... 1996-cı ildə yaranmışıq, 10 il sonra ilk qrantımızı almışıq. Amma o vaxtdan məni daim vuruşan görüblər, işləmişəm. Sadəcə indi çox ciddi çətinliyimiz var, ən azı ofis xərcləri kimi məsələləri həll etmək lazımdır.

***- Adətən, xaricə gedənlərə problem yaradılırdı, amma sizin ölkəyə girişinizə mane oldular. Maraqlı haldır...***

- Yəqin gözləyirmişlər ki, ölkəyə qayıtmayacağam. Bilmirəm ölkəyə gəlməyimə peşman oldular, ya nədir. Yəqin istəmirmişlər qayıdım. Mən ölkəmi qoyub harasa gedən deyiləm. 2002-2003-cü illərdə mənə sığınacaq təklif edənlər var idi. Amma getmək heç ağlıma gəlməyib. Heç vaxt ölkəni tərk etmərəm. Nə indi o yaşım deyil, nə də heç cavan vaxtımda da getmədim. Mənim burda qəbirlərim var. Özü də mənim ölkəmdir, burda doğulmuşam, niyə getməliyəm?

***- Avropa Birliyinin genişlənmə və qonşuluq siyasəti üzrə komissarı Ştefan Fülenin ötən həftə gerçəkləşən Bakı səfərindən sonra QHT-lərə qarşı təzyiqlərin azalacağına ümidiniz varmı?***

- O görüşə mən də dəvət olunmuşdum, təəssüf ki, iştirak edə bilmədim. Amma çox təəccüblü bir haldır ki, Füle hesab edir ki, əgər o, vətəndaş cəmiyyətinə qrant ayırırsa, bu, onlara dəstəkdir. Bu, boş söhbətdir. Bu pul yalnız dövlət yanındakı QHT-lərə qismət olacaq. Çünki əgər bu gün müstəqil QHT-lərin hesabları bağlıdırsa, onların qrantlarının qeydiyyatında problem varsa, başa düşmədim, onda həmin vəsaiti kimə verəcəklər? Əvvəl Füleni maraqlandırmalıdır ki, vətəndaş cəmiyyətinə niyə bu problem yaradılıb? Mən heç kimin əvəzinə and içə bilmərəm ki, kim aldığı vəsaiti nə cür xərcləyir. Bizim təşkilat audit, donor tərəfindən yoxlanılıb, mən ancaq özümə cavab verə bilərəm. Amma bu dərəcədə olmamalıdır ki, sən bank hesablarını bağla, bu da düzgün deyil axı. Hansı ölkədə müstəqil QHT-lər yoxdursa, o ölkədə demokratiya inkişaf edə bilməz. Bu gün rayonların çoxunda vəkil yoxdur ki, insanlar hüquqi yardım alsın. Hökumətin görməli olduğu işlərin bir qismini vətəndaş cəmiyyəti öz üzərinə götürüb. Hökumət özünün milli fəaliyyət planlarının hamısında sonuncu bənd olaraq vətəndaş cəmiyyətinə önəm verib. Bəs önəm verisənsə, onda niyə onların məhvinə çalışırsan? Bu mənada mənim də heç bir ümidim yoxdur.



**"QHT-lərin pullarını saymaqdansa, oğurlanan, talanan neft pullarının hesabatını soruşsunlar"**

***- Avropada Azərbaycanın vətəndaş cəmiyyətinin durumu ilə bağlı hansı rəy formalaşıb?***

- Kənardan heç yaxşı görünmür. Avropada bu vəziyyətdən çox təəccüblənirlər. Heyrət edirlər ki, Azərbaycanda girovluq vəziyyəti mövcuddur, vətəndaş cəmiyyətinə bu qədər basqılar var. Əvvəl "narahatıq" deyirdilər, amma indi doğrudan da narahatdırlar.

***- Azərbaycana qarşı sərt sanksiya tətbiq oluna bilərmi?***

- Mən istəmərəm ki, Azərbaycana qarşı hansısa kəskin sanksiya tətbiq olunsun. İstərdim bu qurumlar üz-üzə oturub vəziyyəti müzakirə etsinlər. Vətəndaş cəmiyyəti ilə müzakirənin perspektivi yoxdur, çünki qabaqlar da olub, vəziyyət yaxşılığa doğru dəyişməyib. Heç olmasa, rəsmi qurumlar öz aralarında müzakirələr aparsınlar ki, niyə bizə basqı var, məsələnin kökü nədir. Azərbaycan Avropa Şurasının Nazirlər Kabinetinə də rəhbərlik edir, yəqin orda da suallarla üzləşəcək.

***- Mirvari xanım, sanksiyalardan danışmışkən, Rusiyaya basqılar, neftin qiyməti şimal qonşumuza təsirini göstərib. Vəziyyət Azərbaycana nə vəd edir?***

- Bəli, artıq vəziyyət Rusiyaya təsir edir. Əgər Rusiya kimi böyük dövlətə təsir edibsə, şübhəsiz ki, Azərbaycana təsir edəcək. Mən ona görə narahatam ki, vəziyyət bizim özümüzə təsir edəcək. Oliqarxın nəyinə təsir edəcək ki? Onlar yığdığını yığıb, milyardları var. Mənim bildiyimə görə, Britaniyada bp-nin ofisi qarşısında aksiya keçirtmək istəyirlər ki, Azərbaycanda insan hüquqları pozulur, amma siz orda fəaliyyət göstərirsiniz. Həmçinin başqa ölkələrin vətəndaş cəmiyyətləri beynəlxalq maliyyə institutlarına tövsiyə hazırlayırlar ki, onlar Azərbaycanda işləməsinlər. Çünki Dünya Bankının, Avropa İnkişaf Bankının da mandatında var ki, onlar insan hüquqlarına hörmət olunan ölkələrdə işləməlidir. Beynəlxalq təşkilatlar tövsiyələrlə çıxış etmək istəyirlər ki, bu banklar Azərbaycana kredit ayırmasın. Bunlar hamısı bizim ziyanımızadır. Mən istərdim ki, müvafiq qurumlar bu prosesə bir "dur" desinlər. QHT-lərin pullarını saymaqdansa, oğurlanan, talanan neft pullarının hesabatını soruşsunlar. Vətəndaş cəmiyyətinin 5-3 manatlıq əmək haqqını araşdırmasınlar. Biz keçən il monitorinq apardıq, ancaq tapa bilmədik ki, Avropa İttifaqının Azərbaycanın dövlət qurumlarına ayırdığı vəsait necə xərclənib, onun şəffaflığı aparılıbmı? Amma Avropa İttifaqından vətəndaş cəmiyyətinə ayrılan layihələri Ədliyyə Nazirliyi qeydiyyata almır. İkili standart elə bizim ölkəmizdə də var. Nəyə görə QHT-lərə qarşı ayrı-seçkilik tətbiq olunur, bəzi QHT-lərin bank hesabları bağlıdır, amma hökumətyönlü təşkilatların işi yağ kimi gedir?

***- Böhran qaçılmaz olacağı təqdirdə Azərbaycanda nə qədər neftçi işsiz qala bilər?***

- Hələ bu ilin əvvəlində mən demişəm ki, ilin axırına kimi ARDNŞ-də çalışanların 50 faizi işdən azad olunacaq. Bir çox idarələrin ləğvi davam edir. Gördünüzmü "Hafka"nın "Bahar-əməliyyat" şirkətinə nə qədər böyük problem yarandı? Əvvəlcədən də bilirdilər ki, olacaq, ancaq tədbir görülmədi. ARDNŞ-nin özündə düzgün olmayan kadr siyasəti nəticəsində hasilat aşağı düşüb. Orda qohumbazlıq, yerlibazlıq o dərəcədə artıb ki...Hasilatın aşağı düşməsinə əsas səbəb kadr siyasətidir. Peşəkar işçilərin işdən çıxarılması, təqaüdə göndərilməsi öz sözünü deyib. Bizdə əl əməyindən çox istifadə olunduğu üçün minimum10 min adam işləməlidir. ARDNŞ-də 59 minə yaxın insan işləyirdi, artıq əksər idarələr bağlanıb. Mənim hesablamama görə, ilin sonunadək 30-35 min işçi qalacaq.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014



# Koreyalı turistlər

Zamin HACI
zaminhaci@gmail.com

**Naxçıvandan daha bir maraqlı xəbər var, deyir, bu il əraziyə xaricdən çoxlu sayda turist gəlmişdir, hətta proses belə davam etsə, yaxın illərdə muxtar respublikanın büdcəsi turizm hesabına doldurulacaqdır, dünya turizm sektorunda Naxçıvanın yeri hardasa İspaniya ilə Maldiv adaları arasında qərar tutacaqdır.**

Əlbəttə, ərazidə öküz döyüşləri və mirvari qumlu çimərliklər olmasa da öz koloriti vardır. Misal üçün, müxalifətçiləri şişləyən MTN matadorları, yalnız kişilərin buraxıldığı Batabat çimərliyi kimi ekzotik məkanlar tikilib zəhmətkeşlərin və şəhərimizin qonaqlarının istifadəsinə verilmişdir. Vasif müəllimin Nuh peyğəmbərin sümüklərini tapıb Milli Məclisin qərarlarına uyğun şəkildə qəbirdə basdırması, xurma və limonla peyğəmbərə ehsan mərasimi düzənləməsi də el-aləmdə məşhurdur. Yerli tarixçilər Vasif müəllimin tapşırığı ilə Heraklın da Şərur rayonu ərazisində yaşadığını isbat ediblər, çünki əslən naxçıvanlı olmayan bir pəhləvanın 12 dəfə qoçaqlıq eləməsi həmişə tarixşünaslıqda şübhə doğururdu. Hazırda Zevsin Olimpi vaxtilə İlandağın başında qurması üzərində elmi iş gedir, inşallah, xalqımız tezliklə sevinər.

Naxçıvanda çıxan "Şərq qapısı" qəzeti builki 29 avqust sayında isə Nuh peyğəmbərin ərazidəki Duzdağ mağaralarında işlədiyini yazmışdır. Sən demə, peyğəmbər o vaxt su çəkiləndən sonra bir müddət işsiz qalıb, ev-eşiyini də daşqın yuduğundan dolanışıq üçün dağdan duz yığıb "Azərsun"a verirmiş.

Bütün bunlar, əlbəttə, Naxçıvana turist axınını gücləndirməli idi. Planetin hər yerindən insanlar axışıb gəlirlər. Muxtar respublikanın mədəniyyət və turizm nazirliyinin məlumatında deyilirmiş ki, avqustda gələn turistlər Türkiyə, İran, Rusiya, Estoniya, Nikaraqua, Barbados, Bruney, Gürcüstan və... Koreyanı təmsil ediblər.

Mən burda Koreyanı niyə ayırdım? Axı doğrudan da hansısa estonun gəlib Naxçıvandan öyrənəcəyi çox şeylər vardır. O cümlədən, nikaraqualıların. Bəs koreyalı Vasif müəllimdən nə öyrənəcək? Onlar Kim Çen In müəllimin rəhbərliyi altında dünya zirvələrinə yüksəlirlər, orda da liderin icazəsi olmadan təndirə çörək yapmaq, yuxa yaymaq, gərdəyə girmək, saqqalı daramaq, tuman geymək, gülmək və ağlamaq, asqırmaq və qusmaq, doğulmaq və gəbərmək rəsmi dövlət fərmanları ilə qadağan edilibdir.

Çox gizli səfərlərdir. Ola bilər koreyalılar əraziyə casus kimi gəliblər, turist donuna giriblər. Məqsəd Nuh peyğəmbəri oğurlayıb aparmaq, Koreyada düyü tarlalarında iməcilikdə işlətməkdir. Yoxsa nəyə gəlsinlər? Koreyalının Naxçıvana turist sifətində gəlməsi o məşhur kinomuzda deyilən kimi, "monqol dublyonkalarını monqol turistlərinin alıb aparması" fason bir şeydir. Ümid edək gələnlər Şimali yox, Cənubi Koreyalı turistlər olubdur. Hərçənd, bu da böyük fərq eləmir, çünki oranın ümummilli lideri Kim İr Sen-in tarixi sözləri yoluxmuza işıq salır: "Bir millət, iki dövlət!"

Bu arada fürsət ikən uca millətimizə məsləhət görürəm koreyalı rejissor Kim Ki Duk-un filmlərinə baxsınlar. Maraqlı filmlərdir. Anarın ssenarisi ilə çəkilən və Hüseyn Cavidi ikinci dəfə repressiya edən "Cavid ömrü" kinosu tipli cəfəngiyatlara baxmaqdansa Koreya filmlərinə baxın, estetik zövq alın, həyatdan da kam alın.

Əlbəttə, turistlər gəldi-gedərdir, bizə qalan sərçələr olacaqdır. Öz millətimizin gərək qədrini bilək. Son günlər hökumətin ehsan qadağasına ümumxalq dəstəyini görəndə mən bir daha anladım ki, biz uca millətik. Sevgili xalqıq, Cəmil müəllim demişkən. Arzu edirəm Cəmil müəllim yazıçı Anar haqda növbəti resenziyasını yazsın, orada Leyla Yunusun Kürdəxanı türməsində döyülüb qançır edilən ayaqlarına da bir-iki abzas həsr etsin. Koreyalı turistlər də Bakıya gəlsinlər.

Bizimlə qalın, əziz tamaşaçılar.

# "Azərbaycanda demokratiyanın vəziyyəti" - müxalifət danışacaq

## AXP sədri Pənah Hüseyn siyasi partiyaların konfransı haqqında danışdı; "müxalifətdə yeni mərhələ başlayır"

**Azərbaycanda bir sıra siyasi partiyaların təşkilatçılığı ilə sentyabrın 17-də saat 12-də ADP qərargahında böyük konfrans keçiriləcək. Mediada konfransa hətta YAP-ın da dəvət ediləcəyi barədə informasiya yayılıb. Konfrans və yayılan xəbərlərə prosesin iştirakçısı olan Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyndən münasibət öyrəndik.**



Pənah Hüseyn bildirdi ki, təxminən bir aydan artıqdır ki, son dövrdə ictimai sektora qarşı repressiya və tanınmış hüquq müdafiəçilərinin həbsi ilə bağlı bir araya gələn 15 siyasi partiyanın qatıldığı proses başlanıb və davam edir: "Bu müddətdə QHT- lərin hazırladığı vahid siyasi məhbus siyahısının dəstəklənməsi barədə mövqe əldə olunub. Hüquq müdafiəçilərinin həbsi və ictimai sektora qarşı repressiyalar pislənib. Siyasi və vicdan məhbuslarının azad olunması barədə bəyanatlar qəbul edilib. Vəkil İntiqam Əliyev haqqında Avropa İnsan Hüquqları məhkəməsinə, habelə həyati riskli xəstəlikləri olan siyasi məhbusların müayinə və xaricdə müalicəsi üçün beynəlxalq tibbi komissiyanın yaradılması haqqında müraciətlər qəbul edilib və göndərilib. Ən mühüm nəticələrdən biri kimi siyasi partiyaların insan hüquqlarının müdafiəsi sahəsində funksional əməkdaşlığı və bunun mexanizmlərinin yaradılması barədə razılıq əldə olunub və konkret addımlar atılıb. Bununla əlaqədar "Demokratiyanın müdafiəsi haqqında Xartiya" hazırlanıb və bu günə 11 siyasi partiya tərəfindən imzalanıb. Axırıncı olaraq Azad Demokratlar Partiyası ona imza atıb. Bir neçə partiya da Xartiyaya qoşulmağı müzakirə edirlər. Xartiyada bir sıra məsələlərə yanaşı, siyasi partiyaların Demokratiya və İnsan Haqları Mərkəzində daimi əməkdaşlıq etməsi barədə razılıq da əksini tapıb. Sentyabrın 17-dəki konfrans Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin xətti ilə təşkil edilir. Bu konfransda həm Xartiyanı imzalayan partiya nümayəndələrinin, həm də digər siyasi partiyalar, QHT, gənclik hərəkatı nümayəndələri, media təmsilçilərinin iştirakı nəzərdə tutulur. Ümumi qaydada beynəlxalq təşkilatların da nümayəndələrinin dəvət olunması nəzərdə tutulub. Yeni Azərbaycan Partiyasının dəvət olunmasına gəldikdə isə, əvvəldən bu məsələdə konseptual yanaşma ondan ibarətdir ki, proses yalnız müxalifətdə olan siyasi partiyaların fəaliyyəti kimi təqdim olunmur, baxmayaraq ki, Mərkəzi təsis edən, prosesdə iştirak eləyənlərin mütləq əksəriyyəti müxalifətdədir və ya özünün müxalifətdə olduğunu bəyan edirlər. Hətta o da razılaşdırılıb ki, məsələn, kimlərin müxalifətdə olub-olmaması barədə mənasız spekulyasiyalara vaxt itirməmək üçün haqqında danışılan prosesin iştirakçılarına nəzərən ümumiyyətlə siyasi partiyalar ifadəsi işlənsin. Razılaşdırıldı ki, konfransın mövzusu da elədir ki, siyasi mövqeyindən asılı olmayaraq bütün siyasi partiyaların dəvəti məqsədəuyğundur. Kimlərin gəlib-gəlməyəcəyi, deməzdim ki, əhəmiyyətsizdir, lakin daha əhəmiyyətlisi odur ki, hamını dəvət etmək siyasi mövqe kimi ortaya qoyulub. Əksər çıxışların, sənəd layihələrinin hakimiyyətə münasibətdə tənqidi olacağı aydındır. Lakin əgər YAP-ın belə bir auditoriyada deməyə sözü və istəyi varsa, buyursunlar. Dəvət məsələsini Demokratiya və İnsan Haqları Mərkəzinin sədri, KXCP lideri Mirmahmud Mirəlioğlu öz üzərinə götürüb. Hesab edirəm dəvət YAP-a da olacaq".

AXCP-nin siyasi partiyaların konfransında iştirak edib-etməyəcəyi ilə bağlı suala Pənah Hüseyn belə cavab verdi: "Bu proses başlandığı ilk gündən Milli Şuranın sədri professor Cəmil Həsənli, həm də AXCP sədri Əli Kərimli dəvət olunub. Onların bu prosesdə iştirakı arzu olunub. Hər dəfə AXCP rəhbərliyi tədbirlərə dəvət edilir, o cümlədən nəzərdə tutulan konfransa da dəvət ediləcəklər. Arzu olunandır ki, ölkənin əsas siyasi partiyalarından biri olan AXCP və son seçkilərdə müxalifətin prezidentliyə namizədi olmuş Cəmil Həsənli konfransda iştirak etsin".

Konfransda müzakirə olunacaq məsələlər, hansısa sənədlərin qəbul edilməsi məsələsinə gəlincə, P.Hüseyn dedi ki, konfransın mövzusu Azərbaycanda demokratiyanın vəziyyətidir. Müzakirələrin nəticəsi olaraq belə razılıq əldə olunub ki, konfransda bir məruzə olsun. Məruzəni Müsavat Partiyasının başqanı İsa Qəmbər edəcək. İstər iştirak eləyən siyasi partiyaların sədrləri, nümayəndələri, istər dəvət olunmuş digər iştirakçıların çıxışları gözlənilir. Konfransı təşkil edən partiyaların adından sənəd layihələri, həmçinin qətnamə layihəsi hazırlanıb. Bunun müzakirəsi davam edir və yekun layihə mətni təşkilatçıların sentyabrın 16-da keçiriləcək toplantısında razılaşdırılacaq. Bu qədər sayda təşkilatın belə həssas mövzuda hər şeyi detallı razılaşdıra bilməsi mürəkkəb işdir. Odur ki, hər bir siyasi partiya və təşkilat məsələlər barədə özünün xüsusi mövqeyi ilə, qeyd-şərti ilə çıxış da edə bilər və hansı sənəd qəbul ediləcəksə oraya hətta yazılı şəkildə öz qeyd-şərtini qoya bilər. Konfransın qətnamə layihəsində bir sıra prinsipial və yeni, diskussion məsələlər ifadə olunub. Şübhəsiz, yekun mətn konfransda məruzə, çıxışlar və təkliflər nəticəsində hazırlanacaq. Qətnamədən əlavə bəyanat və müraciətlərin, o cümlədən son dövrdə ictimai sektor təmsilçilərinin həbsi ilə bağlı sənədlərin də qəbul edilməsi gözlənilir".

AXP sədri sonda vurğuladı ki, siyasi partiyaların daimi funksional əməkdaşlığı 2014-cü ilin ən ciddi siyasi hadisələrindən biridir. Bu prosesi baş tutmuş hesab eləmək olar. Bu konfransda bir sıra məsələlərə aydınlıq gələcək. Odur ki, bu tədbir prinsip etibarilə Azərbaycan siyasi həyatında hətta yeni bir mərhələnin başlanması kimi qiymətləndirilə bilər".

❑ **Etibar SEYİDAĞA**

# Ermənilər öz hökumətlərinə Allahdan ağıl diləyirlər

**Ermənistanın "Milli özünütanıma" birliyinin lideri Paruyr Ayrikyan bildirib ki, bu gündən Ermənistan prezidenti Serj Sərkisyanın istefası tələbi ilə olan aclıq aksiyasını saxlayır.**


Paruyr Ayrikyan

Məlumata görə, sentyabrın 7-də P.Ayrikyan ölkə başçısının fəaliyyətindən narazı olduğunu bildirərək aclıq aksiyasına başlayıb. O bildirib ki, aclıq aksiyasını "prezident istefaya gedəndən sonra" dayandıracaq və onu hər gün saat 17:00-18:00 arası hər gün Prezident Administrasiyası qarşısında davam edəcək.

"Mən sadəcə aksiya keçirirəm, mən deməmişdim ki, məsələni həll edəcəyəm. Məsələni millət həll etməlidir, aclıqla isə sən sadəcə, tələb irəli sürürsən. 7 nəfərin (aksiyaya qoşulan 6 digər partiyalar) birgə aclıq aksiyasını etiraz kimi qəbul etmək olar. Bu, 7 min adamın yığışmasından daha əhəmiyyətlidir" - deyə P.Ayrikyan sözünə əlavə edib. Bundan əlavə o, aksiyaya qatılan tərəfdarları ilə birgə kilsələri gəzərək Allahdan hakimiyyətə ağıl verməsini istəyib.

Ayrikyan Ermənistanda keçirilən son prezident seçkilərində namizədliyini irəli sürmüşdü. O zaman ona qarşı İrəvanın mərkəzində həyata keçirilən sui-qəsd nəticəsində döş qəfəsindən güllə yarası almışdı.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014

# Azərbaycan-Türkiyə genişmiqyaslı təlimlərinin şok səbəbi

İki qardaş ölkənin ortaq "əzələ nümayişi" təkcə işğalçı Ermənistana və Qarabağ nizamlanmasını süni şəkildə uzadan qlobal güclərə xəbərdarlıq deyil; ilk növbədə Rusiyanın münaqişə bölgəsində yeni müharibəni alovlandırmaq planını önləməyə yönəlik preventiv addımdır...

**Azərbaycan öz hərbi qüdrətini artırmaqda davam edir. Ərazisinin 20 faizi 20 ildən artıqdır işğal altında olan bir ölkənin, üstəlik sülh danışıqlarının illərlə heç bir səmərə vermədiyi zamanda buna tam haqqı çatır. Ölkənin müdafiə qabiliyyəti isə əsasən çoxşaxəlilik prinsipi əsasında təmin edilir. Söhbət müxtəlif ölkələrdən modern silah-sursat almaqla yanaşı, həm də yerli hərbi sənayeni inkişaf etdirməkdən gedir.**

Ötən həftə bu xüsusda baş verən bir neçə mühüm olay prosesin dayanmadığını, əksinə Dağlıq Qarabağ münaqişəsi zonasında yaşanan son presedentdən sonra daha intensiv xarakter aldığını göstərdi. Onlardan biri Bakıda Beynəlxalq Hərbi Müdafiə Sənayesi Sərgisinin - ADEX-2014-ün açılmasıdır. Sərgidə, təbii ki, Azərbaycan da öz hərbi məhsulları ilə təmsil olunmuşdu.

Tədbirin əhəmiyyəti barədə danışan Azərbaycan müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev münaqişə səbəb göstərilərək Azərbaycana silah satışına embarqolar qoyulduğunu deyib: "Ona görə də biz müdafiə sənayemizi inkişaf etdiririk və bir sıra dövlətlərlə hərbi əməkdaşlıq sahəsində əlaqələr yaratmışıq. Müdafiə sənayemizi qısa müddətdə yaratmaq üçün 30-dan çox dövlətlə əməkdaşlıq qurduq, müasir texnologiyalar əldə etdik". Musayev bir sıra dövlətlərlə hərbi-texniki əməkdaşlıq sahəsində komissiyalar yaradıldığını da vurğulayıb: "Türkiyə və digər dövlətlərlə belə komissiyalar yaratmışıq. Hərbi-texniki əməkdaşlığın genişləndirilməsinə çalışırıq, sərgilərin keçirilməsində də məqsəd budur. ADEX-2014 kimi sərgiləri ancaq inkişaf etmiş dövlətlər keçirə bilir".

İkinci mühüm hadisə İsrailin müdafiə naziri Moşe Yalonun Bakıya sürpriz və tarixi səfəri hesab oluna bilər. Qeyd edək ki, bu, İsrail müdafiə nazirinin Azərbaycana ilk səfəri olub və bu baxımdan tarixi əhəmiyyət kəsb edir. Artıq prezident İlham Əliyev İsrail nümayəndə heyətinin rəhbəri Moşe Yalonu qəbul edib. Görüşdə İsraillə Azərbaycan arasında hərbi tərəfdaşlıq məsələləri müzakirə edilib. "Mən Azərbaycana tarixi səfər edən ilk İsrail müdafiə naziri olaraq çox şadam. Bizim ikitərəfli münasibətlərimiz çox məhsuldardır və ölkələrimiz arasında strateji tərəfdaşlıq inkişaf edir" - deyə Yalon qəbulda bildirib.

Bu, doğrudan da, belədir. İsrail Azərbaycanın əsas silah satıcılarından biridir və iki ölkə arasında hərbi-texniki ticarətin həcmi artıq milyard dollarlarla ölçülür.

Azərbaycan öz hərbi parkını modernləşdirmək üçün, nə qədər qəribə də olsa, işğalçı Ermənistanın əsas müttəfiqi Rusiyanın bazarından da geniş istifadə edir. Ukraynadakı olaylara, Qərb-Rusiya qarşıdurmasına və cəbhədəki son insidentə baxmayaraq bu əməkdaşlıq ənənəvi axarda davam edir. Məsələn, bu arada məlum olub ki, Rusiya Azərbaycana 100 ədəd T-90S tankının çatdırılması prosesini 2015-ci ilin əvvəlində yekunlaşdıracaq. Bunu Rusiyanın "Rosoboroneksport" şirkətinin baş direktorunun müşaviri Esen Topoyev deyib.

Rusiyanın 2010-cu ildə imzalanan sazişə uyğun olaraq Azərbaycana silah və hərbi texnikanın çatdırılmasını 2017-ci ildə yekunlaşdıracağını deyən E. Topoyev qeyd edib ki, əlavə təchizatdan söhbət getmir. "2010-cu ildə biz böyük paket imzaladıq. Müxtəlif tarixlər var, silahların bir hissəsini bu il çatdırdıq, digərlərini isə 2015-ci ildə çatdıracağıq", - deyə o vurğulayıb.

Xatırladaq ki, bir müddət öncə Rusiyanın hərbi-texniki əməkdaşlıq üzrə Federal Xidməti rəhbərinin müavini Rusiyanın Azərbaycana 100 ədəd T-90S tankının çatdırılması prosesini bu ilin aprelində yekunlaşdırdığını bildirib və əlavə olaraq daha 100 tankın çatdırıla biləcəyini istisna etməyib. Topoyev onu da deyib ki, Azərbaycan tərəfi "Rosoboroneksport"a ölkə ərazisində helikopterlərin və ağır hərbi texnikanın təmiri ilə bağlı mərkəzlərin yaradılması xahişi ilə müraciət edib. E. Topoyev həmçinin qeyd edib ki, "Rosoboroneksport" Azərbaycan tərəfinə T-72 tanklarını müasirləşdirməyi təklif edib. Söhbət T-72-lərin Tanklara Dəstək Hərbi Maşınların (TDHM) səviyyəsinə çatdırılmasından gedir.

***

Son həftənin Azərbaycanın hərbi göstəricilərinə dəxli olan başqa bir önəmli hadisəsi isə, əlbəttə ki, Türkiyə və Azərbaycanın bütün növ qoşun hissələrinin və 30 min hərbçinin (!) iştirakı ilə 1 həftəlik birgə hərbi-taktiki təlimlərin keçirilməsidir. Belə genişmiqyaslı təlimlər iki qardaş ölkə arasında ilk dəfədir reallaşır və Azərbaycanın öz müdafiə qüdrətinə əmin olmaq üçün ikiqat önəm daşıyır. Çünki müharibə vəziyyətində olan bir ölkənin yeni silahları sınaqdan keçirməsi, hərbçilərə onlardan praktik surətdə istifadə vərdişi aşılamaq da vacibdir.

Azərbaycanın məhz Türkiyə ilə hərbi sahədə yaxınlaşması, üstəlik, işğalçı Ermənistana, onun havadarlarına ələlxüsus da qondarma "soyqırım"ın 100 illiyi ərəfəsində güclü bir xəbərdarlıq mesajıdır ki, Azərbaycana hücum edən qarşısında Türkiyəni görəcək. Eyni zamanda yeni azadlıq müharibəsi başlarsa, qardaş ölkənin bizdən hərbi dəstəyi əsirgəməyəcəyinin anonsudur. Nəhayət, bu, eyni zamanda, Qarabağ ixtilafını süni şəkildə uzatmağın bədəlinin ağır ola biləcəyi barədə əyani xatırlatmadır.






***

Bu xüsusda sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadənin fikirləri də maraqlıdır. Politoloq Ukraynadakı hadisələrə görə Qərbin təzyiqlərindən sığortalanmaq üçün Rusiyanın Qafqazda yeni müharibə ssenarisinin hazırladığını bildirib.

Xatırladaq ki, son günlər regionda münaqişə tərəflərinin ciddi fəallığı hiss olunur. Sentyabrın 3-7-si tarixlərində Ermənistandakı Alagöz təlim-məşq kompleksində Rusiya hərbi bazası və Ermənistan Müdafiə Nazirliyi hərbçilərinin iştirakı ilə batalyon-taktik təlimlər keçirilib. 1500 hərbçinin, 300 zirehli tank, avtomobil və xüsusi hərbi texnikanın cəlb olunduğu hərbi təlimlər kiçik bir kontingenti əhatə edib. Buna cavab olaraq isə Türkiyə və Azərbaycan daha geniş miqyaslı hərbi təlimlərə start verib.

Vəfa Quluzadə aktual.az-a bildirib ki, ABŞ və Avropanın sanksiyalarından çıxılmaz durumda qalan Rusiya hakimiyyəti təşviş içində Qərbə təzyiq üsulu axtarır: "Burada gözlənilməz hadisələr baş verə bilər. Putin Qərbə, Avropaya təzyiq üsulu axtarır ki, ondan əl çəksinlər. Amma onlar Rusiyadan əl çəkən deyillər. Ona görə ki, Putin bütün beynəlxalq hüquq normalarını pozub və istəyir ki, bu pozuntu ilə Qərb barışsın. Qərb iqtisadi, hərbi baxımdan Rusiyadan qat-qat güclüdür. Ona görə də onlar Putinin qabağından çəkinməyəcəklər. Burda çıxış yolu Putinin geri çəkilməsidir. Amma məsələ bundadır ki, Putin çəkilsə, özü çökəcək. Yəni bu şəraitdə ondan gözlənilməz addımlar gözləmək olar".

Politoloq hesab edir ki, Putin diqqəti yayındırmaq üçün regionda ikinci Qarabağ müharibəsini başlamaq istəyir: "Rusiya regionda belə bir təxribata əl ata bilər. Ona görə də buna hazır olmaq lazımdır. Çünki bu dəqiqə dünyanın bütün diqqəti Ukraynadadır, amma burada yeni bir müharibə olsa, diqqətlər bizim regiona yönələcək. Baxmayaraq ki, bu dəqiqə ermənilər heç bir müharibədə maraqlı deyillər. Amma təlim keçirmək nədir? O təlimi keçirməklə Qərbə mesaj verir ki, məndən əl çəkin. Mən burada böyük bir müharibəyə başlaya bilərəm. Bu şəraitdə isə Azərbaycanla Türkiyənin birgə hərbi təlimləri olduqca yerindədir. Bu da Rusiyaya mesajdır ki, əgər sən belə bir addım atsan, Türkiyə Azərbaycanla bərabər sənin qarşına çıxacaq. Rusiya bilməlidir ki, Türkiyənin əsgəri gücü Rusiyanınkından qat-qat artıqdır. Ona görə də Türkiyə əsgəri baxımından regionun ən güclü dövlətidir. Üstəlik, Türkiyə NATO-ya üzv dövlətdir və Türkiyə Azərbaycanla burada rus-erməni təcavüzünə cavab vermək iqtidarındadır. Hesab edirəm ki, bu təlim bir mesaj kimi Rusiyaya çatacaq və regionda stabillik pozulmayacaq".

Sabiq dövlət müşaviri ikinci Qarabağ müharibəsinin başlamaq ehtimalını bu cür izah edib: "Rusiya Ermənistanda daima hərbi təlimlər keçirir. Eyni zamanda Rusiya Azərbaycana hərbi texnika satır. Bir neçə gün öncə Rusiya hakimiyyətinə yaxın olan RBK telekanalında xəbər getdi ki, Rusiya Azərbaycana ən müasir 100 ədəd T-92 tankı satıb. Rusiya bunu puldan başqa, Azərbaycana ona görə satır ki, Azərbaycan ürəkli olsun və Ermənistanı vursun. Yəni bir sözlə, müharibə olsun. Rəsmi Moskvanın bizə silah satması, münasibətinin yumşalması, Azərbaycana dost deməsi o deməkdir ki, yəni ürəkli olun, biz sizi vurmayacağıq. Bir sözlə, Rusiya, sadəcə, müharibə etməkdə maraqlıdır və mən əminəm ki, Azərbaycan rəhbərliyi bunu başa düşür".

Siyasi şərhçinin fikrincə, əslində, biz torpaqlarımızı hərbi yolla azad edə bilərik, amma bunun fəsadlarını da bilməliyik: "Bu dəqiqə bütün dünyanın diqqəti Azərbaycana, Ermənistana doğru yönələcək və Azərbaycan güclü olduğuna görə birinci mərhələdə Ermənistana böyük zərbələr dəyəcək. Elə buna görə də bütün dünya bizim əleyhimizə çevriləcək. Rusiya da elə bunu istəyir. Ona görə də Rusiyanın tonunun dəyişməsinə biz aldanmamalıyıq. Bundan başqa, onu da nəzərə almalıyıq ki, Rusiya ilə Ermənistanın hərbi müqavilələri var. Əgər Ermənistan müharibə vəziyyətində olsa, Rusiya Ermənistanın köməyinə gələcək. Eyni zamanda, Kreml bilməlidir ki, Türkiyə Azərbaycanı sata bilməz. Çünki bu, Türkiyənin özünə zərbə ola bilər. Bu məsələdə Azərbaycana diqqətsizlik edən iqtidar Türkiyədə hakimiyyətdə qala bilməz. Ona görə də Türkiyə Azərbaycanın arxasında ciddi dayanıb və dayanmaq məcburiyyətindədir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014

**Avropa Birliyi Rusiyaya qarşı sanksiyaları daha da sərtləşdirib. Sanksiyalar 5 banka, 3 neft şirkətinə, Müdafiə Nazirliyinə tabe olan 9 şirkətə tətbiq edilib. Sanksiyalar nəticəsində Avropa Birliyi "Rosneft", "Transneft", "Qazpromneft" yanacaq-energetika şirkətləri ilə uzunmüddətli maliyyə yatırımı tələb edən layihələrə də qadağa qoyub.**

# Rusiyaya qarşı sanksiyalar Azərbaycana da təsir edəcək

## Ekspertin fikrincə, Qərb Azərbaycan, Gürcüstan və Ukraynanın Kremlin təsiri altına düşməsinin qarşısını almağa çalışır

Buna qədər imzalanan müqavilələrə sentyabr ayının sonunda bir daha baxılacaq. Bəzi müqavilələrin birtərəfli qaydada ləğv edilməsi də mümkündür. Avropa Birliyi "Sberbank", BTB, "Qazprombank", BEB, "Rosselxozbank"la əməkdaşlığa da son qoyur. Bundan sonra Avropa Birliyi bu bankların heç birinə kredit ayırmayacaq, onlarla müddəti 30 günü aşan qiymətli kağız əməliyyatları aparılmayacaq.

Qeyd edək ki, bir sıra müşahidəçilər bu sanksiyaları "öldürücü" adlandırır. Məlumatlara görə, sanksiyalar qüvvəyə minəndən bir neçə saat sonra Rusiyada rubl dəyərdən düşməyə başlayıb. Ehtimal olunur ki, Qərb sərt sanksiyalar vasitəsilə Rusiya iqtisadiyyatını çökdürməyə, Putin hakimiyyətini zəiflətməyə nail olmağa çalışacaq. Ancaq bu sanksiyalar eyni zamanda, Rusiya ilə qonşu olan Azərbaycanı da birbaşa maraqlandırır. Çünki Azərbaycan iqtisadiyyatı, kənd təsərrüfatı bazarı Rusiya ilə birbaşa bağlıdır. Bu mənada sanksiyaların Azərbaycana da təsirləri qaçılmaz olacaq. Artıq yerli bazarda məhsulların bahalaşması müşahidə olunur. Eyni zamanda, Rusiya iqtisadiyyatının çökməsi bu ölkədə miqrant kimi çalışan bir neçə milyon azərbaycanlının, yəni həm də onların Azərbaycandakı yaxınlarının maddi durumuna təsir edəcək.

Yeri gəlmişkən, bir neçə il əvvəl rəsmi olaraq hər il Rusiyadan Azərbaycana 3 milyard dollar pul köçürüldüyü haqda məlumat verilmişdi. Bu mənada Rusiyaya qarşı sanksiyaların Azərbaycana da təsirsiz ötüşməyəcəyi aydındır.


Orxan Qafarlı

Ankara Universitetinin doktorantı, Rusiya üzrə tədqiqatçı Orxan Qafarlı deyir ki, son sanksiyalar Moskvanı Kiyevlə danışıqlar masasına oturtmaq üçündür. Ekspertə görə, separatçıların atəşi davam etdirməsi Qərbdə narahatlıqla qarşılanır: "Şərqi Ukrayna ilə Kiyev arasında Minskdə atəşkəs sazişinin imzalanmasına baxmayaraq, separatçı qüvvələr durmadan bu anlaşmanı pozmaqdadır. Separatçıların atəşkəsi pozmaqda əslində Rusiya ilə ortaq maraqları var. Bu maraqlar Kiyevdə Poroşenko hökumətinin əslində danışıqlarda məğlub olduğu təəssüratını yaratmaqdan ibarətdir. Ukraynada Poroşenko iqtidarının legitimliyini sual altına qoymağa çalışırlar. Məqsəd çox aydındır. Yenidən Rusiyaya qarşı loyal qüvvələri Kiyevdə iqtidara gətirmək. ABŞ və AB sülh prosesinin bu formada aparılmasından çox narahatdır. Bu dəfə Rusiyanı durdurmaq üçün daha sərt sanksiyalara əl atmaq niyyəti var. ABŞ bu dəfə sanksiyaları daha çox bank və maliyyə sistemini çökdürmək üçün qəbul edəcək".

O.Qafarlı deyir ki, yeni sanksiyaların qəbul edilməsi ilə ABŞ Rusiyada üç prosesin qarşısını almağa çalışacaq. Birincisi, Rusiyanın Şərqi Ukraynada fəaliyyətlərini durdurmaq. İkincisi, Çin ilə Rusiya arasında ticarətin rubl və yen üzərində aparılması prosesini dayandırmaq. Və nəhayət üçüncüsü, Rusiyanın Şanxay Əməkdaşlıq Təşkilatında sədrlik dövründə Qərbə qarşı bloklaşma siyasətindən döndərmək: "ABŞ xüsusilə son günlərdə Rusiyanın qütbləşmə siyasətindən narahatdır. Çünki belə bir gediş ABŞ-ın xüsusilə postsovet coğrafiyasında müttəfiqlərini itirməsi təhlükəsi yaradır. Bunu dayandırmanın yolu Rusiyanın maliyyə sistemini çökdürərək Çin ilə çıxış yolu kimi görünən ticarət münasibətlərini dayandırmaqdır".

Yeni sanksiyalar Azərbaycan-Rusiya münasibətlərinə də mənfi təsir göstərəcək. O.Qafarlı deyir ki, iki ölkə arasında bank əməliyyatları məsələsində ciddi sıxıntılar olacaq. Azərbaycanın Şimali Qafqaz muxtar respublikaları ilə enerji ixracatından kapital yatırımına qədər uzanan münasibətlərinə mənfi təsir edəcək: "Hər iki ölkə arasında infrastruktur layihələr var. Bütün bu qeyd etdiyimiz sahədə ciddi geriləmə rəsmi statistikada olacaq. Kənd təsərrüfatı münasibətləri nağd ödəmə sistemində fəaliyyət göstərdiyi üçün və bankla əlaqədə olmaması səbəbindən bu sahəyə ciddi təsir göstərməyəcək. Lakin bizim Rusiya ilə enerji və silah ticarəti çox ciddi geriləyəcək. Bunu durdurmaq mümkün olmayacaq.

Məsələlərə strateji və uzun zamanlı baxsaq, Azərbaycanın Rusiya mərkəzli siyasi təsir altına düşməməsi üçün faydalı görünür. ABŞ bu sanksiyalar vasitəsilə Azərbaycan, Gürcüstan, Ukrayna və Orta Asiya ölkələrinin Rusiya təsiri altına düşməsinin qarşısını almağa çalışır. Bu sanksiyalar olmasaydı, Rusiya Çin və Hindistanla münasibətlərində Şanxay Əməkdaşlıq Təşkilatı ilə vəziyyətdən çıxmağı planlaşdırırdı.

Rusiyanın bu sanksiyalara qarşı yeni əks addımlar atacağını gözləmək lazımdır. ABŞ bank sisteminə qarşı Moskvanın əks sanksiyaları daha çox Avropaya mənfi təsir göstərəcək. Çünki böyük ehtimalla, Rusiya hava sahəsini sərnişin təyyarələri üçün bağlayacaq. Ərzaq və geyim markaları siyahısını yeniləyəcək. Bu əks addımlar, əlbəttə, ciddi şəkildə Avropa bazarına təsir göstərəcək".

❑ KƏNAN

# NATO sammitində erməni fitnəsi ilə bağlı ilginc məlumat

## Elxan Mehdiyev: "Azərbaycanın prinsipial mövqeyi və Türkiyənin rolu öz sözünü dedi"

**"Ermənistan prezidenti Serj Sərkisyanın NATO-nun Uels sammitində qəbul olunan sənədə imza atdığı barədə məlumatlar doğru deyil. Bu sənədə ancaq Alyansın üzvü olan ölkələr imza atıb. Ermənistan isə NATO üzvü olmadığından sənədi imzalaması mümkünsüzdür".**

NATO-nun Uels sammitində Azərbaycanın ərazi bütövlüyünün təsdiqindən bəhs edən sənədin qəbulundan danışan konfliktoloq Elxan Mehdiyev bunu "Yeni Müsavat"a açıqlamasında bildirdi. Onun sözlərinə görə, sammitdən öncə həmin sənədin dilinin dəyişdirilməsi istiqamətində israrlı mövqe var imiş və ermənilər özlərinə sərf edən variantın qəbuluna cəhd göstərirmiş: "Həmsədr ölkələr - Amerika və Fransa dilin dəyişdirilməsini dəstəkləyirdi. Ancaq Azərbaycanın NATO-dakı səfiri və XİN buna imkan vermədi. Ermənilər istəyirdi ki, Madrid prinsiplərində əksini tapan ərazi bütövlüyü, milli müqəddəratı təyinetmə, zor işlətməmə prinsiplərini sənədə ayrıca bölmə kimi salsınlar. Serj Sərkisyanın sammitdə iştirakı da buna hesablanmışdı. Çünki o, son iki sammitdə iştirak etməmişdi. Ancaq bu dəfə onu əmin etmişdilər və demişdilər ki, gəlin burda o debatları aparın. Bu səbəbdən Sərkisyan gəldi və alçaqcasına Türkiyənin sammitdə Azərbaycana lobbiçilik etdiyini dedi. Azərbaycanın siyasi rəhbərliyi, NATO-dakı səfirliyimiz Türkiyə tərəfi ilə bərabər bu işdə çox gərgin çalışdı və onların layihəsinin keçməsinə imkan vermədi". E.Mehdiyev deyir ki, əgər Azərbaycan tərəfinin ciddi etirazı olmasaydı, faktiki olaraq həmsədrlər - Amerika və Fransa tərəfi də həmin layihəyə etiraz etmirdi və sənəd qəbul olunacaqdı. Lakin Azərbaycanın


Elxan Mehdiyev

prinsipial mövqeyi və Türkiyənin rolu öz sözünü deyib.

E.Mehdiyev bildirdi ki, Ukrayna hadisələri kontekstində ermənilərin istəyinə uyğun olaraq milli müqəddəratla bağlı bənd əlavə etmək bütün prinsiplərin alt-üst edilməsi olardı: "Bununla Rusiyanın Ukraynadakı əməllərinə də yol açılardı. Ancaq demək olmaz ki, Ukrayna hadisələri Azərbaycanı xilas edib. Çünki bundan əvvəl də analoji mövqelər olmuşdu, o zaman heç Ukrayna hadisələri baş verməmişdi. Sənədin digər variantının qəbulu ermənilərə spekulyasiya üçün yol açırdı. Düzdür, Azərbaycan Madrid prinsiplərini qəbul edib. Amma milli müqəddərat məsələsinə də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yanaşır. NATO milli müqəddəratla bağlı bəndi sənədə əlavə etsəydi, erməni bundan daha çox bəhrələnəcəkdi və sənədi mütləq təsdiq olunma kimi qeyd edəcəkdi. Bu mənada qəbul olunan bəyanat Azərbaycanın maraqlarına xidmət edir və daha güclü mövqedir. Orda yazılır ki, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəkləyirik, məsələ bu prinsiplər əsasında həll olunsun. Həmçinin BMT və Helsinki Aktı, beynəlxalq tələblər də əksini tapır".

Konfliktoloqun sözlərinə görə, NATO erməni işğalına sona verilməsini Azərbaycanın ərazi bütövlüyü çərçivəsində görür: "Siyasi nəticə budur". Ancaq ekspert hesab etmir ki, bunun ardınca işğala son verilməsi üçün NATO-nin digər təsir rıçaqları işə salına bilər: "İki il qabaq da belə bir sənəd qəbul olunmuşdu. Sonra da deyirlər ki, məsələ ilə Minsk Qrupu məşğul olur, orda da NATO-nun iki ölkəsi - Amerika və Fransa var".

❑ Cavid TURAN



# İŞİD daha bir əcnəbi girovu edam elədi

**"İslam Dövləti" terrorçu qruplaşması Böyük Britaniyanın vətəndaşı Devid Heynsin başının kəsilməsi səhnəsini əks etdirən videoçarxı internet vasitəsi ilə yayıb. APA-nın "RİA Novosti"-yə istinadən verdiyi xəbərə görə, bu barədə ABC News telekanalı məlumat yayıb.**

Telekanalın məlumatına görə, video "İslam Dövləti"nin internetdə fəallığının monitorinqini həyata keçirən SITE təşkilatının saytında dərc olunub. Məhz bu təşkilat birinci olaraq amerikalı jurnalist Stiven Sotloffun edam faktını təsdiqləmişdi.

Devid Heyns Suriyada 2013-cü ildə girov götürülüb. "Guardian" nəşri qeyd edir ki, Suriyaya humanitar missiya ilə gəlmiş Devid Heyns cəmi 3 gün sonra girov götürülüb. Nəşrin məlumatına görə, baş kəsilmə səhnəsini əks etdirən videoçarx Heynsin ailəsi onunla əlaqə yaratmaq xahişi ilə silahlılara müraciət etdikdən 1 gün sonra dərc edilib.

Qeyd edək ki, terrorçular sentyabrın 2-də ABŞ-ın "Time" nəşrinin müxbiri Stiven Sotloffu, bundan az öncə isə amerikalı jurnalist Ceyms Foulini edam edib.



# "Türkiyə-ABŞ münasibətləri ciddi şəkildə zədələnib"

## Ərəstun Oruclu: "Bölgədə ənənəvi dayaqlarını itirən Amerikanın güclü müttəfiqə ehtiyacı var"

**Xəbər verdiyimiz kimi, ABŞ-ın İŞİD-ə qarşı mübarizə məqsədilə yaratdığı yeni koalisiyaya Türkiyə qoşulmayıb. Sentyabrın 11-də Ciddədə keçirilən toplantıda Türkiyə hökuməti Mosul konsulluğu əməkdaşlarının İŞİD-in əlində girov qaldığını əsas gətirərək koalisiyaya qatılmaqdan imtina edib. Daha sonra Türkiyəyə səfər edən ABŞ dövlət katibi Con Kerrinin Ankaranı inandırdığı iddia olunsa da, bu məlumat təsdiqini tapmayıb.**

Ötən gün Misirə gedən C.Kerri Ərəb Dölətləri Liqasının baş katibi Nəbil Ərəbi və Misir prezidenti Əbdülfəttah əl-Sisi ilə görüşüb. BBC-nin məlumatına görə, ABŞ hökuməti İŞİD-ə qarşı əməliyyatlarda əsas müttəfiq kimi Misiri nəzərdə tutur. Bu isə onu göstərir ki, Misir hakimiyyəti hərbi əməliyyatlara tam şəkildə dəstək verməyə hazırdır. Yeri gəlmişkən, bir qədər əvvəl İŞİD Misiri də hədələmişdi.

Bir sıra müşahidəçilərə görə, Türkiyə hakimiyyətinin İŞİD-ə qarşı mübarizə koalisiyasına qoşulmaması bölgədə yeni situasiya yaradır. Artıq ABŞ hökumətinin "İncirlik" hərbi hava bazasını Türkiyədən köçürməklə bağlı düşündüyü haqda bilgilər də gəlir. Bu isə öz növbəsində Vaşinqton-Ankara xəttində ciddi qırılma olduğunu göstərir.

Xatırladaq ki, ABŞ-ın 2003-cü ildə İraqa müdaxiləsi zamanı Türkiyə parlamenti martın 1-də keçirdiyi səsvermədə ABŞ ordusunun hücum əməliyyatında Türkiyənin iştirak etməməsi ilə bağlı qərar vermişdi. Bu qərar uzun illər iki ölkənin münasibətlərində qırılma nöqtəsi kimi qalmışdı.

Mövzunu "Yeni Müsavat"a şərh edən politoloq Ərəstun Oruclu son hadisələri Yaxın Şərqdə münasibətlər sisteminin dəyişdiyinin işarəsi adlandırdı. Politoloqun fikrincə, Türkiyənin ABŞ koalisiyasına qoşulmayacağı daha əvvəldən bəlli olub: "Yaxın Şərqdə dənizlər artıq dəyişir. Unutmayaq ki, "The Wall Street Journal" dezinformasiya yayacaq qəzet deyil. Bəzi iddialar da var ki, guya ortada hansısa anlaşma var və Türkiyə bunu girovlar, digər səbəblərə görə gizlədir. Ancaq hərbi dəstək elə bir şeydir ki, onu gizlətmək olmaz, o özünü çox tez bir zamanda göstərəcək. Bu, kəşfiyyat əməliyyatı deyil ki, illərlə gizli saxlanıla? Mənə elə gəlir ki, Türkiyə-ABŞ münasibətləri ciddi şəkildə zədələnib. Əslində, Ərdoğanın Obama ilə görüşü zamanı Fətullah Gülənin təhvil verilməsi məsələsini qaldırması, düşünürəm ki, yaxşı münasibətin əlaməti deyildi. Ən azı ona görə ki, Ərdoğan çox gözəl bilir ki, ABŞ Türkiyə deyil ki, Rauf Mirqədirovu həbs edib Azərbaycana göndərsin. Yəni ABŞ-da məhkəmə sistemi müstəqildir, hakimiyyətin qolları arasında səlahiyyət həddi var. Düşünmürəm ki, prezident Obama Amerika məhkəməsinə hansısa tapşırıq verə bilər. Bunu Ərdoğan çox gözəl bilir. Və bunu bilə-bilə Türkiyə prezidentinin ABŞ qarşısında bu məsələni qaldırması, düşünürəm ki, bilərəkdən Vaşinqton qarşısında yerinə yetirilməsi mümkün olmayan şərt qoymaq cəhdi idi. Bu şərt də baş tutmadı. Çünki bu məsələ administrasiyanın səlahiyyətinə aid olan məsələ deyildi. Və beləliklə, Türkiyə hakimiyyətinin İŞİD-lə mübarizədə ABŞ-a dəstək verməmək üçün əsas vardı".

Ə.Oruclu deyir ki, Türkiyənin İŞİD-ə qarşı mübarizəyə qoşulmamasının yeganə səbəbi Mosul konsulluğunun girov saxlanılan əməkdaşları deyil: "Türkiyənin ABŞ koalisiyasına qoşulmamasının obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəblərdən biri ondan ibarətdir ki, xatırlayırsızsa, Səddam Hüseynə qarşı sanksiyalar tətbiq olunan zaman Türkiyə bu sanksiyaları dəstəklədi və buna görə də xeyli itki verdi. ABŞ isə bu itkiləri kompensasiya etmədi. Daha bir səbəb Suriya siyasətidir. Bildiyiniz kimi, Ərdoğan Suriyada baş verən proseslər zamanı çox aktiv mövqedə idi və Suriyaya hərbi müdaxiləni zəruri sayırdı. Ancaq həmin vaxt Qərb bu məsələdən çəkindi və Ərdoğan faktiki olaraq Suriya ilə düşmən vəziyyətində qaldı. Düzdür, burda yeganə səbəb Qərbin siyasəti deyildi. Ərdoğan özü də bu məsələdə Qərbdən də çox canfəşanlıq göstərirdi.

Nəhayət, bu bölgədə yaranmış vəziyyət onu göstərir ki, Türkiyə hökumətinin bu gün hansısa fərqli geosiyasi prioritetləri var. Eyni zamanda bir çox məsələlər üzrə ABŞ-la mövqeləri fərqlidir. Ona görə də bu cür məsuliyyətli və ciddi əməliyyatda iştirak etmək istəmir".

Ərəstun Oruclunun fikrincə, ABŞ-ın yeni bölgə müttəfiqləri İraq hökuməti, Şimali İraqın kürd administrasiyası, eləcə də İran ola bilər: "İŞİD-ə qarşı müharibə zamanı Türkiyənin "İncirlik" Hərbi Hava bazasından istifadə edilməyəcəyi haqda xəbərlərin yayılmasından sonra bu bazanın Ərbilə köçürülməsi ilə bağlı məlumatlar yayılmağa başlayıb. Belə bir halda şübhəsiz ki, ABŞ-ın bölgədə yeni bir müttəfiqinin yaranması deməkdir. Bu artıq bölgədə yeni situasiyadır.

Artıq bölgədə ABŞ-İran yaxınlaşması müşahidə olunur. Bu, İran üçün də əlverişlidir. Çünki bölgədə ənənəvi dayaqlarını itirən ABŞ-ın təbii ki, güclü müttəfiqə ehtiyacı var. Bölgəyə diqqətlə baxdıqda görürük ki, orda güclü tərəfdaş azdır. İsrail tərəfdaşlardan biri ola bilər. Ona görə də böyük ehtimalla, bir tərəfdən yeni yarana biləcək Kürdüstan dövləti ola bilər, əgər hərbi baza ora köçürüləcəksə. İstisna etmirəm ki, bunun müqabilində Kürdüstanın müstəqilliyi tanınacaq. Digər tərəfdən, möhkəmlənməkdə olan İraq ola bilər və eyni zamanda İran. Məsələ burasındadır ki, ABŞ heç zaman biristiqamətli siyasət aparmır, çox vektorlu siyasət aparır. Ərəb-İsrail münaqişəsinin ən qızğın dönəmində ABŞ diplomatiyası hər iki tərəflə eyni səviyyədə münasibət saxlamağa müvəffəq olurdu. Baxmayaraq ki, açıq dəstəyi İsrailə ifadə edirdi. Yəni reallıq ondan ibarətdir ki, ABŞ güclü dövlətdir və o, bölgədə yeni tərəfdaş tapmaqda çətinlik çəkməyəcək".

Politoloq deyir ki, hazırkı ABŞ hökumətinin strategiyası elədir ki, İŞİD-lə mübarizədə ABŞ-a dəstək verən ölkələr gələcəkdə Amerikanın müttəfiqi ola bilər. Bu baxımdan Ə.Oruclu İranın ABŞ-ın bölgədə yeni müttəfiqi olması ehtimalının heç də az olmadığı qənaətindədir: "Unutmayaq ki, İŞİD-in təhdid yaratdığı dövlətlərdən biri də İrandır. İranın da hazırkı iqtisadi blokadadan çıxmağa ehtiyacı var. Bu baxımdan hazırda İranın ABŞ-la müttəfiq olması xeyli dərəcədə real görünür. Ruhani hökumətinin yeritdiyi siyasətdə də bu çalarlar görünür. Ona görə də demək olar ki, bölgədə tamamilə yeni bir geosiyasi konstruksiya yaranır. Əslində bu, gözlənilən idi".

❑ **KƏNAN**

---

**"Bakını Azərbaycandan ayırmaq istəyən kim olursa, Azərbaycanın həyatına qəsd etmişdir. Bakısız Azərbaycan təsəvvür olunamaz. Bakı tarixində, haləndə bir türk şəhəri və müsəlman şəhəridir... Türkiyə üçün İstanbul, Almaniya üçün Berlin, Rusiya üçün Moskva nə isə, Azərbaycan üçün Bakı ondan artıq olmasa da, odur".**

**Elşad PAŞASOY**
epashasoy@yahoo.com



# Türk Ordusu gəlməsəydi...

Böyük Məhəmməd Əmin Rəsulzadə bu sözləri hələ 1918-ci ilin avqustunda Bakı erməni-bolşevik işğalında olarkən yazırdı. O, Azərbaycanın və azərbaycanlıların taleyində Bakının nə qədər önəmli rol oynadığını çox yaxşı bilirdi. Həmçinin Bakıya yağlı tikə kimi baxan yadellilər də bu türk şəhərini qəsb etmək üçün çeşidli planlar qurmuşdu. İngilis alimi Hoppinks əbəs yerə demirdi ki, XX əsrin əvvəllərində Bakı bütün dünyanı isitməyə və işıqlandırmağa layiq olan yeganə şəhər idi...

Xüsusilə də I Dünya müharibəsinin sonlarından etibarən Bakının əhəmiyyəti xeyli artmışdı. Bircə səbəbə görə: o zaman dünya neftinin 50, Rusiya neftinin isə 85 faizi Bakının payına düşürdü. Bu səbəbdəniydi ki, Bakını ələ keçirmək üçün bir tərəfdən bolşeviklər, digər tərəfdən ingilislər hərəkətə keçmişdilər. Elə 1918-ci ilin payızında general Tomsonun rəhbərlik etdiyi ingilis qoşunlarını Bakıya gəlməyə vadar edən səbəb də neft idi. O neft ki, həm I, həm də II Dünya müharibələrində Almaniya da onu ələ keçirmək üçün çeşidli planlar qurdu. Xülasə, dünya gücləri Bakının sərvətinə vurulmuşdu.

O dövrdə Bakını heç bir təmənna güdmədən, sərvətinə, neftinə göz dikmədən xilas etmək üçün gələn tək bir ordu oldu - Qafqaz İslam Ordusu. Türk ordusu Azərbaycanı xilas etmək, qanıbir, dilibir, dinibir qardaşını erməni-rus tapdağından qurtarıb onun müstəqil yaşamasına meydan vermək niyyətilə şəhidlər verirdi. Bəlkə də tarixdə belə bir nümunə yoxdur. Bu, qardaşlığın, saf münasibətin ən bariz nümunəsiydi. Xilaskar statusu hər orduya nəsib olmur...

Taleyin işinə baxın, vaxtilə iki türk imperiyası zamanın gərdişindən, yoxsa kənar qüvvələrin təfriqə salmasından dolayı Çaldıranda üz-üzə gəlib özlərini zəif salmışdı. Ancaq 4 əsr sonra Azərbaycan və Türkiyə türkləri bir cəbhədə düşmənə qarşı savaşa qalxdı - əvvəl Sarıqamışda, Çanaqqalada, sonra da Bakıda, Şamaxıda, Qubada, Göyçayda...

Türk mehmetcikləri Bakını daşnaklardan təmizləmək naminə tərəddüd etmədən canlarını fəda edirdilər, necə ki, Azərbaycan türkləri Çanaqqalada Osmanlı torpağı uğrunda sinəsini yağı düşmənə sipər eləmişdi. Özü də Nuru Paşanın rəhbərlik etdiyi ordu birləşmələri Bakıya Təbrizdən gəlmişdi, Azərbaycanın güneyindəki qırğınların cavabını verəndən sonra. Ermənilər güneydə 200 mindən çox Azərbaycan türkünü qırmışdılar, şimalda qırğınlar davam edərkən orda da qardaşlarımızın qanı axıdılırdı.

Bütün dünyanın bu qırğınlara seyrçi qaldığı dönəmdə qəhrəman türk ordusu harayımıza çatdı. Müdafiə naziri Ənvər Paşa əmr etmişdi: Bakı 15 sentyabrda - Qurban Bayramı günündə azad edilməlidir ki, müsəlmanlar öz bayramlarını öz şəhərlərində keçirsin! Ruhu şad olsun o böyük insanın, Nuru Paşa başda olmaqla Azərbaycan uğrunda savaşan cəngəverləri Azərbaycan Korpusu ilə birgə Bakını azad etdilər, müsəlman əhli qurbanını öz şəhərində kəsə bildi. Bu gün isə çoxlu qurbanlar bahasına qazanıldı...

Bir anlıq təsəvvür edin ki, türk ordusu gəlməz, yaxud gəlib də burda məğlub olması səbəbindən Bakını azad etməzdi. Necə ki, Məhəmməd Əmin açıq şəkildə yazırdı: "Bakı alınmasa, əlvida vətən!" Necə ki, avqustda türk ordusu Bakının 4 kilometrliyində ağır itki verəndə yerli əhali onlara müraciət etmişdi: "Ey türk əsgəri! Əgər sən bu şəhəri almasan, Bakıda sənin üçün hazırlanan süfrələr qonaqsız qalacaq, sənin üçün tikilən geyimi düşmənin geyinəcək, sənin üçün kəsilən qurbanlar düşmənə qalacaqdır" deyə. Təbii, Azərbaycan dövlətinin başı olan Bakı kəsilsəydi, bu dövlətdən söhbət belə gedə bilməzdi. Bolşeviklərin əlində nə çətin iş idi ki, Dərbənd, İrəvan kimi Bakını da ələ keçirmək? Bu şəhəri bizə qazandıran Türk ordusu oldu!

Hələ Ənvər Paşanın necə gözəl bir planı vardı: Osmanlı dövlətinin bir tərəfdən Naxçıvandan, digər tərəfdən də Qarakilsədən Azərbaycanla sərhədinin olmasına çalışırdı. Nəticədə Ermənistanın Gürcüstanla birbaşa əlaqəsi kəsilirdi və o, Osmanlı ilə Azərbaycan arasında bir ada kimi qalırdı. Təəssüf, gerçəkləşmədi. Azərbaycan uğrunda çalışan kişilərə min dəfə rəhmət olsun!

Bu təmənnasız xidmətin qarşılığında heç olmasa Ənvər Paşaya, Nuru Paşa Bakının ən hündür nöqtəsində bir abidə qoymaq gərəkdir. Lap Türk Şəhidliyində olsun. Amma olsun. Qarşıdan Bakının azadlığının 100 illiyi gəlir - bir əsrə bir abidə qoymaq çoxmu çətin işdir? Bu abidə, bizə lazımdır, onlara yox!

****

Bakının azad olunmasının 96-cı ildönümündə Türkiyə və Azərbaycanın silahlı qüvvələri tarixində ən böyük birgə hərbi təlimlərini keçirir. Təsadüfdürmü? Bu gün növbəti xilas gününə ehtiyac var: Qarabağın azad olunmasına. Şükür ki, iki türk ordusu yenə bir yerdədir, Turan Ordusu ideyası gerçəkləşmək üzrədir. İnşallah, sonda yenə də qalib gələcəyik, bir yerdə!!!

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014



# “Türkiyə və Azərbaycan hakimiyyətindən dəstək gözləyirik”

## Ağrı Qaradağlı: “GAMOH “öz müqəddəratını bəlli etmə” prinsipi ilə fəaliyyət göstərir və Güneyin müstəqilliyinə qədər davam edəcəyik”

**“Hazırda Güney Azərbaycanda durum qənaətbəxş deyil. Baxmayaraq ki, milli hərəkatçılarımız öz işlərini çəkinmədən və qorxmadan davam etdirirlər, amma İran rejimi hər tərəfdən milli hərəkat mənsublarını mühasirəyə almış durumdadır”.**

Bunu “Yeni Müsavat”a hazırda Türkiyədə yaşayan Güney azərbaycanlı mühacir, GAMOH rəsmisi Ağrı Qaradağlı (Jafar Pashtou) bildirib. Onun sözlərinə görə, Güneydə basqılar, təqib və təzyiqlər, hədə-qorxular xeyli artıb: “Milli hərəkat hazırda 3 cəbhədən təhdid olunur: birinci Urmu gölü məsələsidir ki, İran rejimi tərəfindən qəsdli olaraq qurudulur və milli fəallarımız da bunun qarşısını almaq üçün çaba göstərir. Bəzən mədəni şəkildə kampaniyalar aparılır, bəzən də şəhərlərdə toplaşıb aksiya keçirərək öz etirazların bildirirlər.

İkincisi, “Traxtor” futbol komandasının yarışlarında səslənən şüarlar rejimi xeyli qorxudur. Elə buna görə də hər bir yarışdan sonra bir neçə hərəkatçımız rejim tərəfindən yaxalanır. Üçüncü isə ana dilində məktəblər istəyidir. Rejim hər zaman hərəkatçıların bu istəyindən qorxub və hər zamandan bu məsələdən istifadə edərək kütlədən öz xeyrinə səs almağa çalışıb". A.Qaradağlı xatırlatdı ki, son olaraq Həsən Ruhani seçkilərdə 2 əsas məsələyə dəstək olacağını və hətta həll edəcəyini bildirmişdi: “Birincisi, Urmu gölünün bərpasını, ikinci isə ana dilində tədrisin yerinə yetirilməsini. Həsən Ruhani demişdi ki, seçildikdən sonra ana dilində təhsilin sərbəst olmasına imkan verəcəyəm. Amma seçildikdən həmən sonra 21 fevral Dünya Ana Dili günündə Əhər şəhərində ana dili üçün toplanıb danışıqlar aparan evə basqın edərək 300 hərəkatçını yaxaladılar və hələ də yaxalananların bir neçəsi həbsdədir. Hazırda ana dilində təhsilin durumu sıfır nöqtədədir. Yəni rejim tərəfindən heç vaxt bu haqqımız verilməyəcək və rejim bir silah kimi bu məsələdən bəzən öz mənfəətləri üçün istifadə edir”.

GAMOH rəsmisi xatırlatdı ki, İran Konstitusiyasının 15-ci maddəsinə əsasən ana dildə təhsilin olmasında heç bir problem yoxdur və dövlət də bu məsələdə vətəndaşlara yardımçı olmalıdır: “Amma ana dili üçün İran rejimi bizim milli-mədəni fəallarımızı bölücülük və pantürkizm ittihamları ilə və bəzən də rejim əleyhinə təbliğ etmə və casusluq ittihamları ilə həbsə məhkum edir. Son illərdə bu basqılar daha da artıb, çünki milli hərəkatın fəaliyyəti artıq bir çox beynəlxalq mediada öz əksini tapıb və bundan İran rejimi çox qəzəblənib. Ən çox qəzəbləndiyi isə ”Traxtor"un oyununda hərəkatçılar tərəfindən “Güney Azərbaycan İran deyildir” şüarının plakat kimi qaldırılması idi. Bu plakat bir çox ölkələrin mediasında göstərildi. Elə buna görə də İran rejimi çox qəzəbləndi. Həmən oyunda tamaşaçı olan bir çox milli fəallarımız gözaltına alındı".

A.Qaradağlı deyir nə qədər ki, qardaş ölkələr onlara dəstək verməyiblər, bu basqılar da davam edəcək: “Nə Türkiyə, nə də Azərbaycan hakimiyyəti bu məsələdə bizə heç bir dəstək olmur. Güney Azərbaycanın tanınmış lideri doktor Mahmudəli Çöhrəqanlının bu iki ölkəyə buraxılmaması üçün heç bir şərait yaradılmır və hətta bu ölkələrdən deportasiya belə edilir. Bu məsələ bizim hərəkat üçün çox mənfi təsir göstərir və İran rejiminə də bizə basqını artırmağa şərait yaradır”.

A.Qaradağlı Türkiyədə yaşadığı dönəmdə də Güneylə əlaqələrini hər zamankı kimi davam etdirdiyini, bu əlaqələrin getdikcə genişləndiyini vurğuladı: “Güneydən hər an yeni gəlişmələr bu əlaqələr vasitəsilə mənə yetirilir. Türkiyədə də əlaqələrimi genişləndirməyə çalışıram və Güney Azərbaycanın tanıtımı üçün bir çox konfranslarda iştirak edib, bacardığım qədər müzakirələrə qatılıram. Güneyin hər şəhəri ilə əlaqələrimiz var və bu, Güneydə nə baş verdiyini bilmək üçün işimizi daha da asanlaşdırır. Bəzi beynəlxalq təşkilatlar və qurumlarla da əlaqələrimiz var. Hazırda da Güneydə fəaliyyətlərimiz davam edir və üzümüzə gələn günlərdə məktəblərin açılışı ilə bağlı bəzi işlərin görülməsi planlaşdırılır. GAMOH ”öz müqəddəratını bəlli etmə" prinsipi ilə fəaliyyət göstərir və Güneyin müstəqilliyinə qədər də öz fəaliyyətini davam etdirəcək. GAMOH bir böyük məktəb olub və milli hərəkatın ana təşkilatı olub, bir çox tanınmış milli hərəkatçı yetişdirib, bəzi təşkilatlar GAMOH-un yetişdirdiyi hərəkatçılar tərəfindən qurulub".

❑ **Cavìd TURAN**



# Əfsanəvi “Serafino”... İtaliyanın Milli Qəhrəmanı Tahir İsayev haqda nə bilirik?

## İtaliyada haqqında film çəkilmiş II Dünya müharibəsinin ünlü qəhrəmanı Tahir İsayevin ev-muzeyi uçmaq təhlükəsi qarşısındadır...

**Tahir İsayev 1922-ci ildə Qazax rayonunun Şıxlı kəndində dünyaya göz açıb. 1942-ci ildə cəbhədə Mozdok altındakı ağır döyüşlərdə yaralanaraq əsir düşüb. Avstriyadakı əsir düşərgəsindən böyük əziyyətlərlə İtaliyaya keçərək Berqamo şəhəri yaxınlığında partizan dəstəsinə daxil olub.**

Döyüş yoldaşları “Serafino” adını ona atası İsrafilin adına uyğun olaraq veribər. O, “Fiamma Verdi” beynəlmiləl briqadasında italyanlar, fransızlar, ingilislər və ruslarla çiyin-çiyinə vuruşub. Həmyerlimiz leytenant Serafino 1945-ci il, aprelin 25-də Milan şəhərinin faşistlərdən təmizlənməsi uğrunda döyüşlərdə qəhrəmanlıq göstərib. O, Adriatik dənizi sahillərində Mehdi Hüseynzadə, Mirdamət Seyidov kimi qəhrəmanlıq, yenilməz şücaət nümayiş etdirib.

Onun döşünü İtaliyanın ən yüksək qəhrəmanlıq rəmzləri olan “Haribaldi ulduzu”, “Antonio Qramşi”, “Banderi Kalori” ordenləri, ümumən 36 orden və medal, o cümlədən İtaliyanın 12 dövlət mükafatı bəzəyib. 1945-ci ildən Milan şəhərinin fəxri vətəndaşı olub. T.İsayev alman və italyan dillərini gözəl mənimsəyib.

Əfsanəvi “Serafino” İtaliyanın Milli Qəhrəmanıdır. Tahir İsayev haqqında İtaliyada 1974-cü ildə “Onun adı Serafino idi” adlı film çəkilib. Şıxlı kəndində olan muzeydə onun haqqında geniş material var. O, 2001-ci ildə dünyasını dəyişib.

***

“Yeni Müsavat”ın müxbiri bu günlərdə Tahir İsayevin doğulduğu kəndə baş çəkib. Müxbirin həmin kənddən qeydlərini təqdim edirik:

“Öncə şair Molla Vəli Vidadinin qəbrinin yaxınlığında yerləşən qəbirüstü abidəsini ziyarət etdik. Vəfatından sonra düzəldilən məzar hazırda uçmaq təhlükəsi ilə üz-üzədir. Dəfələrlə yerli dövlət strukturlarına, rayon ictimaiyyətinə yazılsa da qəbrin təmiri üçün heç bir tədbir görülməyib. 15 illik həyat yoldaşı Cəvahir xanımın dediyinə görə, qəbrin üzərindəki tunc abidəni də T.İsayev özü sağlığında düzəltdirib. Əvvəl Qazax Dövlət Tarix Muzeyində imiş, ölümündən sonra gətirib qəbri üstünə qoyublar.

“O boyda Tahirin qədrini bilən yoxdu bu ölkədə... Əvvəllər yenə İtaliya hökumətindən gəlib-gedən olurdu. Unutmurdular. Gürcüstana beynəlxalq tədbirlərə tərcüməçi kimi aparırdılar onu... Dünyasını dəyişəndən sonra onun adını tutan yoxdur. Məzarı bərbad gündə, hazırda onun adını daşıyan muzey kimi fəaliyyət göstərən evi isə baxımsız vəziyyətdədir. Tək adamam, neyləyim, öhdəsindən gələ bilmirəm. Eksponatlar demək olar ki, sıradan çıxmaq üzrədir. Bununla bağlı bütün əlaqədar dövlət strukturlarına müraciət etmişəm. Di gəl, səsimə səs verən yoxdur. Hər dəfə söz verirlər ki, gələcəyik, düzəldəcəyik, amma elə deyilən söz söz olaraq da qalır. Elə bil dünya bərqərar olandan bu adda, bu isimdə bir kimsə olmayıb yer üzündə... Artıq mən də onu ziyarətə getmək istəmirəm ki, birdən qalxıb deyər, bu nədir, mənim qəbrimi niyə bu gündə saxlayıbsan. Nə cavab verəcəm o zaman? Üzüm gəlmir. Utanıram” - deyir Cəvahir xanım.






Cəvahir xanım bizi evin dörd tərəfinə dolandırıb T.İsayevlə bağlı əşyalarla tanış etdi. Otaqdakı hər bir əşyaya toxununca Tahir İsayevdən bir xatirə, bir əhvalat, bir izin ağlına düşdüyünü deyən xanımın danışdıqca səsi titrəyir, ürəyi çırpınırdı: “Tahir bu cür diqqətsizliyə layiq əməl törətməyib. İtaliyada partizanlara qoşulub. Canıyla-qanıyla döyüşüb. Böyük qəhrəmanlıqlar göstərib. Amma indi heç onun adını anan da yoxdur. Düzdür, siz gəlmisiniz. Özgələri də gəlir, gedir. Yazırlar, pozurlar... Çifayda... Dövlət tərəfindən diqqət, qayğı görmürük. İtaliya hökuməti də kişinin sağlığında yaxşı köməklik edirdi. İndi isə elə bil birdən-birə yaddan çıxdı dağ boyda adam... Mən qoca arvadam. Özüm üçün heç nə istəmirəm. O rəhmətliyin xatirəsinin qorunub-saxlanması, adının daim əziz tutulması üçün çalışıram. Sovet hakimiyyəti dağıldı deyə qəhrəmanlarımızı da unudası deyilik ha..! Onlar da bu günümüz üçün döyüşüblər”.

O, evin uçmaq üzrə olan divarlarını göstərib ürək yanğısıyla vəziyyəti başa salmağa çalışırdı. Tavandakı və divarların küncündəki çatlar otağa girən kimi diqqəti cəlb edir: “Görürsənmi çatları? Yatmağa belə qorxuram. Qorxuram ki, ev uça, qalam daşların, taxtaların altında, hayıma yetən olmaya... Eksponatlar da məhv ola gedə...”

Bitib-tükənməyən problemləri dinləyəndən sonra qəhrəmanın bir insan kimi necə xasiyyətə malik olduğunu, müharibə qurtarandan sonra onunla yaşadığı illərdə nəylə məşğul olduğunu sual etdik xanımına...

“Mən onun birinci həyat yoldaşı deyiləm. Amma 15 il bir yerdə yaşamışıq. Ağır xəstə olan vaxtlarında onun qulluğunda mən durmuşam. Çox yaxşı adam idi. Yerişini, duruşunu, oturuşunu, danışığını bilən adam idi. Düzdür, 10-cu sinif qurtarmışdı, amma çox savadlı, dərrakəli biri idi. Daim kitab oxuyurdu. Ara-sıra şer də yazırdı” - deyir Cəvahir xanım.

O, T.İsayevin istedadına tədbirlərin birində mərhum prezident Heydər Əliyevin də yüksək qiymət verdiyini diqqətə çatdırdı: “Rəhmətlik Heydər Əliyev də o zaman Mərkəzi Komitədə olanda bunu yanına çağırtdırıb ki, sənin adın bütün dünyaya yayılıb, niyə bizim xəbərimiz yoxdur, indiyə kimi niyə dövlətin diqqətindən kənarda qalıbsan? O da cavabında bildirib ki, dövlət qovladı, mən də getdim. Bu, uzun söhbətin mövzusudur... Amma ölkənin birincisi təkrar sual verib ki, de görüm, sən nə etmisən ki, dövlət səni hər şeydən uzaq salıb. O da qayıdıb ki, bir dəftər-qələm verin, yazım, dillə deyə bilməyəcəm. Özü deyirdi ki, orda yazdığım şerləri oxuyandan sonra qalxdı, bir də mənimlə salamlaşdı. Dedi ki, doğrudan da qazaxlısan... Həmin şeirlər indi də durur...”

Sonda Cəvahir xanım onu da bildirdi ki, əgər bu dəfə də ya Azərbaycan, ya da İtaliya dövlətindən səsinə səs verilməsə, Tahir İsayevin ev-muzeyi və qəbirüstü abidəsi bərpa olunmasa, Gürcüstan dövlətinə müraciət edəcək ki, barı onlar rəhmətliyin ruhunu şad etsinlər: “...Əslinə qalanda özünün sözüdür. İndi mən davam edirəm. Bu adama ki belə laqeyd yanaşırlar, heç bir müraciətimə baxmayaraq evini və qəbirüstü abidəsini təmir etmirlər, mən bir dəfə də yerli məmurlara xəbərdarlıq edib Gürcüstan dövlətindən yardım istəyəcəm. Yəqin heç olmasa, onlar bir tədbir tökərlər. Belə olmaz. Tahirin adı batmamalıdır. Ona görə ki, biz müharibə şəraitində yaşayırıq. Ona olunan bu hörmətsizliyi görüb hansı ana öz övladını döyüşə, güllənin qabağına göndərər? Məncə, heç kim... Buna görə də hər bir qəhrəmana, qaziyə, şəhidə maksimum dərəcədə diqqət-qayğı lazımdır: həm sağlığında, həm də ölümündən sonra...”

❑ **Hìkmət Carçılı Orhun, Qazax**

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014

**...Sizə bir kənddən bəhs edəcəyik. O kənd ki, mistikası, möcüzələri ilə diqqətdən kənarda qalıb. Bəlkə də "Qədir Rüstəmov səsli" uşaq olmasaydı, bu obanı heç vaxt kəşf edə bilməzdik. Bizi bu kəndə aparan da yanıqlı səsi ilə oxuyan balaca Əhmədxanın, çobanlıq edən istedadın elektron mediada yayılmış videosu oldu.**

# Bu kəndin bulağından su içən oxuyan olur - möcüzə

"Yeni Müsavat" Şirvan elinin konservatoriyası adlanan, böyük sənətkarlar yetişdirmiş ucqar dağ kəndi Şıxzərlidən yazır; Qədirin səsini andıran uşağın babası və həmyerlilərindən maraqlı açıqlamalar...










Həvəskar çəkiliş tərəfindən lentə alınan videoda uşaq elə yanıqlı oxuyur ki, dinləyən onu "Sona bülbüllər"in ustadı mərhum Qədir Rüstəmova oxşadır. Biz də bu istedadı tapmaq üçün yaşadığı Qobustanın Şıxzərli kəndinə yola düşdük.

***

Qobustandan Şamaxı istiqamətinə gedən yolda qarşımıza Şıxzahırlı yazılmış bir lövhə çıxdı. Bu, kəndin rəsmi sənədlərdə qeyd edilmiş adıdır. Amma el arasında Şıxzərli deyilir. Magistral yoldan kəndə dönəndə zənn edirsən ki, qarşına yaxınlıqda evlər çıxacaq. Amma bu qarışıq, kələ-kötür, dağların əhatəsindəki cığır bitmək bilmir, əgər buna yol demək olarsa...

Dağın ucqarında yerləşən Şıxzərli qədim kənddir. Kəndin ən hündür yerində köhnə məzarlığın olması da bunu deməyə əsas verir. Qədim qəbir daşları, köhnə tikililər, çala-çuxur yollar, çiynində su səhəngləri daşıyan qadınlar - Şıxzərlinin ümumi mənzərəsidir. Qarşımıza çıxan ilk kənd sakinindən Əhmədxanı soraqlayırıq. Elə onun qohumu çıxan bələdçimiz bizi uşağın babasıgilə aparır. Söhbət əsnasında bələdçimiz Orxan Dadaşov bizə danışır ki, bu kəndin yarıdan çoxunun yaxşı səsi var.

Bələdçimiz özünün də səsi olduğunu deyir. Orxanın sözlərinə görə, Şıxzərli çoxlu sənətkarlar yetişdirib və kənd xanəndələri ilə ad çıxarıb.

"Bu kənddən Zabit Nəbizadə, Aşıq Abbas, muğam müsabiqəsindən tanıdığımız Abgül çıxıb. Hələ bunlar efirdə gördüklərinizdir. Kənddə elə səsi olanlar var ki, üzə çıxmayıblar, oxuyanlara dərs keçərlər. Şıxzərlidə səsi olan çox adam var. Toylarda, məclislərdə Şıxzərlidən çıxan oxuyanlar var. Mən özüm də Asəf Zeynallı adına musiqi məktəbində təhsil almışam. Bizdə gendən, irsdən gələn istedaddır. Yaylaqda, qışlaqda qoyun-quzu otara-otara oxumağa başlamışıq, ona-buna baxıb öyrənmişik. Kənddə hamı muğam həvəskarıdır. Bizdə elə adam olmaz ki, muğamın şöbələrini bilməsin".

***

Bələdçimizlə Şıxzərlidən danışa-danışa Əhmədxanın babası evinə gəlib çıxırıq. Babası Vidadi Əbilov nəvəsinin Şıxzərlidə olmadığını deyir. Demə, Əhmədxan valideynləri ilə bu Qobustandan o Qobustana köçüb. Babası deyir ki, onlar bir neçə ildir paytaxtın Qaradağ rayonundakı Qobustan qəsəbəsinə köçüblər. Arabir kəndə gələn Əhmədxanı da qoyun-quzu otararkən görüblər, bir ağız oxudub, videoya çəkiblər.

V.Əbilov Şıxzərlidən ilk dəfə belə istedad çıxmadığını deyir: "Bu kəndin havasından, suyundandır, nədəndir bilmirəm, çoxunun səsi var. Burada bir bulaq var, şirin su çıxır. Deyirlər ki, kim bu bulağın suyunu içibsə, onun avazı var.

İndi bəlkə də bunu rəvayət edirlər. Amma kəndin su xətti olmadığına görə hamı bulaqdan su içir. Gedin, görəcəksiniz ki, qadınlar bulaq başına yığışıblar. Bizim o bulaqdan başqa içməli su mənbəyimiz yoxdur. Ona görə də Allahın möcüzəsidir, kim o suyu içirsə, oxuya bilir (gülür). O vaxtı musiqişünas Elxan Məmmədli yaxşı söz demişdi. Deyirdi ki, Şıxzərli Şirvanın konservatoriyasıdır. Yaxşı mənada burada səsi olmayana yaxşı baxmırlar".

V.Əbilovun sözlərinə görə, Şıxzərlinin 200 illik tarixi var. Onun sözlərinə görə, kəndin adı rəsmi şəkildə səhv qeyd olunub: "Əsl adı elə Şıxzərlidir. Ancaq Şıxzahırlı yazılıb. Bir müddət əvvəl icra başçısı gəlmişdi. Camaatla görüşdü, sağ olsun, dedi ki, Milli Məclisin inzibati komissiyasına müraciət olunub. Kəndin əsl adı rəsmi sənədlərdə özünə qaytarılacaq. Burada yaşayanlar da hamısı yerli adamlardır, Şirvan əhlidir. Burada 130-140 ev var. Təxminən, 1200-1300 nəfər kənddə adam yaşayır".

Nəvəsinin səsindən danışan baba deyir ki, uşaqda fitri qabiliyyət var: "Uşaqlıqdan səsi hiss olunurdu ki, var. Yeddi yaşından oxuyurdu. Həmişə mal-qara otarmağa gedib, özü üçün zümzümə edib. Televizor da yoxdur, atasının telefonunda xanəndələrin oxumağın baxıb öyrənib. İndi Ağaxan Abdullayev onunla maraqlanıb. İnşallah, gələcəyi yaxşı olacaq. Ağaxan müəllim deyib ki, təhsil almalıdır.

Uşağın əsas problemi oxumaq-yazmağı bilməkdir. Məktəbə getməyib, elə uşaqlıqdan qoyun-quzu saxlamaqla məşğul olub. İndi təhsil alır, bir il sonra Ağaxan müəllimin yanına gedəcək".

***

V.Əbilov oğlunun əlaqə nömrəsini bizə verib, Qobustan qəsəbəsində onlarla görüşə biləcəyimizi deyir. Əhmədxanın baba evindən ayrılıb, ağızdolusu danışılan o bulağa gedirik. Yol boyunca söhbətləşdiyimiz kənd sakinləri deyirlər ki, Şıxzərlinin ağır sosial problemləri var. Kənddə qaz, su yoxdur, işıq daimi olmur.

Bu səbəbdən xeyli sayda insan köç edib, şəhərin əsasən Qobustan, Müşviqabad qəsəbələrinə yerləşiblər. Kənddə bir məktəb var.

Burada uşaqların əsas problemi də məhz təhsildir. Məktəb 9 illikdir və qalan 2 ili başqa kənd məktəbinə gedirlər. Yaşayışın, şəraitin çətinliyi Şıxzərlidə böyük köç prosesinə səbəb olub. Bununla belə, kənddə qalıb, buranı tərk etməyən də az deyil.

Bulağa gəlincə, su ehtiyacına görə burada bir dəqiqə boşluq olmur. Qadınlar saatlarla növbədə dayanıb, səhəngləri içməli su ilə doldurmağı gözləyirlər. Sakinlər deyirlər ki, bir neçə il əvvəl baş verən zəlzələdən sonra torpaq çöküb, bulaq aşağı gedib deyə su zəif gəlir.

Ancaq alternativ olmadığı üçün çarə tək bu bulağa qalıb. Bu bulağı Tərxan Dadaşov və Mirzəbaba Alimov adlı ustalar bərpa ediblər. Onların adlarının baş hərfləri qeyd olunub çəkən. Bulağın bərpa işinin xərcini isə xanəndə Zabit Nəbizadənin atası olub.

Suyunu içib, zil səsli oxuyan yetişdirən bulaq da məhz budur. Həmkarım Elşən də bulağın suyundan içəndən sonra, Qədirin səsini andıran balaca Əhmədxanın dalınca Qobustan qəsəbəsinə yola düşürük. Bələdçimiz Orxan isə xahişimizlə bir ağız muğam oxuyur...

(Ardı var)

❑ **"Yeni Müsavat"ın Reportyor Qrupu**
**Qobustan, Şıxzərli kəndi**

# Kim daha çox M(m)aral?



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Azərbaycanda son illər hər şeyin "kitayski"si dəbə minir. Qəzetçisi, siyasətçisi, müğənnisi... bayağılaşa-bayağılaşa gedir. Əslindən, normalından minlərlə kilometr uzaqlıqda, ondan xəbəri belə olmayan yeni nəsnələr, yeni kserosurətlər. Kserosurətlər, amma daha keyfiyyətsiz versiyaları. Siyasətçi adına komediya ustaları meydana çıxır, sənətçi adına hoqqabazlar, qəzetçi adına bir statusda 10 səhv buraxan bisavad ordusu...**

Sonuncular sayəsində ötən bir həftəmiz bir manısın həndəvərində keçdi. Özünü səsi ən gur müğənni sayan birisini nəyi var reklam etdilər. Öz aləmlərində doladılar, məsxərəyə qoydular, aşağılayıcı suallar verdilər, amma sonucda reklam etdilər də. Soruşsan, akademik izahatları hazır idi: oxucu tələb edir, bizim işimiz budur... Harda ölçülüb bu tələbat sorğusu? Zəhmətkeş zənglərini, məktublarını nə zaman alıblar, bəlli deyil...

Kim deyir ki, saytların bütün xəbərləri, qəzetlərin bütün səhifələri ölkədəki problemlərlə bağlı yazılardan ibarət olmalıdır? Kim iddia edir ki, şou-biznes xəbərləri və ya müğənni müsahibələrinin kökü mətbuatdan kəsilməlidir? Yaxşı hesab edək ki, ölkədəki haqsızlıq, ədalətsizlik, paçka-paçka tutulan insanlardan yaza bilmirsiz. İstəsəz də, vicdanınız sızlasa da, bunu yazmağa icazə vermirlər. İçiniz qan ağlaya-ağlaya bu mövzuların üstündən keçirsiz. Bəs şou-biznesdəki çirkabdan, mafiyadan, "mətbəx"dəki korrupsiyalardan niyə yazmırsız? Axı bu ölkədəki rəzilliyin kökü həm də ordan başlanır. Hər gün ekranlardan evimizə soxulur damcı-damcı. Uşaqlarınız onlara baxır, gənc qızlar özlərini onlara oxşadır, yaxşı yaşamağın, firavan həyatın açarını onlar kimi olmaqda görür. Bundan böyük təhlükə varmı? Siz gününüzü dolanışıq dərdində, iş yerində keçirərkən uşaqlarınıza onlar "analıq-atalıq" edir, həyat dərsi keçir efirdən. Pulu ilahi bir qüvvə, abırsızlığı norma kimi təqdim edirlər camaata. Bunun qananı var, qanmayanı var, dərk edib nəticə çıxaranı var, çıxarmayanı var...

Yenə də təkrar edirəm. Özündən deyən televiziyalarda müğənni "raskrutka"sının məbləğini, sponsorsuz üzə çıxmanın qeyri-mümkünlüyü, mötəbər yerlərdə konsert verə bilmək üçün hansı atişləməz yollardan keçmək lazım gəldiyini bilə-bilə... Maral adlı müğənnini gülüş hədəfinə çevirməyin məntiqi nədir? Axı bu tabloda siz Maraldan daha pis və rəzil gündə görünürsüz. Və rişxənd hədəfinə çevirdiyiniz o manıs sizdən daha ağıllı pozisiyadadır. Ən azı ona görə ki, o, sizdən istifadə edir, siz ondan yox. Necə deyərlər, kim daha Maral? Kim daha çox Maral?

Eşşəyə gücü çatmayıb palan döyəcləyənlərin məmləkətində bu tendensiya adidir əslində. Müəllimlər İnstitutunun işçisi rüşvət alanda üstünə düşən Antikorrupsiya İdarəsinin əməkdaşları yadınızda? Adam qorxusundan pulu udmuşdu, sonra özünü pəncərədən atmaq istəmişdi-filan. Sanki o rüşvətin hansı ünvan(lar)a çatdırılacağından xəbərsizmişlər kimi... Keyfiyyətsiz binalar tikiləndə belə, yol polisi bir zənglə qayda pozanı buraxanda elə... Bunlar Azərbaycan adlı məmləkətin havasında, suyundadır. Ən balaca həlqədən yapışmaq, onu vurmaq, elliklə onun üstünə şığımaq. Ondan bir pillə yuxarıya dil uzatmaq... olmaz. Restoranlarda ofisiantın, mağazada satıcının üstünə yerli-yersiz qışqıran azərbaycanlı tipajı yadınızda? Onlar müdiri tərəfindən hər saniyə, səbəbsiz aşağılanan şəxslərdir. Aqressiyalarını bu cür, özündən bir neçə pillə aşağıda dayanandan çıxırlar, çıxmağa çalışırlar.

Nəsə, Maral amanatı... Bu ölkədə bir gün hamının Maral olma ehtimalı var.

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014

**Bu gün sentyabrın 15-i, ilk dərs günüdür. Valideynlər baha qiymətə də olsa, övladlarını müəyyən qədər məktəb ləvazimatı ilə təmin edib məktəbə yola salıblar. Yeni tədris ilinə şagirdlər və tələbələr, demək olar ki, hazırdırlar. Bəs dərs ilinə hazır olan məktəbliləri və tələbələri qarşılayacaq məktəb, universitet binaları necə?**

Qeyd edək ki, yeni tədris ilinə hazırlanan və ötən il təmirə bağlanan məktəblərin əksəriyyətində iş başa çatıb. Təmir olunan məktəblərin əksəriyyəti



# Bu gün yeni dərs ili başlayır

## Ölkə üzrə 139 mindən çox uşaq birinci sinfə gedəcək

paytaxtdadır. Ancaq bölgələrdəki kənd məktəbləri ilə bağlı eynisini demək mümkün deyil.

Məsələn, Balakənin Kortala kənd tam orta məktəbində vəziyyət ürək açan deyil. Zəlzələ səbəbindən məktəbə xeyli ziyan dəyib. Məktəb çöldən təmir edilsə də içərisi təmirsiz və bərbad vəziyyətdədir. Ağcabədinin Poladlı kənd məktəbi də uçuq-sökük vəziyyətdədir. Azərbaycanın bölgələrində və kəndlərində bu kimi təmirə ehtiyacı olan məktəblər kifayət qədərdir.

Məktəb və universitetlərin ümumi durumu, bu il məktəbə gedəcək şagirdlərin sayı haqqında daha dəqiq məlumat öyrənmək üçün Təhsil Nazirliyinə müraciət etdik. Nazirliyin sorğumuza yazılı şəkildə göndərdiyi cavabda bu il birinci sinfə 139 mindən çox uşağın gedəcəyi deyilir: "Cari ildə bakalavriat səviyyəsinin 138 ixtisası üzrə təhsil proqramları hazırlanıb və Azərbaycan Respublikası təhsil nazirinin 22.08.2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq olunub. Bakalavriat səviyyəsinin ixtisasları üzrə təhsil proqramlarına əsasən ali təhsil müəssisələri tərəfindən yeni nəsil tədris planları və həmin tədris planlarına daxil olan yeni fənlər üzrə müvafiq proqramlar hazırlanıb. Bununla yanaşı, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşəbbüsü ilə 2014/2015-ci tədris ilindən başlayaraq müəllim hazırlığı aparılan ali təhsil müəssisələrində IV kurs tələbələri üçün VII semestrdə "Ümumi təhsilin kurikulumunun əsasları" adlı fənnin tədris olunması qərara alınıb. Bu məqsədlə cari ilin iyul ayında pedaqoji kadr hazırlığı aparılan ali təhsil müəssisələrində müəllimlərə həmin fənnin tədrisi ilə bağlı treninqlər keçirilib və müvafiq sertifikat verilib. Sertifikat almış müəllimlər işlədikləri ali təhsil müəssisələrində "Ümumi təhsilin kurikulumunun əsasları" fənnini tədris etmək hüququ qazanıblar. Müəllim hazırlığı aparılan ali təhsil müəssisələrində pedaqoji ixtisaslar üzrə təhsil alan IV kurs tələbələri üçün cari semestrdə "Ümumi təhsilin kurikulumunun əsasları" fənninin tədrisinə 60 saat həcmində vaxt ayrılıb və müvafiq fənn proqramı hazırlanıb. Cari tədris ilindən həmin proqram əsasında sertifikat almış müəllimlər tərəfindən "Ümumi təhsilin kurikulumunun əsasları" fənninin tədrisinə başlanacaqdır. Ölkəmizin ümumi təhsil müəssisələrində isə yeni tədris ilinə hazırlıq işləri aparılır və artıq bu işlər başa çatmaq üzrədir. Bu tədris ilində Azərbaycanda 139 min nəfərdən çox uşağın birinci sinfə gedəcəyi proqnozlaşdırılır".

❑ **Günel MANAFLI**

# İsmayıllı məhbusunun atası ondan pul istənilmədiyini deyir

## Ədalət İbrahimov: "Redaksiyanıza ünvanlanan həmin məktubu mənim adamıdan yazıblar"




**Qəzetimizin 28 avqust 2014-cü il tarixli sayında "İsmayıllı məhbusunun atasından 1700 manat istəyirlər" sərlöhvəli yazı dərc edilib. Həmin yazıda İsmayıllı hadisələrinə görə həbs olunmuş, hazırda dustaq həyatı yaşayan Vasif Ədalət oğlu İbrahimova məxsus mağazanın qarşısının asfaltlanması üçün atası Ədalət İbrahimovdan keçmiş icra başçısı Nizami Ələkbərovun ən sevimli kadrlarından biri olmuş İsmayıllı şəhərinin meri Məhərrəm Əhmədovun 1700 manat pul istədiyi qeyd olunurdu.**

Bununla bağlı redaksiyamıza məktub göndərən Ədalət İbrahimov adından yazılanların həqiqət olmadığını qeyd edib: "Redaksiyanıza ünvanlanan həmin məktubu mənim adamıdan yazıblar. Məndən asfalt çəkməyə görə pul istəyən olmayıb". Ə.İbrahimov oğlunun günahsız olduğunu da bildirib.

Qeyd edək ki, redaksiyamıza ünvanlanan məktubda hazırda həbsdə olan V.İbrahimovla keçmiş icra başçısı Nizami Ələkbərovun konfliktdə olduğu bildirilirdi.

Həmin məktubdan sitat: "Vasif İbrahimov həbs edilənədək fərdi sahibkarlıq fəaliyyəti göstərib. İsmayıllı hadisələrinədək keçmiş icra başçısı Nizami Ələkbərovla kəskin konfliktdə olub. Belə ki, fəaliyyətini qanunlara uyğun təşkil etmiş Vasif İbrahimov yerli hakimiyyətin haqsız tələblərinə rədd cavabı verib. Bunun nəticəsi olaraq N.Ələkbərov qeyri-formal şəkildə rayonun arxitektoru kimi işlətdiyi bacanağı Mirələsgər adlı şəxslə birləşərək onun dükanını qanunsuz sökdürüb. Bu hadisə 2008-ci ildə baş verib. Ondan tələb ediblər ki, yolların genişləndirilməsi ilə əlaqədar dükan yoldan ən azı 30 metr aralıda olmalıdır. Halbuki Vasif İbrahimovun dükanını sökdürəndən sonra elə həmin küçədə, düz yola bitişik çoxlu sayda sahibkarlıq obyektlərinin tikintisinə icazə veriblər. Bu haqsızlıqla barışmayan Vasif İbrahimov pozulmuş hüquqlarının bərpası uğrunda mübarizəyə başlayıb. Bundan hiddətlənən Nizami Ələkbərov V.İbrahimovun başqa yerdə yerləşən daha bir neçə obyektini sökdürüb. Beləliklə, icra başçısı-sahibkar qarşıdurması daha da dərinləşib. Sözsüz ki, hüququn işləmədiyi bir məmləkətdə yalnız öz bacarığına güvənən arxasız sahibkar qardaşı nazir postu tutan Nizami Ələkbərov kimi arxalı məmura heç nə edə bilməzdi. Beləliklə, bu qarşıdurma, şikayətlər İsmayıllı hadisələrinədək davam edir. Bu hadisə Nizami Ələkbərov üçün əzəli düşmənindən birdəfəlik qurtarmaq üçün əla imkan yaradır və təbii ki, o, belə gözəl fürsəti qaçıra bilməzdi. Bununla da Vasif İbrahimovun adı İsmayıllı hadisələri "cinayətkarlarının" siyahısına düşür. Artıq 2 ilə yaxındır ki, V.İbrahimov haqsız yerə zindanda yatır".

❑ **E.MƏMMƏDƏLİYEV**



# 3 milyon əvəzinə...

## Tahir Qocayev mülkiyyət hüququnun pozulmasından şikayətçidir

**Xətai rayonu, Xəqani Rüstəmov küçəsi, 12/10 ünvandan redaksiyamıza şikayət gəlib. Şikayətçi Tahir Qocayev deyir ki, 12.5 sot ərazi onun şəxsi mülkiyyətdir: "Hazırkı bazar qiymətilə bura satışa çıxarılsa, 3 milyon manat dəyəri var. Amma 2012-ci ildən məni cəncələ salıblar. Dedilər ki, sənin bu mülkün "Ağ şəhər" layihəsində yola düşür deyə söküləcəkdir. Nə etmək olar? Dövlətlə dövlətlik edəsi deyilik ki. Əvvəl bu işi "Azəryolservis"ə vermişdilər.**

Gəlib ölçüb-biçib bura biabırçı qiymət təyin etdilər -189.840 manat. Mən də, təbii, bu qiymətlə razılaşmadım. Bu işlər "Azəryolservis"dən Xətai Rayon İcra Hakimiyyətinə veriləndən isə vəziyyət lap bərbad oldu. Sentyabrın 9-u mən hüzrdə idim. Bir də qonşular mənə zəng vurdu ki: "Tahir, yerin uçub. Gəl gör niyə uçub". Tələm-tələsik gəldim, gördüm binanın bir hissəsi uçurulub. 3 seyf qapım oğurlanıb, başqa nə qədər materiallar oğurlanıb. Vəziyyətlə bağlı Xətai rayon İcra Hakimiyyətinin şöbə müdiri Zaməddin müəllimin yanına getdim. Dedim, məndən sənəd istəmisiz, bildirmişdiniz ki, sökülməmişdən öncə sizə xəbər veriləcək, ərazinizin qiyməti yenidən müəyyənləşəcək. Amma görürəm mülkiyyətim sökülüb. Kim söküb? Dedi bilmirəm. Mən də dedim ki, mənimlə küçə adamı kimi danışma. Mən bu ölkənin vətəndaşıyam, mülkiyyət hüququm var. Necə yəni xəbərim yoxdur. Prezident bilsə, sən ona nə cavab verəcəksən?"

İndi nagüman qalmışam. Prezidentə, Bakı şəhər İcra Hakimiyyətinə teleqram vurmuşam. Hələ heç bir cavab yoxdur. 102-yə zəng vurmuşam. Polis də deyir gəl izahat yaz. Mən nə izahat yazım? Gəlsinlər əmlakımı kim bu günə qoyub araşdırsınlar".

T.Qocayev vaxtilə sex kimi fəaliyyət göstərmiş böyük tikili üçün müəyyən edilmiş məbləğin çox az olduğunu və məhkəməyə şikayət etdiyini dedi.

❑ **Fəridə ABDIYEVA**

**Elan**

**Hacıqabulda ipək yolunun yanında 47 hektar torpaq sahəsi, çobanlar üçün 2- ədəd -2 otaqlı , 1ədəd- 4 otaqlı qonaq evi, 3 hektar meyvə bagı, 200 ədəd mal-qara saxlamaq üçün daşdan tikilmiş tövlələr, 10 min ot bagı üçün yem anbarı, 2ədəd balıq gölü, daimi işıgı, suyu. Qaz çəkdirmək üçün sənədlər ( texnikişərt), 0,5 hektar torpaq sahəsi olan restoran, 30 metr üzüm talvarı olan ferma satılır. Ətrafında əlavə 100-150 hektar torpaq sahəsi var.**

**Əlaqə nömrəsi : (050)-214-40-53**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**







**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014

**Azərbaycanda bir dönəm ictimai fəalları cəzalandırmanın məşhur üsulundan - ictimai işlərdən istifadə edirdilər. Məsələn, hakimiyyətin "gözünə ala-bula" görünən siyasətçi, jurnalist hansısa icazəsiz aksiyada iştirak etmişdisə, pul cəzası əvəzinə onu ictimai işlə cəzalandırırdılar. Sonradan bu tendensiya yığışdırıldı, əvəzini cərimələrə, az sonra isə həbslərə verdi. Artıq adına Azərbaycan deyilən ölkədə heç kimi bu növ cəzalara məhkum etmirlər. Halbuki, sivil dünyada insanların hansısa cəzasının bu formada əvəzlənməsi forması mövcuddur.**



# Dünyanın ən maraqlı inzibati cəza növləri

## İctimai iş barədə bilmədiklərimiz; Azərbaycanda bunu təhqir, xaricdə isə islah hesab edirlər...

### Bizim qanun və ictimai iş anlayışı

Azərbaycan qanunlarına baxsaq, bizdə də ictimai işlərlə bağlı qanunvercilik var. Qanun insanların bu növ fəaliyyətə cəlb edilməsini mümkün edir. Bu məsələ Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 may tarixli, 84 nömrəli qərarı ilə təsdiq edilmiş "Haqqı ödənilən ictimai işlərin təşkili Qaydaları" ilə tənzimlənir. Öncə ondan başlayaq ki, ictimai işlər yerli icra hakimiyyəti və özünüidarəetmə orqanları tərəfindən şəhər, rayon məşğulluq mərkəzlərinin təklifi və iştirakı ilə təşkil olunur.

Sözügedən qanuna əsasən, işaxtaranların müvəqqəti işlə təmin olunmasına kömək göstərilməsi məqsədi ilə əmək bazarında işçi qüvvəsinə olan tələb və təklifin proqnozu əsasında şəhər, rayon məşğulluq mərkəzləri ictimai işlərin görülməsi üçün sosial əhəmiyyətli sahələr, mülkiyyət və təsərrüfat formasından asılı olmayaraq konkret müəssisə, idarə və təşkilatlar (bundan sonra - müəssisələr) haqqında təkliflər hazırlayır və yerli əlaqələndirmə komitələrində müzakirə edildikdən sonra ərazi məşğulluq proqramına daxil edilir.

Ərazi məşğulluq proqramı yerli icra hakimiyyəti orqanları tərəfindən hər il üçün təsdiq edilir. Bundan başqa, ictimai işlər ərazi məşğulluq proqramında nəzərdə tutulan müəssisə və şəhər, rayon məşğulluq mərkəzləri arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Müqavilədə ictimai işlərə göndəriləcək işaxtaran vətəndaşların sayı, görüləcək işin yeri, adı, həcmi, yerinə yetirilmə müddəti, ümumi əmək haqqı məbləği, bu məbləğin ödənilməsinin müəssisə və şəhər, rayon məşğulluq mərkəzi arasında bölgüsü, habelə tərəflərin digər öhdəlikləri göstərilir. Ərazi məşğulluq proqramında nəzərdə tutulmayan müəssisələrdə ictimai işlər yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarının qərarı ilə təşkil edilə bilər.

Keçək ictimai işlərin növünə. Bunların arasında şəhər, rayon ərazisinin, küçə, park və meydanların abadlaşdırılması, yaşayış əraziləri, xəstəxana, məktəb, məktəbəqədər uşaq müəssisələri, yataqxana və pansionatlar, qocalar və əlillər üçün internat evləri, habelə sosial sferanın digər obyektlərində tikinti və təmir işləri, yol və körpülərin, istilik və qazanxana sistemlərinin təmiri və tikintisi, kənd təsərrüfatı müəssisələrinə kömək göstərilməsi ilə əlaqədar işlər, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması işləri, qocalara, əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara qulluq, eləcə də digər sosial əhəmiyyətli işlər daxildir.

### Amerikada insanlar çox vaxt pul ödəmək əvəzinə ictimai iş görürlər

Amma dediyimiz kimi, ictimai iş çox vaxt cəza növü olaraq tətbiq edilir. Dünyada ictimai iş cəzası ilə bağlı bir-birindən ilginc nümunələr var. Amerikada sıradan insanlar tez-tez bu cəza növü ilə qarşılaşır. Səbəb bəzən tragikomik, bəzən isə kifayət qədər ciddi olur.

Məsələn, 47 yaşlı Amerika sakini Canet Kleyson 2011-ci ildə məktəb avtobusunun hərəkətinə mane olduğu, sürücünü mənəvi terrora məruz qoyduğu üçün həmin məhkəməyə verilmiş və məhz sözügedən avtobusdakı şagirdlərin oxuduğu məktəbin həyətini 1 həftə boyunca süpürmək cəzasına məhkum edilmişdi. Məhkəmə bu cəza növünü məktəblilərə yol hərəkət qaydalarının əhəmiyyətini anlatmaq üçün tətbiq etmişdi.

Amerika ştatlarında küçələr xüsusi küçə təmizləyən maşınlarla təmizlənsə də, bəzən ictimai cəza növü kimi bəzi ştatlarda küçə təmizlətdirilməsindən istifadə edilir. Pul cəzalarını ödəyə bilməyənlər bunun ictimai işlə (uşaqlar və qocalar evində könüllü xidmət, dövlət idarələrində hansısa pulsuz xidmət) əvəzlənməsini xahiş edirlər.

### Biri cəza olaraq küçə süpürür, o biri təbliğat üçün...

Sosyetik gözəl Paris Hilton da bir neçə dəfə küçə süpürmə cəzasına məhkum edilib. Mərhum müğənni Uitni Hyustonun həyatında da belə səhifələr az olmayıb.

Türkiyədə isə müğənnilər daha çox sosial aksiya - küçələrin təmizliyi təbliğatı üçün əllərinə süpürgə alıblar. Müğənni Sinan Özen, Selami Şahin, Emel Sayın bir neçə dəfə əllərində süpürgələrlə xalq arasına çıxıb və "hər kəs öz evinin qabağını təmiz saxlasa, İstanbul gözəlləşər" mesajı verməyə çalışıblar.

### Bu adam kefindən ictimai işlə məşğul olur...

Ən gülməlisi isə süpürgəçiliyi xobbi kimi görənlərdir. Məsələn, Tyu Yujen adlı yaşlı qadın hər gün işə getməyə məcbur deyil. Çünki onun daşınmaz əmlaka vaxtında investisiya qoyması onu şəhərin milyonçularından biri edib. Lakin pullar qadının düşüncə tərzini korlamayıb. Çinli bu qadın hər gün səhər saat 3-dən duraraq işə gedir və maraqlısı odur ki, o küçələri süpürməklə məşğul olur.

Gördüyü işin müqabilində o hər ay 220 dollar pul qazanır. Onun bu işlə işləməsinin əsas səbəbi isə öz övladlarına işləməyin necə vacib olduğunu göstərməkdir. Yeri gəlmişkən, Yunun uşaqları da çalışqandır. Son 14 il ərzində Yu bir dəfə də olsun işə gecikməyib. Yalnız bircə dəfə anasının dəfn mərasiminə qatılmaqçün 3 günlük icazə alıb.

### Nazir oğlu və keçmiş baş nazir ictimai işlə cəzalandırılıb

Bəzən ictimai iş cəzası vəzifəlilərdən də yan keçmir. Məsələn, ABŞ-ın müdafiə naziri olmuş Çak Hegelin 20 yaşlı oğlu Ziller Hegelin məhkəməsi keçirilib. Narkotik maddələri gizlətməkdə ittiham olunan nazir övladı prokurorluğun 100 saatlıq ictimai iş cəzası ilə razılaşıb. Bu işin növü tam açıqlanmasa da, sonradan mətbuat onun küçə süpürmə cəzası olduğunu dəqiqləşdirib. Qeyd edək ki, Virciniya ştatının Ferfaks rayon məhkəməsində keçirilən prosesdə Ziller Hegelin üzərindən ittiham götürülüb. Müdafiə naziri isə oğlunun məhkəmə prosesində iştirak etməyib.

Bu ilin aprel ayında İtaliya məhkəməsində keçmiş baş nazir Silvio Berluskoni üçün ictimai-faydalı iş cəzası kəsilib. Milan məhkəməsi İtaliyanın keçmiş baş nazirini vergi fırıldağına görə 1 il müddətinə ictimai-faydalı iş görməyə məhkum edib. Berluskoni rəhbərlik etdiyi Mediaset şirkətinin televiziya yayımı hüquqlarını aldığı zaman yol verilmiş maliyyə fırıldağına görə ittiham olunub.

İctimai-faydalı işin alternativi ev dustaqlığı olub. Milan məhkəməsinin çıxardığı qərar çərçivəsində Silvio Berluskoninin hansı işlərə cəlb olunacağı hələlik aydın deyil. İtaliya keçmiş baş nazirinin adı bir sıra qalmaqallı məhkəmə çəkişmələrində hallanıb.



### Müğənniyə ictimai iş verildi, dedi pulsuz konsert verəcəm...

Amma Azərbaycanda ictimai iş cəzası deyəsən ancaq müxaliflərin payına düşür. Məsələn, bir neçə il əvvəl "El içində" verilişində jurnalist Vüqar Kamiloğluna yumruq zərbəsi endirib hüquq-mühafizə orqanlarının ittihamına tuş gələn müğənni Vasif Məhərrəmli məhkəmənin qərarı ilə 200 saat ictimai işlə cəzalandırılsa da, buna əməl etməyib.

Məhkəmə hökmündən sonra müğənni efirlərdə daha tez-tez görünməyə başlayıb. O, hətta əməliyyat stoluna çıxmasını da lentə aldırıb efirlərə ötürüb. Bundan başqa, müğənni toy sifarişçilərinə efirdən mesaj ünvanlamağı da unutmur: "Məni öz toyunda görmək istəyənlər elə hesab etməsin ki, burun-boğazımda aparılan əməliyyata görə toylarda oxumaqdan imtina edəcəm. Əsla. Pərəstişkarlarımın nəzərinə çatdırıram ki, məhərrəmlikdən sonra mən bütün toy sifarişlərini yerinə yetirəcəyim".

Müğənninin mətbuat katibinin bildirdiyinə görə, Məhərrəmli məhkəmənin çıxardığı qərarla razıdır. Lakin o, müğənninin küçə süpürmək, başqa bu cür xidmətçiliklə məşğul olmaq niyyətində olmadığını dedi: "Vasif Məhərrəmli nə küçə süpürəcək, nə də xidmətçilik edəcək. Sadəcə, o, pulsuz konsertlər verəcək, heç bir maddi gəlir güdmədən ictimai işdə çalışacaq".

### Xaricdə süpürgəçi ayda 2500 avro məvacib alır

Bu arada mühacir jurnalist Elbəyi Həsənli də İsveçrədə küçə süpürüb. Amma bu, onun işidir. Jurnalist dəfələrlə verdiyi müsahibələrində deyib ki, işindən razıdır: "Mən ən azı vicdan əzabı çəkmirəm. Yəni vətənimi, millətimi bu iqtidara satmadım. Önəmlisi elə budur". E.Həsənli bizə verdiyi son müsahibəsində isə demişdi ki, İsveçrədə olduğu zaman bir il sosial bir işdə çalışıb: "Orda da gündə 6 saat işləyirdim. Aldığım məvacib isə bələdiyyənin verdiyi puldan 300 manat artıq idi. Evdə bekarçılıqdan, darıxmamaq üçün işlədim. İsveçrədə düşünürlər ki, insan işləmirsə, dəyəri yoxdur. Bu da insanda psixoloji problem yaradır. Qürbətdə olanda gördüm ki, belədir. Ondan sonra 1 il müddətində çox yerdə işlədim - küçə süpürməkdən, tualet təmizləməyə qədər. İsveçrədə bu, qəbahət deyil. Nazir, ya süpürgəçi, əsas odur ki, çalışasan. Üstəlik, orda maaşlar da çox yüksəkdir. 3200-3500 frank. Bu, təxminən 2500 avro maaş deməkdir. Almaniyadan ixtisaslı adamlar gəlirlər. Çalışırlar ki, İsveçrədə süpürgəçi də olsa, işə düzəlsinlər. Çünki İsveçrədə məvacib Almaniyadakından artıqdır".

1918-ci ildə ruslar Azərbaycanı işğal edəndə iki generalımıza - Səməd bəy Mehmandarova və Əlağa Şıxlınskiyə indiki İstiqlaliyyət küçələrini süpürtdürüblər. 2003-cü ildə seçkidən sonra bəzi rayonlarda yerli müxalifətçiləri sındırmaq və alçaltmaq üçün onlara küçə süpürtdürmüşdülər.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 230 (5939) 15 sentyabr 2014



## Səddam Hüseynin dünyanı heyrətə salan nəvəsi

ABŞ-ın və dünyanın ən nüfuzlu nəşrlərindən biri "The New York Times" qəzeti "XXI əsrin ən cəsur və qorxmaz oğlanı"nı seçib. Həmin oğlan İraqda yaşayan Mustafa Səddam Hüseyndir. İraqın keçmiş prezidenti Səddam Hüseynin 14 yaşlı nəvəsi amerikalı kommandosların Şeyx Nəffaf Zeydanın malikanəsinə hücumu zamanı onlara qarşı vuruşub. Həmin anda Mustafa Səddam evdə sağ qalmış yeganə şəxs idi. Səddamın yanında atası Kusay, əmisi Uday və onların mühafizəçisi Əbdel Səmədin cəsədləri vardı. Əməliyyatda iştirak etmiş amerikalı hərbçilərin dediklərinə görə, onlar evə girəndə Mustafa Hüseyn "qonaq"ları atəşlə qarşılayıb. 400 amerikalı kommandos evi mühasirəyə alıbmış. Mustafanın atası və əmisi gözünün qarşısında öldürüləndən sonra yeniyetmə 40 dəqiqə atışıb və snayper tüfəngindən 14 amerikalı dəniz piyadasını öldürüb. Bundan sonra Səddam Hüseynin nəvəsi ilə amerikalı kommandosların döyüşü 6 saat davam edib. Amerikalılar sonda 14 yaşlı yeniyetməni qətlə yetirəndə saatlar ərzində bir oğlanla atışdıqlarına inana bilməyiblər. "New York Times"ın reportyoru Robert Eysk yazır: "Əgər bizdə belə bir oğlan olsaydı, ona hər şəhərdə heykəl ucaldardıq. Onun cəsarətindən hər yerdə danışardıq və o, böyüyən nəslə örnək olardı". Səddam Hüseynin nəvəsi barədə Avropa və Asiya mediası da çoxsaylı yazılar, şərhlər dərc edib.

# 61,2 milyon avro qazandı

Avropada 14 ölkənin loto idarəsinin birgə təşkil etdiyi "Eurojackpot"da uduşa qoyulan 61,2 milyon avro Finlandiyaya gedib. Helsinkidə keçirilən oyunun sonunda 2, 9, 17, 25 və 29 rəqəmləri yazılan biletin sahibi milyoner olub. Lotereyada bu günədək qazanılan ən çox pulun sahibinin kimliyi bəlli deyil. Məlumat üçün bildirək ki, aprel ayında da həmin lotonu finlandiyalı bir kişi qazanmışdı. O, 57,3 milyon avronun sahibi olmuşdu.



# İki ildir qaçır



Hələ 11 yaşı olsa da, təkbaşına 40 min dollar qazanıb. Amerikalı Nikolas Toçek iki ildir dünyanın bütün qitələrində marafon qaçışlarında iştirak edir. Yardıma ehtiyacı olan uşaqlar üçün marafon qaçan Nikolas qazandığı pulları "Operation Varm" adlı yardım təşkilatına bağışlayır. Babası tərəfindən qurulan xeyriyyə təşkilatına bu günə qədər 40 min dollar bağışlayan gənc idmançı minlərlə uşağa kömək edib. Hələ 6-cı sinifdə oxuyan Nikolas yardım üçün çox böyüməyə ehtiyacı olmadığını deyir. Onun ən böyük hədəfi 1 milyon dollar həcmində yardım toplamaqdır.




## "Viber"də videozəng dövrü

Android və iOS platformaları üçün "Viber" messencerinin beşinci versiyasının təqdimatı olub. Hazırda populyar messencerdə mobil qurğular üçün videozəng dəstəyi reallaşdırılıb. Tərtibatçılar bildirib ki, videosiqnalın qəbulu və ötürülməsi üçün hətta zəif internet-qoşulma kifayətdir, amma bu halda keyfiyyətli təsvir gözləmək lazım deyil. Videozəng funksiyası həm kompüter, həm də mobil qurğularda əlçatan olub - "Viber"in baş direktoru Talmon Marko deyib. Proqramın yeni versiyasında interfeys və kontaktların idarəsi sistemi dəyişib. Android və kompüter istifadəçiləri təkmilləşdirilmiş dizaynı görəcəklər.

## Beyninin yarısı olmasa da, yaşayır



Çində baş ağrısı şikayəti ilə həkimə gedən 24 yaşlı qadının beyninin yarısının olmadığı məlum olub. Beynin olmayan hissəsinin beyin-onurğa iliyi ilə dolu olduğu deyilib. Alimlər belə insanların beyinləri üzərində araşdırma apararaq yaşamağın necə mümkün olduğunu araşdırırlar. Çinli qadın dünyada beyninin yarısı olmadan yaşayan bilən 9 nəfərdən biridir.




**QOÇ** - Ulduzların düzümü əsasən səhhətinizə fikir verməyi məsləhət görür. Bunun üçün ilk növbədə əsəblərinizi qorumalı, hər dedi-qoduya fikir verməməlisiniz. Əsas vaxtınızı evdə keçirin.

**BUĞA** - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhət görülür. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Nəzərə alın ki, bu, sizə hədsiz savab qazandıra bilər.

**ƏKİZLƏR** - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.

**XƏRÇƏNG** - Kollektiv gəzintilərə çıxmaq üçün əlverişli tarixdir. Buna əməl etməklə sürprizlərlə rastlaşacaqsınız. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz.

**ŞİR** - Saat 12-yə qədər hansısa ciddi işlərə girişməyin. Əks təqdirdə xoşagəlməz situasiyalarla rastlaşacaqsınız. Nahardan sonra nüfuzlu şəxslərlə görüşləriniz sizə səmərə verəcək.

**QIZ** - Qəlbinizin məhəbbət guşəsinə baş vurmağınızı təvəqqe edən ulduzlar əsas gücünüzü sevgiyə yönəltməyi məsləhət görür. Dardüşüncəli insanlara əhəmiyyətsiz yanaşın. Gələcəyə ümidlə baxın.

**TƏRƏZİ** - Maliyyə baxımından düşərli gün olsa da, ümumi ovqatınızda gərginlik mümkündür. Lakin bu amil işgüzar sövdələşmələrdə və qərarlar qəbul etməkdə sizə mane olmayacaq.

**ƏQRƏB** - Yaxşı olar ki, əsas vaxtınızı ev şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Büdcənizdə isə artım gözlənilir.

**OXATAN** - Ümumi məziyyətlərinə görə, uğurlu gün hesab etmək olar. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Yeni xəbər eşidəcəyiniz də mümkündür.

**OĞLAQ** - İş yerində həmkarlarınızla müəyyən mübahisələriniz gözlənilir. Odur ki, özünüzü qalmaqallara istiqamətləndirməyin. Saat 16-dan sonra şəxsi işlərinizdə dönüş yarana bilər.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.

**BALIQLAR** - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki yaxın günlərdə bu istiqamətdə uğurlarınız artacaq. Konkret olaraq bu günsə yalnız görəcəyiniz işləri konkretləşdirməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 81 yaşlı milyarder 5-ci dəfə evləndi



Tanınmış milyarder Riçard Luqner "Playboy" modeli ilə evlənib. 81 yaşlı milyarder Riçard Luqner uzun müddətdir nişanlı olduğu 24 yaşlı Keti Şmitslə ailə qurub. Dünyanın ən böyük tikinti şirkətinin və alış-veriş mərkəzini sahibi olan Şönbrun sarayında evlilik mərasimi təşkil edib. Mərasimdə bir sıra tanınmışlar qonaq olublar. Beşinci dəfə evlənən iş adamı bu dəfə yaxşı bir ailəsi olacağını ümid edir. "Böyük bir yaş fərqini nəzərə almasaq, elə bir uyğunsuzluğumuz yoxdur. Tək qalmaq çətindir", - deyə "təzə bəy" bildirib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600

www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet  15 sentyabr 2014-cü il  Bazar ertəsi  № 230 (5939)  Qiyməti 40 qəpik

**Xəbər**

## Dünyanın "iPhone 6" çılğınlığı Azərbaycanı da vurdu

yazısı səh.4-də

**Gündəm**

### Azərbaycan-Türkiyə genişmiqyaslı təlimlərinin şok səbəbi



İki ölkənin ortaq "əzələ nümayişi" təkcə işğalçı Ermənistana və Qarabağ nizamlanmasını süni şəkildə uzadan qlobal güclərə xəbərdarlıq deyil, həm də...

yazısı səh.9-da

### Bakının erməni-rus quldurlarından təmizlənməsindən 96 il ötür

yazısı səh.3-də

### Bu gün yeni dərs ili başlayır

yazısı səh.14-də

### Başqanlığa namizədlərin İsa Qəmbərdən gözləntiləri

yazısı səh.6-da

### Bu kəndin bulağından su içən oxuyan olur - möcüzə...

"Yeni Müsavat" Şirvan elinin konservatoriyası adlanan ucqar dağ kəndindən yazır...

yazısı səh.13-də

### NATO sammitində erməni fitnəsi ilə bağlı ilginc məlumat

yazısı səh.10-da

### Əfsanəvi "Serafino"... İtaliyanın Milli Qəhrəmanı Tahir İsayev haqda nə bilirik?

yazısı səh.12-də

### Qələm əhli Müsavat başqanı qismində kimi görür?

yazısı səh.6-da

*Ekspert:*

### "Türkiyə-ABŞ münasibətləri ciddi şəkildə zədələnib"

yazısı səh.11-də

### İŞİD daha bir əcnəbi girovu edam elədi

yazısı səh.10-da

*Ağrı Qaradağlı:*

### "Türkiyə və Azərbaycandan dəstək gözləyirik"

yazısı səh.12-də

### Ermənilər öz hökumətlərinə Allahdan ağıl diləyir

yazısı səh.8-də

## Rusiyadan müstəqilliyimizə simmetrik hədə ciddiləşir

# AZƏRBAYCANA "5-Cİ KOLON" TƏHLÜKƏSİ - TƏHLİL

Kremlin virtual işğal taktikası ölkəmiz üçün Qarabağ qədər qorxulu problemə çevrilməkdədir; Qərb "təsir agentləri"nə qarşı güclənən repressiya fonunda geniş şəbəkəyə malik rusiyayönlü "5-ci kolon"çulara toxunulmaması özündə daha ciddi neqativlər daşıyır; Moskvanın bu yöndə əsas ideoloji silahını əlindən necə almalı?..

yazısı səh.5-də



Aydın Abbasov

## Abbas Abbasovun oğlu haqda daha bir sensasion məlumat

Bakı küçələrində gecələr motosiklet sürən deputatın adı bəlli oldu; Milli Məclis üzvü Aydın Abbasov 60 min manatlıq "Harley Devidson" markalı baykla əylənir...

yazısı səh.4-də



*Mirvari Qəhrəmanlı:*

### "Heç kimin əvəzinə and içə bilmərəm..."

yazısı səh.7-də



*Orxan Qafarlı:*

### "Rusiyaya qarşı sanksiyalar Azərbaycana da təsir edəcək"

yazısı səh.10-da



*Pənah Hüseyn:*

### "Müxalifətdə yeni mərhələ başlayır"

yazısı səh.8-də

15 sentyabr 2014



# Fransa prezidentinin pasportu twitter-də

İraq parlamenti araşdırmalara çağırdı

**Twitter-də Fransa Prezidenti Fransua Ollandın pasportunun surəti yayımlanıb. Nəticədə prezident sosial şəbəkədə gülüş hədəfinə çevrilib. Ümumiyyətlə, Fransua Olland Fransa tarixində ən qeyri-populyar lider hesab olunur. Güman edilir ki, onun pasportunun surəti İraq səfəri zamanı kənara ötürülüb.**

İraq parlamenti bu "sızma" ilə bağlı araşdırmalar aparılmasını tələb edir. Qeyd olunur ki, cümə günü Fransa prezidenti İraqda olub və yeni hökumətin formalaşmasına dəstək nümayiş etdirib. Twitter-də isə Fransua Ollandın pasportunun iki vərəqinin surəti verilib. Həmin vərəqlərdəki məlumatdan bəlli olub ki, Ollandın boyu 170 sm-dır. Onun boyu ilə bağlı ironik qeydlər twitter-də xüsusilə çox olub.

"Al-Arabiya" telekanalının məlumatına görə, İraq parlamentinin üzvü Hanan əl-Fatlavi də bu faktla bağlı araşdırma aparılmasının zəruri olduğunu bildirib. O qeyd edib ki, bu informasiyanı kənara ötürənlər həbs olunmalıdır.

❑ Elbəyi HƏSƏNLİ, Sürix

# Hava sərinləşəcək

**Bakı və Abşeron yarımadasında sentyabrın 15-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, temperaturun gecə 18-23, gündüz 26-31 dərəcə isti olacağı proqnozlaşdırılır. Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu, nisbi rütubət gecə 70-80 faiz, gündüz 50-60 faiz təşkil edəcək.**

Dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh çimərliklərində 23-24, Zağulba, Mərdəkan, Şüvəlan, Buzovna çimərliklərində 24-25, Türkan, Hövsan, Şıx, Sahil çimərliklərində 25-26 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında sentyabrın 15-də hava şəraitinin gündüz əsasən yağmursuz olacağı, gecə və axşam bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dağlıq və dağətəyi rayonlarda leysan xarakterli olacağı ehtimalı var. Qərb küləyi əsəcək, arabir güclənəcək.

Havanın temperaturunun gecə 18-23, gündüz 29-34, dağlarda gecə 10-15, gündüz 18-23 dərəcə isti olacağı gözlənilir.

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat» qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# "Qarabağ problemi çözülməyə yaxın idi"

**"ABŞ hətta atəşkəsin bərpa olunduğu anlarda belə sanksiyalar tətbiq etməklə Rusiyada qarışıqlıq yaratmaq istəyir". Bu sözləri axar.az-a açıqlamasında Şimal-Cənub Siyasi Araşdırmalar Mərkəzinin icraçı direktoru Yuliya Yakuşeva deyib.**



O, dünyadakı qeyri-stabilliyin ABŞ-ın maraqlarında olduğunu bildirib: "11 sentyabr ABŞ-ın bütün dünyada antiterror əməliyyatlarını başlaması üçün bəhanə oldu. Bu isə faktiki olaraq Vaşinqtonun Yaxın Şərq və Mərkəzi Asiyada hərbi siyasi mövcudluğunu gücləndirməsi deməkdir. Qoşunların Əfqanıstan və İraqa yeridilməsi, İrana qarşı nüvə silahı təhlükəsi yaratması bəhanəsi ilə mübarizə, Mərkəzi Asiyada hərbi bazaların yaradılması ilk baxışda regionun təhlükəsizliyi mahiyyətini daşısa da, əslində, bu bölgələrin praktiki olaraq parçalanması üçün ilkin addımlar oldu. Stabil ölkələr olmuş İraq və Liviya hazırda xaosla üz-üzədir. Regiona "ərəb baharı" dalğası ötürüldü. Eyni motivlər üzərində Ukrayna hadisələri də yaradıldı. İndi də ABŞ hətta atəşkəsin bərpa olunduğu anlarda sanksiyalar tətbiq etməklə Rusiyada qarışıqlığa nail olmağa çalışır. Düşünürəm ki, bu hadisələr yalnız bir fikrə gətirib çıxarır. Qlobal qeyri-stabilliyin baş mənfəət götürəni Amerikadır. O, məhz Rusiya və Çinin sərhədləri yaxınlığında gərginlik yaratmaqla bu ölkələrin geosiyasi və iqtisadi planda inkişafına mane olmağa çalışır. Bu müəyyən mənada cari ilin yayında həll edilməyə yaxın olan Qarabağ konfliktinə də aiddir. Məncə, Mərkəzi Asiyanın təhlükəsizliyi ilə bağlı təhlükə də artmış olacaq. 11 sentyabr hadisələrini kimin təşkil etməsindən asılı olmayaraq, bu terror aktı siyasətdə hərbi mövcudluğun tutumunun əsas faktor olmasına şərait yaratdı. Estoniyada NATO hərbi bazalarının yaradılması haqqında anons da buna sübutdur".

## Sabunçunun Kamilov küçəsindən şikayət var

**Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Kamil Kamilov küçəsindən redaksiyamıza şikayət daxil olub.**

K.Kamilov küçəsi 5, 7, 9, 11 ünvanların sakinləri deyirlər ki, bir qədər əvvəl Sabunçu Rayon İcra Hakimiyyəti onların yaşadıqları binaların həyətində yenidənqurma işlərinə başlayıb: "Həyətdəki qanunsuz tikililəri, qarajları, bağları sökük, yerlərini boşaltdılar. Sakinlərə də söz verdilər ki, həyətdə yaşıllıq sahəsi salınacaq. Artıq səkiləri düzəldiblər. Sakinləri narahat edən isə həyətdəki mağazalardan birinin sökülməməsidir. Üstəlik, həmin mağazanın yanında biri də tikilir. Xahiş edirik ki, həmin mağazanın həyətdən kənar yerdə tikilməsinə icazə versinlər. Sakinlərə verdikləri vədi tutub, həyətdə yaşıllıq sahəsi salsınlar".

Məsələ ilə bağlı sabunçu Rayon İcra Hakimiyyətinin mövqeyini öyrənə bilmədik.

❑ E.HÜSEYNOV

## NATO Ukraynaya silah göndərir

**NATO ölkələri artıq Ukraynaya silah-sursat göndərir. APA-nın RSN-ə istinadən verdiyi xəbərə görə, bu barədə Ukrayna müdafiə naziri Valeriy Geletey yerli "Pyatıy kanal" telekanalına müsahibəsində bildirib.**

Qurumun rəhbəri bildirib ki, o, bu günlərdə NATO-nun Uelsdə keçirilmiş sammitində prezident Pyotr Poroşenkonu müşayiət edib. Valeriy Geletey qapalı formatda dünyanın aparıcı ölkələrinin müdafiə nazirləri ilə Ukraynaya silah tədarükü məsələsini müzakirə etdiyini qeyd edib: "Tədarük prosesi artıq başlayıb", - deyə nazir əlavə edib.

Bundan əvvəl Poroşenko da Kiyevin NATO ölkələri ilə birbaşa silah tədarükünə dair razılığa gəldiyini bəyan edib.



# Arif Hacılı 13 rayonda müsavatçılarla görüş keçirdi

**Başqanlığa namizəd:** "Görüşlərə hansısa maneçiliklər törədilmədi"

**Müsavat Partiyasının başqanlığına namizəd Arif Hacılı Müsavatın rayon təşkilatlarının üzvləri ilə görüşləri davam edir. Arif Hacılının "Yeni Müsavat"a verdiyi məlumata görə, namizədliyini ötən həftə rəsmən irəli sürdükdən sonra bir sıra rayonlarda olaraq müsavatçılarla görüşlər keçirib:**

"Qobustan, Şamaxı, Qəbələ, Oğuz, Şəki, Zaqatala, Qax, Balakən rayonlarında görüşlər keçirdim. Yalnız Zaqatala və Qax rayonlarında yerli hakimiyyət strukturları bizim görüşlərimizə xüsusi maraq göstərirdilər. Amma görüşlərin keçirilməsinə hansısa maneçiliklər törədilmədi. Bu görüşlər zamanı mən öz platformamla yerli müsavatçıları tanış etdim, müsavatçıların suallarına cavab verdim. Həftənin sonunda-sentyabrın 14-də isə Cəlilabad, Biləsuvar, Masallı, Salyan və Neftçala rayonlarında müsavatçılarla görüşlər keçirdim. Bu görüşlərdə də müsavatçıları maraqlandıran suallara cavab verməklə yanaşı, Müsavat Partiyasının fəaliyyət istiqamətləri barədə öz fikirlərimi onların diqqətinə çatdırdım".

A.Hacılı vurğuladı ki, çox maraqlı bir seçki kampaniyası gedir: "Azərbaycan tarixində ilk dəfədir ki, hansısa bir partiyanın daxilində həmin partiyanın başqanlığı uğrunda partiyadaxili seçki kampaniyası keçirilir. Seçki kampaniyası vüsət almaqdadır. Düşünürəm ki, seçki kampaniyası həm Müsavat Partiyası strukturlarının fəallaşmasına, eyni zamanda Müsavat Partiyası üzvlərinin qurultayda düzgün seçim etməsinə yardım eləməklə yanaşı, həmçinin Azərbaycan cəmiyyətinə bir töhfə olacaq. Bu da bir yeniliktdir, bu da ölkədə demokratik ideyaların, azad seçki ideyasının yayılması istiqamətində atılan bir addımdır. Hesab edirəm ki, partiya üçün də, Azərbaycan cəmiyyəti üçün də bu, xeyirli və uğurlu olacaq".

❑ E.SEYİDAĞA

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



## İspaniya çadraya qadağa qoyacaq

Yerli müsəlman icması qanun layihəsinə etiraz edir

**İspaniya pərənçəni (çadra kimi bütün üzü örtür. Qərbdə "burqa" kimi təqdim olunur-Elbəyi Həsənli) qadağan etmək fikrindədir. Bu barədə adıçəkilən ölkənin daxili işlər naziri Corc Fernandes Diasın "The Local" qəzetində bəyanatı yayılıb.**

Nazir bildirib ki, bu məsələ ilə bağlı qanun layihəsi parlamentdə müzakirəyə çıxarılacaq. Xüsən mütinqlər zamanı insanların sifətlərinin bağlamasının qanunla yasaq ediləcəyi gözlənilir: "Düşünürəm ki, pərəncə məsələsində parlamentin konsensusa gəlməsi üçün əla fürsət yaranıb".

İspaniya İslam icmasının rəhbərliyi isə bəyan edib ki, ölkədə pərənçəni qadağa etmək üçün heç bir səbəb yoxdur. Həm də pərəncəyə bürünmək İspaniyada yaşayan müsəlman xanımlar arasında o qədər də geniş yayılmayıb.

❑ Elbəyi HƏSƏNLİ, Sürix

## Moskva-Qəbələ təyyarəsi xuliqana görə Həştərxanda enməli oldu

**Moskvadan Qəbələyə uçan "A-320" sərnişin təyyarəsi Həştərxan aeroportuna enməli olub. Interfax agentliyinin məlumatına görə, buna səbəb sərnişinlərdən birinin "qeyri-adekvat davranışı" olub.**

Hadisə sentyabrın 13-də axşam baş verib. Məlumata görə, içkili vəziyyətdə olan kişi sərnişin stüardessaların işinə maneçilik törədib, onlarla qarşı kobudluq edib, uçuş zamanı gözlənilməli olan davranış qaydalarına riayət etmək tələblərini rədd edib.

Həştərxan aeroportundakı məcburi enişdən sonra polis əməkdaşları onu təyyarədən düşürüb. O, polis tərəfindən saxlanıb. Məlum olub ki, bu, əslən Azərbaycandan olan Rusiya vətəndaşıdır. İnsidentə görə təyyarə 7 saat ləngiyib.

Avqustun 26-da daha bir azərbaycanlının Dubay-Moskva reysində eyni davranışına görə təyyarə İrəvan aeroportuna məcburi eniş etmiş, ona sakitləşdirici iynə vurulduqdan sonra uçuş davam etmiş, xuliqan Moskva polisinə təhvil verilmişdi (virtualaz.org).



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Mirdemokratiya

(Bu yazımı şərlənərək həbs olunmuş hüquq müdafiəçisi, siyasi məhbus Rəsul Cəfərova ithaf edirəm)

**Dindirsən Mübariz Qurbanlı və yaxud Siyavuş Novruzov Şimali Koreyanın demokratik ölkə olmadığını təsdiqləyərlər. Amma gəlin görək orada iqtidarda olan Kim İr Sen sülaləsi heç bunu boynuna alarmı? Əgər bir britaniyalı deputat hansısa beynəlxalq tədbirdə üzünü Şimali Koreya rəhbərinə tutaraq onun ölkəsində siyasi məhbusların olduğunu, demokratiyadan əsər-əlamət görmədiyini, seçkilərin saxtalaşdırıldığını desə, o, qəzəblə bütün belə pis şeylərin ingilislərin öz ölkəsində baş verdiyini deyər. Ertəsi günü də YŞKP-nin (Yeni Şimali Koreya Partiyası) quzğunlarından olan Mü Ba Riz, Səy Av Uş və s. bunun kimi tiplər Şkaz.Tv-yə çıxıb ölkə başçısının məlun ingilisə necə layiqli cavab verməsindən danışar, ölkədə mütləq demokratiyanın olduğunu sübut etmək üçün, neçə siyasi partiyanın, qəzetin, QHT-nin və s. qeydiyyatdan keçdiyini, üstəlik də bariz praktiki nümunə kimi müxalifətçilərin də heç bir arayış-zad təqdim etmədən rahatca metrodan istifadə etdiklərini göstərərlər.**

Təxminən bizdəki kimi. YAP deyir ki, ölkənin nə qədər demokratik olmasının əsas göstəricisi kağız-kuğuzdur. Yəni qərblilər bizim demokratiyamıza şübhə edəndə gözdən pərdə asmaq üçün qanunlarımıza dürtüşdürdüyümüz bir-iki maddəni dərhal onların gözünə soxursan, olurlar kor. Bəli, demokratiya həm qətiyyətli, həm cəsarətli olmağı sevər. Əgər hansısa alman götürüb öz qəzetində Azərbaycanda sülalə rejimi olduğunu, parlamentin təyinatla formalaşdığını yazarsa girəvələyib onu Bakıya gələndə tutursan. Sonra da İŞİD qaydası ilə əl-qolu bağlı videokameranın qabağında konstitusiyamızdakı "Hakimiyyətin mənbəyi xalqdır" və yaxud da "Hamı qanun qarşısında bərabərdir" müddəalarını ucadan oxutdurursan, sonra da bıçağı boğazına çəkirsən. Vəssalam! Bununla da olursan dünyanın ən demokratik ölkəsi. Hətta İŞİD-dən də! Yeri gəlmişkən, bıçağı mənim müstəntiqim Nadir Mirzəyevə, ya da hakimim Rəşid Hüseynova vermək olar. Onların peşəkarlığına əminəm. Ancaq onların İŞİD-çi başkəsən kimi tanımamaq üçün üzlərini bağlamasına ehtiyac yoxdur. Çünki biz İŞİD-dən ötə bir demokratiya qurmaq istəyirik, nə qədər çox aşkarlıq olsa, o qədər yaxşıdır. Bircə qalır Konqo Demokratik Respublikasına çatmaq. Düzdür, bu bir qədər çətin işdir, çünki bu dövlətin birbaşa adında demokratiya sözü var, amma qəm etməyə dəyməz. Lazım gəlsə iki saata lap Monqonu (Konqonun paytaxtının adını unutmuşam, Şəki qazamatının şanlı işçiləri də evdən gələn xəritəni müsadirə ediblər, ona görə də "Monqo" yazdım) alarıq. Bununla da dünyanın ən demokratik respublikası özümüz olarıq. Qoy, Konqo ilə Şimali Koreya ikinci yer uğrunda bir-birini qırsınlar. Lazım gəlsə, onların yerini də özümüz təyin edərik.

Yeri gəlmişkən, kamera yoldaşım Şükran Fətulla oğlu Mühbəliyevin danışdığı lətifədə də adda lazımı komponentin olmasının vacibliyi vurğulanır. Mirrasim adında bir ağır çəkili seyid var imiş. Şəcərəsi və seyidliyi ilə fəxr edirmiş. Onun oğlu Mirvaqif məktəbi qurtarandan sonra bir az ortalıqda avaralanıb pul qazanmaq üçün Rusiyaya gedir. Bir-iki ilə özünə babat güzəran qura bilir. Amma bir nöqsanı da olur ki, şeytan onu yoldan çıxardıb Nadya adlı bir rus qızı ailə qurmağa məcbur edir. Atası Mirrasim bundan çox üzülür, nə qədər çalışırsa oğlunu Nadyadan ayırıb geri gətirə bilmir. Mirrasim bir gün eşidir ki, gəlini hamilədir, 2-3 günə dünyaya uşaq gətirəcək. Odur ki, Mirvaqifə zəng edib, ona dönə-dönə tapşırır ki, heç olmasa uşağa elə ad qoy ki, onun seyid nəslinə aid olduğu bilinsin, yəni uşağın adında mütləq "mir" tərkibi olmalıdır. Uşaq anadan olandan sonra Mirvaqif atasına zəng edərək, əvvəlcə onu baba olması münasibəti ilə təbrik edir, sonra da deyir ki, ateyi-mehriban, uşağına adını da sənin istəyinə uyğun qoydum: "VladiMİR"

Bax, hörmətli oxucular, "Vladimir" adının sonundakı "mir" hecası, bu adın nə qədər seyid adı olduğuna dəlalət edirsə, bizim qanunlara, kağız-kuğuzlara dürtülmüş formal demokratik müddəalar da, ölkəmizin demokratik olduğunu o qədər sübut edir.

# Bakının rus-erməni quldurlarından təmizlənməsindən 96 il ötür

## Paytaxtımızın qurtuluş günü türk şəhidliyində anılıb

**Sentyabrın 14-də "125-lər" Siyasi Klubunun təşəbbüsü ilə Bakının bolşevik-daşnak qüvvələrindən azad edilməsinin 96-cı ili anılıb. Mərasim Azərbaycan Xalq Cümhuriyyətinin çağırışı ilə Osmanlı İmperiyasının Azərbaycana göndərdiyi Qafqaz İslam Ordusu şəhidlərinin xatirəsinə Bakıda ucaldılan Türk Şəhidliyində keçirilib. Öncə mərasim iştirakçıları 20 Yanvar və Qarabağ şəhidlərinin məzarını ziyarət edib.**









Mərasimdə çıxış edən "125-lər" Siyasi Klubunun rəhbəri İlhamiyyə Rza Osmanlı Ordusunun qardaş Azərbaycana bu böyük dəstəyini türk tarixinin ən şanlı səhifələrindən biri adlandırıb: "Məmməd Əmin Rəsulzadə Bakı işğaldan azad ediləndən sonra demişdi ki, nəhayət, baş bədənə qovuşdu. 15 sentyabrın təqvimdə qırmızı rənglə qeyd edilib-edilməməsindən asılı olmayaraq bu gün hər bir Azərbaycan vətəndaşı üçün böyük bayramdır. Allah bu bayramı bizə yaşadan, Bakını bolşevik-daşnak qüvvələrindən azad edən bütün şəhidlərə rəhmət eləsin".

Anım mərasiminə qatılan Qarabağ savaşı qaziləri adından danışan Qarabağ Qazilər Birliyinin sədri Etimad Əsədov Bakının qurtuluşu üçün canından keçən türk şəhidlərinin xatirəsinin Azərbaycan türklərinin qəlbində hər zaman ayrıca yeri olacağını bildirib.

Sentyabrın 14-də Milli Şura da 15 sentyabrla bağlı Türk şəhidliyində mərasim keçirib. Milli Şuranın sədri Cəmil Həsənli və AXCP sədri Əli Kərimli Bakının işğaldan azad edilməsinin tarixindən və bu günün Azərbaycanla Türkiyə qardaşlığının simvoluna çevrilməsindən danışıb.

❑ **AYGÜN**

# "Mübarizə taktikamızı dəyişməliyik"

## Başqanlığa namizəd Səxavət Əlisoy mətbuat konfransı keçirib





**Sentyabın 14-də Müsavat Partiyası başqanlığına namizədlərdən olan Səxavət Əlisoy partiya qərargahında mətbuat konfransı keçirib. Başqan seçiləcəyi təqdirdə görəcəyi işlərdən danışan Əlisoy nizamnamədə dəyişiklik edəcəyini bildirdi:**

"Biz bu gün yenilənməliyik. Əgər dəyişməsək, yenilənməsək, ən yaxşı halda bir neçə mandat yeri uğrunda mübarizə aparan partiya olacağıq. Ancaq yenilənməklə daha güclü partiya ola bilərik. Bütün məsələlərə intellektual aspektdən baxsaq və ciddi şəkildə partiyanın yenidən güclənməsi üçün enerji sərf etsək, ciddi iddialar ortaya qoymaq iqtidarında olacaq. Bu gün başlamalıyıq ki, 2018-ci ildə 2003-cü ildəki statusumuzu bərpa edə bilək. Öncə mübarizə taktikasını dəyişməliyik. Buna görə də qurultaydan sonra partiyada ciddi islahatlar getməlidir. İlk növbədə partiyada beyin mərkəzi yaradılmalıdır. Beyin mərkəzi olmayan partiya heç vaxt hakimiyyətə gələməyib, gələ də bilməz. Partiyada nizamnamə və proqram dəyişikliyi barədə ciddi düşünmək lazımdır. Proqram söhbətində partiyanın təməl prinsiplərindən biri türkçülük, digəri millətçilikdir. İndiki rejimin idarəçiliyində çılpaq şəkildə insanların partiya mənsubiyyətini ortaya qoyması onların həyat fəaliyyətini hətta bəzən təhlükə qarşısında qoyur. Bunun qarşısını almaq üçün Müsavatın elektoratının artması naminə tərəfdaşlıq institutunun yaradılması önəmlidir. Məclis üzlərinin sayı da ən azı 50 faiz aşağı salınmalıdır".

Çıxışçı Türkiyə təcrübəsindən də misal gətirdi: "Orada Cümhuriyyət Xalq Partiyasının üzvlərinin sayı 950 mini keçib. Deməli olar ki, 1 milyondur. Bir milyon üzvü olan partiyanın Məclis üzvlərinin sayı 60 nəfərdir. Müsavat Partiyasında 2000-ci ildə üzvlərin sayı 50 mindən yuxarı idi. İndi dəqiq rəqəmi bilmirəm. Partiyanın Məclis üzvlərinin sayı 160 civarındadır. Məclis üzvləri ilə bərabər qurultaya nümayəndəlik institutu da aşağı endirilməlidir. Müsavat Partiyasının 4 ildir qurultay keçirməməsi çox ciddi nizamnamə pozuntusudur. Buna görə də qurultay nümayəndələrinin sayının azaldılması həm partiyanın çevik işləməsinə, həm keyfiyyət baxımından müsbət təsir göstərməsinə gətirib çıxarır. Məclis üzvlərinin də azaldılması partiyanın keyfiyyət dinamikasına müsbət təsir edər. Eyni zamanda Divan üzvlərinin sayının aşağı salınması nəzərdə tutulmalıdır. Müsavat Partiyası heç kimin şəxsi mülkiyyəti deyil. Bu partiya xalqın partiyasıdır. Bu partiyada zəhməti keçənlər onun bugünki durumuna biganə qala bilməzlər. Ayrı-ayrı namizədlərin rayonların görüş keçirmələri də bunu sübut edir. Ən əsası isə odur ki, bu mübarizə Müsavatın təməl prinsiplərindən olan ləyaqətlilik prinsiplərinə söykənərək gedir. Hesab edirəm ki, sonadək də belə olacaq".

Başqanlığa namizəd Müsavatda islahatın kadrlardan başlamalı olduğunu düşünür: "20 ildir bir vəzifəni tutmuş insanlar nə qədər gənci kölgədə qoyur. Mən icazəsiz aksiyaların hakimiyyətə qeyri-adekvat, gərəksiz bir cavab olduğunu düşünürəm. Müsavat Partiyasının adından radikal sözü götürülməlidir. İntellektual Müsavat niyə radikal Müsavata çevrilməlidir? Partiyada gəncliyə söykənən yenilənmə lazımdır. İsa Qənbər bu partiya nə bacardısa, etdi. Mən əminəm ki, İsa Qənbər tərəfsizliyini sonadək qoruyub saxlayacaq. Mənim bu seçkilərdə amalım dürüstlük və obyektivlikdir".

Sonda S. Əlisoy jurnalistlərin suallarını cavablandırdı.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014



# Sədaqət simvolu, səbat etalonu

**Samir SARI**

**Neçə gündür mediada YAP rəhbərlərindən deputat Siyavuş Novruzovun, içərisində qızıl xırdaladığı müsahibəsindən fraqmentlər dərc və müzakirə olunur.**

Həmin iqtibaslardan biri bu cürdür: "Amma bir misal var: Çörçill sonuncu dəfə baş nazir seçiləndə kefsiz olur. Səbəbini soruşurlar, deyir, Ruzvelt yox, Stalin yox. Kiminlə işləyim?! İndi Tural Abbaslı ilə nə işləyəsən?!"

Birincisi, ilk baxışdan elə çıxır ki, cənab Çörçill Ruzvelt və Stalinin yoxluğunda Tural Abbaslı ilə işləməyin mümkün olmadığından gileylənib. Amma abzasa ikinci dəfə nəzər yetirəndə bilirsən ki, Çörçilin adından verilmiş "Kiminlə işləyim" ritorik sualından sonrakı ritorik sual ("İndi Tural Abbaslı ilə nə işləyəsən?!") Novruzovun özünə aiddir. Yəni Novruzov vurğulamaq istəyir ki, o, indiyədək Müsavatın köhnə rəhbərləri ilə çox əla işləyirdi, amma Tural Abbaslı ilə işləyə bilməyəcək - əgər o, partiya başqanı seçilsə.

Bu sözləri oxuyandan sonra keçən il bu vaxtlar prezidentliyə namizəd Cəmil Həsənlinin S.Novruzova bir neçə xahişdən sonra "tramvay altında qalan üç" yazdığını dilə gətirməsinin səbəbi məlum olur. Heç demə, Novruzov qədim və orta əsrlər tarixi o yana dursun, ən yeni tarixi belə, yumşaq desək, zəif bilir, tarixi şəxsiyyətlərin barəsində isə çox şeyi bilmir.

Baxın, Böyük Britaniyanın 61-ci və 63-cü baş naziri Uinston Spenser Çörçill "sonuncu dəfə baş nazir seçiləndə" 1951-ci il idi və onda Franklin Delano Ruzvelt ölüb-getmişdisə də, İosif Stalin sağ idi və vəzifədəydi. Ona görə də S.Novruzov Çörçillin kefsiz olması barədə mühüm tarixi faktdan danışarkən, gərək cümləsini belə quraydı: "Baş nazir postunda olduğu axırıncı ildə Çörçill kefsiz olur". Belə desə, düz gələrdi. Çünki o zaman 1955-ci il idi və artıq Stalin də ölmüşdü, Çörçill tək qalmışdı. ABŞ-da Duayt Eyzenhauer, Fransada Rene Koti, SSRİ-də Nikita Xruşşov onun tay-tuşu deyildilər.

Hərçənd bu o qədər də böyük səhv sayılmaz. Cənab Novruzovun açıqlamalarında belə səhvlər dəryada balıq qədərdir, sadəcə dalınca düşüb tutan yoxdur.

Bununla yanaşı, Novruzovda diplomatik riyakarlıq da varmış. Bu təzə xanədəndir. Məsələn, cənab deputat deyir ki, Müsavatın halına yanır, başqan seçkilərində mühafizəkarlar qalib gəlsələr, partiyanın kitabı birdəfəlik bağlana bilər, amma islahatçılar qalib gəlsələr, bəlkə Müsavatı xilas etmək mümkün oldu...

Sanki son 20 ildə YAP-ın əsas arzularından biri də Müsavatın, o biri müxalifət partiyalarının dağılıb getməsi deyilmiş. Bir ara az qala ocaqlara, pirlərə nəzir-niyaz deyirdilər ki, Müsavat da o biri partiyalar kimi 5 yerə parçalansın. İndi Müsavatın halına yanana bax. Riyakarlığa nə gərək var. Hazırda müxalifətçilər YAP-ın dağılmasını səmimi qəlbdən arzulayırlar. Elə bir iş olsa, qurban kəsərlər.

Təbii ki, YAP-çılar da müxalifətə qarşı o cür ülvi arzular bəsləyirlər və heç də arzulamaqla qalmırlar, məqsədyönlü fəaliyyət də göstərirlər. İstəyirlər ki, ölkədə müxalifət olmasın, bunlar da qorxusuz-ürküsüz 300 il hakimiyyətdə olsunlar.

Adam Google-dən axtarış versə, Siyavuş Novruzovun, Mübariz Qurbanlının, Əli Əhmədovun, Bahar Muradovanın, Aydın Mirzəzadənin müxalifətə dair söylədiyi yüzlərlə cümlə tapa bilər. Hamısı da təxminən belə bir rezüme ilə bitir: "Ölkədə müxalifət yoxdur, fəaliyyətləri sıfıra bərabərdir".

Bu cənab ilk dəfə kamera və mikrofon gördüyü gündən bu günədək nə qədər söz danışıbsa, içində ədalətin yalnız "əda"sı olub, "lət"i olmayıb, həmişə tərsinə, daima öcəşkən danışıb.

Di gəl, müxalifət düşərgəsindəki partiyaların funksionerləri bir-birini vurmaq üçün mütləq Siyavuş Novruzov etalonundan istifadə edirlər: "Mənim Siyavuş Novruzova hörmətim var, nəinki müsavatçı filankəsə. Çünki Novruzovun mövqeyi aydındır, amma bunun..."; "Məncə, cəbhəçi filankəsdənsə Siyavuş Novruzov yaxşıdır, o, heç olmasa öz liderini satmayıb" və sair və ilaxır.

Bəli, YAP hakimiyyətdə o qədər qaldı ki, axırda həm "Talıbov modeli" əmələ gəldi, həm də Siyavuş Novruzov sədaqət simvoluna, səbat etalonuna çevrildi.

İngiltərəyə gedənlər ser Çörçillin məzarına diqqət yetirsinlər, bir tərəfi çatlamış olmalıdır...

# Bakı küçələrində gecələr motosiklet sürən deputatın adı bəlli oldu

**Bakı küçələrində gecələr peyda olan baykerlərdən biri də deputat Aydın Abbasovdur. Baykerləri adi motosiklet həvəskarlarından fərqləndirən onların "dəmir at"ı bir qayda olaraq yüksək sürətlə hərəkət etdirmələridir. Aydın Abbasovun "dəmir at"a həvəsinin nə vaxtdan olması bilinməsə də, onun facebook səhifəsində paylaşdığı fotolardan aydın olur ki, deputat gecələr bahalı "Harley-Devidson" motosikletinin sükanı arxasına keçir.**



qaydaya riayət edirlər - rok musiqisinə qulaq asır, tərkibində spirtin faizi çox olan içkilər qəbul edir, özündən əvvələ heç bir "dəmir at"lını buraxmır, heç bir halda polisə təslim olmur, "dəmir at"ın daim ideal vəziyyətdə olmasına nəzarət edir, siyasətə qarışmır və həmişə bayker olaraq qalır. Baykerlər ötən əsrin 50-ci illərində ABŞ-da ilk təşkilatlarını yaradıblar. 20 il sonra Avropada da "dəmir at"lıların təşkilatları yaranıb və 80-ci illərdə keçmiş Sovetlər Birliyində baykerlər rokkerlər adı ilə yayılmağa başlayıblar.

# Abbas Abbasovun oğlu haqda daha bir sensasion məlumat

## Baş nazirin sabiq 1-ci müavininin Milli Məclisin üzvü olan övladı Aydın Abbasov 60 min manatlıq "Harley Devidson" markalı baykla əylənir...

Deputat Azərbaycan baykerlərinin təşkilatı "Baku HOG Azerbaijan"ın da (Harley Owners Group) üzvüdür. Təkilatın internet səhifəsində də Aydın Abbasovun quruma üzvlüyü haqda qeyd var. Həmin qeyddə deputatın avtobioqrafiyası yer alır: "Abbasov Aydın Abbas oğlu 1976-cı il avqustun 26-da Gəncə şəhərində anadan olub.

Londondakı Amerika kollecinin biznesi idarəetmə fakültəsini və Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Rus və ingilis dillərini bilir.

1998-2005-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici Sərmayələr İdarəsində Qazın satışı və marketinqi şöbəsinin rəisi vəzifəsində çalışıb. 2005-ci ildə 37 saylı Nizami birinci (Gəncə) seçki dairəsindən deputat seçilib. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür.

Motosiklet həvəskarıdır. 2013-cü il tarixindən Baku HOG Azerbaycanın üzvüdür".

Bu təşkilat bir qədər əvvəl Bakıdan Şəkiyə baykerlərin yürüşünü təşkil edib. Həmin yürüşə bayker deputatın qatılması haqda məlumat yoxdur. Bilinən odur ki, Abbas Abbasovun oğlu ölkədən kənarda, Çeçenstanda, Özbəkistanda motosiklet sürür. Dünyada baykerlərin - "dəmir at" üzərində həyat keçirməyi sevənlərin müxləfif təşkilatları var. Bu təşkilatların da əksərinin qaydaları, həyat tərzləri, geyimləri oxşardır. Dəridən gödəkçə və şalvar, başda qoruyucu kaska əvəzinə bandana və ya Vermaxt əsgərlərinin buynuz əlavə edilmiş kaskası, uzun bığ və saçlar baykeri adi motosikletçidən ayıran nişanələrdir. Bayk - motosiklet sevərlər əsasən 7



Aydın Abbasovun baykerlərin qaydalarına nə dərəcədə riayət etməsi bizə məlum deyil. Bir qədər əvvəl Bakı Beynəlxalq "Motor Şou"sərgisində ən bahalı və ən ucuz motosikllər nümayiş etdirilmişdi. Sərgidə Çində istehsal olunan "Zontes" motosikletlərinin qiyməti 1600 manat, Amerika istehsalı olan "Harley-Devidson"ların qiyməti isə 60 min manat idi.

Sabiq baş nazirin 1-ci müavini Abbas Abbasovun oğlunun facebook divarında izləyicilərinin mühakiməsinə çıxardığı "dəmir at"ı - "Harley Devidson" markalı baykı Bakıdakı moto-mağazalarda yeni istehsal edilmiş bahalı maşın markaları ilə təxminən eyni qiymətədir.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Dünyanın "iPhone 6" çılğınlığı Azərbaycanı da vurdu

**Psixoloq:** "Kreditlə bahalı telefon alanların psixi problemləri var..."

**Apple-in son istehsalı olan "iPhone 6" mobil telefon modelinin dünyanın müxtəlif ölkələrində satışının başlaması xəbəri ölkəmizdə də yeni izdihama səbəb olub.**




Sosial şəbəkələrdə xeyli müzakirələrə səbəb olan yeni model hələ Azərbaycanda satışda deyil. Lakin potensial müştərilər indidən mağaza sahiblərinə sifarişlərini verib.

Rauf adlı telefon ustası satışla da məşğul olduğunu bildirdi. "Dostdan, tanışdan çox adam "iPhone 6"-nı gözləyir"-deyən, müsahibimiz belə müştərilərinin çox olduğunu bildirdi:

"Hamsı özünü göstərmək üçün edir. Adam var gəlib deyir: "Sən canın, gör nə edirsən, qonşum "iPhone 5" işlədir. Mənə "kitayski"sini gətir, alım". O qədər olub ki... 100 manata iPhone5 gətirmişəm, alıblar. Amma təbii ki, orjinalının funksiyalarını yerinə yetirməyə gücü çatmır. Elə oyun var yükləyir, eləsi var edə bilmir. Yaxud sosial şəbəkələrə girişi rahat deyil. Tez-tez donur. Amma üzdən birə-birdir. Seçə bilməzsiniz. Bunlar hamsı psixoloji məsələlərdir. Sırf özünü göstərmək üçün borca, xərcə girib bizdən "iPhone 5" alan adam da var. Amma sizə səmimi deyirəm, dəyməz. Mən telefon ustasıyam, mənə "iPhone 5", ya adi "Nokia", fərqi yoxdur, ikisinə də eyni baxıram. "iPohene"lərin içində ən yaxşısı "iPhone 4"-dür. Yan hissələri nikeləndir".

Mağazda "iPhone 5"-in qiymətinin nağd 659 manat olduğunu deyən Rauf bəy, kreditə götürülüdüyü halda bu rəqəmin 750-800 manatadək yüksəldiyini bildirdi. "iPhone 6"-nın isə minimum 1000 dollardan satışa çıxarılacağını söyləyən, müsahibimiz bu qiymətə telefon almağın mənasız olduğunu dedi.

"Elə olub uşaq ayağını dirəyib ki, mənə "iPhone 5" alacaqsınız"-deyən, Mehman bəy də telefon satıcısıdır. Bu sahədə çalışdığı son 3 ildə xeyli bu cür hadisə ilə üzləşdiyini söyləyən müsahibimiz, göstəriş naminə insanların neçə aylar qazandıqları pulu telefona verdiyini dedi. Daha çox imkanlı adamların son model telefonlar aldığını deyən müsahibimiz bu kateqoriyaya daxil olmayan sadə vətəndaşların da bahalı telefon cihazları aldığını bildirdi. Hazırda ən çox satılan telefonların ən bahalı olanlar olduğunu deyən Mehman bəy "iPhone 5"-in 689 manat, "Samsung Galaxy 5"-in isə 559 manata satıldığını bildirdi.

**Psixoloq rəyi: "Bəzi insanlar özünü brend mallarla təsdiq etməyə çalışır"**

Bəs nədən insanlar 2-3 aylıq maaşlarını bir telefon cihazına verirlər. Amma xəstələnəndə əksər vaxt həkimə getməyə ya ərinirlər, ya da simiclik edirlər. Bunun ruhsal gizlinlərini açmaq üçün psixoloq Elnur Rüstəmova müraciət etdik:

"Ümumiyyətlə bir qism insanlarda qeyd etdiyiniz hal özünütəsdiqdən dolayı baş verir. İnsan özünü brend markalarla, bahalı telefonlarla təsdiq etməyə çalışır. Zaman keçdikcə bu, onlarda xroniki hal alır. Problem daha çox psixolojidi. Diqqət etsəniz görərsiniz ki, kifayət qədər imkanlı olan insanlar bu cür israfçılığa yol vermirlər. Dolayısı ilə özlərini bu yollarla təsdiq etməyə cəhd göstərmirlər. Daha çox psixoloji narahatlıq yaşayan insanlarda qeyd etdiyiniz hallar baş verir. Sadəcə insanlarımız hələ ki, bunu bir problem kimi görmürlər. Bu səbəbdəndi ki, kredit zamanı gələndə gərgin, əsəbi, ətrafla münasibətdə aqressiv davranırlar".

Yekudna qeyd edək ki, sentyabr ayında 12 milyon "iPhone 6" satılması gözlənilir. "Apple" yeni modeli ilin sonuna qədər 100 ölkədə satışa çıxarmağı planlaşdırır.

❑ **Fəridə ABDIYEVA**

YENİ MÜSAVAT
N 322 (5680) 4 dekabr 2013

### Rusiyadan müstəqilliyimizə simmetrik hədə ciddiləşir



# Azərbaycana "5-ci kolon" təhlükəsi - təhlil

## Kremlin virtual işğal taktikası ölkəmiz üçün Qarabağ qədər qorxulu problemə çevrilməkdədir; Qərb "təsir agentləri"nə qarşı güclənən repressiya fonunda geniş şəbəkəyə malik rusiyayönlü "5-ci kolon"çulara toxunulmaması özündə daha ciddi neqativlər daşıyır; Moskvanın bu yöndə əsas ideoloji silahını əlindən necə almalı?..

**Ukraynada Kremlin məlum hərəkətlərindən doğan hadisələr və real təhdidlər səbəbindən Azərbaycana ən böyük təhlükə son vaxtlar xeyli aktivləşən "5-ci kolon"dan gəlir. Bununla belə, bu, heç də o demək deyil ki, ölkədə başqa dövlətlərin maraqlarına xidmət edən "5-ci kolon"lar yoxdur.**

Təəssüf ki, bizim Putinin ekspansionist siyasətinin tənqidinə yönəlik məqalələrimizi və neo-imperiya təhdidlərindən dolayı qayğılarımızı bəzi oxucular qərbyönlü mövqeyin təzahürü və Qərb maraqlarının lobbiçiliyi kimi qəbul edirlər. Hər dəfə Rusiyanın beynəlxalq hüquqa və humanizm prinsiplərinə zidd olan və ya Bakı üçün real hədə kəsb edən konkret hərəkətlərini mühakimə etməyə başlayan kimi, o dəqiqə bu kateqoriyadan olan oxuculardan belə dalayıcı şərhlər gəlir ki, bəs Amerikanın nəyi yaxşıdır, niyə onu da ittiham etmirsiniz? Mərkəzi Kəşfiyyat İdarəsinin sifarişi iləmi yazırsınız, bəlkə Qərbə satılmısınız və s.

Bolşevizm qoxusu verən qəribə və ziyanlı bir məntiqdir. Belə çıxır ki, sən əgər Rusiyanın siyasətinə qarşısansa, deməк, mütləq ABŞ-ın tərəfdarısan? Halbuki vətənpərvər mövqe də var. Həmçinin, Azərbaycanın milli-dövlət maraqları deyilən anlayış mövcuddur. Məhz sonuncular istənilən xarici olay və təhlükələr üçün meyar olmalıdır.

Bizə gəlincə, nə Rusiyanın, nə Amerika və Avropanın, nə də İranın tərəfindəyik, biz - Azərbaycanın tərəfindəyik. Eyni dərəcədə də haradan gəlməsindən asılı olmayaraq ölkəmizə olan bütün təhlükələri pisləyirik. Bizim üçün rusiyayönlü, iranyönlü, amerikayönlü "5-ci kolon"lar eyni dərəcədə qeyri-məqbuldur. Bu, bizim prinsipial vətəndaş mövqeyimizdir.

Bununla belə, biz realistik və başa düşürük ki, Azərbaycan gənc və kiçik ölkə olaraq, üstəlik iri dövlətlərin toqquşan geosiyasi maraqlarının kəsişməsində yerləşməklə hələ ki, hansısa təhlükəsiz neytral statusla gizlənə bilməz. Hələ ki, o, minalanmış xarici təhdidlər meydanında konyuktur manevrliliyə və daim "pislərdən ən yaxşısını" seçməyə məhkumdur.

Bu səbəbdən biz xarici çağırışları və hədələri aktuallılıq, təhlükəlilik, konyunktur əhəmiyyəti, perspektivliliyi və ölkənin milli maraqları ilə uzlaşması üzrə təsnifləndirməli oluruq. Bu gün əsas təhlükə bizə Moskvadan gəldiyindən diqqətimizi də ən çox həmin istiqamətə yönəldirik. Sabah eyni təhlükə İrandan, ABŞ və Avropadan gəlsə, vurğunu o səmtlərə dəyişəcəyik. Axı, necə deyərlər, əbədi dostlar olmur, əbədi maraqlar olur. Bir daha təkrarlayaq ki, bizdən ötrü əsas meyar birdir - ölkənin milli maraqları. Bu yerdə sual yarana bilər ki, Azərbaycanın milli maraqlarını kim və necə müəyyən edir? Bəlkə bu maraqlar Putin siyasətinə ziddiyyətdə yox, uyğunluqdadır?

Düşünürük ki, bu məsələdə təxribatçı möhtəkirliyə yer olmamalıdır. Bütövlükdə Azərbaycanın milli maraqlarını ölkənin ərazi bütövlüyü və suverenliyi diktə edir, hansı ki artıq ölkənin konstitusiyasında, Hərbi Doktrinasında, təhlükəsizlik strategiyasında, ölkənin götürdüyü beynəlxalq öhdəliklərdə və bir sıra başqa təməl sənədlərdə əksini tapıb. Məhz milli-dövlət maraqlarının tələbləri ilə Azərbaycanın BMT, Avropa Birliyi (AB), NATO ilə, başqa dövlətlərlə əməkdaşlığının formatı, tempi və iştirak xüsusiyyətləri, həmçinin, strateji oriyentirlər və ölkənin xarici siyasətinin prioritetləri şərtlənib.

Bu mənada aydın məsələdir ki, əgər biz Putinin sovet və ya Çar imperiyasını bərpa eləməyə yönəlik velikoderjav planları ilə bağlı həyəcan təbili çalırıqsa, bu, əsla ABŞ, AB, İran və ya Türkiyə maraqlarının lobbiçiliyindən qaynaqlanmır, məhz Azərbaycanın milli-dövlət maraqlarının, ərazi bütövlüyü və suverenliyinin müdafiəsi zərurətindən doğur. Madam ki, Azərbaycana çox böyük geosiyasi diqqət var və burada çoxsaylı rəqib dövlətlərin mövqeləri toqquşur, o zaman ölkəmizdə müxtəlif "5-ci kolon"ların mövcudluğuna təəccüblənməyə də dəymir.

Onların sırasında ən "köhnəsi" və çoxsaylı olanı, dərinə kök salmışı və daha böyük təhlükə kəsb edəni Rusiya və ya iranyönlü qüvvələrdir. Bu da təəccüblü deyil. Çünki Azərbaycan həmişə bu iki imperiya arasında "nifaq alması" olub, yekun etibarilə onlar arasında bölünüb və uzun müddət onların birbaşa təsirləri altında qalıb. Çar, sonra isə sovet imperiyasının Azərbaycana uzun müddətli təsiri özünü mentalitetdə, mədəniyyətdə, ənənələrdə, həyat tərzində və həmvətənlərimizin davranışında göstərib, məqsədli və ya kortəbii şəkildə rusiyayönlü ovqata malik xüsusi bir təbəqənin - daim Moskvanın maraqlarının lobbiçiliyinə meyilli bir zümrənin formalaşmasına yardımçı olub.

Bu xüsusda qərbyönlü və ya amerikayönlü "5-ci kolon" anlayışı təzədir, çoxsaylı deyil, cəmiyyətin həyat tərzində və şüurunda dərin kök atmayıb, o üzdən ölkə üçün indiki anda elə bir problem də yaratmır. Bundan əlavə, hakimiyyət strukturları son vaxtlar məhz Qərbin "təsir agenti" adlandırılanlara qarşı ifşa və repressiv kampaniyanı gücləndirərək məhz ameriakyönlü "5-ci kolon"u minimuma endirib tamamilə öz nəzarətinə almağa çalışır. Analoji mübarizə son illər iranyönlü "5-ci kolon"a qarşı aparılır.

Yeri gəlmişkən, qat-qat böyük təhlükə kəsb edən Rusiyanın "təsir agentləri" və "5-ci kolon"çulara qarşı rəsmi səviyyədə nədənsə heç bir ifşa xarakterli mübarizə aparılmır, onların fəaliyyətinin lokallaşdırılması üçün effektli tədbirlər görülmür. Ola bilsin, hakimiyyət orqanları hazırkı həssas mərhələdə xüsusi ehtiyatlılıq göstərir və rəsmi Moskvanın narazılığına əlavə əsaslar vermək istəmir, fəqət, belə mövqe aşkar neqativlər də daşıyır və rusiyayönlü qüvvələrin daha da fəallaşmasına stimul verir.

Biz hakimiyyəti istənilən qəlibdən olan "5-ci kolon"çilara (amerikayönlü, iranyönlü, rusiyayönlü) qarşı hər hansı repressiv kampaniyaya çağırmırıq - günahlandırıcı addımlar yalnız konkret halda Azərbaycan qanunları pozulduqda və yalnız konkret pozuculara qarşı atıla bilər və atılmalıdır.

Ancaq nə üçün də Moskvanın Azərbaycan cəmiyyətinin əhəmiyyətli kəsiminin şüurunu zibilləyən və ya zombiləşdirən quduz neo-imperiya təbliğatından ölkənin informasiya məkanının müdafiəsi üçün müəyyən tədbirlər görülməsin? Söhbət Rusiya telekanallarından gedir - o telekanallar ki, nədənsə bizim bütün kabel televiziyası paketlərində böyük bir paya malikdir. Axı bu, bizim dövlətin hökmü və gücü daxilindədir və birbaşa ölkənin milli təhlükəsizlik strategiyasından, o sırada informasiya təhlükəsizliyi zərurətindən qaynaqlanır.

Hamıya məlumdur ki, bizim yerli telekanallar süjetlərin kasadlığı və peşəkarlığın zəifliyi səbəbindən hələlik xarici kanallarla rəqabət qabiliyyətli deyil və o səbəbdən vətəndaşlar Rusiya və ya Türkiyə telekanallarına baxmağı üstün tutur. Problemin həlli əlbəttə ki, bütün əcnəbi telekanalların yayımını dayandırmaq və hamını yerli kanallara baxmağa məcbur eləməkdən keçmir - sırf qadağalar lazımi effektli ola bilməz, 21-ci əsrdə isə bu, texniki cəhətdən də mümkünsüzdür, çünki internet və peyk var.

Məsələnin həlli bir tərəfdən, ölkə telekanallarının keyfiyyətini, rəngarəngliyini və peşəkarlığını permanent şəkildə qaldırmaqdan, ikinci yandan isə əcnəbi kanalları, ələlxüsus informasiya-analitik xarakterli xarici kanalları maksimum şəkildə diversifikasiya eləməkdən ("müxtəlifləşdirmək") ibarətdir. Bizim tamaşaçı Rusiyanın aldadıcı təbliğatının mütəmadi və güclü təzyiqi altında olmamalıdır.

Azərbaycan seyrçisi eyni dərəcədə Türkiyə, İran, ABŞ və başqa təbliğatların da təsiri altına düşməməlidir. Bizim tamaşaçının bu və ya başqa hadisələrlə bağlı müxtəlif nöqtə-nəzərlərə (Avropa, Çin, Belarus, Qazaxıstan, Moldova və s.) balanslaşmış çıxışı olmalıdır. Ayrı sözlə desək, Rusiya informasiya-təbliğat telekanallarının maksimal şəkildə məhdudlaşdırılması hesabına alternativ informasiya mənbələri imkanlarını artırmaq, bununla da Kremlin və rusiyayönlü "5-ci kolon"un əlindən azərbaycanlıların şüurları uğrunda mübarizdə əsas silahı almaq lazımdır.

Bu gün bu - bizim təhlükəsizlik məsələmizdir.

❑ **Analitik xidmət**

---

# Qışda çiçəkləyən ağaclar kimi...



**Hüseynbala SƏLİMOV**

**Zamanın da qəribə xisləti var. Adama hər şeyi unutdurur. Bəlkə də səhv edirik, zaman unutdurmur, adamlar özləri, bəli, özləri zaman keçdikcə hər şeyə alışırlar. İndi fikir verib görürsən ki, Ukrayna münaqişəsinə maraq daha əvvəlki kimi deyil. Elə bil hər şey adiləşdi.**

Elə bu günlərdə baş nazir A.Yatsenyuk bildirdi ki, Ukraynanın problemini yalnız NATO həll edə bilər. Amma məsələ bundadır ki, bəlkə də hamı elə buna görə NATO-nun Uelss sammitini gözləyirdi. Bu sammitdən bir şey hasil olmadığını görəndən sonra ehtiraslar səngidi, maraq söndü...

Dünyanın böyük siyasətçiləri bu və ya başqa hadisəyə önəm verərkən hansı mülahizələri əsas götürürlər, doğrusu, bunu bilmirik. ABŞ İŞİD-i və Suriyanı cəzalandırmağa hazırlaşır. Sanki bu bölgə əbədi müharibələr zolağı adlandırılıb. Səbəb? Səbəbi yəqin ki, çox sadədir. Buralar böyük "neft hövzəsi"nə yaxındır, bəlkə də həmin hövzənin içindədir.

ABŞ-ın bu biçarə regiona yürüşü hələ ötən əsrin düz 90-cı illərindən başlanmışdı. Bu illər ərzində nələr baş verdi? Hansı sular axdı, hansı küləklər əsdi? Böyük hesabla heç nə, müharibələr və dağıntılar... Təxminən 24 illik müharibə bu torpağa sülh gətirmədi.

Əslində indi diqqət Ukraynaya yönəlməli idi. Avropanın içində böyük müharibə alovlanır. Demirik ki, Qərb ölkələri buna tamam biganədir. Yox, elə də deyil. Amma Qərb Rusiyaya qarşı iqtisadi sanksiyalar yolunu tutdu.

Soyuq müharibəyə faktiki olaraq start verilib. Soyuq müharibə də bəzi ölkələrin onsuz da soyuq daxili siyasətini bir azacıq da soyutdu. Ona görə ki, soyuq müharibədə "bizimkilər" və "onlar" olur. Nə qədər qəribə olsa da, bu an demokratiyanın spesifik problemləri bir müddət arxa plana keçir.

Əslində bunun özü də təzaddır. Böyük demokratiya naminə başlayan müharibə kiçik bölgələrdə demokratiyanın qayğılarını arxa plana ötürür.

Daha böyük ölkələr əvvəlki kimi kiçik dövlətlərdə demokratiya problemlərinə və insan haqları məsələsinə həssas olmurlar...

Elə bəzi kiçik dövlətlər də fürsəti dərhal "dəyərləndirirlər". Onların intuisiyasına söz ola bilməz. Birinci soyuq müharibə dönəmində amerikalılar "Somosa kimdir və nəçidir, bilmirik, bildiyimiz odur ki, o, bizim adamdır" -deyirdilər. İndi bu statusu qazanmaq istəyən və Somosa roluna iddia edənlər çoxdur.

Soyuq müharibə bəzi məsələləri asanlaşdırır, həm də çətinləşdirir. İlk baxışda hansı düşərgədə olsan onun musiqisini ifa edirsən. Bu mənada hər şey olduqca asandır. Qəliz olanı budur ki, düşərgələrdə özünə yer tapmayanlar da olur. Bəli, təsadüfən qışda çiçəkləyən ağacların barı olmur...

Bunu ifrat pessimizm kimi qəbul etməyin. Necə deyərlər, aşıq gördüyünü çağırır. Biz də gördüyümüzü deyirik.

Nə edəsən ki, indi ifrat optimizm üçün elə bir əsas yoxdur. Ölkəyə baxırsan, adamın ürəyi sıxılır. Ürəkaçan şey olduqca azdır.

Amma bezmək, usanmaq də olmaz. Düzdür, dünya siyasətində çox müəmmalı və qəliz məqamlar var. Adam inana bilmir ki, NATO-nun, Mərkəzi Kəşfiyyat İdarəsinin analitikləri irəlicədən Rusiyanın reaksiyasını proqnozlaşdıra bilməyiblər.

Əgər proqnozlaşdırıblarsa və indi belə hərəkət edirlərsə, daha buna, necə deyərlər, sözümüz yoxdur. Deməli, onlara Ukrayna yox, onun bazrları lazım imiş.

Məsələ bundadır ki, hətta dağıntılar arasında da insanın müəyyən tələbatları olur. Bu ehtiyaclar da bazar formalaşdırır. Avropaya bu lazım idimi?..

Bu gedişlə Ukraynada bu inqilabın da bir nəticəsi olmayacaq. Belə alınır ki, insanları yenidən Maydana səsləyənlər haqlı imiş? Bəlkə də... Amma bir vaxt hamı əfqanlara döyüşkən xalq deyirdi. Axırda da hamı onlardan bezdi...

İndi inqilab da məqsəd deyil, vasitələrdən yalnız biridir. Qəribəsi budur ki, bu Ukraynada inqilabçılar çox tez tərəddüdə qapılırlar. Elə onların da Rusiyanın reaksiyasını proqnozlaşdıra bilməməsi inandırıcı görünmür.

Yəqin ki, bunu edə bilirlər. Bəs onda niyə axıra qədər getmirlər? Bayaq dediyim, daha doğrusu, yazdığım bir cümlə yadıma düşür: qışda təsadüfən çiçəkləyən ağacların barı olmur...

Deməli, yazın gəlişini gözləmək qalır. Yazda çiçəkləyən ağacların barı olur...

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014

# Qələm əhli kimi başqan görür?

## Yazarların əksəri ad çəkməkdən imtina edirlər



**Sentyabrın 27-də Müsavat Partiyasının VIII qurultayı keçiriləcək. Hazırda Tural Abbaslı, Arif Hacılı və Qubad İbadoğlu və Səxavət Əlisoy rəsmi şəkildə başqanlığa namizədliklərini irəli sürüblər.**

Maraqlıdır, Müsavat üzvü, təəssübkeşi və tərəfdarı olan yazarlar bu məsələyə necə yanaşır? Onlar İsa Qəmbərdən sonra kimi başqan görürlər?

"Yeni Müsavat" qəzetinin köşə yazarı Zamin Hacı sualımıza belə cavab verdi: "Qurultay olacaq, nə olacaq açığı, mənə maraqlı deyil. İnanmıram Müsavat Partiyası bundan sonra nəyəsə nail olsun. Əgər İsa Qəmbərlə nail olmadısa, bundan sonra nəyə nail olacaq ki? Sadəcə Müsavatda çalışan və məhbəsdə olan müsavatçılara heyifim gəlir".

Tanınmış yazıçı Seyran Səxavət bu seçimlərdə Qubad İbadoğlunu dəstəklədiyini bildirdi: "Qubad İbadoğlu alimdir. Bütün ölkələrdə tanınır. İşləyən adamdır. Mən Qubad bəyi tanıyandan hər zaman onu çalışqan biri kimi görmüşəm. Və ortada da xeyli real nəticələri var".

"Mediaform" saytının baş redaktoru Azər Qaraçənli isə rəhbərlik etdiyi orqanda neytral mövqe sərgilədiklərinə görə şəxsi mülahizəsini bildirmək istəmədiyini dedi. Ümumən partiya üzvü olmadığına görə də fikir bildirməsinin düzgün olmadığını söylədi.

"Yeni Müsavat" qəzetinin köşə yazarı Xalid Kazımlının cavabı belə oldu: "Səsvermə gizli olacaq".

"Azadlıq" qəzetinin əməkdaşı Natiq Ədilov isə sualımıza belə cavab verdi: "Mən müsavatçı qardaşların seçiminə nə olsa, hörmət etməyə borcluyam. Daxili seçkiyə qarışa bilmərəm".

"Yeni Müsavat"ın əməkdaşı, Müsavat Partiyasının Məclis üzvü Elşad Paşasoy isə başqan seçimlərilə bağlı bunları söylədi: "İsa Qəmbərdən sonra başqan olmağın elə də asan olmayacağını unutmamaq lazımdır. İddialıların hər birinə uğurlar arzulayıram. Görünən budur ki, əsas mübarizə Arif Hacılı ilə Qubad İbadoğlunun arasında gedəcək. Hər ikisinin başqan olmağa haqqı çatır və son qərarı qurultay verəcək. Mənim fikrimcə, Arif bəyin Müsavat Partiyasında heç bir fəaliyyəti olmasaydı belə, 23 il öncə Azərbaycanın istiqlalına səs verdiyinə görə Müsavata başqan olmağa mənəvi haqqı çatırdı. Ancaq insafən deməliyik ki, Arif Hacılı yüksək təşkilatçılıq qabiliyyətinə, oratorluğuna, siyasi savadına və sair müsbət keyfiyyətlərinə görə başqan olmağı tamamilə haqq edib. Qubad bəyin isə ölkənin hüdudlarından kənarda da kifayət qədər tanınması, yüksək səviyyəli iqtisadçı alim, gözəl ziyalı, barışdırıcılıq keyfiyyətlərinə malik olması onun şansını artırır. Bu mənada qurultay iştirakçılarının necə çətin seçim qarşısında qaldığını təsəvvür edirəm. Məncə, partiya daxilində hansısa problemlərin yaşanmaması üçün ən şanslı namizədlərin arasında centlmen razılaşma əldə olunmalıdır. Bəlkə də partiyaya yeni nəfəs gəlməsi, təşkilatın xarici aləmlə əlaqələrinin gücləndirilməsi baxımından Qubad İbadoğlunun başqan seçilməsi daha məntiqli olardı. Artıq reallıqlar ənənəvi baxışlar sistemində müəyyən korrektlər etmək tələbini qoyur. Son illər hətta ölkələrin rəhbərliyinə iqtisadçıların, biznesmenlərin gəlməsi şəraitində Müsavatın rəhbərliyinə də bu sferanı təmsil edən şəxsin gətirilməsi, fikrimcə, daha faydalı olardı".

Virtualaz.org saytının baş redaktoru Famil Cəfərli isə hər üç namizədi yüksək dəyərləndirsə də heç birinin adını çəkmədi: "Nə Müsavat Partiyasının, nə də digər partiyaların üzvü olmadığım üçün bu suala cavab vermək, kimisə dəstəkləmək siyasi mədəniyyət baxımından bir qədər etik görünməz. Namizədlərin hər birini tanıyıram. Hərəsi bir üstünlüyə malikdir. Hamısına da uğurlar arzu edirəm".

Gənc yazar Dilqəm Əhməd isə T.Abbaslını başqan gördüyünü söylədi: "Mən İsa Qəmbərdən sonra Tural Abbaslını başqan görmək istəyirəm. Ona görə yox ki, onun çıxışlarını, siyasi görüşlərini bəyənirəm. Sadəcə gənc olduğuna görə. Çünki Müsavat ana müxalifət partiyası olduğundan gəncləşməsinə ehtiyac var. Digər namizədlərdən hansı olsa, Müsavat yenə əvvəlki cizgisində qalacaq. Amma Tural Abbaslı seçilsə, yəqin ki, ətrafına da gəncləri yığacaq".

Azərbaycanın xalq şairi Fikrət Qoca ilə də əlaqə saxladıq. Fərqli mövqe sərgiləyən şair bunları dedi: "Mən heç bir partiya üzvü deyiləm. Əgər mən bu gün kiməsə dəstək olsam deyərlər ki, "sən bitərəf idin, nə oldu?!" Ona görə mənim nəsə deməyim düz deyil. Buna haqqım yoxdur".

Tanınmış jurnalist İlhamiyyə Rza da başqanlığa Qubad İbadoğlunu layiq gördüyünü dedi.

Gənc yazar Qan Turalı isə "Mənim üçün heç bir fərqi yoxdur" söylədi.

Yazar Günel Mövlud isə real namizəd və iddialılar arasında heç birini başqanlığa uyğun görmədiyini bildirdi:

"Düşünürəm ki, Yadigar Sadıqov bu posta ən layiqli şəxsdir. Müstəsna bilikləri, mədəniyyəti və gözəl dialoq qabiliyyəti olan adamdır. İsa Qəmbərdən sonra başqanlığa layiq insandır".

❑ **Fəridə ABDIYEVA**

# Başqanlığa namizədlərin İsa Qəmbərdən gözləntiləri

**Müsavat Partiyasının qurultayına iki həftədən az vaxt qalır. Başqanlığa namizədlərin kimliyi artıq bəllidir. Müsavat başqanı postu uğrunda Arif Hacılı, Qubad İbadoğlu, Tural Abbaslı və Səxavət Əlisoy arasında mübarizə gedəcək. Mübarizənin hansı şəkildə getməsindən asılı olmayaraq, dəqiq olan odur ki, əgər hazırkı başqan İsa Qəmbər bu namizədlərdən hansını dəstəklədiyini açıqlasa, müsavatçılar həmin şəxsə səs verəcəklər. İ.Qəmbər isə kimi başqan görmək istədiyi barədə bu günədək nəinki açıq mövqe ortaya qoymayıb, hətta cüzi bir işarə sezdirməyib. Əldə etdiyimiz məlumata görə, partiyanın rəhbərliyinə daxil olan bəzi şəxslər İsa Qəmbərin ortaya mövqe qoymasının qəti əleyhinə olduqlarını açıq şəkildə dilə gətiriblər. Hətta bəyan ediblər ki, İsa bəy tərəf tutarsa, partiyadan gedəcəklər.**

Bəs, başqanlığa namizədlər bu barədə nə düşünürlər; İsa Qəmbər hazırkı davranışını sonadək saxlamalıdırmı, yoxsa mövqeyini açıqlamalıdır?

Arif Hacılı bildirdi ki, İ.Qəmbər Müsavatın bərpası prosesinə rəhbərlik edən şəxsdir, Müsavatda partiyanın taleyi üçün məsuliyyət daşıyan adamların sırasında birinci yerdə durur: "Təbii ki, Müsavat başqanının kim olacağı İsa Qəmbəri də digərlərindən heç də az düşündürmür. O, Müsavat Partiyasının qurultayının nümayəndəsidir. Partiyanın taleyi üçün məsuliyyət daşıyan siyasi xadim olaraq İsa Qəmbərə Müsavatın gələcək başqanının kim olması barədə öz fikrini açıqlamağı heç kim qadağan edə bilməz, heç bir strukturun belə bir səlahiyyəti yoxdur. İsa Qəmbər bu barədə özü qərar qəbul edəcək və onun qəbul etdiyi istənilən qərara hörmətlə yanaşacağıq".

Qubad İbadoğlu bildirdi ki, İ.Qəmbərin mövqeyinin müsavatçıların mövqeyinə təsir göstərdiyi şübhəsizdir və təsir göstərmək imkanlarına malikdir: "Partiyada İsa bəyin böyük nüfuzu var. Bu baxımdan başqanın kimi müdafiə etmək barədə açıq şəkildə mövqe ortalığa qoyması seçkinin nəticələrində əhəmiyyətli rol oynaya bilər. Odur ki, mövqe bildirməsi arzuolunan deyil. Məsələn, İsa bəy əgər məni müdafiə edərsə, bu, seçkidə bərabərlik və ədalət prinsipinin pozulmasına gətirib çıxara bilər".

Tural Abbaslı bildirdi ki, İ.Qəmbər sıradan təkcə bir partiya sədri imicinə malik lider deyil, onun başqanlıqdan əlavə böyüklük imici də var: "İsa bəyi fərqləndirən üstünlüklərdən biri də budur. Ona görə də hər halda İsa Qəmbər bu böyüklüyünü qoruyacaq. İsa bəy sıradan bir partiya sədri imicində şəxs olsaydı, mən onun növbəti başqanın kim olması ilə bağlı mövqe açıqlamasında heç bir problem görməzdim. Bəllidir ki, İsa Qəmbərin indi açıq mövqe ortaya qoyub kimisə dəstəkləməsi müsavatçıların da seçiminə ciddi təsir edəcək. İnanmıram ki, İsa Qəmbər bunu edəcək. Məlumdur ki, qurultay öz işinə başlayan andan partiyanın bütün səlahiyyətli orqanları buraxılmış olacaq və artıq İsa Qəmbər də başqan olmayacaq. Yəni İsa bəy qurultayda bir qurultay nümayəndəsi kimi səsvermə, kimi dəstəklədiyini ifadə etmə hüququna malik olacaq. Biz demokratiya istəyiriksə, hər kəsin, həmçinin İsa Qəmbərin də seçim hüququna hörmətlə yanaşmalıyıq. Heç kim ona qadağa edə bilməz ki, kimi dəstəklədiyini qurultay günü ortaya qoymasın. İsa Qəmbərin də hüququ var, eyni zamanda o, partiyanın gələcəyi üçün də bir məsuliyyət daşıyır. Ona görə də İsa bəy düşünsə ki, kiminsə adını çəkməsi vacibdir, bunu hər kəs normal qarşılamalıdır. O mövqe mənim əleyhimə olsa belə, şəxsən mən bunu normal qarşılayaram".

Səxavət Əlisoy bildirdi ki, İ.Qəmbərin hansı namizədi dəstəklədiyini bəyan etməsini gözləmir: "Ümumiyyətlə, partiya liderinin birinci önəmli keyfiyyəti ondan ibarətdir ki, o, bu cür vəziyyətlərdə tərəfsizlik nümayiş etdirir. Nəzərə alsaq ki, İsa Qəmbərin müsavatçılar arasında nüfuzu böyükdür, deməli onun mövqe ortaya qoyması müsavatçıların seçiminə ciddi təsir edəcək. İsa Qəmbərin dəstək ifadə etdiyi namizədin seçiləcəyi şəksizdir. Belə olan halda isə tərəflər arasında münasibətin gərginləşməsi baş verəcək. Eyni zamanda İsa bəyin tərəf tutması onun özünün də şəxsi nüfuzuna mənfi təsir edə bilər ki, mən bunu istəmirəm. Başqanın seçkidə tərəf saxlaması dolayısı ilə yeni başqan təyinatı kimi qarşılana bilər. Mən İsa Qəmbərin hansı namizədi dəstəkləmək məsələsində susqunluq nümayiş etdirməsini təqdir eləyirəm. Düşünürəm ki, başqan sonadək tərəfsizliyini qorumalıdır".



**Arif Hacılı:**
"Ona Müsavatın gələcək başqanının kim olması barədə fikrini açıqlamağı heç kim qadağan edə bilməz"



**Qubad İbadoğlu:**
"İsa bəy əgər məni müdafiə edərsə, bu, seçkidə bərabərlik və ədalət prinsipinin pozulmasına gətirib çıxara bilər"



**Tural Abbaslı:**
"Heç kim ona qadağa edə bilməz ki, kimi dəstəklədiyini qurultay günü ortaya qoymasın"



**Səxavət Əlisoy:**
"Başqan sonadək tərəfsizliyini qorumalıdır"

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT

N 230 (5939) 15 sentyabr 2014

**"Baxış bucağı"**

**Adətən, hüquq-mühafizə orqanlarının nəzarətində olan şəxslərin ölkədən çıxışına maneçiliklərin yaradıldığını müşahidə etdiyimiz halda, Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı ilə bağlı baş verən olay istisna oldu. Belə ki, Berlinə konfransa gedərkən heç bir problemlə üzləşməyən təşkilat rəhbərini geri dönərkən, Bakı aeroportunda saxlayıb xeyli sorğu-suala tutublar.**

# "Mən heç kimin əvəzinə and içə bilmərəm ki..."

## Mirvari Qəhrəmanlı: "İstərdim ki, müvafiq qurumlar bu prosesə "dur" desinlər"

Qeyd edək ki, M.Qəhrəmanlının qızı, "Qadın Krizis Mərkəzi" İctimai Birliyinin sədri Mətanət Əzizova da hazırda həbsdə olan hüquq müdafiəçisi Leyla Yunusun cinayət işində şahid kimi dindirilib və hazırda təzyiqlər səbəbindən ölkə xaricində yaşayır. "Yeni Müsavat"a açıqlamasında Mirvari xanım dedi ki, Avropaya getmişkən qızını da yoluxub və onun ağır xəstəliyə mübtəla olduğunu eşidəndə şok keçirib. Digər tərəfdən kürəkəni də ağır xəstə olan Mirvari xanımın aeroportda üzləşdikləri onun özünün də səhhətində dərin iz buraxıb. Onun baş verənlərlə bağlı dediklərindən:

- Mən Berlinə tədbirə dəvət alanda hüquq-mühafizə orqanlarına bu barədə xəbərdarlıq elədim. Dedim, tədbirə getmək üçün ölmürəm, buraxmırsınızsa, getməyəcəyəm. Amma sərhəddən qaytaracaqsınızsa, camaatın səfər üçün ayırdığı pul batacaq. Ona görə də mənə qabaqcadan sözünüzü deyin. Bildirdilər ki, heç bir problem yoxdur. Ancaq qayıdanda hava limanında ölkəyə daxil olma möhürünü vurmurdular. Bir dəstə adam bir-birinə baxıb pıçıldaşırdılar. Özüm də narahat olmağa başladım ki, bəlkə bir hadisə olub. Tez mətbuata zəng etməyə başladım. Qorxdum ki, bəlkə kürəkənimin başına bir iş gəlib. Məni 45 dəqiqə də saxladılar, axırda soruşdum ki, deyin görüm nə olub? Sonra yuxarıdan kimsə razılıq verdi, mənim pasportuma giriş icazəsi verildi. Bundan sonra dedilər ki, deklarasiya doldurmalısan. Soruşdum ki, haçandan ölkəyə girəndə deklarasiya doldururlar? Dedi sizdə nə qədər pul var? Manatı göstərdim, dedim 300 dollarım, 2500 avrom var. Dedilər siz niyə manatı ölkədən çıxarmısınız? Cavab verdim manat ölkə xaricində mənə lazımdır, mən elə pul kisəmi daim özümdə gəzdirirəm, bunlar da onun içində qalıb. Soruşdular ki, bəs bu kartlar nədən ötrüdür. Dedim biri pensiya, digəri depozit kartıdır, onları da sizə bağışlayıram. Baqajı götürəndə yenə saxladılar ki, çantalarınızı yoxlamalıyıq. Dedim yoxla, amma qadın yoxlasın, biabır olaram. Bir qadın gəlib baxdı, Mətanət oğluna krassovka almışdı, o idi, bir də burdan apardığım paltarlar. Beləcə saat yarım məni ölkəyə buraxmadılar. Ən ağırı o idi ki, bəziləri "siz neft sektorunda işləyirsiniz" deyə, soruşurdular. Dedim təəccüblənməyin, indi QHT-lər bunların gözünə terrorçu kimi görünür.

***- Mirvari xanım, təhlükə sovuşub artıq?***

- Mən çox narahatam. Bir tərəfdən kürəkənim ağır xəstədir. Şübhəli bir məqam yaranıb, iyun ayında kürəkənim tam müayinə olunmuşdu, tam sağlam idi. Ancaq qısa müddətdə vəziyyətinin ağır olması aydınlaşıb. Neftçilər Xəstəxanasına analiz üçün 300 manat verdik. Sonda həkim qapını göstərdi ki, "bizdə hipatoloq yoxdur". Getdik məşhur Tofiq Alxasovun yanına. Dedi mən başqa xəstəxananın analizlərinə inanmıram. Yenidən 200 manat verib qan analizi etdirdik. O da dedi ki, mən məsuliyyəti boynuma götürüb səni müalicə edə bilmərəm. İndi Semaşko adına xəstəxanada müalicəyə başlamışıq. Digər tərəfdən qızımın - Mətanətin vəziyyəti yaxşı deyil, ağır vəziyyətdədir. Əvvəl çalışırdım ki, kürəkənim və nəvəm ölkədən çıxsın, amma indi heç özüm də razı deyiləm. Çünki həm kürəkənimin, həm də qızımın vəziyyəti ağırdır. Mətanətin özünə bu gün baxan lazımdır. Amma yenə də məhkəməmi girovluqla əlaqədar aparacağam, Avropa Məhkəməsinə qədər gedəcəyəm.

**"Qızımın səhhətində ciddi problem var, bir həftəyə 12 kilo arıqlayıb"**

***- Mətanət xanımın səhhətindəki problem nə ilə bağlıdır?***

- Açıq yazma, oğlu hələ bilmir. Ciddi problemləri var, baxırsan, çəkisi 45 kiloya düşüb.

***- Orda qayğılarını çəkən varmı?***

- Bizim camaatdan çox razıdır. Orada onun qayğısına mənim qədər qalan insanlar var. Müalicəsi qurtarmamış məni onu ölkəyə qayıtmağa qoymaram. Mənə onun sağlamlığı lazımdır. Çünki bu durumda ölkəyə qayıtsa, mən onu müalicə etməyə pul tapmayacağam. Onun müalicəsinə böyük pullar lazımdır. Həkimi ilə görüşdüm, bu durumdan özüm şokda idim. Mənim uşağım stressdən nə günə düşüb. 4 aydır orda müalicə götürür. Mənim ailəmə olunan zülmə özüm də təəccüb qalmışam. Yoldaşı bu vəziyyətdə, özü orda bir həftəyə 12 kilo arıqlayıb.

***- Mətanət xanıma qarşı təzyiqlərin əsas səbəbi nədir?***

- Mən də başa düşmürəm ki, Mətanət hansı statusda bunlara lazımdır, şahiddirmi, təqsirləndirilən şəxsdirmi? Onun evindən avadanlıqlarını, sənədlərini niyə apardılar? Başa düşmürəm ki, niyə mənim ailəmə bu qədər təzyiq edilir.

***- Mətanət xanımın Leyla Yunusla hansısa əlaqəsi var idimi?***

- Yox. Mətanət "Qadın Krizis Mərkəzi"ndə ailə zorakılığı, insan alveri kimi problemləri araşdırırdı. Azad İsazadə ilə birlikdə qadınlara psixoloji yardım göstərirdi. Mən özüm də anlaya bilmirəm. Mənim bütün hesablarımı bağlayıblar. Təsəvvür edin, hesablarımı bağlayıblar, burda da mənimlə pul haqq-hesabı aparırlar.

***- Sizin təşkilat da iflic durumdadır?***

- Təşkilatın iflic durumda olduğunu deyə bilmərəm. Çünki mən hüquqşünasımızla birgə işləyirik. Bu il 70 məhkəməmiz olub. Mən o məhkəmələri necə yarımçıq qoyum? Bizim qrantımız həmişə olmayıb ki... 1996-cı ildə yaranmışıq, 10 il sonra ilk qrantımızı almışıq. Amma o vaxtdan məni daim vuruşan görüblər, işləmişəm. Sadəcə indi çox ciddi çətinliyimiz var, ən azı ofis xərcləri kimi məsələləri həll etmək lazımdır.

***- Adətən, xaricə gedənlərə problem yaradılırdı, amma sizin ölkəyə girişinizə mane oldular. Maraqlı haldır...***

- Yəqin gözləyirmişlər ki, ölkəyə qayıtmayacağam. Bilmirəm ölkəyə gəlməyimə peşman oldular, ya nədir. Yəqin istəmirmişlər qayıdım. Mən ölkəmi qoyub harasa gedən deyiləm. 2002-2003-cü illərdə mənə sığınacaq təklif edənlər var idi. Amma getmək heç ağlıma gəlməyib. Heç vaxt ölkəni tərk etmərəm. Nə indi o yaşım deyil, nə də heç cavan vaxtımda da getmədim. Mənim burda qəbirlərim var. Özü də mənim ölkəmdir, burda doğulmuşam, niyə getməliyəm?



**"QHT-lərin pullarını saymaqdansa, oğurlanan, talanan neft pullarının hesabatını soruşsunlar"**

***- Avropa Birliyinin genişlənmə və qonşuluq siyasəti üzrə komissarı Ştefan Fülenin ötən həftə gerçəkləşən Bakı səfərindən sonra QHT-lərə qarşı təzyiqlərin azalacağına ümidiniz varmı?***

- O görüşə mən də dəvət olunmuşdum, təəssüf ki, iştirak edə bilmədim. Amma çox təəccüblü bir haldır ki, Füle hesab edir ki, əgər o, vətəndaş cəmiyyətinə qrant ayırırsa, bu, onlara dəstəkdir. Bu, boş söhbətdir. Bu pul yalnız dövlət yanındakı QHT-lərə qismət olacaq. Çünki əgər bu gün müstəqil QHT-lərin hesabları bağlıdırsa, onların qrantlarının qeydiyyatında problem varsa, başa düşmədim, onda həmin vəsaiti kimə verəcəklər? Əvvəl Füleni maraqlandırmalıdır ki, vətəndaş cəmiyyətinə niyə bu problem yaradılıb? Mən heç kimin əvəzinə and içə bilmərəm ki, kim aldığı vəsaiti nə cür xərcləyir. Bizim təşkilat audit, donor tərəfindən yoxlanılıb, mən ancaq özümə cavab verə bilərəm. Amma bu dərəcədə olmamalıdır ki, sən bank hesablarını bağla, bu da düzgün deyil axı. Hansı ölkədə müstəqil QHT-lər yoxdursa, o ölkədə demokratiya inkişaf edə bilməz. Bu gün rayonların çoxunda vəkil yoxdur ki, insanlar hüquqi yardım alsın. Hökumətin görməli olduğu işlərin bir qismini vətəndaş cəmiyyəti öz üzərinə götürüb. Hökumət özünün milli fəaliyyət planlarının hamısında sonuncu bənd olaraq vətəndaş cəmiyyətinə önəm verib. Bəs önəm verisənsə, onda niyə onların məhvinə çalışırsan? Bu mənada mənim də heç bir ümidim yoxdur.

***- Avropada Azərbaycanın vətəndaş cəmiyyətinin durumu ilə bağlı hansı rəy formalaşıb?***

- Kənardan heç yaxşı görünmür. Avropada bu vəziyyətdən çox təəccüblənirlər. Heyrət edirlər ki, Azərbaycanda girovluq vəziyyəti mövcuddur, vətəndaş cəmiyyətinə bu qədər basqılar var. Əvvəl "narahatıq" deyirdilər, amma indi doğrudan da narahatdırlar.

***- Azərbaycana qarşı sərt sanksiya tətbiq oluna bilərmi?***

- Mən istəmərəm ki, Azərbaycana qarşı hansısa kəskin sanksiya tətbiq olunsun. İstərdim bu qurumlar üz-üzə oturub vəziyyəti müzakirə etsinlər. Vətəndaş cəmiyyəti ilə müzakirənin perspektivi yoxdur, çünki qabaqlar da olub, vəziyyət yaxşılığa doğru dəyişməyib. Heç olmasa, rəsmi qurumlar öz aralarında müzakirələr aparsınlar ki, niyə bizə basqı var, məsələnin kökü nədir. Azərbaycan Avropa Şurasının Nazirlər Kabinetinə də rəhbərlik edir, yəqin orda da suallarla üzləşəcək.

***- Mirvari xanım, sanksiyalardan danışmışkən, Rusiyaya basqılar, neftin qiyməti şimal qonşumuza təsirini göstərib. Vəziyyət Azərbaycana nə vəd edir?***

- Bəli, artıq vəziyyət Rusiyaya təsir edir. Əgər Rusiya kimi böyük dövlətə təsir edibsə, şübhəsiz ki, Azərbaycana təsir edəcək. Mən ona görə narahatam ki, vəziyyət bizim özümüzə təsir edəcək. Oliqarxın nəyinə təsir edəcək ki? Onlar yığdığını yığıb, milyardları var. Mənim bildiyimə görə, Britaniyada bp-nin ofisi qarşısında aksiya keçirtmək istəyirlər ki, Azərbaycanda insan hüquqları pozulur, amma siz orda fəaliyyət göstərirsiniz. Həmçinin başqa ölkələrin vətəndaş cəmiyyətləri beynəlxalq maliyyə institutlarına tövsiyə hazırlayırlar ki, onlar Azərbaycanda işləməsinlər. Çünki Dünya Bankının, Avropa İnkişaf Bankının da mandatında var ki, onlar insan hüquqlarına hörmət olunan ölkələrdə işləməlidir. Beynəlxalq təşkilatlar tövsiyələrlə çıxış etmək istəyirlər ki, bu banklar Azərbaycana kredit ayırmasın. Bunlar hamısı bizim ziyanımızadır. Mən istərdim ki, müvafiq qurumlar bu prosesə bir "dur" desinlər. QHT-lərin pullarını saymaqdansa, oğurlanan, talanan neft pullarının hesabatını soruşsunlar. Vətəndaş cəmiyyətinin 5-3 manatlıq əmək haqqını araşdırmasınlar. Biz keçən il monitorinq apardıq, ancaq tapa bilmədik ki, Avropa İttifaqının Azərbaycanın dövlət qurumlarına ayırdığı vəsait necə xərclənib, onun şəffaflığı aparılıbmı? Amma Avropa İttifaqından vətəndaş cəmiyyətinə ayrılan layihələri Ədliyyə Nazirliyi qeydiyyata almır. İkili standart elə bizim ölkəmizdə də var. Nəyə görə QHT-lərə qarşı ayrı-seçkilik tətbiq olunur, bəzi QHT-lərin bank hesabları bağlıdır, amma hökumətyönlü təşkilatların işi yağ kimi gedir?

***- Böhran qaçılmaz olacağı təqdirdə Azərbaycanda nə qədər neftçi işsiz qala bilər?***

- Hələ bu ilin əvvəlində mən demişəm ki, ilin axırına kimi ARDNŞ-də çalışanların 50 faizi işdən azad olunacaq. Bir çox idarələrin ləğvi davam edir. Gördünüzmü "Hafka"nın "Bahar-əməliyyat" şirkətinə nə qədər böyük problem yarandı? Əvvəlcədən də bilirdilər ki, olacaq, ancaq tədbir görülmədi. ARDNŞ-nin özündə düzgün olmayan kadr siyasəti nəticəsində hasilat aşağı düşüb. Orda qohumbazlıq, yerlibazlıq o dərəcədə artıb ki...Hasilatın aşağı düşməsinə əsas səbəb kadr siyasətidir. Peşəkar işçilərin işdən çıxarılması, təqaüdə göndərilməsi öz sözünü deyib. Bizdə əl əməyindən çox istifadə olunduğu üçün minimum10 min adam işləməlidir. ARDNŞ-də 59 minə yaxın insan işləyirdi, artıq əksər idarələr bağlanıb. Mənim hesablamama görə, ilin sonunadək 30-35 min işçi qalacaq.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014



# Koreyalı turistlər

Zamin HACI
zaminhaci@gmail.com

**Naxçıvandan daha bir maraqlı xəbər var, deyir, bu il əraziyə xaricdən çoxlu sayda turist gəlmişdir, hətta proses belə davam etsə, yaxın illərdə muxtar respublikanın büdcəsi turizm hesabına doldurulacaqdır, dünya turizm sektorunda Naxçıvanın yeri hardasa İspaniya ilə Maldiv adaları arasında qərar tutacaqdır.**

Əlbəttə, ərazidə öküz döyüşləri və mirvari qumlu çimərliklər olmasa da öz koloriti vardır. Misal üçün, müxalifətçiləri şişləyən MTN matadorları, yalnız kişilərin buraxıldığı Batabat çimərliyi kimi ekzotik məkanlar tikilib zəhmətkeşlərin və şəhərimizin qonaqlarının istifadəsinə verilmişdir. Vasif müəllimin Nuh peyğəmbərin sümüklərini tapıb Milli Məclisin qərarlarına uyğun şəkildə qəbirdə basdırması, xurma və limonla peyğəmbərə ehsan mərasimi düzənləməsi də el-aləmdə məşhurdur. Yerli tarixçilər Vasif müəllimin tapşırığı ilə Heraklın da Şərur rayonu ərazisində yaşadığını isbat ediblər, çünki əslən naxçıvanlı olmayan bir pəhləvanın 12 dəfə qoçaqlıq eləməsi həmişə tarixşünaslıqda şübhə doğururdu. Hazırda Zevsin Olimpi vaxtilə İlandağın başında qurması üzərində elmi iş gedir, inşallah, xalqımız tezliklə sevinər.

Naxçıvanda çıxan "Şərq qapısı" qəzeti builki 29 avqust sayında isə Nuh peyğəmbərin ərazidəki Duzdağ mağaralarında işlədiyini yazmışdır. Sən demə, peyğəmbər o vaxt su çəkiləndən sonra bir müddət işsiz qalıb, ev-eşiyini də daşqın yuduğundan dolanışıq üçün dağdan duz yığıb "Azərsun"a verirmiş.

Bütün bunlar, əlbəttə, Naxçıvana turist axınını gücləndirməli idi. Planetin hər yerindən insanlar axışıb gəlirlər. Muxtar respublikanın mədəniyyət və turizm nazirliyinin məlumatında deyilirmiş ki, avqustda gələn turistlər Türkiyə, İran, Rusiya, Estoniya, Nikaraqua, Barbados, Bruney, Gürcüstan və... Koreyanı təmsil ediblər.

Mən burda Koreyanı niyə ayırdım? Axı doğrudan da hansısa estonun gəlib Naxçıvandan öyrənəcəyi çox şeylər vardır. O cümlədən, nikaraqualıların. Bəs koreyalı Vasif müəllimdən nə öyrənəcək? Onlar Kim Çen In müəllimin rəhbərliyi altında dünya zirvələrinə yüksəlirlər, orda da liderin icazəsi olmadan təndirə çörək yapmaq, yuxa yaymaq, gərdəyə girmək, saqqalı daramaq, tuman geymək, gülmək və ağlamaq, asqırmaq və qusmaq, doğulmaq və gəbərmək rəsmi dövlət fərmanları ilə qadağan edilibdir.

Çox gizli səfərlərdir. Ola bilər koreyalılar əraziyə casus kimi gəliblər, turist donuna giriblər. Məqsəd Nuh peyğəmbəri oğurlayıb aparmaq, Koreyada düyü tarlalarında iməcilikdə işlətməkdir. Yoxsa nəyə gəlsinlər? Koreyalının Naxçıvana turist sifətində gəlməsi o məşhur kinomuzda deyilən kimi, "monqol dublyonkalarını monqol turistlərinin alıb aparması" fason bir şeydir. Ümid edək gələnlər Şimali yox, Cənubi Koreyalı turistlər olubdur. Hərçənd, bu da böyük fərq eləmir, çünki oranın ümummilli lideri Kim İr Sen-in tarixi sözləri yolumuza işıq salır: "Bir millət, iki dövlət!"

Bu arada fürsət ikən uca millətimizə məsləhət görürəm koreyalı rejissor Kim Ki Duk-un filmlərinə baxsınlar. Maraqlı filmlərdir. Anarın ssenarisi ilə çəkilən və Hüseyn Cavidi ikinci dəfə repressiya edən "Cavid ömrü" kinosu tipli cəfəngiyatlara baxmaqdansa Koreya filmlərinə baxın, estetik zövq alın, həyatdan da kam alın.

Əlbəttə, turistlər gəldi-gedərdir, bizə qalan sərçələr olacaqdır. Öz millətimizin gərək qədrini bilək. Son günlər hökumətin ehsan qadağasına ümumxalq dəstəyini görəndə mən bir daha anladım ki, biz uca millətik. Sevgili xalqıq, Cəmil müəllim demişkən. Arzu edirəm Cəmil müəllim yazıçı Anar haqda növbəti resenziyasını yazsın, orada Leyla Yunusun Kürdəxanı türməsində döyülüb qançır edilən ayaqlarına da bir-iki abzas həsr etsin. Koreyalı turistlər də Bakıya gəlsinlər.

Bizimlə qalın, əziz tamaşaçılar.

# "Azərbaycanda demokratiyanın vəziyyəti" - müxalifət danışacaq

## AXP sədri Pənah Hüseyn siyasi partiyaların konfransı haqqında danışdı; "müxalifətdə yeni mərhələ başlayır"

**Azərbaycanda bir sıra siyasi partiyaların təşkilatçılığı ilə sentyabrın 17-də saat 12-də ADP qərargahında böyük konfrans keçiriləcək. Mediada konfransa hətta YAP-ın da dəvət ediləcəyi barədə informasiya yayılıb. Konfrans və yayılan xəbərlərə prosesin iştirakçısı olan Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyndən münasibət öyrəndik.**



Pənah Hüseyn bildirdi ki, təxminən bir aydan artıqdır ki, son dövrdə ictimai sektora qarşı repressiya və tanınmış hüquq müdafiəçilərinin həbsi ilə bağlı bir araya gələn 15 siyasi partiyanın qatıldığı proses başlanıb və davam edir: "Bu müddətdə QHT- lərin hazırladığı vahid siyasi məhbus siyahısının dəstəklənməsi barədə mövqe əldə olunub. Hüquq müdafiəçilərinin həbsi və ictimai sektora qarşı repressiyalar pislənib. Siyasi və vicdan məhbuslarının azad olunması barədə bəyanatlar qəbul edilib. Vəkil İntiqam Əliyev haqqında Avropa İnsan Hüquqları məhkəməsinə, habelə həyati riskli xəstəlikləri olan siyasi məhbusların müayinə və xaricdə müalicəsi üçün beynəlxalq tibbi komissiyanın yaradılması haqqında müraciətlər qəbul edilib və göndərilib. Ən mühüm nəticələrdən biri kimi siyasi partiyaların insan hüquqlarının müdafiəsi sahəsində funksional əməkdaşlığı və bunun mexanizmlərinin yaradılması barədə razılıq əldə olunub və konkret addımlar atılıb. Bununla əlaqədar "Demokratiyanın müdafiəsi haqqında Xartiya" hazırlanıb və bu günə 11 siyasi partiya tərəfindən imzalanıb. Axırıncı olaraq Azad Demokratlar Partiyası ona imza atıb. Bir neçə partiya da Xartiyaya qoşulmağı müzakirə edirlər. Xartiyada bir sıra məsələlərə yanaşı, siyasi partiyaların Demokratiya və İnsan Haqları Mərkəzində daimi əməkdaşlıq etməsi barədə razılıq da əksini tapıb. Sentyabrın 17-dəki konfrans Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin xətti ilə təşkil edilir. Bu konfransda həm Xartiyanı imzalayan partiya nümayəndələrinin, həm də digər siyasi partiyalar, QHT, gənclik hərəkatı nümayəndələri, media təmsilçilərinin iştirakı nəzərdə tutulur. Ümumi qaydada beynəlxalq təşkilatların da nümayəndələrinin dəvət olunması nəzərdə tutulub. Yeni Azərbaycan Partiyasının dəvət olunmasına gəldikdə isə, əvvəldən bu məsələdə konseptual yanaşma ondan ibarətdir ki, proses yalnız müxalifətdə olan siyasi partiyaların fəaliyyəti kimi təqdim olunmur, baxmayaraq ki, Mərkəzi təsis edən, prosesdə iştirak eləyənlərin mütləq əksəriyyəti müxalifətdədir və ya özünün müxalifətdə olduğunu bəyan edirlər. Hətta o da razılaşdırılıb ki, məsələn, kimlərin müxalifətdə olub-olmaması barədə mənasız spekulyasiyalara vaxt itirməmək üçün haqqında danışılan prosesin iştirakçılarına nəzərən ümumiyyətlə siyasi partiyalar ifadəsi işlənsin. Razılaşdırıldı ki, konfransın mövzusu da elədir ki, siyasi mövqeyindən asılı olmayaraq bütün siyasi partiyaların dəvəti məqsədəuyğundur. Kimlərin gəlib-gəlməyəcəyi, deməzdim ki, əhəmiyyətsizdir, lakin daha əhəmiyyətlisi odur ki, hamını dəvət etmək siyasi mövqe kimi ortaya qoyulub. Əksər çıxışların, sənəd layihələrinin hakimiyyətə münasibətdə tənqidi olacağı aydındır. Lakin əgər YAP-ın belə bir auditoriyada deməyə sözü və istəyi varsa, buyursunlar. Dəvət məsələsini Demokratiya və İnsan Haqları Mərkəzinin sədri, KXCP lideri Mirmahmud Mirəlioğlu öz üzərinə götürüb. Hesab edirəm dəvət YAP-a da olacaq".

AXCP-nin siyasi partiyaların konfransında iştirak edib-etməyəcəyi ilə bağlı suala Pənah Hüseyn belə cavab verdi: "Bu proses başlandığı ilk gündən Milli Şuranın sədri professor Cəmil Həsənli, həm də AXCP sədri Əli Kərimli dəvət olunub. Onların bu prosesdə iştirakı arzu olunub. Hər dəfə AXCP rəhbərliyi tədbirlərə dəvət edilir, o cümlədən nəzərdə tutulan konfransa da dəvət ediləcəklər. Arzu olunandır ki, ölkənin əsas siyasi partiyalarından biri olan AXCP və son seçkilərdə müxalifətin prezidentliyə namizədi olmuş Cəmil Həsənli konfransda iştirak etsin".

Konfransda müzakirə olunacaq məsələlər, hansısa sənədlərin qəbul edilməsi məsələsinə gəlincə, P.Hüseyn dedi ki, konfransın mövzusu Azərbaycanda demokratiyanın vəziyyətidir. Müzakirələrin nəticəsi olaraq belə razılıq əldə olunub ki, konfransda bir məruzə olsun. Məruzəni Müsavat Partiyasının başqanı İsa Qəmbər edəcək. İstər iştirak eləyən siyasi partiyaların sədrləri, nümayəndələri, istər dəvət olunmuş digər iştirakçıların çıxışları gözlənilir. Konfransı təşkil edən partiyaların adından sənəd layihələri, həmçinin qətnamə layihəsi hazırlanıb. Bunun müzakirəsi davam edir və yekun layihə mətni təşkilatçıların sentyabrın 16-da keçiriləcək toplantısında razılaşdırılacaq. Bu qədər sayda təşkilatın belə həssas mövzuda hər şeyi detallı razılaşdıra bilməsi mürəkkəb işdir. Odur ki, hər bir siyasi partiya və təşkilat məsələlər barədə özünün xüsusi mövqeyi ilə, qeyd-şərti ilə çıxış da edə bilər və hansı sənəd qəbul ediləcəksə oraya hətta yazılı şəkildə öz qeyd-şərtini qoya bilər. Konfransın qətnamə layihəsində bir sıra prinsipial və yeni, diskussion məsələlər ifadə olunub. Şübhəsiz, yekun mətn konfransda məruzə, çıxışlar və təkliflər nəticəsində hazırlanacaq. Qətnamədən əlavə bəyanat və müraciətlərin, o cümlədən son dövrdə ictimai sektor təmsilçilərinin həbsi ilə bağlı sənədlərin də qəbul edilməsi gözlənilir".

AXP sədri sonda vurğuladı ki, siyasi partiyaların daimi funksional əməkdaşlığı 2014-cü ilin ən ciddi siyasi hadisələrindən biridir. Bu prosesi baş tutmuş hesab eləmək olar. Bu konfransda bir sıra məsələlərə aydınlıq gələcək. Odur ki, bu tədbir prinsip etibarilə Azərbaycan siyasi həyatında hətta yeni bir mərhələnin başlanması kimi qiymətləndirilə bilər".

❑ **Etibar SEYİDAĞA**

# Ermənilər öz hökumətlərinə Allahdan ağıl diləyirlər



Paruyr Ayrikyan

**Ermənistanın "Milli özünütanıma" birliyinin lideri Paruyr Ayrikyan bildirib ki, bu gündən Ermənistan prezidenti Serj Sərkisyanın istefası tələbi ilə olan aclıq aksiyasını saxlayır.**

Məlumata görə, sentyabrın 7-də P.Ayrikyan ölkə başçısının fəaliyyətindən narazı olduğunu bildirərək aclıq aksiyasına başlayıb. O bildirib ki, aclıq aksiyası "prezident istefaya gedəndən sonra" dayandıracaq və onu hər gün saat 17:00-18:00 arası hər gün Prezident Administrasiyası qarşısında davam edəcək.

"Mən sadəcə aksiya keçirirəm, mən deməmişdim ki, məsələni həll edəcəyəm. Məsələni millət həll etməlidir, aclıqla isə sən sadəcə, tələb irəli sürürsən. 7 nəfərin (aksiyaya qoşulan 6 digər partiyalar) birgə aclıq aksiyasını etiraz kimi qəbul etmək olar. Bu, 7 min adamın yığışmasından daha əhəmiyyətlidir" - deyə P.Ayrikyan sözünə əlavə edib. Bundan əlavə o, aksiyaya qatılan tərəfdarları ilə birgə kilsələri gəzərək Allahdan hakimiyyətə ağıl verməsini istəyib.

Ayrikyan Ermənistanda keçirilən son prezident seçkilərində namizədliyini irəli sürmüşdü. O zaman ona qarşı İrəvanın mərkəzində həyata keçirilən sui-qəsd nəticəsində döş qəfəsindən güllə yarası almışdı.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014



# Azərbaycan-Türkiyə genişmiqyaslı təlimlərinin şok səbəbi

**İki qardaş ölkənin ortaq "əzələ nümayişi" təkcə işğalçı Ermənistana və Qarabağ nizamlanmasını süni şəkildə uzadan qlobal güclərə xəbərdarlıq deyil; ilk növbədə Rusiyanın münaqişə bölgəsində yeni müharibəni alovlandırmaq planını önləməyə yönəlik preventiv addımdır...**

**Azərbaycan öz hərbi qüdrətini artırmaqda davam edir. Ərazisinin 20 faizi 20 ildən artıqdır işğal altında olan bir ölkənin, üstəlik sülh danışıqlarının illərlə heç bir səmərə vermədiyi zamanda buna tam haqqı çatır. Ölkənin müdafiə qabiliyyəti isə əsasən çoxşaxəlilik prinsipi əsasında təmin edilir. Söhbət müxtəlif ölkələrdən modern silah-sursat almaqla yanaşı, həm də yerli hərbi sənayeni inkişaf etdirməkdən gedir.**

Ötən həftə bu xüsusda baş verən bir neçə mühüm olay prosesin dayanmadığını, əksinə Dağlıq Qarabağ münaqişəsi zonasında yaşanan son presedentdən sonra daha intensiv xarakter aldığını göstərdi. Onlardan biri Bakıda Beynəlxalq Hərbi Müdafiə Sənayesi Sərgisinin - ADEX-2014-ün açılmasıdır. Sərgidə, təbii ki, Azərbaycan da öz hərbi məhsulları ilə təmsil olunmuşdu.

Tədbirin əhəmiyyəti barədə danışan Azərbaycan müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev münaqişə səbəb göstərilərək Azərbaycana silah satışına embarqolar qoyulduğunu deyib: "Ona görə də biz müdafiə sənayemizi inkişaf etdiririk və bir sıra dövlətlərlə hərbi əməkdaşlıq sahəsində əlaqələr yaratmışıq. Müdafiə sənayemizi qısa müddətdə yaratmaq üçün 30-dan çox dövlətlə əməkdaşlıq qurduq, müasir texnologiyalar əldə etdik". Musayev bir sıra dövlətlərlə hərbi-texniki əməkdaşlıq sahəsində komissiyalar yaradıldığını da vurğulayıb: "Türkiyə və digər dövlətlərlə belə komissiyalar yaratmışıq. Hərbi-texniki əməkdaşlığın genişləndirilməsinə çalışırıq, sərgilərin keçirilməsində də məqsəd budur. ADEX-2014 kimi sərgiləri ancaq inkişaf etmiş dövlətlər keçirə bilir".

İkinci mühüm hadisə İsrailin müdafiə naziri Moşe Yalonun Bakıya sürpriz və tarixi səfəri hesab oluna bilər. Qeyd edək ki, bu, İsrail müdafiə nazirinin Azərbaycana ilk səfəri olub və bu baxımdan tarixi əhəmiyyət kəsb edir. Artıq prezident İlham Əliyev İsrail nümayəndə heyətinin rəhbəri Moşe Yalonu qəbul edib. Görüşdə İsraillə Azərbaycan arasında hərbi tərəfdaşlıq məsələləri müzakirə edilib. "Mən Azərbaycana tarixi səfər edən ilk İsrail müdafiə naziri olaraq çox şadam. Bizim ikitərəfli münasibətlərimiz çox məhsuldardır və ölkələrimiz arasında strateji tərəfdaşlıq inkişaf edir" - deyə Yalon qəbulda bildirib.

Bu, doğrudan da, belədir. İsrail Azərbaycanın əsas silah satıcılarından biridir və iki ölkə arasında hərbi-texniki ticarətin həcmi artıq milyard dollarla ölçülür.

Azərbaycan öz hərbi parkını modernləşdirmək üçün, nə qədər qəribə də olsa, işğalçı Ermənistanın əsas müttəfiqi Rusiyanın bazarından da geniş istifadə edir. Ukraynadakı olaylara, Qərb-Rusiya qarşıdurmasına və cəbhədəki son insidentə baxmayaraq bu əməkdaşlıq ənənəvi axarda davam edir. Məsələn, bu arada məlum olub ki, Rusiya Azərbaycana 100 ədəd T-90S tankının çatdırılması prosesini 2015-ci ilin əvvəlində yekunlaşdıracaq. Bunu Rusiyanın "Rosoboroneksport" şirkətinin baş direktorunun müşaviri Esen Topoyev deyib.

Rusiyanın 2010-cu ildə imzalanan sazişə uyğun olaraq Azərbaycana silah və hərbi texnikanın çatdırılmasını 2017-ci ildə yekunlaşdıracağını deyən E. Topoyev qeyd edib ki, əlavə təchizatdan söhbət getmir. "2010-cu ildə biz böyük paket imzaladıq. Müxtəlif tarixlər var, silahların bir hissəsini bu il çatdırdıq, digərlərini isə 2015-ci ildə çatdıracağıq", - deyə o vurğulayıb.

Xatırladaq ki, bir müddət öncə Rusiyanın hərbi-texniki əməkdaşlıq üzrə Federal Xidməti rəhbərinin müavini Rusiyanın Azərbaycana 100 ədəd T-90S tankının çatdırılması prosesini bu ilin aprelində yekunlaşdırdığını bildirib və əlavə olaraq daha 100 tankın çatdırıla biləcəyini istisna etməyib. Topoyev onu da deyib ki, Azərbaycan tərəfi "Rosoboroneksport"a ölkə ərazisində helikopterlərin və ağır hərbi texnikanın təmiri ilə bağlı mərkəzlərin yaradılması xahişi ilə müraciət edib. E. Topoyev həmçinin qeyd edib ki, "Rosoboroneksport" Azərbaycan tərəfinə T-72 tanklarını müasirləşdirməyi təklif edib. Söhbət T-72-lərin Tanklara Dəstək Hərbi Maşınların (TDHM) səviyyəsinə çatdırılmasından gedir.

***

Son həftənin Azərbaycanın hərbi göstəricilərinə dəxli olan başqa bir önəmli hadisəsi isə, əlbəttə ki, Türkiyə və Azərbaycanın bütün növ qoşun hissələrinin və 30 min hərbçinin (!) iştirakı ilə 1 həftəlik birgə hərbi-taktiki təlimlərin keçirilməsidir. Belə genişmiqyaslı təlimlər iki qardaş ölkə arasında ilk dəfədir reallaşır və Azərbaycanın öz müdafiə qüdrətinə əmin olmaq üçün ikiqat önəm daşıyır. Çünki müharibə vəziyyətində olan bir ölkənin yeni silahları sınaqdan keçirməsi, hərbçilərə onlardan praktik surətdə istifadə vərdişi aşılamaq da vacibdir.

Azərbaycanın məhz Türkiyə ilə hərbi sahədə yaxınlaşması, üstəlik, işğalçı Ermənistana, onun havadarlarına ələlxüsus da qondarma "soyqırım"ın 100 illiyi ərəfəsində güclü bir xəbərdarlıq mesajıdır ki, Azərbaycana hücum edən qarşısında Türkiyəni görəcək. Eyni zamanda yeni azadlıq müharibəsi başlarsa, qardaş ölkənin bizdən hərbi dəstəyi əsirgəməyəcəyinin anonsudur. Nəhayət, bu, eyni zamanda, Qarabağ ixtilafını süni şəkildə uzatmağın bədəlinin ağır ola biləcəyi barədə əyani xatırlatmadır.




***

Bu xüsusda sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadənin fikirləri də maraqlıdır. Politoloq Ukraynadakı hadisələrə görə Qərbin təzyiqlərindən sığortalanmaq üçün Rusiyanın Qafqazda yeni müharibə ssenarisinin hazırladığını bildirib.

Xatırladaq ki, son günlər regionda münaqişə tərəflərinin ciddi fəallığı hiss olunur. Sentyabrın 3-7-si tarixlərində Ermənistandakı Alagöz təlim-məşq kompleksində Rusiya hərbi bazası və Ermənistan Müdafiə Nazirliyi hərbçilərinin iştirakı ilə batalyon-taktik təlimlər keçirilib. 1500 hərbçinin, 300 zirehli tank, avtomobil və xüsusi hərbi texnikanın cəlb olunduğu hərbi təlimlər kiçik bir kontingenti əhatə edib. Buna cavab olaraq isə Türkiyə və Azərbaycan daha geniş miqyaslı hərbi təlimlərə start verib.

Vəfa Quluzadə aktual.az-a bildirib ki, ABŞ və Avropanın sanksiyalarından çıxılmaz durumda qalan Rusiya hakimiyyəti təşviş içində Qərbə təzyiq üsulu axtarır: "Burada gözlənilməz hadisələr baş verə bilər. Putin Qərbə, Avropaya təzyiq üsulu axtarır ki, ondan əl çəksinlər. Amma onlar Rusiyadan əl çəkən deyillər. Ona görə ki, Putin bütün beynəlxalq hüquq normalarını pozub və istəyir ki, bu pozuntu ilə Qərb barışsın. Qərb iqtisadi, hərbi baxımdan Rusiyadan qat-qat güclüdür. Ona görə də onlar Putinin qabağından çəkinməyəcəklər. Burda çıxış yolu Putinin geri çəkilməsidir. Amma məsələ bundadır ki, Putin çəkilsə, özü çökəcək. Yəni bu şəraitdə ondan gözlənilməz addımlar gözləmək olar".

Politoloq hesab edir ki, Putin diqqəti yayındırmaq üçün regionda ikinci Qarabağ müharibəsini başlamaq istəyir: "Rusiya regionda belə bir təxribata əl ata bilər. Ona görə də buna hazır olmaq lazımdır. Çünki bu dəqiqə dünyanın bütün diqqəti Ukraynadadır, amma burada yeni bir müharibə olsa, diqqətlər bizim regiona yönələcək. Baxmayaraq ki, bu dəqiqə ermənilər heç bir müharibədə maraqlı deyillər. Amma təlim keçirmək nədir? O təlimi keçirməklə Qərbə mesaj verir ki, məndən əl çəkin. Mən burada böyük bir müharibəyə başlaya bilərəm. Bu şəraitdə isə Azərbaycanla Türkiyənin birgə hərbi təlimləri olduqca yerindədir. Bu da Rusiyaya mesajdır ki, əgər sən belə bir addım atsan, Türkiyə Azərbaycanla bərabər sənin qarşına çıxacaq. Rusiya bilməlidir ki, Türkiyənin əsgəri gücü Rusiyanınkından qat-qat artıqdır. Ona görə də Türkiyə əsgəri baxımından regionun ən güclü dövlətidir. Üstəlik, Türkiyə NATO-ya üzv dövlətdir və Türkiyə Azərbaycanla burada rus-erməni təcavüzünə cavab vermək iqtidarındadır. Hesab edirəm ki, bu təlim bir mesaj kimi Rusiyaya çatacaq və regionda stabillik pozulmayacaq".

Sabiq dövlət müşaviri ikinci Qarabağ müharibəsinin başlamaq ehtimalını bu cür izah edib: "Rusiya Ermənistanda daima hərbi təlimlər keçirir. Eyni zamanda Rusiya Azərbaycana hərbi texnika satır. Bir neçə gün öncə Rusiya hakimiyyətinə yaxın olan RBK telekanalında xəbər getdi ki, Rusiya Azərbaycana ən müasir 100 ədəd T-92 tankı satıb. Rusiya bunu puldan başqa, Azərbaycana ona görə satır ki, Azərbaycan ürəkli olsun və Ermənistanı vursun. Yəni bir sözlə, müharibə olsun. Rəsmi Moskvanın bizə silah satması, münasibətinin yumşalması, Azərbaycana dost deməsi o deməkdir ki, yəni ürəkli olun, biz sizi vurmayacağıq. Bir sözlə, Rusiya, sadəcə, müharibə etməkdə maraqlıdır və mən əminəm ki, Azərbaycan rəhbərliyi bunu başa düşür".

Siyasi şərhçinin fikrincə, əslində, biz torpaqlarımızı hərbi yolla azad edə bilərik, amma bunun fəsadlarını da bilməliyik: "Bu dəqiqə bütün dünyanın diqqəti Azərbaycana, Ermənistana doğru yönələcək və Azərbaycan güclü olduğuna görə birinci mərhələdə Ermənistana böyük zərbələr dəyəcək. Elə buna görə də bütün dünya bizim əleyhimizə çevriləcək. Rusiya da elə bunu istəyir. Ona görə də Rusiyanın tonunun dəyişməsinə biz aldanmamalıyıq. Bundan başqa, onu da nəzərə almalıyıq ki, Rusiya ilə Ermənistanın hərbi müqavilələri var. Əgər Ermənistan müharibə vəziyyətində olsa, Rusiya Ermənistanın köməyinə gələcək. Eyni zamanda, Kreml bilməlidir ki, Türkiyə Azərbaycanı sata bilməz. Çünki bu, Türkiyənin özünə zərbə ola bilər. Bu məsələdə Azərbaycana diqqətsizlik edən iqtidar Türkiyədə hakimiyyətdə qala bilməz. Ona görə də Türkiyə Azərbaycanın arxasında ciddi dayanıb və dayanmaq məcburiyyətindədir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014

**Avropa Birliyi Rusiyaya qarşı sanksiyaları daha da sərtləşdirib. Sanksiyalar 5 banka, 3 neft şirkətinə, Müdafiə Nazirliyinə tabe olan 9 şirkətə tətbiq edilib. Sanksiyalar nəticəsində Avropa Birliyi "Rosneft", "Transneft", "Qazpromneft" yanacaq-energetika şirkətləri ilə uzunmüddətli maliyyə yatırımı tələb edən layihələrə də qadağa qoyub.**

# Rusiyaya qarşı sanksiyalar Azərbaycana da təsir edəcək

## Ekspertin fikrincə, Qərb Azərbaycan, Gürcüstan və Ukraynanın Kremlin təsiri altına düşməsinin qarşısını almağa çalışır

Buna qədər imzalanan müqavilələrə sentyabr ayının sonunda bir daha baxılacaq. Bəzi müqavilələrin birtərəfli qaydada ləğv edilməsi də mümkündür. Avropa Birliyi "Sberbank", BTB, "Qazprombank", BEB, "Rosselxozbank"la əməkdaşlığa da son qoyur. Bundan sonra Avropa Birliyi bu bankların heç birinə kredit ayırmayacaq, onlarla müddəti 30 günü aşan qiymətli kağız əməliyyatları aparılmayacaq.

Qeyd edək ki, bir sıra müşahidəçilər bu sanksiyaları "öldürücü" adlandırır. Məlumatlara görə, sanksiyalar qüvvəyə minəndən bir neçə saat sonra Rusiyada rubl dəyərdən düşməyə başlayıb. Ehtimal olunur ki, Qərb sərt sanksiyalar vasitəsilə Rusiya iqtisadiyyatını çökdürməyə, Putin hakimiyyətini zəiflətməyə nail olmağa çalışacaq. Ancaq bu sanksiyalar eyni zamanda, Rusiya ilə qonşu olan Azərbaycanı da birbaşa maraqlandırır. Çünki Azərbaycan iqtisadiyyatı, kənd təsərrüfatı bazarı Rusiya ilə birbaşa bağlıdır. Bu mənada sanksiyaların Azərbaycana da təsirləri qaçılmaz olacaq. Artıq yerli bazarda məhsulların bahalaşması müşahidə olunur. Eyni zamanda, Rusiya iqtisadiyyatının çökməsi bu ölkədə miqrant kimi çalışan bir neçə milyon azərbaycanlının, yəni həm də onların Azərbaycandakı yaxınlarının maddi durumuna təsir edəcək.

Yeri gəlmişkən, bir neçə il əvvəl rəsmi olaraq hər il Rusiyadan Azərbaycana 3 milyard dollar pul köçürüldüyü haqda məlumat verilmişdi. Bu mənada Rusiyaya qarşı sanksiyaların Azərbaycana da təsirsiz ötüşməyəcəyi aydındır.

Ankara Universitetinin doktorantı, Rusiya üzrə tədqiqatçı Orxan Qafarlı deyir ki, son sanksiyalar Moskvanı Kiyevlə danışıqlar masasına oturtmaq üçündür. Ekspertə görə, separatçıların atəşi davam etdirməsi Qərbdə narahatlıqla qarşılanır: "Şərqi Ukrayna ilə Kiyev arasında Minskdə atəşkəs sazişinin imzalanmasına baxmayaraq, separatçı qüvvələr durmadan bu anlaşmanı pozmaqdadır. Separatçıların atəşkəsi pozmaqda əslində Rusiya ilə ortaq maraqları var. Bu maraqlar Kiyevdə Poroşenko hökumətinin əslində danışıqlarda məğlub olduğu təəssüratını yaratmaqdan ibarətdir. Ukraynada Poroşenko iqtidarının legitimliyini sual altına qoymağa çalışırlar. Məqsəd çox aydındır. Yenidən Rusiyaya qarşı loyal qüvvələri Kiyevdə iqtidara gətirmək. ABŞ və AB sülh prosesinin bu formada aparılmasından çox narahatdır. Bu dəfə Rusiyanı durdurmaq üçün daha sərt sanksiyalara əl atmaq niyyəti var. ABŞ bu dəfə sanksiyaları daha çox bank və maliyyə sistemini çökdürmək üçün qəbul edəcək".


Orxan Qafarlı

O.Qafarlı deyir ki, yeni sanksiyaların qəbul edilməsi ilə ABŞ Rusiyada üç prosesin qarşısını almağa çalışacaq. Birincisi, Rusiyanın Şərqi Ukraynada fəaliyyətlərini durdurmaq. İkincisi, Çin ilə Rusiya arasında ticarətin rubl və yen üzərində aparılması prosesini dayandırmaq. Və nəhayət üçüncüsü, Rusiyanın Şanxay Əməkdaşlıq Təşkilatında sədrlik dövründə Qərbə qarşı bloklaşma siyasətindən döndərmək: "ABŞ xüsusilə son günlərdə Rusiyanın qütbləşmə siyasətindən narahatdır. Çünki belə bir gediş ABŞ-ın xüsusilə postsovet coğrafiyasında müttəfiqlərini itirməsi təhlükəsi yaradır. Bunu dayandırmanın yolu Rusiyanın maliyyə sistemini çökdürərək Çin ilə çıxış yolu kimi görünən ticarət münasibətlərini dayandırmaqdır".

Yeni sanksiyalar Azərbaycan-Rusiya münasibətlərinə də mənfi təsir göstərəcək. O.Qafarlı deyir ki, iki ölkə arasında bank əməliyyatları məsələsində ciddi sıxıntılar olacaq. Azərbaycanın Şimali Qafqaz muxtar respublikaları ilə enerji ixracatından kapital yatırımına qədər uzanan münasibətlərinə mənfi təsir edəcək: "Hər iki ölkə arasında infrastruktur layihələr var. Bütün bu qeyd etdiyimiz sahədə ciddi geriləmə rəsmi statistikada olacaq. Kənd təsərrüfatı münasibətləri nağd ödəmə sistemində fəaliyyət göstərdiyi üçün və bankla əlaqədə olmaması səbəbindən bu sahəyə ciddi təsir göstərməyəcək. Lakin bizim Rusiya ilə enerji və silah ticarəti çox ciddi geriləyəcək. Bunu durdurmaq mümkün olmayacaq.

Məsələlərə strateji və uzun zamanlı baxsaq, Azərbaycanın Rusiya mərkəzli siyasi təsir altına düşməməsi üçün faydalı görünür. ABŞ bu sanksiyalar vasitəsilə Azərbaycan, Gürcüstan, Ukrayna və Orta Asiya ölkələrinin Rusiya təsiri altına düşməsinin qarşısını almağa çalışır. Bu sanksiyalar olmasaydı, Rusiya Çin və Hindistanla münasibətlərində Şanxay Əməkdaşlıq Təşkilatı ilə vəziyyətdən çıxmağı planlaşdırırdı.

Rusiyanın bu sanksiyalara qarşı yeni əks addımlar atacağını gözləmək lazımdır. ABŞ bank sisteminə qarşı Moskvanın əks sanksiyaları daha çox Avropaya mənfi təsir göstərəcək. Çünki böyük ehtimalla, Rusiya hava sahəsini sərnişin təyyarələri üçün bağlayacaq. Ərzaq və geyim markaları siyahısını yeniləyəcək. Bu əks addımlar, əlbəttə, ciddi şəkildə Avropa bazarına təsir göstərəcək".

❑ KƏNAN

# NATO sammitində erməni fitnəsi ilə bağlı ilginc məlumat

## Elxan Mehdiyev: "Azərbaycanın prinsipial mövqeyi və Türkiyənin rolu öz sözünü dedi"

**"Ermənistan prezidenti Serj Sərkisyanın NATO-nun Uels sammitində qəbul olunan sənədə imza atdığı barədə məlumatlar doğru deyil. Bu sənədə ancaq Alyansın üzvü olan ölkələr imza atıb. Ermənistan isə NATO üzvü olmadığından sənədi imzalaması mümkünsüzdür".**

NATO-nun Uels sammitində Azərbaycanın ərazi bütövlüyünün təsdiqindən bəhs edən sənədin qəbulundan danışan konfliktoloq Elxan Mehdiyev bunu "Yeni Müsavat"a açıqlamasında bildirdi. Onun sözlərinə görə, sammitdən öncə həmin sənədin dilinin dəyişdirilməsi istiqamətində israrlı mövqe var imiş və ermənilər özlərinə sərf edən variantın qəbuluna cəhd göstərirmiş: "Həmsədr ölkələr - Amerika və Fransa dilin dəyişdirilməsini dəstəkləyirdi. Ancaq Azərbaycanın NATO-dakı səfiri və XİN buna imkan vermədi. Ermənilər istəyirdi ki, Madrid prinsiplərində əksini tapan ərazi bütövlüyü, milli müqəddəratı təyinetmə, zor işlətməmə prinsiplərini sənədə ayrıca bölmə kimi salsınlar. Serj Sərkisyanın sammitdə iştirakı da buna hesablanmışdı. Çünki o, son iki sammitdə iştirak etməmişdi. Ancaq bu dəfə onu əmin etmişdilər və demişdilər ki, gəlin burda o debatları aparın. Bu səbəbdən Sərkisyan gəldi və alçaqcasına Türkiyənin sammitdə Azərbaycana lobbiçilik etdiyini dedi. Azərbaycanın siyasi rəhbərliyi, NATO-dakı səfirliyimiz Türkiyə tərəfi ilə bərabər bu işdə çox gərgin çalışdı və onların layihəsinin keçməsinə imkan vermədi". E.Mehdiyev deyir ki, əgər Azərbaycan tərəfinin ciddi etirazı olmasaydı, faktiki olaraq həmsədrlər - Amerika və Fransa tərəfi də həmin layihəyə etiraz etmirdi və sənəd qəbul olunacaqdı. Lakin Azərbaycanın


Elxan Mehdiyev

prinsipial mövqeyi və Türkiyənin rolu öz sözünü deyib.

E.Mehdiyev bildirdi ki, Ukrayna hadisələri kontekstində ermənilərin istəyinə uyğun olaraq milli müqəddəratla bağlı bənd əlavə etmək bütün prinsiplərin alt-üst edilməsi olardı: "Bununla Rusiyanın Ukraynadakı əməllərinə də yol açılardı. Ancaq demək olmaz ki, Ukrayna hadisələri Azərbaycanı xilas edib. Çünki bundan əvvəl də analoji mövqelər olmuşdu, o zaman heç Ukrayna hadisələri baş verməmişdi. Sənədin digər variantının qəbulu ermənilərə spekulyasiya üçün yol açırdı. Düzdür, Azərbaycan Madrid prinsiplərini qəbul edib. Amma milli müqəddərat məsələsinə də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yanaşır. NATO milli müqəddəratla bağlı bəndi sənədə əlavə etsəydi, erməni bundan daha çox bəhrələnəcəkdi və sənədi mütləq təsdiq olunma kimi qeyd edəcəkdi. Bu mənada qəbul olunan bəyanat Azərbaycanın maraqlarına xidmət edir və daha güclü mövqedir. Orda yazılır ki, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəkləyirik, məsələ bu prinsiplər əsasında həll olunsun. Həmçinin BMT və Helsinki Aktı, beynəlxalq tələblər də əksini tapır".

Konfliktoloqun sözlərinə görə, NATO erməni işğalına sona verilməsini Azərbaycanın ərazi bütövlüyü çərçivəsində görür: "Siyasi nəticə budur". Ancaq ekspert hesab etmir ki, bunun ardınca işğala son verilməsi üçün NATO-nin digər təsir rıçaqları işə salına bilər: "İki il qabaq da belə bir sənəd qəbul olunmuşdu. Sonra da deyirlər ki, məsələ ilə Minsk Qrupu məşğul olur, orda da NATO-nun iki ölkəsi - Amerika və Fransa var".

❑ Cavid TURAN



# İŞİD daha bir əcnəbi girovu edam elədi

**"İslam Dövləti" terrorçu qruplaşması Böyük Britaniyanın vətəndaşı Devid Heynsin başının kəsilməsi səhnəsini əks etdirən videoçarxı internet vasitəsi ilə yayıb. APA-nın "RİA Novosti"-yə istinadən verdiyi xəbərə görə, bu barədə ABC News telekanalı məlumat yayıb.**

Telekanalın məlumatına görə, video "İslam Dövləti"nin internetdə fəallığının monitorinqini həyata keçirən SITE təşkilatının saytında dərc olunub. Məhz bu təşkilat birinci olaraq amerikalı jurnalist Stiven Sotloffun edam faktını təsdiqləmişdi.

Devid Heyns Suriyada 2013-cü ildə girov götürülüb. "Guardian" nəşri qeyd edir ki, Suriyaya humanitar missiya ilə gəlmiş Devid Heyns cəmi 3 gün sonra girov götürülüb. Nəşrin məlumatına görə, baş kəsilmə səhnəsini əks etdirən videoçarx Heynsin ailəsi onunla əlaqə yaratmaq xahişi ilə silahlılara müraciət etdikdən 1 gün sonra dərc edilib.

Qeyd edək ki, terrorçular sentyabrın 2-də ABŞ-ın "Time" nəşrinin müxbiri Stiven Sotloffu, bundan az öncə isə amerikalı jurnalist Ceyms Foulini edam edib.

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014



# "Türkiyə-ABŞ münasibətləri ciddi şəkildə zədələnib"

## Ərəstun Oruclu: "Bölgədə ənənəvi dayaqlarını itirən Amerikanın güclü müttəfiqə ehtiyacı var"

**Xəbər verdiyimiz kimi, ABŞ-ın İŞİD-ə qarşı mübarizə məqsədilə yaratdığı yeni koalisiyaya Türkiyə qoşulmayıb. Sentyabrın 11-də Ciddədə keçirilən toplantıda Türkiyə hökuməti Mosul konsulluğu əməkdaşlarının İŞİD-in əlində girov qaldığını əsas gətirərək koalisiyaya qatılmaqdan imtina edib. Daha sonra Türkiyəyə səfər edən ABŞ dövlət katibi Con Kerrinin Ankaranı inandırdığı iddia olunsa da, bu məlumat təsdiqini tapmayıb.**

Ötən gün Misirə gedən C.Kerri Ərəb Dölətləri Liqasının baş katibi Nəbil Ərəbi və Misir prezidenti Əbdülfəttah əl-Sisi ilə görüşüb. BBC-nin məlumatına görə, ABŞ hökuməti İŞİD-ə qarşı əməliyyatlarda əsas müttəfiq kimi Misiri nəzərdə tutur. Bu isə onu göstərir ki, Misir hakimiyyəti hərbi əməliyyatlara tam şəkildə dəstək verməyə hazırdır. Yeri gəlmişkən, bir qədər əvvəl İŞİD Misiri də hədələmişdi.

Bir sıra müşahidəçilərə görə, Türkiyə hakimiyyətinin İŞİD-ə qarşı mübarizə koalisiyasına qoşulmaması bölgədə yeni situasiya yaradır. Artıq ABŞ hökumətinin "İncirlik" hərbi hava bazasını Türkiyədən köçürməklə bağlı düşündüyü haqda bilgilər də gəlir. Bu isə öz növbəsində Vaşinqton-Ankara xəttində ciddi qırılma olduğunu göstərir.

Xatırladaq ki, ABŞ-ın 2003-cü ildə İraqa müdaxiləsi zamanı Türkiyə parlamenti martın 1-də keçirdiyi səsvermədə ABŞ ordusunun hücum əməliyyatında Türkiyənin iştirak etməməsi ilə bağlı qərar vermişdi. Bu qərar uzun illər iki ölkənin münasibətlərində qırılma nöqtəsi kimi qalmışdı.

Mövzunu "Yeni Müsavat"a şərh edən politoloq Ərəstun Oruclu son hadisələri Yaxın Şərqdə münasibətlər sisteminin dəyişdiyinin işarəsi adlandırdı. Politoloqun fikrincə, Türkiyənin ABŞ koalisiyasına qoşulmayacağı daha əvvəldən bəlli olub: "Yaxın Şərqdə dəngələr artıq dəyişir. Unutmayaq ki, "The Wall Street Journal" dezinformasiya yayacaq qəzet deyil. Bəzi iddialar da var ki, guya ortada hansısa anlaşma var və Türkiyə bunu girovlar, digər səbəblərə görə gizlədir. Ancaq hərbi dəstək elə bir şeydir ki, onu gizlətmək olmaz, o özünü çox tez bir zamanda göstərəcək. Bu, kəşfiyyat əməliyyatı deyil ki, illərlə gizli saxlanıla? Mənə elə gəlir ki, Türkiyə-ABŞ münasibətləri ciddi şəkildə zədələnib. Əslində, Ərdoğanın Obama ilə görüşü zamanı Fətullah Gülənin təhvil verilməsi məsələsini qaldırması, düşünürəm ki, yaxşı münasibətin əlaməti deyildi. Ən azı ona görə ki, Ərdoğan çox gözəl bilir ki, ABŞ Türkiyə deyil ki, Rauf Mirqədirovu həbs edib Azərbaycana göndərsin. Yəni ABŞ-da məhkəmə sistemi müstəqildir, hakimiyyətin qolları arasında səlahiyyət həddi var. Düşünmürəm ki, prezident Obama Amerika məhkəməsinə hansısa tapşırıq verə bilər. Bunu Ərdoğan çox gözəl bilir. Və bunu bilə-bilə Türkiyə prezidentinin ABŞ qarşısında bu məsələni qaldırması, düşünürəm ki, bilərəkdən Vaşinqton qarşısında yerinə yetirilməsi mümkün olmayan şərt qoymaq cəhdi idi. Bu şərt də baş tutmadı. Çünki bu məsələ administrasiyanın səlahiyyətinə aid olan məsələ deyildi. Və beləliklə, Türkiyə hakimiyyətinin İŞİD-lə mübarizədə ABŞ-a dəstək verməmək üçün əsası vardı".

Ə.Oruclu deyir ki, Türkiyənin İŞİD-ə qarşı mübarizəyə qoşulmamasının yeganə səbəbi Mosul konsulluğunun girov saxlanılan əməkdaşları deyil: "Türkiyənin ABŞ koalisiyasına qoşulmamasının obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəblərdən biri ondan ibarətdir ki, xatırlayırsızsa, Səddam Hüseynə qarşı sanksiyalar tətbiq olunan zaman Türkiyə bu sanksiyaları dəstəklədi və buna görə də xeyli itki verdi. ABŞ isə bu itkiləri kompensasiya etmədi. Daha bir səbəb Suriya siyasətidir. Bildiyiniz kimi, Ərdoğan Suriyada baş verən proseslər zamanı çox aktiv mövqedə idi və Suriyaya hərbi müdaxiləni zəruri sayırdı. Ancaq həmin vaxt Qərb bu məsələdən çəkindi və Ərdoğan faktiki olaraq Suriya ilə düşmən vəziyyətində qaldı. Düzdür, burda yeganə səbəb Qərbin siyasəti deyildi. Ərdoğan özü də bu məsələdə Qərbdən də çox canfəşanlıq göstərirdi.

Nəhayət, bu bölgədə yaranmış vəziyyət onu göstərir ki, Türkiyə hökumətinin bu gün hansısa fərqli geosiyasi prioritetləri var. Eyni zamanda bir çox məsələlər üzrə ABŞ-la mövqeləri fərqlidir. Ona görə də bu cür məsuliyyətli və ciddi əməliyyatda iştirak etmək istəmir".

Ərəstun Oruclunun fikrincə, ABŞ-ın yeni bölgə müttəfiqləri İraq hökuməti, Şimali İraqın kürd administrasiyası, eləcə də İran ola bilər: "İŞİD-ə qarşı müharibə zamanı Türkiyənin "İncirlik" Hərbi Hava bazasından istifadə edilməyəcəyi haqda xəbərlərin yayılmasından sonra bu bazanın Ərbilə köçürülməsi ilə bağlı məlumatlar yayılmağa başlayıb. Belə bir halda şübhəsiz ki, ABŞ-ın bölgədə yeni bir müttəfiqinin yaranması deməkdir. Bu artıq bölgədə yeni situasiyadır.

Artıq bölgədə ABŞ-İran yaxınlaşması müşahidə olunur. Bu, İran üçün də əlverişlidir. Çünki bölgədə ənənəvi dayaqlarını itirən ABŞ-ın təbii ki, güclü müttəfiqə ehtiyacı var. Bölgəyə diqqətlə baxdıqda görürük ki, orda güclü tərəfdaş azdır. İsrail tərəfdaşlardan biri ola bilər. Ona görə də böyük ehtimalla, bir tərəfdən yeni yarana biləcək Kürdüstan dövləti ola bilər, əgər hərbi baza ora köçürüləcəksə. İstisna etmirəm ki, bunun müqabilində Kürdüstanın müstəqilliyi tanınacaq. Digər tərəfdən, möhkəmlənməkdə olan İraq ola bilər və eyni zamanda İran. Məsələ burasındadır ki, ABŞ heç zaman biristiqamətli siyasət aparmır, çox vektorlu siyasət aparır. Ərəb-İsrail münaqişəsinin ən qızğın dönəmində ABŞ diplomatiyası hər iki tərəflə eyni səviyyədə münasibət saxlamağa müvəffəq olurdu. Baxmayaraq ki, açıq dəstəyi İsrailə ifadə edirdi. Yəni reallıq ondan ibarətdir ki, ABŞ güclü dövlətdir və o, bölgədə yeni tərəfdaş tapmaqda çətinlik çəkməyəcək".

Politoloq deyir ki, hazırkı ABŞ hökumətinin strategiyası elədir ki, İŞİD-lə mübarizədə ABŞ-a dəstək verən ölkələr gələcəkdə Amerikanın müttəfiqi ola bilər. Bu baxımdan Ə.Oruclu İranın ABŞ-ın bölgədə yeni müttəfiqi olması ehtimalının heç də az olmadığı qənaətindədir: "Unutmayaq ki, İŞİD-in təhdid yaratdığı dövlətlərdən biri də İrandır. İranın da hazırkı iqtisadi blokadadan çıxmağa ehtiyacı var. Bu baxımdan hazırda İranın ABŞ-la müttəfiq olması xeyli dərəcədə real görünür. Ruhani hökumətinin yeritdiyi siyasətdə də bu çalarlar görünür. Ona görə də demək olar ki, bölgədə tamamilə yeni bir geosiyasi konstruksiya yaranır. Əslində bu, gözlənilən idi".

❑ KƏNAN

---

**"Bakını Azərbaycandan ayırmaq istəyən kim olursa, Azərbaycanın həyatına qəsd etmişdir. Bakısız Azərbaycan təsəvvür olunamaz. Bakı tarixində, haləndə bir türk şəhəri və müsəlman şəhəridir... Türkiyə üçün İstanbul, Almaniya üçün Berlin, Rusiya üçün Moskva nə isə, Azərbaycan üçün Bakı ondan artıq olmasa da, odur".**

Elşad PAŞASOY
epashasoy@yahoo.com



# Türk Ordusu gəlməsəydi...

Böyük Məhəmməd Əmin Rəsulzadə bu sözləri hələ 1918-ci ilin avqustunda Bakı erməni-bolşevik işğalında olarkən yazırdı. O, Azərbaycanın və azərbaycanlıların taleyində Bakının nə qədər önəmli rol oynadığını çox yaxşı bilirdi. Həmçinin Bakıya yağlı tikə kimi baxan yadellilər də bu türk şəhərini qəsb etmək üçün çeşidli planlar qurmuşdu. İngilis alimi Hoppinks əbəs yerə demirdi ki, XX əsrin əvvəllərində Bakı bütün dünyanı isitməyə və işıqlandırmağa layiq olan yeganə şəhər idi...

Xüsusilə də I Dünya müharibəsinin sonlarından etibarən Bakının əhəmiyyəti xeyli artmışdı. Bircə səbəbə görə: o zaman dünya neftinin 50, Rusiya neftinin isə 85 faizi Bakının payına düşürdü. Bu səbəbdəniydi ki, Bakını ələ keçirmək üçün bir tərəfdən bolşeviklər, digər tərəfdən ingilislər hərəkətə keçmişdilər. Elə 1918-ci ilin payızında general Tomsonun rəhbərlik etdiyi ingilis qoşunlarını Bakıya gəlməyə vadar edən səbəb də neft idi. O neft ki, həm I, həm də II Dünya müharibələrində Almaniya da onu ələ keçirmək üçün çeşidli planlar qurdu. Xülasə, dünya gücləri Bakının sərvətinə vurulmuşdu.

O dövrdə Bakını heç bir təmənna güdmədən, sərvətinə, neftinə göz dikmədən xilas etmək üçün gələn tək bir ordu oldu - Qafqaz İslam Ordusu. Türk ordusu Azərbaycanı xilas etmək, qanıbir, dilibir, dinibir qardaşını erməni-rus tapdağından qurtarıb onun müstəqil yaşamasına meydan vermək niyyətilə şəhidlər verirdi. Bəlkə də tarixdə belə bir nümunə yoxdur. Bu, qardaşlığın, saf münasibətin ən bariz nümunəsiydi. Xilaskar statusu hər orduya nəsib olmur...

Taleyin işinə baxın, vaxtilə iki türk imperiyası zamanın gərdişindən, yoxsa kənar qüvvələrin təfriqə salmasından dolayı Çaldıranda üz-üzə gəlib özlərini zəif salmışdı. Ancaq 4 əsr sonra Azərbaycan və Türkiyə türkləri bir cəbhədə düşmənə qarşı savaşa qalxdı - əvvəl Sarıqamışda, Çanaqqalada, sonra da Bakıda, Şamaxıda, Qubada, Göyçayda...

Türk mehmetcikləri Bakını daşnaklardan təmizləmək naminə tərəddüd etmədən canlarını fəda edirdilər, necə ki, Azərbaycan türkləri Çanaqqalada Osmanlı torpağı uğrunda sinəsini yağı düşmənə sipər eləmişdi. Özü də Nuru Paşanın rəhbərlik etdiyi ordu birləşmələri Bakıya Təbrizdən gəlmişdi, Azərbaycanın güneyindəki qırğınların cavabını verəndən sonra. Ermənilər güneydə 200 mindən çox Azərbaycan türkünü qırmışdılar, şimalda qırğınlar davam edərkən orda da qardaşlarımızın qanı axıdılırdı.

Bütün dünyanın bu qırğınlara seyrçi qaldığı dönəmdə qəhrəman türk ordusu harayımıza çatdı. Müdafiə naziri Ənvər Paşa əmr etmişdi: Bakı 15 sentyabrda - Qurban Bayramı günündə azad edilməlidir ki, müsəlmanlar öz bayramlarını öz şəhərlərində keçirsin! Ruhu şad olsun o böyük insanın, Nuru Paşa başda olmaqla Azərbaycan uğrunda savaşan cəngəverləri Azərbaycan Korpusu ilə birgə Bakını azad etdilər, müsəlman əhli qurbanını öz şəhərində kəsə bildi. Bu gün isə çoxlu qurbanlar bahasına qazanıldı...

Bir anlıq təsəvvür edin ki, türk ordusu gəlməz, yaxud gəlib də burda məğlub olması səbəbindən Bakını azad etməzdi. Necə ki, Məhəmməd Əmin açıq şəkildə yazırdı: "Bakı alınmasa, əlvida vətən!" Necə ki, avqustda türk ordusu Bakının 4 kilometrliyində ağır itki verəndə yerli əhali onlara müraciət etmişdi: "Ey türk əsgəri! Əgər sən bu şəhəri almasan, Bakıda sənin üçün hazırlanan süfrələr qonaqsız qalacaq, sənin üçün tikilən geyimi düşmənə geyinəcək, sənin üçün kəsilən qurbanlar düşmənə qalacaqdır" deyə. Təbii, Azərbaycan dövlətinin başı olan Bakı kəsilsəydi, bu dövlətdən söhbət belə gedə bilməzdi. Bolşeviklərin əlində nə çətin iş idi ki, Dərbənd, İrəvan kimi Bakını da ələ keçirmək? Bu şəhəri bizə qazandıran Türk ordusu oldu!

Hələ Ənvər Paşanın necə gözəl bir planı vardı: Osmanlı dövlətinin bir tərəfdən Naxçıvandan, digər tərəfdən də Qarakilsədən Azərbaycanla sərhədinin olmasına çalışırdı. Nəticədə Ermənistanın Gürcüstanla birbaşa əlaqəsi kəsilirdi və o, Osmanlı ilə Azərbaycan arasında bir ada kimi qalırdı. Təəssüf, gerçəkləşmədi. Azərbaycan uğrunda çalışan kişilərə min dəfə rəhmət olsun!

Bu təmənnasız xidmətin qarşılığında heç olmasa Ənvər Paşaya, Nuru Paşa Bakının ən hündür nöqtəsində bir abidə qoymaq gərəkdir. Lap Türk Şəhidliyində olsun. Amma olsun. Qarşıdan Bakının azadlığının 100 illiyi gəlir - bir əsrə bir abidə qoymaq çoxmu çətin işdir? Bu abidə, bizə lazımdır, onlara yox!

****

Bakının azad olunmasının 96-cı ildönümündə Türkiyə və Azərbaycanın silahlı qüvvələri tarixində ən böyük birgə hərbi təlimlərini keçirir. Təsadüfdürmü? Bu gün növbəti xilas gününə ehtiyac var: Qarabağın azad olunmasına. Şükür ki, iki türk ordusu yenə bir yerdədir, Turan Ordusu ideyası gerçəkləşmək üzrədir. İnşallah, sonda yenə də qalib gələcəyik, bir yerdə!!!

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014



# "Türkiyə və Azərbaycan hakimiyyətindən dəstək gözləyirik"

## Ağrı Qaradağlı: "GAMOH "öz müqəddəratını bəlli etmə" prinsipi ilə fəaliyyət göstərir və Güneyin müstəqilliyinə qədər davam edəcəyik"

**"Hazırda Güney Azərbaycanda durum qənaətbəxş deyil. Baxmayaraq ki, milli hərəkatçılarımız öz işlərini çəkinmədən və qorxmadan davam etdirirlər, amma İran rejimi hər tərəfdən milli hərəkat mənsublarını mühasirəyə almış durumdadır".**

Bunu "Yeni Müsavat"a hazırda Türkiyədə yaşayan Güney azərbaycanlı mühacir, GAMOH rəsmisi Ağrı Qaradağlı (Jafar Pashtou) bildirib. Onun sözlərinə görə, Güneydə basqılar, təqib və təzyiqlər, hədə-qorxular xeyli artıb: "Milli hərəkat hazırda 3 cəbhədən təhdid olunur: birinci Urmu gölü məsələsidir ki, İran rejimi tərəfindən qəsdli olaraq qurudulur və milli fəallarımız da bunun qarşısını almaq üçün çaba göstərir. Bəzən mədəni şəkildə kampaniyalar aparılır, bəzən də şəhərlərdə toplaşıb aksiya keçirərək öz etirazlarını bildirirlər.

İkincisi, "Traxtor" futbol komandasının yarışlarında səslənən şüarlar rejimi xeyli qorxudur. Elə buna görə də hər bir yarışdan sonra bir neçə hərəkatçımız rejim tərəfindən yaxalanır. Üçüncü isə ana dilində məktəblər istəyidir. Rejim hər zaman hərəkatçıların bu istəyindən qorxub və hər zamandan bu məsələdən istifadə edərək kütlədən öz xeyrinə səs almağa çalışıb". A.Qaradağlı xatırlatdı ki, son olaraq Həsən Ruhani seçkilərdə 2 əsas məsələyə dəstək olacağını və hətta həll edəcəyini bildirmişdi: "Birincisi, Urmu gölünün bərpasını, ikinci isə ana dilində tədrisin yerinə yetirilməsini. Həsən Ruhani demişdi ki, seçildikdən sonra ana dilində təhsilin sərbəst olmasına imkan verəcəyəm. Amma seçildikdən həmən sonra 21 fevral Dünya Ana Dili günündə Əhər şəhərində ana dili üçün toplanıb danışıqlar aparan evə basqın edərək 300 hərəkatçını yaxaladılar və hələ də yaxalananların bir neçəsi həbsdədir. Hazırda ana dilində təhsilin durumu sıfır nöqtədədir. Yəni rejim tərəfindən heç vaxt bu haqqımız verilməyəcək və rejim bir silah kimi bu məsələdən bəzən öz mənfəətləri üçün istifadə edir".

GAMOH rəsmisi xatırlatdı ki, İran Konstitusiyasının 15-ci maddəsinə əsasən ana dildə təhsilin olmasında heç bir problem yoxdur və dövlət də bu məsələdə vətəndaşlara yardımçı olmalıdır: "Amma ana dili üçün İran rejimi bizim milli-mədəni fəallarımızı bölücülük və pantürkizm ittihamları ilə və bəzən də rejim əleyhinə təbliğ etmə və casusluq ittihamları ilə həbsə məhkum edir. Son illərdə bu basqılar daha da artıb, çünki milli hərəkatın fəaliyyəti artıq bir çox beynəlxalq mediada öz əksini tapıb və bundan İran rejimi çox qəzəblənib. Ən çox qəzəbləndiyi isə "Traxtor"un oyununda hərəkatçılar tərəfindən "Güney Azərbaycan İran deyildir" şüarının plakat kimi qaldırılması idi. Bu plakat bir çox ölkələrin mediasında göstərildi. Elə buna görə də İran rejimi çox qəzəbləndi. Həmən oyunda tamaşaçı olan bir çox milli fəallarımız gözaltına alındı".

A.Qaradağlı deyir nə qədər ki, qardaş ölkələr onlara dəstək verməyiblər, bu basqılar da davam edəcək: "Nə Türkiyə, nə də Azərbaycan hakimiyyəti bu məsələdə bizə heç bir dəstək olmur. Güney Azərbaycanın tanınmış lideri doktor Mahmudəli Çöhrəqanlının bu iki ölkəyə buraxılmaması üçün heç bir şərait yaradılmır və hətta bu ölkələrdən deportasiya belə edilir. Bu məsələ bizim hərəkat üçün çox mənfi təsir göstərir və İran rejiminə də bizə basqını artırmağa şərait yaradır".

A.Qaradağlı Türkiyədə yaşadığı dönəmdə də Güneylə əlaqələrini hər zamankı kimi davam etdirdiyini, bu əlaqələrin getdikcə genişləndiyini vurğuladı: "Güneydən hər an yeni gəlişmələr bu əlaqələr vasitəsilə mənə yetirilir. Türkiyədə də əlaqələrimi genişləndirməyə çalışıram və Güney Azərbaycanın tanıtımı üçün bir çox konfranslarda iştirak edib, bacardığım qədər müzakirələrə qatılıram. Güneyin hər şəhəri ilə əlaqələrimiz var və bu, Güneydə nə baş verdiyini bilmək üçün işimizi daha da asanlaşdırır. Bəzi beynəlxalq təşkilatlar və qurumlarla da əlaqələrimiz var. Hazırda da Güneydə fəaliyyətlərimiz davam edir və üzümüzə gələn günlərdə məktəblərin açılışı ilə bağlı bəzi işlərin görülməsi planlaşdırılır. GAMOH "öz müqəddəratını bəlli etmə" prinsipi ilə fəaliyyət göstərir və Güneyin müstəqilliyinə qədər də öz fəaliyyətini davam etdirəcək. GAMOH bir böyük məktəb olub və milli hərəkatın ana təşkilatı olub, bir çox tanınmış milli hərəkatçı yetişdirib, bəzi təşkilatlar GAMOH-un yetişdirdiyi hərəkatçılar tərəfindən qurulub".

❑ **Cavid TURAN**

# Əfsanəvi "Serafino"... İtaliyanın Milli Qəhrəmanı Tahir İsayev haqda nə bilirik?

## İtaliyada haqqında film çəkilmiş II Dünya müharibəsinin ünlü qəhrəmanı Tahir İsayevin ev-muzeyi uçmaq təhlükəsi qarşısındadır...

**Tahir İsayev 1922-ci ildə Qazax rayonunun Şıxlı kəndində dünyaya göz açıb. 1942-ci ildə cəbhədə Mozdok altındakı ağır döyüşlərdə yaralanaraq əsir düşüb. Avstriyadakı əsir düşərgəsindən böyük əziyyətlərlə İtaliyaya keçərək Berqamo şəhəri yaxınlığında partizan dəstəsinə daxil olub.**



Döyüş yoldaşları "Serafino" adını ona atası İsrafilin adına uyğun olaraq veribər. O, "Fiamma Verdi" beynəlmiləl briqadasında italyanlar, fransızlar, ingilislər və ruslarla çiyin-çiyinə vuruşub. Həmyerlimiz leytenant Serafino 1945-ci il, aprelin 25-də Milan şəhərinin faşistlərdən təmizlənməsi uğrunda döyüşlərdə qəhrəmanlıq göstərib. O, Adriatik dənizi sahillərində Mehdi Hüseynzadə, Mirdamət Seyidov kimi qəhrəmanlıq, yenilməz şücaət nümayiş etdirib.

Onun döşünü İtaliyanın ən yüksək qəhrəmanlıq rəmzləri olan "Haribaldi ulduzu", "Antonio Qramşi", "Banderi Kalori" ordenləri, ümumən 36 orden və medal, o cümlədən İtaliyanın 12 dövlət mükafatı bəzəyib. 1945-ci ildən Milan şəhərinin fəxri vətəndaşı olub. T.İsayev alman və italyan dillərini gözəl mənimsəyib.

Əfsanəvi "Serafino" İtaliyanın Milli Qəhrəmanıdır. Tahir İsayev haqqında İtaliyada 1974-cü ildə "Onun adı Serafino idi" adlı film çəkilib. Şıxlı kəndində olan muzeydə onun haqqında geniş material var. O, 2001-ci ildə dünyasını dəyişib.

***

"Yeni Müsavat"ın müxbiri bu günlərdə Tahir İsayevin doğulduğu kəndə baş çəkib. Müxbirin həmin kənddən qeydlərini təqdim edirik:

"Öncə şair Molla Vəli Vidadinin qəbrinin yaxınlığında yerləşən qəbirüstü abidəsini ziyarət etdik. Vəfatından sonra düzəldilən məzar hazırda uçmaq təhlükəsi ilə üz-üzədir. Dəfələrlə yerli dövlət strukturlarına, rayon ictimaiyyətinə yazılsa da qəbrin təmiri üçün heç bir tədbir görülməyib. 15 illik həyat yoldaşı Cəvahir xanımın dediyinə görə, qəbrin üzərindəki tunc abidəni də T.İsayev özü sağlığında düzəltdirib. Əvvəl Qazax Dövlət Tarix Muzeyində imiş, ölümündən sonra gətirib qəbri üstünə qoyublar.

"O boyda Tahirin qədrini bilən yoxdu bu ölkədə... Əvvəllər yenə İtaliya hökumətindən gəlib-gedən olurdu. Unutmurdular. Gürcüstana beynəlxalq tədbirlərə tərcüməçi kimi aparırdılar onu... Dünyasını dəyişəndən sonra onun adını tutan yoxdur. Məzarı bərbad gündə, hazırda onun adını daşıyan muzey kimi fəaliyyət göstərən evi isə baxımsız vəziyyətdədir. Tək adamam, neyləyim, öhdəsindən gələ bilmirəm. Eksponatlar demək olar ki, sıradan çıxmaq üzrədir. Bununla bağlı bütün əlaqədar dövlət strukturlarına müraciət etmişəm. Di gəl, səsimə səs verən yoxdur. Hər dəfə söz verirlər ki, gələcəyik, düzəldəcəyik, amma elə deyilən söz söz olaraq da qalır. Elə bil dünya bərqərar olandan bu adda, bu isimdə bir kimsə olmayıb yer üzündə... Artıq mən də onu ziyarətə getmək istəmirəm ki, birdən qalxıb deyər, bu nədir, mənim qəbrimi niyə bu gündə saxlayıbsan. Nə cavab verəcəm o zaman? Üzüm gəlmir. Utanıram" - deyir Cəvahir xanım.





Cəvahir xanım bizi evin dörd tərəfinə dolandırıb T.İsayevlə bağlı əşyalarla tanış etdi. Otaqdakı hər bir əşyaya toxununca Tahir İsayevdən bir xatirə, bir əhvalat, bir izin ağlına düşdüyünü deyən xanımın danışdıqca səsi titrəyir, ürəyi çırpınırdı: "Tahir bu cür diqqətsizliyə layiq əməl törətməyib. İtaliyada partizanlara qoşulub. Canıyla-qanıyla döyüşüb. Böyük qəhrəmanlıqlar göstərib. Amma indi heç onun adını anan da yoxdur. Düzdür, siz gəlmisiniz. Özgələri də gəlir, gedir. Yazırlar, pozurlar... Çifayda... Dövlət tərəfindən diqqət, qayğı görmürük. İtaliya hökuməti də kişinin sağlığında yaxşı köməklik edirdi. İndi isə elə bil birdən-birə yaddan çıxdı dağ boyda adam... Mən qoca arvadam. Özüm üçün heç nə istəmirəm. O rəhmətliyin xatirəsinin qorunub-saxlanması, adının daim əziz tutulması üçün çalışıram. Sovet hakimiyyəti dağıldı deyə qəhrəmanlarımızı da unudası deyilik ha..! Onlar da bu günümüz üçün döyüşüblər".

O, evin uçmaq üzrə olan divarlarını göstərib ürək yanğısıyla vəziyyəti başa salmağa çalışırdı. Tavandakı və divarların küncündəki çatlar otağa girən kimi diqqəti cəlb edir: "Görürsənmi çatları? Yatmağa belə qorxuram. Qorxuram ki, ev uça, qalam daşların, taxtaların altında, hayıma yetən olmaya... Eksponatlar da məhv ola gedə..."

Bitib-tükənməyən problemləri dinləyəndən sonra qəhrəmanın bir insan kimi necə xasiyyətə malik olduğunu, müharibə qurtarandan sonra onunla yaşadığı illərdə nəylə məşğul olduğunu sual etdik xanımına...

"Mən onun birinci həyat yoldaşı deyiləm. Amma 15 il bir yerdə yaşamışıq. Ağır xəstə olan vaxtlarında onun qulluğunda mən durmuşam. Çox yaxşı adam idi. Yerişini, duruşunu, oturuşunu, danışığını bilən adam idi. Düzdür, 10-cu sinif qurtarmışdı, amma çox savadlı, dərrakəli biri idi. Daim kitab oxuyurdu. Ara-sıra şer də yazırdı" - deyir Cəvahir xanım.

O, T.İsayevin istedadına tədbirlərin birində mərhum prezident Heydər Əliyevin də yüksək qiymət verdiyini diqqətə çatdırdı: "Rəhmətlik Heydər Əliyev də o zaman Mərkəzi Komitədə olanda bunu yanına çağırtdırıb ki, sənin adın bütün dünyaya yayılıb, niyə bizim xəbərimiz yoxdur, indiyə kimi niyə dövlətin diqqətindən kənarda qalıbsan? O da cavabında bildirib ki, dövlət qovladı, mən də getdim. Bu, uzun söhbətin mövzusudur... Amma ölkənin birincisi təkrar sual verib ki, de görüm, sən nə etmisən ki, dövlət səni hər şeydən uzaq salıb. O da qayıdıb ki, bir dəftər-qələm verin, yazım, dillə deyə bilməyəcəm. Özü deyirdi ki, orda yazdığım şerləri oxuyandan sonra qalxdı, bir də mənimlə salamlaşdı. Dedi ki, doğrudan da qazaxlısan... Həmin şeirlər indi də durur..."

Sonda Cəvahir xanım onu da bildirdi ki, əgər bu dəfə də ya Azərbaycan, ya da İtaliya dövlətindən səsinə səs verilməsə, Tahir İsayevin ev-muzeyi və qəbirüstü abidəsi bərpa olunmasa, Gürcüstan dövlətinə müraciət edəcək ki, barı onlar rəhmətliyin ruhunu şad etsinlər: "...Əslinə qalanda özünün sözüdür. İndi mən davam edirəm. Bu adama ki belə laqeyd yanaşırlar, heç bir müraciətimə baxmayaraq evini və qəbirüstü abidəsini təmir etmirlər, mən bir dəfə də yerli məmurlara xəbərdarlıq edib Gürcüstan dövlətindən yardım istəyəcəm. Yəqin heç olmasa, onlar bir tədbir tökərlər. Belə olmaz. Tahirin adı batmamalıdır. Ona görə ki, biz müharibə şəraitində yaşayırıq. Ona olunan bu hörmətsizliyi görüb hansı ana öz övladını döyüşə, güllənin qabağına göndərər? Məncə, heç kim... Buna görə də hər bir qəhrəmana, qaziyə, şəhidə maksimum dərəcədə diqqət-qayğı lazımdır: həm sağlığında, həm də ölümündən sonra..."

❑ **Hikmət Carçılı Orhun, Qazax**

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014

**...Sizə bir kənddən bəhs edəcəyik. O kənd ki, mistikası, möcüzələri ilə diqqətdən kənarda qalıb. Bəlkə də "Qədir Rüstəmov səsli" uşaq olmasaydı, bu obanı heç vaxt kəşf edə bilməzdik. Bizi bu kəndə aparan da yanıqlı səsi ilə oxuyan balaca Əhmədxanın, çobanlıq edən istedadın elektron mediada yayılmış videosu oldu.**

# Bu kəndin bulağından su içən oxuyan olur - möcüzə

"Yeni Müsavat" Şirvan elinin konservatoriyası adlanan, böyük sənətkarlar yetişdirmiş ucqar dağ kəndi Şıxzərlidən yazır; Qədirin səsini andıran uşağın babası və həmyerlilərindən maraqlı açıqlamalar...









Həvəskar çəkiliş tərəfindən lentə alınan videoda uşaq elə yanıqlı oxuyur ki, dinləyən onu "Sona bülbüllər"in ustadı mərhum Qədir Rüstəmova oxşadır. Biz də bu istedadı tapmaq üçün yaşadığı Qobustanın Şıxzərli kəndinə yola düşdük.

***

Qobustandan Şamaxı istiqamətinə gedən yolda qarşımıza Şıxzahırlı yazılmış bir lövhə çıxdı. Bu, kəndin rəsmi sənədlərdə qeyd edilmiş adıdır. Amma el arasında Şıxzərli deyilir. Magistral yoldan kəndə dönəndə zənn edirsən ki, qarşına yaxınlıqda evlər çıxacaq. Amma bu qarışıq, kələ-kötür, dağların əhatəsindəki cığır bitmək bilmir, əgər buna yol demək olarsa...

Dağın ucqarında yerləşən Şıxzərli qədim kənddir. Kəndin ən hündür yerində köhnə məzarlığın olması da bunu deməyə əsas verir. Qədim qəbir daşları, köhnə tikililər, çala-çuxur yollar, çiynində su səhəngləri daşıyan qadınlar - Şıxzərlinin ümumi mənzərəsidir. Qarşımıza çıxan ilk kənd sakinindən Əhmədxanı soraqlayırıq. Elə onun qohumu çıxan bələdçimiz bizi uşağın babasıgilə aparır. Söhbət əsnasında bələdçimiz Orxan Dadaşov bizə danışır ki, bu kəndin yarıdan çoxunun yaxşı səsi var.

Bələdçimiz özünün də səsi olduğunu deyir. Orxanın sözlərinə görə, Şıxzərli çoxlu sənətkarlar yetişdirib və kənd xanəndələri ilə ad çıxarıb.

"Bu kənddən Zabit Nəbizadə, Aşıq Abbas, muğam müsabiqəsindən tanıdığımız Abgül çıxıb. Hələ bunlar efirdə gördüklərinizdir. Kənddə elə səsi olanlar var ki, üzə çıxmayıblar, oxuyanlara dərs keçərlər. Şıxzərlidə səsi olan çox adam var. Toylarda, məclislərdə Şıxzərlidən çıxan oxuyanlar var. Mən özüm də Asəf Zeynallı adına musiqi məktəbində təhsil almışam. Bizdə gendən, irsdən gələn istedaddır. Yaylaqda, qışlaqda qoyun-quzu otara-otara oxumağa başlamışıq, ona-buna baxıb öyrənmişik. Kənddə hamı muğam həvəskarıdır. Bizdə elə adam olmaz ki, muğamın şöbələrini bilməsin".

***

Bələdçimizlə Şıxzərlidən danışa-danışa Əhmədxanın babası evinə gəlib çıxırıq. Babası Vidadi Əbilov nəvəsinin Şıxzərlidə olmadığını deyir. Demə, Əhmədxan valideynləri ilə bu Qobustandan o Qobustana köçüb. Babası deyir ki, onlar bir neçə ildir paytaxtın Qaradağ rayonundakı Qobustan qəsəbəsinə köçüblər. Arabir kəndə gələn Əhmədxanı da qoyun-quzu otararkən görüblər, bir ağız oxudub, videoya çəkiblər.

V.Əbilov Şıxzərlidən ilk dəfə belə istedad çıxmadığını deyir: "Bu kəndin havasından, suyundandır, nədəndir bilmirəm, çoxunun səsi var. Burada bir bulaq var, şirin su çıxır. Deyirlər ki, kim bu bulağın suyunu içibsə, onun avazı var.

İndi bəlkə də bunu rəvayət edirlər. Amma kəndin su xətti olmadığına görə hamı bulaqdan su içir. Gedin, görəcəksiniz ki, qadınlar bulaq başına yığışıblar. Bizim o bulaqdan başqa içməli su mənbəyimiz yoxdur. Ona görə də Allahın möcüzəsidir, kim o suyu içirsə, oxuya bilir (gülür). O vaxtı musiqişünas Elxan Məmmədli yaxşı söz demişdi. Deyirdi ki, Şıxzərli Şirvanın konservatoriyasıdır. Yaxşı mənada burada səsi olmayana yaxşı baxmırlar".

V.Əbilovun sözlərinə görə, Şıxzərlinin 200 illik tarixi var. Onun sözlərinə görə, kəndin adı rəsmi şəkildə səhv qeyd olunub: "Əsl adı elə Şıxzərlidir. Ancaq Şıxzahırlı yazılıb. Bir müddət əvvəl icra başçısı gəlmişdi. Camaatla görüşdü, sağ olsun, dedi ki, Milli Məclisin inzibati komissiyasına müraciət olunub. Kəndin əsl adı rəsmi sənədlərdə özünə qaytarılacaq. Burada yaşayanlar da hamısı yerli adamlardır, Şirvan əhlidir. Burada 130-140 ev var. Təxminən, 1200-1300 nəfər kənddə adam yaşayır".

Nəvəsinin səsindən danışan baba deyir ki, uşaqda fitri qabiliyyət var: "Uşaqlıqdan səsi hiss olunurdu ki, var. Yeddi yaşından oxuyurdu. Həmişə mal-qara otarmağa gedib, özü üçün zümzümə edib. Televizor da yoxdur, atasının telefonunda xanəndələrin oxumağın baxıb öyrənib. İndi Ağaxan Abdullayev onunla maraqlanıb. İnşallah, gələcəyi yaxşı olacaq. Ağaxan müəllim deyib ki, təhsil almalıdır.

Uşağın əsas problemi oxumaq-yazmağı bilməkdir. Məktəbə getməyib, elə uşaqlıqdan qoyun-quzu saxlamaqla məşğul olub. İndi təhsil alır, bir il sonra Ağaxan müəllimin yanına gedəcək".

***

V.Əbilov oğlunun əlaqə nömrəsini bizə verib, Qobustan qəsəbəsində onlarla görüşə biləcəyimizi deyir. Əhmədxanın baba evindən ayrılıb, ağızdolusu danışılan o bulağa gedirik. Yol boyunca söhbətləşdiyimiz kənd sakinləri deyirlər ki, Şıxzərlinin ağır sosial problemləri var. Kənddə qaz, su yoxdur, işıq daimi olmur.

Bu səbəbdən xeyli sayda insan köç edib, şəhərin əsasən Qobustan, Müşviqabad qəsəbələrinə yerləşiblər. Kənddə bir məktəb var.

Burada uşaqların əsas problemi də məhz təhsildir. Məktəb 9 illikdir və qalan 2 ili başqa kənd məktəbinə gedirlər. Yaşayışın, şəraitin çətinliyi Şıxzərlidə böyük köç prosesinə səbəb olub. Bununla belə, kənddə qalıb, buranı tərk etməyən də az deyil.

Bulağa gəlincə, su ehtiyacına görə burada bir dəqiqə boşluq olmur. Qadınlar saatlarla növbədə dayanıb, səhənglərini içməli su ilə doldurmağı gözləyirlər. Sakinlər deyirlər ki, bir neçə il əvvəl baş verən zəlzələdən sonra torpaq çöküb, bulaq aşağı gedib deyə su zəif gəlir.

Ancaq alternativ olmadığı üçün çarə tək bu bulağa qalıb. Bu bulağı Tərxan Dadaşov və Mirzəbaba Alimov adlı ustalar bərpa ediblər. Onların adlarının baş hərfləri qeyd olunub çəkən. Bulağın bərpa işinin xərcini isə xanəndə Zabit Nəbizadənin atası olub.

Suyunu içib, zil səsli oxuyan yetişdirən bulaq da məhz budur. Həmkarım Elşən də bulağın suyundan içəndən sonra, Qədirin səsini andıran balaca Əhmədxanın dalınca Qobustan qəsəbəsinə yola düşürük. Bələdçimiz Orxan isə xahişimizlə bir ağız muğam oxuyur...

(Ardı var)

"Yeni Müsavat"ın
Reportyor Qrupu
Qobustan, Şıxzərli kəndi

# Kim daha çox M(m)aral?



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Azərbaycanda son illər hər şeyin "kitayski"si dəbə minir. Qəzetçisi, siyasətçisi, müğənnisi... bayağılaşa-bayağılaşa gedir. Əslindən, normalından minlərlə kilometr uzaqlıqda, ondan xəbəri belə olmayan yeni nəsnələr, yeni kserosurətlər. Kserosurətlər, amma daha keyfiyyətsiz versiyaları. Siyasətçi adına komediya ustaları meydana çıxır, sənətçi adına hoqqabazlar, qəzetçi adına bir statusda 10 səhv buraxan bisavad ordusu...**

Sonuncular sayəsində ötən bir həftəmiz bir manısın həndəvərində keçdi. Özünü səsi ən gur müğənni sayan birisini nəyi var reklam etdilər. Öz aləmlərində doladılar, məsxərəyə qoydular, aşağılayıcı suallar verdilər, amma sonucda reklam etdilər də. Soruşsan, akademik izahatları hazır idi: oxucu tələb edir, bizim işimiz budur... Harda ölçülüb bu tələbat sorğusu? Zəhmətkeş zənglərini, məktublarını nə zaman alıblar, bəlli deyil...

Kim deyir ki, saytların bütün xəbərləri, qəzetlərin bütün səhifələri ölkədəki problemlərlə bağlı yazılardan ibarət olmalıdır? Kim iddia edir ki, şou-biznes xəbərləri və ya müğənni müsahibələrinin kökü mətbuatdan kəsilməlidir? Yaxşı hesab edək ki, ölkədəki haqsızlıq, ədalətsizlik, paçka-paçka tutulan insanlardan yaza bilmirsiz. İstəsəz də, vicdanınız sızlasa da, bunu yazmağa icazə vermirlər. İçiniz qan ağlaya-ağlaya bu mövzuların üstündən keçirsiz. Bəs şou-biznesdəki çirkabdan, mafiyadan, "mətbəx"dəki korrupsiyalardan niyə yazmırsız? Axı bu ölkədəki rəzilliyin kökü həm də ordan başlanır. Hər gün ekranlardan evimizə soxulur damcı-damcı. Uşaqlarınız onlara baxır, gənc qızlar özlərini onlara oxşadır, yaxşı yaşamağın, firavan həyatın açarını onlar kimi olmaqda görür. Bundan böyük təhlükə varmı? Siz gününüzü dolanışıq dərdində, iş yerində keçirərkən uşaqlarınıza onlar "analıq-atalıq" edir, həyat dərsi keçir efirdən. Pulu ilahi bir qüvvə, abırsızlığı norma kimi təqdim edirlər camaata. Bunun qananı var, qanmayanı var, dərk edib nəticə çıxaranı var, çıxarmayanı var...

Yenə də təkrar edirəm. Özündən deyən televiziyalarda müğənni "raskrutka"sının məbləğini, sponsorsuz üzə çıxmanın qeyri-mümkünlüyü, mötəbər yerlərdə konsert verə bilmək üçün hansı atişləməz yollardan keçmək lazım gəldiyini bilə-bilə... Maral adlı müğənnini gülüş hədəfinə çevirməyin məntiqi nədir? Axı bu tabloda siz Maraldan daha pis və rəzil gündə görünürsüz. Və rışxənd hədəfinə çevirdiyiniz o manıs sizdən daha ağıllı pozisiyadadır. Ən azı ona görə ki, o, sizdən istifadə edir, siz ondan yox. Necə deyərlər, kim daha Maral? Kim daha çox Maral?

Eşşəyə gücü çatmayıb palan döyəcləyənlərin məmləkətində bu tendensiya adidir əslində. Müəllimlər İnstitutunun işçisi rüşvət alanda üstünə düşən Antikorrupsiya İdarəsinin əməkdaşları yadınızda? Adam qorxusundan pulu udmuşdu, sonra özünü pəncərədən atmaq istəmişdi-filan. Sanki o rüşvətin hansı ünvan(lar)a çatdırılacağından xəbərsizmişlər kimi... Keyfiyyətsiz binalar tikiləndə belə, yol polisi bir zənglə qayda pozanı buraxanda elə... Bunlar Azərbaycan adlı məmləkətin havasında, suyundadır. Ən balaca hələdən yapışmaq, onu vurmaq, elliklə onun üstünə şığımaq. Ondan bir pillə yuxarıya dil uzatmaq... olmaz. Restoranlarda ofisiantın, mağazada satıcının üstünə yerli-yersiz qışqıran azərbaycanlı tipajı yadınızda? Onlar müdiri tərəfindən hər saniyə, səbəbsiz aşağılanan şəxslərdir. Aqressiyalarını bu cür, özündən bir neçə pillə aşağıda dayanandan çıxırlar, çıxmağa çalışırlar.

Nəsə, Maral amanatı... Bu ölkədə bir gün hamının Maral olma ehtimalı var.

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014

**Bu gün sentyabrın 15-i, ilk dərs günüdür. Valideynlər baha qiymətə də olsa, övladlarını müəyyən qədər məktəb ləvazimatı ilə təmin edib məktəbə yola salıblar. Yeni tədris ilinə şagirdlər və tələbələr, deməli olar ki, hazırdırlar. Bəs dərs ilinə hazır olan məktəbliləri və tələbələri qarşılayacaq məktəb, universitet binaları necə?**

Qeyd edək ki, yeni tədris ilinə hazırlanan və ötən il təmirə bağlanan məktəblərin əksəriyyətində iş başa çatıb. Təmir olunan məktəblərin əksəriyyəti



# Bu gün yeni dərs ili başlayır

## Ölkə üzrə 139 mindən çox uşaq birinci sinfə gedəcək

paytaxtdadır. Ancaq bölgələrdəki kənd məktəbləri ilə bağlı eynisini demək mümkün deyil.

Məsələn, Balakənin Kortala kənd tam orta məktəbində vəziyyət ürək açan deyil. Zəlzələ səbəbindən məktəbə xeyli ziyan dəyib. Məktəb çöldən təmir edilsə də içərisi təmirsiz və bərbad vəziyyətdədir. Ağcabədinin Poladlı kənd məktəbi də uçuq-sökük vəziyyətdədir. Azərbaycanın bölgələrində və kəndlərində bu kimi təmirə ehtiyacı olan məktəblər kifayət qədərdir.

Məktəb və universitetlərin ümumi durumu, bu il məktəbə gedəcək şagirdlərin sayı haqqında daha dəqiq məlumat öyrənmək üçün Təhsil Nazirliyinə müraciət etdik. Nazirliyin sorğumuza yazılı şəkildə göndərdiyi cavabda bu il birinci sinfə 139 mindən çox uşağın gedəcəyi deyilir: "Cari ildə bakalavriat səviyyəsinin 138 ixtisası üzrə təhsil proqramları hazırlanıb və Azərbaycan Respublikası təhsil nazirinin 22.08.2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq olunub. Bakalavriat səviyyəsinin ixtisasları üzrə təhsil proqramlarına əsasən ali təhsil müəssisələri tərəfindən yeni nəsil tədris planları və həmin tədris planlarına daxil olan yeni fənlər üzrə müvafiq proqramlar hazırlanıb. Bununla yanaşı, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşəbbüsü ilə 2014/2015-ci tədris ilindən başlayaraq müəllim hazırlığı aparılan ali təhsil müəssisələrində IV kurs tələbələri üçün VII semestrdə "Ümumi təhsilin kurikulumunun əsasları" adlı fənnin tədris olunması qərara alınıb. Bu məqsədlə cari ilin iyul ayında pedaqoji kadr hazırlığı aparılan ali təhsil müəssisələrində müəllimlərə həmin fənnin tədrisi ilə bağlı treninqlər keçirilib və müvafiq sertifikat verilib. Sertifikat almış müəllimlər işlədikləri ali təhsil müəssisələrində "Ümumi təhsilin kurikulumunun əsasları" fənnini tədris etmək hüququ qazanıblar. Müəllim hazırlığı aparılan ali təhsil müəssisələrində pedaqoji ixtisaslar üzrə təhsil alan IV kurs tələbələri üçün cari semestrdə "Ümumi təhsilin kurikulumunun əsasları" fənninin tədrisinə 60 saat həcmində vaxt ayrılıb və müvafiq fənn proqramı hazırlanıb. Cari tədris ilindən həmin proqram əsasında sertifikat almış müəllimlər tərəfindən "Ümumi təhsilin kurikulumunun əsasları" fənninin tədrisinə başlanacaqdır. Ölkəmizin ümumi təhsil müəssisələrində isə yeni tədris ilinə hazırlıq işləri aparılır və artıq bu işlər başa çatmaq üzrədir. Bu tədris ilində Azərbaycanda 139 min nəfərdən çox uşağın birinci sinfə gedəcəyi proqnozlaşdırılır".

❑ Günel MANAFLI

**Elan**

**Hacıqabulda ipək yolunun yanında 47 hektar torpaq sahəsi, çobanlar üçün 2- ədəd -2 otaqlı , 1ədəd- 4 otaqlı qonaq evi, 3 hektar meyvə bağı, 200 ədəd mal-qara saxlamaq üçün daşdan tikilmiş tövlələr, 10 min ot bagı üçün yem anbarı, 2ədəd balıq gölü, daimi işıgı, suyu. Qaz çəkdirmək üçün sənədlər ( texnikişərt), 0,5 hektar torpaq sahəsi olan restoran, 30 metr üzüm talvarı olan ferma satılır. Ətrafında əlavə 100-150 hektar torpaq sahəsi var.**

**Əlaqə nömrəsi : (050)-214-40-53**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**







**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

# İsmayıllı məhbusunun atası ondan pul istənilmədiyini deyir

## Ədalət İbrahimov: "Redaksiyanıza ünvanlanan həmin məktubu mənim adamıdan yazıblar"




**Qəzetimizin 28 avqust 2014-cü il tarixli sayında "İsmayıllı məhbusunun atasından 1700 manat istəyirlər" sərlövhəli yazı dərc edilib. Həmin yazıda İsmayıllı hadisələrinə görə həbs olunmuş, hazırda dustaq həyatı yaşayan Vasif Ədalət oğlu İbrahimova məxsus mağazanın qarşısının asfaltlanması üçün atası Ədalət İbrahimovdan keçmiş icra başçısı Nizami Ələkbərovun ən sevimli kadrlarından biri olmuş İsmayıllı şəhərinin meri Məhərrəm Əhmədovun 1700 manat pul istədiyi qeyd olunurdu.**

Bununla bağlı redaksiyamıza məktub göndərən Ədalət İbrahimov adından yazılanların həqiqət olmadığını qeyd edib: "Redaksiyanıza ünvanlanan həmin məktubu mənim adamıdan yazıblar. Məndən asfalt çəkməyə görə pul istəyən olmayıb". Ə.İbrahimov oğlunun günahsız olduğunu da bildirib.

Qeyd edək ki, redaksiyamıza ünvanlanan məktubda hazırda həbsdə olan V.İbrahimovla keçmiş icra başçısı Nizami Ələkbərovun konfliktdə olduğu bildirilirdi.

Həmin məktubdan sitat: "Vasif İbrahimov həbs edilənədək fərdi sahibkarlıq fəaliyyəti göstərib. İsmayıllı hadisələrinədək keçmiş icra başçısı Nizami Ələkbərovla kəskin konfliktdə olub. Belə ki, fəaliyyətini qanunlara uyğun təşkil etmiş Vasif İbrahimov yerli hakimiyyətin haqsız tələblərinə rədd cavabı verib. Bunun nəticəsi olaraq N.Ələkbərov qeyri-formal şəkildə rayonun arxitektoru kimi işlətdiyi bacanağı Mirələsgər adlı şəxslə birləşərək onun dükanını qanunsuz sökdürüb. Bu hadisə 2008-ci ildə baş verib. Ondan tələb ediblər ki, yolların genişləndirilməsi ilə əlaqədar dükan yoldan ən azı 30 metr aralıda olmalıdır. Halbuki Vasif İbrahimovun dükanını sökdürəndən sonra elə həmin küçədə, düz yola bitişik çoxlu sayda sahibkarlıq obyektlərinin tikintisinə icazə veriblər. Bu haqsızlıqla barışmayan Vasif İbrahimov pozulmuş hüquqlarının bərpası uğrunda mübarizəyə başlayıb. Bundan hiddətlənən Nizami Ələkbərov V.İbrahimovun başqa yerdə yerləşən daha bir neçə obyektini sökdürüb. Beləliklə, icra başçısı-sahibkar qarşıdurması daha da dərinləşib. Sözsüz ki, hüququn işləmədiyi bir məmləkətdə yalnız öz bacarığına güvənən arxasız sahibkar qardaşı nazir postu tutan Nizami Ələkbərov kimi arxalı məmura heç nə edə bilməzdi. Beləliklə, bu qarşıdurma, şikayətlər İsmayıllı hadisələrinədək davam edir. Bu hadisə Nizami Ələkbərov üçün əzəli düşmənindən birdəfəlik qurtarmaq üçün əla imkan yaradır və təbii ki, o, belə gözəl fürsəti qaçıra bilməzdi. Bununla da Vasif İbrahimovun adı İsmayıllı hadisələri "cinayətkarlarının" siyahısına düşür. Artıq 2 ilə yaxındır ki, V.İbrahimov haqsız yerə zindanda yatır".

❑ E.MƏMMƏDƏLİYEV



# 3 milyon əvəzinə...

## Tahir Qocayev mülkiyyət hüququnun pozulmasından şikayətçidir

**Xətai rayonu, Xəqani Rüstəmov küçəsi, 12/10 ünvandan redaksiyamıza şikayət gəlib. Şikayətçi Tahir Qocayev deyir ki, 12.5 sot ərazi onun şəxsi mülkiyyətdir: "Hazırkı bazar qiymətilə bura satışa çıxarılsa, 3 milyon manat dəyəri var. Amma 2012-ci ildən məni cəncələ salıblar. Dedilər ki, sənin bu mülkün "Ağ şəhər" layihəsində yola düşür deyə söküləcəkdir. Nə etmək olar? Dövlətlə dövlətlik edəsi deyilik ki. Əvvəl bu işi "Azəryolservis"ə vermişdilər.**

Gəlib ölçüb-biçib bura biabırçı qiymət təyin etdilər -189.840 manat. Mən də, təbii, bu qiymətlə razılaşmadım. Bu işlər "Azəryolservis"dən Xətai Rayon İcra Hakimiyyətinə veriləndən isə vəziyyət lap bərbad oldu. Sentyabrın 9-u mən hüzrdə idim. Bir də qonşular mənə zəng vurdu ki: "Tahir, yerin uçub. Gəl gör niyə uçub". Tələm-tələsik gəldim, gördüm binanın bir hissəsi uçurulub. 3 seyf qapım oğurlanıb, başqa nə qədər materiallar oğurlanıb. Vəziyyətlə bağlı Xətai rayon İcra Hakimiyyətinin şöbə müdiri Zaməddin müəllimin yanına getdim. Dedim, məndən sənəd istəmisiz, bildirmişdiniz ki, sökülməmişdən öncə sizə xəbər veriləcək, ərazinizin qiyməti yenidən müəyyənləşəcək. Amma görürəm mülkiyyətim sökülüb. Kim söküb? Dedi bilmirəm. Mən də dedim ki, mənimlə küçə adamı kimi danışma. Mən bu ölkənin vətəndaşıyam, mülkiyyət hüququm var. Necə yəni xəbərim yoxdur. Prezident bilsə, sən ona nə cavab verəcəksən?"

İndi nagüman qalmışam. Prezidentə, Bakı şəhər İcra Hakimiyyətinə teleqram vurmuşam. Hələ heç bir cavab yoxdur. 102-yə zəng vurmuşam. Polis də deyir gəl izahat yaz. Mən nə izahat yazım? Gəlsinlər əmlakımı kim bu günə qoyub araşdırsınlar".

T.Qocayev vaxtilə sex kimi fəaliyyət göstərmiş böyük tikili üçün müəyyən edilmiş məbləğin çox az olduğunu və məhkəməyə şikayət etdiyini dedi.

❑ Fəridə ABDIYEVA

YENİ MÜSAVAT
N 230 (5939) 15 sentyabr 2014

**Azərbaycanda bir dönəm ictimai fəalları cəzalandırmanın məşhur üsulundan - ictimai işlərdən istifadə edirdilər. Məsələn, hakimiyyətin "gözünə ala-bula" görünən siyasətçi, jurnalist hansısa icazəsiz aksiyada iştirak etmişdisə, pul cəzası əvəzinə onu ictimai işlə cəzalandırırdılar. Sonradan bu tendensiya yığışdırıldı, əvəzini cərimələrə, az sonra isə həbslərə verdi. Artıq adına Azərbaycan deyilən ölkədə heç kimi bu növ cəzalara məhkum etmirlər. Halbuki, sivil dünyada insanların hansısa cəzasının bu formada əvəzlənməsi forması mövcuddur.**



# Dünyanın ən maraqlı inzibati cəza növləri

## İctimai iş barədə bilmədiklərimiz; Azərbaycanda bunu təhqir, xaricdə isə islah hesab edirlər...



**Bizim qanun və ictimai iş anlayışı**

Azərbaycan qanunlarına baxsaq, bizdə də ictimai işlərlə bağlı qanunvercilik var. Qanun insanların bu növ fəaliyyətə cəlb edilməsini mümkün edir. Bu məsələ Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 may tarixli, 84 nömrəli qərarı ilə təsdiq edilmiş "Haqqı ödənilən ictimai işlərin təşkili Qaydaları" ilə tənzimlənir. Öncə ondan başlayaq ki, ictimai işlər yerli icra hakimiyyəti və özünüidarəetmə orqanları tərəfindən şəhər, rayon məşğulluq mərkəzlərinin təklifi və iştirakı ilə təşkil olunur.

Sözügedən qanuna əsasən, işaxtaranların müvəqqəti işlə təmin olunmasına kömək göstərilməsi məqsədi ilə əmək bazarında işçi qüvvəsinə olan tələb və təklifin proqnozu əsasında şəhər, rayon məşğulluq mərkəzləri ictimai işlərin görülməsi üçün sosial əhəmiyyətli sahələr, mülkiyyət və təsərrüfat formasından asılı olmayaraq konkret müəssisə, idarə və təşkilatlar (bundan sonra - müəssisələr) haqqında təkliflər hazırlayır və yerli əlaqələndirmə komitələrində müzakirə edildikdən sonra ərazi məşğulluq proqramına daxil edilir.

Ərazi məşğulluq proqramı yerli icra hakimiyyəti orqanları tərəfindən hər il üçün təsdiq edilir. Bundan başqa, ictimai işlər ərazi məşğulluq proqramında nəzərdə tutulan müəssisə və şəhər, rayon məşğulluq mərkəzləri arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Müqavilədə ictimai işlərə göndəriləcək işaxtaran vətəndaşların sayı, görüləcək işin yeri, adı, həcmi, yerinə yetirilmə müddəti, ümumi əmək haqqı məbləği, bu məbləğin ödənilməsinin müəssisə və şəhər, rayon məşğulluq mərkəzi arasında bölgüsü, habelə tərəflərin digər öhdəlikləri göstərilir. Ərazi məşğulluq proqramında nəzərdə tutulmayan müəssisələrdə ictimai işlər yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarının qərarı ilə təşkil edilə bilər.

Keçək ictimai işlərin növünə. Bunların arasında şəhər, rayon ərazisinin, küçə, park və meydanların abadlaşdırılması, yaşayış əraziləri, xəstəxana, məktəb, məktəbəqədər uşaq müəssisələri, yataqxana və pansionatlar, qocalar və əlillər üçün internat evləri, habelə sosial sferanın digər obyektlərində tikinti və təmir işləri, yol və körpülərin, istilik və qazanxana sistemlərinin təmiri və tikintisi, kənd təsərrüfatı müəssisələrinə kömək göstərilməsi ilə əlaqədar işlər, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması işləri, qocalara, əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara qulluq, eləcə də digər sosial əhəmiyyətli işlər daxildir.

**Amerikada insanlar çox vaxt pul ödəmək əvəzinə ictimai iş görürlər**

Amma dediyimiz kimi, ictimai iş çox vaxt cəza növü olaraq tətbiq edilir. Dünyada ictimai iş cəzası ilə bağlı bir-birindən ilginc nümunələr var. Amerikada sıradan insanlar tez-tez bu cəza növü ilə qarşılaşır. Səbəb bəzən tragikomik, bəzən isə kifayət qədər ciddi olur.

Məsələn, 47 yaşlı Amerika sakini Canet Kleyson 2011-ci ildə məktəb avtobusunun hərəkətinə mane olduğu, sürücünü mənəvi terrora məruz qoyduğu üçün həmin məhkəməyə verilmiş və məhz sözügedən avtobusdakı şagirdlərin oxuduğu məktəbin həyətini 1 həftə boyunca süpürmək cəzasına məhkum edilmişdi. Məhkəmə bu cəza növünü məktəblilərə yol hərəkət qaydalarının əhəmiyyətini anlatmaq üçün tətbiq etmişdi.

Amerika ştatlarında küçələr xüsusi küçə təmizləyən maşınlarla təmizlənsə də, bəzən ictimai cəza növü kimi bəzi ştatlarda küçə təmizlətdirilməsindən istifadə edilir. Pul cəzalarını ödəyə bilməyənlər bunun ictimai işlə (uşaqlar və qocalar evində könüllü xidmət, dövlət idarələrində hansısa pulsuz xidmət) əvəzlənməsini xahiş edirlər.

**Biri cəza olaraq küçə süpürür, o biri təbliğat üçün...**

Sosyetik gözəl Paris Hilton da bir neçə dəfə küçə süpürmə cəzasına məhkum edilib. Mərhum müğənni Uitni Hyustonun həyatında da belə səhifələr az olmayıb.

Türkiyədə isə müğənnilər daha çox sosial aksiya - küçələrin təmizliyi təbliğatı üçün əllərinə süpürgə alıblar. Müğənni Sinan Özen, Selami Şahin, Emel Sayın bir neçə dəfə əllərində süpürgələrlə xalq arasına çıxıb və "hər kəs öz evinin qabağını təmiz saxlasa, İstanbul gözəlləşər" mesajı verməyə çalışıblar.

**Bu adam kefindən ictimai işlə məşğul olur...**

Ən gülməlisi isə süpürgəçiliyi xobbi kimi görənlərdir. Məsələn, Tyu Yujen adlı yaşlı qadın hər gün işə getməyə məcbur deyil. Çünki onun daşınmaz əmlaka vaxtında investisiya qoyması onu şəhərin milyonçularından biri edib. Lakin pullar qadının düşüncə tərzini korlamayıb. Çinli bu qadın hər gün səhər saat 3-dən duraraq işə gedir və maraqlısı odur ki, o küçələri süpürməklə məşğul olur.

Gördüyü işin müqabilində o hər ay 220 dollar pul qazanır. Onun bu işlə işləməsinin əsas səbəbi isə öz övladlarına işləməyin necə vacib olduğunu göstərməkdir. Yeri gəlmişkən, Yunun uşaqları da çalışqandır. Son 14 il ərzində Yu bir dəfə də olsun işə gecikməyib. Yalnız bircə dəfə anasının dəfn mərasiminə qatılmaqçün 3 günlük icazə alıb.

**Nazir oğlu və keçmiş baş nazir ictimai işlə cəzalandırılıb**

Bəzən ictimai iş cəzası vəzifəlilərdən də yan keçmir. Məsələn, ABŞ-ın müdafiə naziri olmuş Çak Hegelin 20 yaşlı oğlu Ziller Hegelin məhkəməsi keçirilib. Narkotik maddələri gizlətməkdə ittiham olunan nazir övladı prokurorluğun 100 saatlıq ictimai iş cəzası ilə razılaşıb. Bu işin növü tam açıqlanmasa da, sonradan mətbuat onun küçə süpürmə cəzası olduğunu dəqiqləşdirib. Qeyd edək ki, Virciniya ştatının Ferfaks rayon məhkəməsində keçirilən prosesdə Ziller Hegelin üzərindən ittiham götürülüb. Müdafiə naziri isə oğlunun məhkəmə prosesində iştirak etməyib.

Bu ilin aprel ayında İtaliya məhkəməsində keçmiş baş nazir Silvio Berluskoni üçün ictimai-faydalı iş cəzası kəsilib. Milan məhkəməsi İtaliyanın keçmiş baş nazirini vergi fırıldağına görə 1 il müddətinə ictimai-faydalı iş görməyə məhkum edib. Berluskoni rəhbərlik etdiyi Mediaset şirkətinin televiziya yayımı hüquqlarını aldığı zaman yol verilmiş maliyyə fırıldağına görə ittiham olunub.

İctimai-faydalı işin alternativi ev dustaqlığı olub. Milan məhkəməsinin çıxardığı qərar çərçivəsində Silvio Berluskoninin hansı işlərə cəlb olunacağı hələlik aydın deyil. İtaliya keçmiş baş nazirinin adı bir sıra qalmaqallı məhkəmə çəkişmələrində hallanıb.

**Müğənniyə ictimai iş verildi, dedi pulsuz konsert verəcəm...**

Amma Azərbaycanda ictimai iş cəzası deyəsən ancaq müxaliflərin payına düşür. Məsələn, bir neçə il əvvəl "El içində" verilişində jurnalist Vüqar Kamiloğluna yumruq zərbəsi endirib hüquq-mühafizə orqanlarının ittihamına tuş gələn müğənni Vasif Məhərrəmli məhkəmənin qərarı ilə 200 saat ictimai işlə cəzalandırılsa da, buna əməl etməyib.

Məhkəmə hökmündən sonra müğənni efirlərdə daha tez-tez görünməyə başlayıb. O, hətta əməliyyat stoluna çıxmasını da lentə aldırıb efirlərə ötürüb. Bundan başqa, müğənni toy sifarişçilərinə efirdən mesaj ünvanlamağı da unutmur: "Məni öz toyunda görmək istəyənlər elə hesab etməsin ki, burun-boğazımda aparılan əməliyyata görə toylarda oxumaqdan imtina edəcəm. Əslə. Pərəstişkarlarımın nəzərinə çatdırıram ki, məhərrəmlikdən sonra mən bütün toy sifarişlərini yerinə yetirəcəyim".

Müğənninin mətbuat katibinin bildirdiyinə görə, Məhərrəmli məhkəmənin çıxardığı qərarla razıdır. Lakin o, müğənninin küçə süpürmək, başqa bu cür xidmətçiliklə məşğul olmaq niyyətində olmadığını dedi: "Vasif Məhərrəmli nə küçə süpürəcək, nə də xidmətçilik edəcək. Sadəcə, o, pulsuz konsertlər verəcək, heç bir maddi gəlir güdmədən ictimai işdə çalışacaq".

**Xaricdə süpürgəçi ayda 2500 avro məvacib alır**

Bu arada mühacir jurnalist Elbəyi Həsənli də İsveçrədə küçə süpürüb. Amma bu, onun işidir. Jurnalist dəfələrlə verdiyi müsahibələrində deyib ki, işindən razıdır: "Mən ən azı vicdan əzabı çəkmirəm. Yəni vətənimi, millətimi bu iqtidara satmadım. Önəmlisi elə budur". E.Həsənli bizə verdiyi son müsahibəsində isə demişdi ki, İsveçrədə olduğu zaman bir il sosial bir işdə çalışıb: "Orda da gündə 6 saat işləyirdim. Aldığım məvacib isə bələdiyyənin verdiyi puldan 300 manat artıq idi. Evdə bekarçılıqdan, darıxmamaq üçün işlədim. İsveçrədə düşünürlər ki, insan işləmirsə, dəyəri yoxdur. Bu da insanda psixoloji problem yaradır. Qürbətdə olanda gördüm ki, belədir. Ondan sonra 1 il müddətində çox yerdə işlədim - küçə süpürməkdən, tualet təmizləməyə qədər. İsveçrədə bu, qəbahət deyil. Nazir, ya süpürgəçi, əsas odur ki, çalışasan. Üstəlik, orda maaşlar da çox yüksəkdir. 3200-3500 frank. Bu, təxminən 2500 avro maaş deməkdir. Almaniyadan ixtisaslı adamlar gəlirlər. Çalışırlar ki, İsveçrədə süpürgəçi də olsa, işə düzəlsinlər. Çünki İsveçrədə məvacib Almaniyadakından artıqdır".

1918-ci ildə ruslar Azərbaycanı işğal edəndə iki generalımıza - Səməd bəy Mehmandarova və Əlağa Şıxlınskiyə indiki İstiqlaliyyət küçələrini süpürtdürüblər. 2003-cü ildə seçkidən sonra bəzi rayonlarda yerli müxalifətçiləri sındırmaq və alçaltmaq üçün onlara küçə süpürtdürmüşdülər.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 230 (5939) 15 sentyabr 2014

# 61,2 milyon avro qazandı



Avropada 14 ölkənin loto idarəsinin birgə təşkil etdiyi "Eurojackpot"da uduşa qoyulan 61,2 milyon avro Finlandiyaya gedib. Helsinkidə keçirilən oyunun sonunda 2, 9, 17, 25 və 29 rəqəmləri yazılan biletin sahibi milyoner olub. Lotereyada bu günədək qazanılan ən çox pulun sahibinin kimliyi bəlli deyil. Məlumat üçün bildirək ki, aprel ayında da həmin lotonu finlandiyalı bir kişi qazanmışdı. O, 57,3 milyon avronun sahibi olmuşdu.



## Səddam Hüseynin dünyanı heyrətə salan nəvəsi

ABŞ-ın və dünyanın ən nüfuzlu nəşrlərindən biri "The New York Times" qəzeti "XXI əsrin ən cəsur və qorxmaz oğlanı"nı seçib. Həmin oğlan İraqda yaşayan Mustafa Səddam Hüseyndir. İraqın keçmiş prezidenti Səddam Hüseynin 14 yaşlı nəvəsi amerikalı kommandosların Şeyx Nəffaf Zeydanın malikanəsinə hücumu zamanı onlara qarşı vuruşub. Həmin anda Mustafa Səddam evdə sağ qalmış yeganə şəxs idi. Səddamın yanında atası Kusay, əmisi Uday və onların mühafizəçisi Əbdel Səmədin cəsədləri vardı. Əməliyyatda iştirak etmiş amerikalı hərbçilərin dediklərinə görə, onlar evə girəndə Mustafa Hüseyn "qonaq"ları atəşlə qarşılayıb. 400 amerikalı komandos evi mühasirəyə alıbmış. Mustafanın atası və əmisi gözünün qarşısında öldürüləndən sonra yeniyetmə 40 dəqiqə atışıb və snayper tüfəngindən 14 amerikalı dəniz piyadasını öldürüb. Bundan sonra Səddam Hüseynin nəvəsi ilə amerikalı kommandosların döyüşü 6 saat davam edib. Amerikalılar sonda 14 yaşlı yeniyetməni qətlə yetirəndə saatlar ərzində bir oğlanla atışdıqlarına inana bilməyiblər. "New York Times"ın reportyoru Robert Eysk yazır: "Əgər bizdə belə bir oğlan olsaydı, ona hər şəhərdə heykəl ucaldardıq. Onun cəsarətindən hər yerdə danışardıq və o, böyüyən nəslə örnək olardı". Səddam Hüseynin nəvəsi barədə Avropa və Asiya mediası da çoxsaylı yazılar, şərhlər dərc edib.

# İki ildir qaçır



Hələ 11 yaşı olsa da, təkbaşına 40 min dollar qazanıb. Amerikalı Nikolas Toçek iki ildir dünyanın bütün qitələrində marafon qaçışlarında iştirak edir. Yardıma ehtiyacı olan uşaqlar üçün marafon qaçan Nikolas qazandığı pulları "Operation Varm" adlı yardım təşkilatına bağışlayır. Babası tərəfindən qurulan xeyriyyə təşkilatına bu günə qədər 40 min dollar bağışlayan gənc idmançı minlərlə uşağa kömək edib. Hələ 6-cı sinifdə oxuyan Nikolas yardım üçün çox böyüməyə ehtiyacı olmadığını deyir. Onun ən böyük hədəfi 1 milyon dollar həcmində yardım toplamaqdır.

## "Viber"də videozəng dövrü

Android və iOS platformaları üçün "Viber" messencerinin beşinci versiyasının təqdimatı olub. Hazırda populyar messencerdə mobil qurğular üçün videozəng dəstəyi reallaşdırılıb. Tərtibatçılar bildirib ki, videosiqnalın qəbulu və ötürülməsi üçün hətta zəif internet-qoşulma kifayətdir, amma bu halda keyfiyyətli təsvir gözləmək lazım deyil. Videozəng funksiyası həm kompüter, həm də mobil qurğularda əlçatan olub - "Viber"in baş direktoru Talmon Marko deyib. Proqramın yeni versiyasında interfeys və kontaktların idarəsi sistemi dəyişib. Android və kompüter istifadəçiləri təkmilləşdirilmiş dizaynı görəcəklər.

## Beyninin yarısı olmasa da, yaşayır



Çində baş ağrısı şikayəti ilə həkimə gedən 24 yaşlı qadının beyninin yarısının olmadığı məlum olub. Beynin olmayan hissəsinin beyin-onurğa iliyi ilə dolu olduğu deyilib. Alimlər belə insanların beyinləri üzərində araşdırma apararaq yaşamağın necə mümkün olduğunu araşdırırlar. Çinli qadın dünyada beyninin yarısı olmadan yaşayan bilən 9 nəfərdən biridir.




QOÇ - Ulduzların düzümü əsasən səhhətinizə fikir verməyi məsləhət görür. Bunun üçün ilk növbədə əsəblərinizi qorumalı, hər dedi-qoduya fikir verməməlisiniz. Əsas vaxtınızı evdə keçirin.

BUĞA - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhət görülür. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Nəzərə alın ki, bu, sizə hədsiz savab qazandıra bilər.

ƏKİZLƏR - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.

XƏRÇƏNG - Kollektiv gəzintilərə çıxmaq üçün əlverişli tarixdir. Buna əməl etməklə sürprizlərlə rastlaşacaqsınız. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz.

ŞİR - Saat 12-yə qədər hansısa ciddi işlərə girişməyin. Əks təqdirdə xoşagəlməz situasiyalarla rastlaşacaqsınız. Nahardan sonra nüfuzlu şəxslərlə görüşləriniz sizə səmərə verəcək.

QIZ - Qəlbinizin məhəbbət guşəsinə baş vurmağınızı təvəqqe edən ulduzlar əsas gücünüzü sevgiyə yönəltməyi məsləhət görür. Dardüşüncəli insanlara əhəmiyyətsiz yanaşın. Gələcəyə ümidlə baxın.

TƏRƏZİ - Maliyyə baxımından düşərli gün olsa da, ümumi ovqatınızda gərginlik mümkündür. Lakin bu amil işgüzar sövdələşmələrdə və qərarlar qəbul etməkdə sizə mane olmayacaq.

ƏQRƏB - Yaxşı olar ki, əsas vaxtınızı ev şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Büdcənizdə isə artım gözlənilir.

OXATAN - Ümumi məziyyətlərinə görə, uğurlu gün hesab etmək olar. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Yeni xəbər eşidəcəyiniz də mümkündür.

OĞLAQ - İş yerində həmkarlarınızla müəyyən mübahisələriniz gözlənilir. Odur ki, özünüzü qalmaqallara istiqamətləndirməyin. Saat 16-dan sonra şəxsi işlərinizdə dönüş yarana bilər.

SUTÖKƏN - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.

BALIQLAR - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki yaxın günlərdə bu istiqamətdə uğurlarınız artacaq. Konkret olaraq bu günsə yalnız gördəcəyiniz işləri konkretləşdirməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 81 yaşlı milyarder 5-ci dəfə evləndi



Tanınmış milyarder Riçard Luqner "Playboy" modeli ilə evlənib. 81 yaşlı milyarder Riçard Luqner uzun müddətdir nişanlı olduğu 24 yaşlı Keti Şmitslə ailə qurub. Dünyanın ən böyük tikinti şirkətinin və alış-veriş mərkəzini sahibi olan Şönbrun sarayında evlilik mərasimi təşkil edib. Mərasimdə bir sıra tanınmışlar qonaq olublar. Beşinci dəfə evlənən iş adamı bu dəfə yaxşı bir ailəsi olacağını ümid edir. "Böyük bir yaş fərqini nəzərə almasaq, elə bir uyğunsuzluğumuz yoxdur. Tək qalmaq çətindir", - deyə "təzə bəy" bildirib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600